**Quliyev Cabir**
**Hümbətov Musa**
**Mustafayev Novruz**

# AZƏRBAYCAN RESPUBLİKASININ
# CƏZA-İCRA HÜQUQU
## DƏRS VƏSAİTİ

***Ədliyyə Akademiyasının Elmi Şurasının 8 iyul 2022-ci il tarixli 1 saylı iclas protokolu ilə nəşrə məsləhət görülmüşdür.***

**BAKI - 2022**

**Müəlliflər:**

**Cabir Məhəmməd oğlu Quliyev**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Musa Hümbət oğlu Hümbətov**
Ədliyyə Akademiyasının baş müəllimi

**Novruz İsa oğlu Mustafayev**
hüquqşünas

**Rəyçi:** **Səkinəxanım Nəhməd qızı Rzayeva**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Redaktorlar:** **Şəhla Tofiq qızı Səmədova**
BDU-nun Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor

**Elçin Abuzər oğlu Xələfov**
Ədliyyə Akademiyasının prorektoru,
hüquq üzrə fəlsəfə doktoru, dosent

**C.Quliyev, M.Hümbətov, N.Mustafayev. Azərbaycan Respublikasının cəza-icra hüququ. Dərs vəsaiti.** Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı, 2022, 576 s.

© C.Quliyev, M.Hümbətov,
N.Mustafayev, 2022
© "Hüquq Yayın Evi", 2022

# GİRİŞ

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpasından sonra ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasına uyğun olaraq aparılmış islahatlar nəticəsində ölkədə cəzaların icrası sahəsində beynəlxalq normaların tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılmış, yeni cəza-icra sistemi yaradılmış və onun gələcək inkişafı ilə əlaqədar uzunmüddətli perspektivlər müəyyən olunmuşdur. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəzaların icrası, cəza-icra sisteminin fəaliyyətinin müasirləşdirilməsi, onun infrastrukturunun yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, həbs olunmuş şəxslərin, məhkumların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, onların qanuni mənafelərinin təmin edilməsi, saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Görülmüş genişmiqyaslı tədbirlər sayəsində baş vermiş pozitiv dəyişikliklər, yəni məhkumların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkmələri üçün paytaxtda və regionlarda yeni penitensiar komplekslərin isifadəyə verilməsi, həmin müəssisələrdə cəzanın icrası, məhkumların islahı, onların cəmiyyətə reinteqrasiyası üçün zəruri infrastrukturun yaradılması, cəza-icra fəaliyyətində şəffaflığın təmin olunması, işçi heyətinin hüquqi statusunun müəyyən edilməsi və sosial müdafiəsinin möhkəmləndirilməsi islahatların nəzərəçarpan və təqdir edilən nəticələrindəndir. Eyni zamanda, cəzaların icrası sahəsində islahatların müasir dövrün tələblərinə, beynəlxalq qabaqcıl təcrübəyə uyğun davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasi Prezidenti cənab İlham Əliyev 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sə-

rəncam imzalamışdır. Uzun müddətə hesablanmış, hüquq mühafizə, o cümlədən cəzanı icra edən müəssisə və orqanlar üçün strateji hədəfləri özündə cəmləşdirən və "yol xəritəsi" rolunu oynayan bu vacib sənəddə bir daha cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulması və bu sahədə səmərəli idarəetmənin təşkilinin zəruriliyi vurğulanmışdır. Ölkə başçısı tərəfindən istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi, onların infrastrukturunun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin davam etdirilməsi vacib sayılmaqla, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmış, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi prosesində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi məqsədilə elektron nəzarət vasitələrinin tətbiqi məqsədəuyğun hesab edilmişdir.

Ölkə başçısının sözügedən sərəncamına uyğun olaraq ötən müddət ərzində kompleks tədbirlər görülmüş, cinayət qanunvericiliyi əsaslı şəkildə humanistləşdirilmiş, Milli Məclis, Nazirlər Kabineti tərəfindən cəzaların səmərəli icrasına yönəlmiş qanunlar və digər normativ hüquqi aktlar qəbul edilmiş, alternativ cəza – azadlığın məhdudlaşdırılması növündə cəza yeni məzmunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə qaytarılmış, həmin cəzanın icrası ilə əlaqədar Cəzaların İcrası Məcəlləsinə yeni fəsil, probasiya nəzarəti və elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri ilə bağlı normalar əlavə olunmuşdur. Qeyd olunan tədbirlər nəticəsində həbs qətimkan tədbirinin, habelə azadlıqdan məhrumetmə cəzasının tətbiqinə məhkəmələr tərəfindən daha diqqətlə yanaşılması ilə əlaqədar istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin və məhkumların sayı

müəyyən qədər azalmış, alternativ cəzaların icrasını təmin edən Ədliyyə Nazirliyinin Probasiya Xidməti fəaliyyətə başlamış, probasiya qeydiyyatında olan şəxslərin sayı ardıcıl olaraq artmış, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi zamanı elektron nəzarət vasitələrindən istifadə geniş vüsət almışdır.

Eyni zamanda, 2018-ci ilin oktyabrında Milli Məclis tərəfindən xüsusi müsadirə, habelə hüquqi şəxslərə tətbiq olunan cinayət-hüquqi tədbirlərin icrası qaydası müəyyən edilmiş və bununla əlaqədar Cəzaların İcrası Məcəlləsinə yeni bir bölmə və iki fəsil əlavə edilmişdir. Yuxarıda göstərilənlər, cəzaların icrası sisteminin fəaliyyətinin səmərəliyinin artırılması ilə bağlı nəzərəçarpacaq dəyişikliklər ölkəmizdə cəzaların icrası sahəsinə diqqətin və marağın artmasına səbəb olmuşdur. Son illərdə bu marağı ödəmək, hüquq mühafizə orqanlarının əməkdaşlarını, habelə ictimaiyyəti cəza-icra fəaliyyəti, onun nəticələri barədə məlumatlandırmaq məqsədi ilə Ədliyyə Nazirliyinin rəsmi məlumatları, habelə mətbuatda verilmiş müxtəlif səpkili çoxsaylı yazılarla yanaşı, ölkədə alimlərin və praktiki əməkdaşların cəza-icra hüququnun müxtəlif institutları ilə bağlı elmi araşdırmalarının nəticələrinə həsr olunmuş əsərləri dərc edilmiş, bir neçə dərslik, dərs vəsaiti və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin elmi-praktiki kommentariyası işıq üzü görmüşdür.

Təqdim olunan yeni "Azərbaycan Respublikasının cəza-icra hüququ" dərs vəsaiti yuxarıda qeyd olunan missiyanı davam etdirmək, hüquq mühafizə fəaliyyəti sahəsində çalışanlara, xüsusilə hüquq fakültələrində təhsil alan tələbələrə, cəza-icra sistemində xidmət edən əməkdaşlara qanunvericilikdə baş vermiş mütərəqqi dəyişikliklər, bu hüquq sahəsinin institutları, cəzaların icrası sahəsində son illərdə baş vermiş yeniliklər barədə ətraflı məlumat vermək məqsədi daşıyır.

Bu dərs vəsaiti hüquqşünaslıq ixtisası üzrə mütəxəssislər hazırlayan ali təhsil müəssisələrində tədris edilən “Cəza-icra hüququ” fənni üzrə tədris proqramları, habelə Cəzaların İcrası Məcəlləsində verilmiş ardıcıllıq nəzərə alınaraq iki hissəyə (Ümumi və Xüsusi) ayrılmış, mövzular üzrə qanunlara, digər normativ hüquqi aktlara, aidiyyəti ədəbiyyata, habelə son illərdə cəzaların icrası qanunvericiliyində, cəzaların icrası vəzifəsini həyata keçirən orqanların strukturunda baş vermiş təşkilati dəyişikliklərə, beynəlxalq aktların, xüsusilə 2015-ci ildə qəbul edilmiş BMT-nin yeni Məhkumlarla davranışın minimal standart qaydalarına (Nelson Mandela qaydaları), Avropa Penitensiar Qaydalarının sonuncu mətninə istinadən işlənib hazırlanmışdır. Eyni zamanda, müəlliflərin ayrılıqda, habelə birgə əməyinin nəticəsi kimi 1999-2021-ci illərdə işıq üzü görmüş cəza-icra hüququ ilə bağlı dərs vəsaitlərindən və bir neçə monoqrafiyadan da istifadə edilmişdir. Dərs vəsaitindəki materialların daha yaxşı mənimsənilməsi və yaddaşda saxlanması məqsədilə əlavədə hər bir mövzuya dair müvafiq sxemlər də verilmişdir. Düşünürük ki, dərs vəsaiti müsbət qəbul edilməklə, ondan istifadə edənlərə səmərəli vasitə rolunu oynayacaqdır.

***Müəlliflər***

# Ü M U M İ  H İ S S Ə

## Mövzu 1. Cəza-icra siyasəti, cəza-icra hüququnun anlayışı, predmeti, prinsipləri və metodu. Cəza-icra hüquq elmi

**Siyasət** – dövlətin hüquq sisteminin, qanunvericiliyin müxtəlif sahələrinin, onların fəaliyyətinin hüquqi forma və istiqamətlərinin əsasını təşkil edir. O, cəmiyyətin, siyasi və hakimiyyət strukturlarının qarşısında duran sosial məqsədlərə nail olunmasının prinsiplərini, strategiyasını, əsas istiqamətlərini və formalarını əks etdirir. Bu siyasətin məqsədləri ümumi şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsində təsbit edilmişdir: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır". Konstitusiyada təsbit olunmuş sosial siyasətin ümumi məqsədi onun həyata keçirilməsi üzrə dövlətin, səlahiyyətli dövlət orqanlarının fəaliyyətinin xarakterindən və istiqamətlərindən asılı olan mürəkkəb iyerarxiyaya malikdir.

Dövlətin siyasətinin qeyd edilən istiqamətlərdən biri – cinayətkarlığa qarşı mübarizə sahəsindəki siyasətdir. Bu siyasətdə cinayətkarlığa dövlət nəzarətinin vəzifələri, prinsipləri, strategiyası, əsas istiqamətləri, formaları və metodları əks olunmuşdur. O, Azərbaycan Respublikası vətəndaşlarının (həmçinin ölkəmizin ərazisində yaşayan və ya müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) mənafeyini ifadə etməli və onların hüquq və azadlıqlarının, qanuni mənafelərinin cinayətkar qəsdlərdən müdafiəsini təmin etməlidir. Konstitusiyaya əsasən insan, onun hüquq və azadlıqları ən ali dəyərdir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının tanınması, onlara əməl olunması və müdafiəsi – dövlətin vəzifəsidir. Bu barədə respublikamızın Kon-

stitusiyasının 12-ci və 26-cı maddələrində də birbaşa göstəriş var: “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir”; “Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir”.

Cinayətkarlığa qarşı mübarizə sahəsində siyasət dövlətin, onun nümayəndəli hakimiyyət orqanlarının və idarəetmə orqanlarının cinayətlərin və digər hüquq pozuntularının profilaktikası, onların törədilməsinin vaxtında qarşısının alınması, cinayət törətmiş şəxslərin məsuliyyətlərinin həyata keçirilməsi, məhkumlar barəsində cəzaların icrası və onların məqsədlərinə nail olunması üzrə fəaliyyətlərini istiqamətləndirir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində siyasət dövlətin daxili siyasətinin tərkib hissəsidir. Bu siyasət də öz növbəsində şərti olaraq cinayətkarlığın xəbərdarlığı sahəsində siyasətə, cinayət-hüquqi siyasətə və cəza-icra siyasətinə bölünür.

**Cəza-icra siyasəti cəzanın icrasının təmin edilməsi, məhkumların islah edilməsi, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayət əməllərinin törədilməsinin xəbərdarlığı üzrə dövlətin fəaliyyətinin məqsədlərini, prinsiplərini, strategiyasını, əsas istiqamətlərini, forma və metodlarını müəyyən edir.**

Cəza-icra siyasətini formalaşdıran subyektlər Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabinetidir.

Azərbaycan Respublikasının Milli Məclisi müvafiq qanunları, o cümlədən cinayət, cinayət-prossesual və cəzaların icrası qanunvericiliklərini, amnistiya aktlarını və s. qəbul edərək, cinayətkarlığa qarşı mübarizə məsələlərinə baxır və bununla da cəza-icra siyasətinin formalaşmasına təsir edir.

Azərbaycan Respublikasının Prezidenti dövlətin daxili siyasətinin əsas istiqamətlərini müəyyən edir. Bura cinayətkarlığa qarşı mübarizə sahəsində siyasət (bunun da bir hissəsi cəza-icra siyasətidir) də daxildir. Ölkə başçısı Konstitusiya ilə ona verilmiş səlahiyyətlər çərçivəsində qanunvericiliyin, o cümlədən cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi, onun dövrün və təcrübənin ehtiyaclarına uyğunlaşdırılması ilə əlaqədar təkliflər irəli sürür, bu sahədə normativ hüquqi aktların qəbulu ilə bağlı tapşırıqlar verir, dövlət proqramlarını təsdiq edir, habelə əfv aktlarını qəbul edir. Qeyd olunanlara misal kimi, ölkə başçısının 18 dekabr 2018-ci il tarixli Sərancamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nı göstərmək olar.

Azərbaycan Respublikasının Nazirlər Kabineti ölkə Prezidentinin tapşırıqlarına əsasən öz səahiyyətləri dairəsində cəzaların icrası ilə əlaqədar tənzimləmə, məhkumların saxlanılması qaydası və şərtləri, onların maddi-məişət təminatı və bir sıra digər məsələlər üzrə müvafiq aktları qəbul etməklə, cəza-icra siyasətinin formalaşdırılması sahəsində öz töhfəsini verir. Belə aktlara misal olaraq, "Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydası"nı (2001-ci il 15 yanvar tarixli 16 nömrəli Qərarla təsdiq edilmişdir), "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası"nı (2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarla təsdiq edilmişdir), "İstintaq təcridxanalarının Daxili İntizam Qaydaları"nı (2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarla təsdiq edilmişdir), "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısı və onların tətbiqi qaydaları"nı (2018-ci il 10 aprel tarixli 144

nömrəli Qərarla təsdiq edilmişdir) və digər aktları aid etmək olar.

Bu siyasəti həyata keçirən subyektlər isə, müvafiq dövlət orqanları, xüsusilə Azərbaycan Respublikasının cəza-icra sisteminə daxil olan orqanlardır. Qanunvericilikdə nəzərdə tutulan hallarda bu siyasətin həyata keçirilməsi bu sahədə iştirakçı olan digər dövlət orqanlarının, həmçinin ictimaiyyətin üzərinə də qoyula bilər.

Cəza-icra hüququ, digər hüquq sahələri kimi, özünəməxsus xüsusi hüquqi nizamasalma predmeti və metodu ilə, həmçinin xüsusi normalar sistemi ilə xarakterizə olunan müstəqil hüquq sahəsidir. **Cəza-icra hüququ – hüququn müstəqil bir sahəsi olub, bütün cəza növlərinin icrası və çəkilməsi, məhkumlara islah təsiri tədbirlərinin, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi prosesində yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur.**

Cəza-icra hüququnun predmeti cəzaların icrası və cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi prosesində yaranan ictimai münasibətlərin nizama salınmasıdır və bu münasibətlər:

- bütün cəza növlərinin və cinayət-hüquqi xarakterli digər tədbirlərin həyata keçirilməsi, həmçinin məhkumlara islah etmə vasitələrinin tətbiqi zamanı;
- dövlət hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları tərəfindən cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət və məhkumların islah edilməsində onlara kömək göstərilməsi ilə bağlı;
- məhkumların islah edilməsində iştirak etməklə, cəzaçəkmə müəssisələrinə baş çəkməklə əlaqədar cəzaçəkmə müəssisələrinin müdiriyyəti ilə məhkumlar, habelə müxtəlif qurumlar, o cümlədən qeyri-hökumət təşkilatları, həmçinin vətəndaşlar arasında yaranır.

Cəza-icra hüququ onun predmetinə daxil olan ictimai münasi-

bətlərin xüsusi nizamasalma metodunun olması ilə xarakterizə olunur. Cəza, dövlət məcburiyyət tədbiri olduğu üçün onun icrası xüsusi nizamasalma metodunun – imperativ hüquqi nizamasalma metodunun olmasını şərtləndirir. Burada hüquq münasibəti subyektlərinin hüquq bərabərliyi istisna edilir. Lakin bu, digər nizamasalma metodunun – dispozitiv metodun tətbiqini (misal üçün, həvəsləndirmə tədbirlərinin tətbiqi zamanı) istisna etmir.

Qeyd edilən hüquqi nizamasalmanın predmetinə və metoduna, qanunvericilik sisteminə aid olan müddəalar cəza-icra hüququnu bütün cəza növlərinin icrası və çəkilməsi, məhkumlara islah edilmə vasitələrinin tətbiqi, habelə məhkumların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi prosesində yaranan ictimai münasibətləri nizama salan müstəqil hüquq sahəsi kimi xarakterizə etməyə imkan verir.

Cəza-icra hüququnun müstəqilliyini xarakterizə edən əlamətlərdən biri də onun müstəqil normalar sisteminə malik olmasıdır. Bu normalar məhkəmə tərəfindən təyin olunmuş cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası prosesində yaranan münasibətləri tənzimləyir. Bundan başqa, cəzaların icrası qanunvericiliyinin bir sıra normaları cəzaçəкmə müəssisələrinin müdiriyyətinin bu müəssisələrin ərazisində olan vətəndaşlara münasibətdə fəaliyyətini tənzimləyir, habelə bu vətəndaşların davranış qaydalarını müəyyən edir. Belə qaydalar müəssisəyə baş çəкən rəsmi şəxslər, deputatlar, müxtəlif məsələlərlə bağlı dövlət strukturlarının əməkdaşları, məhкumlarla görüşə gəlmiş vətəndaşlar, məhкumların əməyindən istifadə olunan istehsal obyeкtlərində işləyən vətəndaşlar barəsində nəzərdə tutulmuşdur.

Cəza-icra hüququnda hüququn digər sahələrinə (cinayət, mülki, əmək, ailə və s.) məxsus olan bir sıra normalar var. Bu hal cəza-icra hüququnu kompleks hüquq sahəsi hesab etməyə əsas ve-

rir. Lakin məlumdur ki, normaların resepsiyası (mənimsənilməsi) metodundan digər hüquq sahələrində (ailə, maliyyə, inzibati, əmək və s.) də geniş istifadə olunur. Bu metod ilk növbədə hüququn sistemliyini əks etdirir və onun sahələrinin, xüsusilə də qarışıq institutlarının və normalarının qarşılıqlı inkişafını təmin edən alətdir.

Cəza-icra hüququnda digər hüquq sahələrindən mənimsənilmiş normalar əsasən azadlıqdan məhrum olunmuş şəxslərin hüquqi vəziyyətini (statusunu) tənzimləyir. Bu, onunla şərtlənir ki, cəza-icra hüququ fundamental (baza) hüquqa – konstitusiya hüququna münasibətdə törəmə sahədir.

Cəza-icra hüququ cinayətkarlıqla mübarizəni tənzimləyən cinayət və cinayət-prosessual hüquqların daxil olduğu hüquq sahələri kompleksinə daxildir. Bununla əlaqədar olaraq qeyd edilən kompleksdə cəza-icra hüququnun yeri, onun cinayət hüququ, cinayət-prosessual hüquqla qarşılıqlı əlaqəsi mühüm əhəmiyyət kəsb edir.

Cinayət hüququ və cəza-icra hüququ cəzanın tətbiqi və cəzadan azad etmə zamanı yaranan ictimai münasibətləri tənzimləyir. Hüquqi tənzimləmənin bu sahəsində cinayət hüququ üstünlüyə malikdir. Cinayət hüququ məsuliyyətin və cəzanın anlayışını, məqsədlərini, növlərini, cəza təyin etmənin, cəzadan azad etmənin əsaslarını və s. müəyyən edir. Cəza-icra hüququ isə yalnız təyin edilmiş cəzaların icrası və çəkilməsi sahəsində yaranan ictimai münasibətləri nizamlayır.

Cinayət və cəzaların icrası qanunvericiliklərinin müqayisəli təhlili bu sahələrin qarşılıqlı əlaqəsinin üç səviyyəsini ayırmağa imkan verir.

**Birinci**, ali səviyyədə bu hüquq sahələrinin məqsədlərinin, prinsiplərinin və ümumi müddəalarının vahidliyi təmin edilir (cə-

zanın məzmunu və icrası, cəzaçəkmə müəssisələrinin sistemi, cəzadan azad etmə). **İkinci** səviyyədə, onların qarşılıqlı əlaqəsi mürəkkəbləşir. Cinayət hüququ konkret növ cəzaların icrasının və çəkilməsinin hüquqi tənziminin yalnız xarakterini müəyyən edir. O, konkret növ cəzaların mahiyyətini və onların yaratdığı hüquqi məhdudiyyətləri müəyyən edir. **Üçüncü** səviyyə isə, onunla şərtlənir ki, cinayət hüququ cəza-icra hüququnun ayrı-ayrı institutlarının inkişafı üçün yalnız ilkin normativ şərtlər yaradır. Misal üçün, cinayət qanunu törədilmiş cinayətlərin ağırlıq dərəcəsini qiymətləndirməklə, azadlıqdan məhrum etmə cəzasının çəkilməsi ilə əlaqədar cəzaçəkmə müəssisələrinin növünü, eyni zamanda müxtəlif kateqoriyalı məhkumlar tərəfindən cəzaların çəkilməsi şərtlərini müəyyən edir.

Cəza-icra hüququ cinayət-prosessual hüquqla da sıx əlaqədədir. Cəzanın icrası ittiham hökmünün icrasının tərkib hissəsidir və onun qanuni qüvvəyə minməsi ilə cəza-icra hüquq normalarının həyata keçirilməsinə əsas yaranır. Cinayət-prosessual hüququ ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməsinə xidmət edir. Cəza-icra hüququ isə, müəyyən mənada ədalət mühakiməsinin nəticələrinin, hökmdə gösrərilən cəzanın icrasının təmin edilməsinə yönəlmişdir.

Cəza-icra hüququ məhkumların hüquqi statusunun tənzimlənməsi zamanı konstitusiya hüququ ilə, cəzanı icra edən müəssisə və orqanların idarəçiliyi, bu orqanların əməkdaşlarının xidmət keçməsi, onlar tərəfindən məhkumlara fiziki qüvvə, xüsusi vasitələr və silah tətbiq edilməsi sahəsində inzibati hüquqla, habelə mülki, ailə, maliyyə və qanunvericiliyin digər sahələri ilə sıx əlaqədədir.

**Cəza-icra hüququnun prinsipləri** cəza-icra hüquq münasibətlərinin hüquqi tənziminin xarakterini və əsas istiqamətlərini müəyyən edən ümumi müddəalar, rəhbər ideyalardır. Bu prinsip-

lər hüququn ümumi prinsiplərinə və cinayətkarlığa qarşı mübarizəni nizama salan hüquq sahələrinin prinsiplərinə əsaslanır, hüquq nəzəriyyəsində hüququn əsas ideyaları, hüquq sisteminin, hüquqi islahatların həyata keçirilməsi, hüquq sahəsinin, onun institut və normalarının formalaşdırılması gedişində mühüm əhəmiyyət kəsb edən rəhbər müddəalar qismində özünü göstərir.

Hüququn, onun sahələrinin prinsipləri özünün xarakterinə görə obyektiv olsa da, eyni zamanda həm də subyektiv kateqoriyalardır.

Hüququn prinsiplərinin obyektivliyi onunla müəyyən olunur ki, onlardakı əsas ideyalar həm hüququn konkret sahəsində, həm də hüquqtətbiqetmə fəaliyyətinin həyata keçirilməsində hökmən təcəssüm olunmalıdır. Onların pozulması cəmiyyətə mühüm əxlaqi ziyan vurur, bu zaman insan hüquqları və azadlıqları pozulur. Hüquqyaratma və hüquqtətbiq etmə fəaliyyətində hüququn prinsiplərinin pozulması cəmiyyət üçün arzuolunmaz nəticələrə gətirib çıxarır. Hüquq-mühafizə orqanlarının fəaliyyətində sosial ədalət, humanizm və qanunçuluq prinsiplərinin pozulması, törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsinə və ağırlığına açıqdan-açığa uyğun gəlməyən cəza tədbirlərinin tətbiqi, məhkumlarla sərt davranış insanlar arasındakı münasibətlərdə qəddarlığa və mənəvi dəyərlərin təhrif olunmasına səbəb olur.

Hüququn prinsiplərinin əsasında ümumbəşəri dəyərlər durur. Bunu bir çox beynəlxalq aktlar, o cümlədən də, BMT-nin 1948-ci il 19 dekabr tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", 1966-cı il 16 dekabr tarixli "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ı təsdiqləyir. Bu aktlarda şəxsiyyətlə dövlət arasındakı münasibətlərin tənziminin ümumi prinsipləri qeyd edilmişdir.

Hüququn prinsiplərinin subyektivliyi onunla müəyyən olunur ki, onlar konkret insanlar tərəfindən formalaşdırılır və sonradan mənəvi dəyər kimi ictimai şüur tərəfindən dərk edilir, tərkib his-

səsi kimi hüquqi ideologiyaya daxil olur.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – CİM) 7-ci maddəsində öz əksini tapmış cəza-icra hüququnun prinsipləri müvafiq nəzəriyyəyə əsasən aşağıdakı qruplara bölünür:

- ❖ ümumhüquqi prinsiplər;
- ❖ sahələrarası prinsiplər;
- ❖ sahəvi prinsiplər.

Cəza-icra hüququnun **ümumhüquqi prinsiplərinə** – qanunçuluq, humanizim, demokratizm, **sahələrarası prinsiplərinə** – məhkumların və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin qanun qarşısında bərabərliyi, cəzanın icrasının fərdiləşdirilməsi, **sahəvi prinsiplərinə** isə – məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsipləri aiddir.

**Qanunçuluq prinsipi** Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş müddəalara əsaslanır. Bu prinsipdən irəli gələrək, cəzanı icra edən müəssisə və orqanlar, onların işçi heyəti, məhkumlar və cəza-icra hüquq münasibətlərində iştirak edən digər şəxslər cəzaların icrası qanunvericiliyinə dəqiq və dönmədən riayət etməlidirlər. Qanunçuluq prinsipi cəzanın icrasını və çəkilməsini tənzimləyən qanunun aliliyində və digər normativ hüquqi aktlara münasibətdə onun daha yüksək hüquqi qüvvəyə malik olmasında ifadə olunur.

**Humanizm prinsipi** Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikası CİM-in və digər qanunların bir çox institut və normalarında, habelə insan hüquqlarına və məhkumlarla davranışa həsr edilmiş bir çox beynəlxalq aktlarda öz əksini tapmışdır. Misal üçün, Azərbaycan Respublikası Kons-

titusiyasının 46-cı maddəsinin III hissəsində qeyd edilir: "Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz..."; BMT-nin 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ının 10-cu maddəsində bu prinsip belə ifadə olunmuşdur: "azadlıqdan məhrum olunmuş bütün şəxslər insani davranış və insan şəxsiyyətinə məxsus ləyaqətə hörmət hüququna malikdirlər"; Azərbaycan Respublikası CİM-in 3.3-cü maddəsində qeyd edilir: "Cəzaların İcrası Məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasına, müvafiq qanunlarına və beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq məhkumlarla rəftarda işgəncə və ya digər qəddar, qeyri-insani hərəkətlərə və yaxud ləyaqətin alçaldılmasına yol verilməməsinə əsaslanır".

Humanizm prinsipinin realizəsi məhkumun davranışından da asılıdır. Belə ki, əgər məhkum müəyyən edilmiş qaydanı və intizamı pozmursa, ona əlavə olaraq müxtəlif növ güzəştlər əldə etmək üçün geniş imkanlar yaradılır (misal üçün, Azərbaycan Respublikası CİM-in 105-ci maddəsində nəzərdə tutulmuş həvəsləndirmə tədbirlərini tətbiq etmək yolu ilə), onun barəsində rejim tələbləri qanunvericiliyə uyğun olaraq yumşaldılır. Əgər məhkum islah olunmaqdan boyun qaçırırsa, rejimin tələblərini pozursa, bu halda o, heç bir güzəşt əldə etmir, əksinə, onun barəsində rejim tələbləri sərtləşdirilir (misal üçün, Azərbaycan Respublikası CİM-in 107-ci maddəsində nəzərdə tutulmuş tənbeh tədbirlərini tətbiq etmək yolu ilə). Azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara münasibətdə sərtləşmə, məhkum üzərinə əlavə vəzifələrin qoyulması, yaxud cəzanın daha ağır cəza növü ilə əvəz edilməsinə gətirib çıxara bilər. Məhz bütün bunlar bir tərəfdən, məhkumu intizamlı olmağa, islah olunma yoluna qədəm qoymağa sövq edir, digər tərəfdən isə, cəzanı icra edən müəssisə və ya or-

qanın normal fəaliyyətini təmin edir.

**Demokratizm prinsipi** cəzanın icrası prosesinin kifayət qədər şəffaf və aşkarlığında, cəzanı icra edən müəssisələrin fəaliyyətinə nəzarət imkanlarında, habelə cəzanın icrası prosesində dövlət hakimiyyəti orqanlarının, qeyri-hökumət təşkilatlarının və vətəndaşların iştirakında həyata keçirilir. Misal üçün, Azərbaycan Respublikası CİM-in 20-ci maddəsi ictimai təşkilatların cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirməsini nəzərdə tutur, həmin məcəllənin 22-ci maddəsi cəzaçəkmə müəssisələrinə baş çəkilməsi (o cümlədən də kütləvi informasiya vasitələrinin nümayəndələri tərəfindən) qaydasını müəyyən edir və s.

**Məhkumların və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin qanun qarşısında bərabərliyi prinsipi** Azərbaycan Respublikası Konstitusiyasının bərabərlik hüququnu təsbit edən 25-ci maddəsinə əsaslanır. Bu maddənin I hissəsində qeyd edilir ki, "Hamı qanun və məhkəmə qarşısında bərabərdir". Qeyd etmək lazımdır ki, cəzanın və cinayət-hüquqi tədbirlərin icrası məhkumların, o cümlədən hüquqi şəxslərin irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara və ictimai birliklərə mənsubiyyətindən asılı həyata keçirilmir. Lakin bu heç də o demək deyildir ki, bütün məhkumlar və cinayət-hüquqi tədbirlər tətbiq edilmiş şəxslər cəzalarını və müvafiq tədbirlərin icrasını eyni şəraitdə çəkir və onlar üçün eyni hüquqlar, vəzifələr müəyyən edilmişdir.

**Cəzaların icrasının fərdiləşdirilməsi prinsipi** məhkumların şəxsiyyətinin fərdi xüsusiyyətlərinə əsaslanır. Bu xüsusiyyətlər cəzanın çəkilməsi zamanı nəzərə alınır. Belə ki, Azərbaycan Respublikası CİM-in 8.3-cü maddəsində qeyd edilir ki, məhkumlara islah edilmə vasitələri cəzanın növü, törədilmiş cinayətin ictimai

təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla tətbiq edilir.

Cəzaların icrasının fərdiləşdirilməsi prinsipi davranışından asılı olaraq, həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi zamanı məhkumun hüquqi vəziyyətinin dəyişdirilməsi yolu ilə həyata keçirilir.

**Məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi prinsipi** məhkumların məsuliyyətini müəyyən edən bir çox normalarda, o cümlədən Azərbaycan Respublikası CİM-in 38, 51, 51-7, 78 və 94-cü maddələrində, yəni tənbeh tədbirlərini, onların tətbiq edilməsi şərtlərini və qaydasını müəyyən edən normalarda (Azərbaycan Respublikası CİM-in 49, 56-1, 107 və 109-cu maddələri) təsbit edilmişdir. Qanun, bu tədbirlərin tətbiqi zamanı xətanın törədilməsi şəraitinin, məhkumun şəxsiyyətinin və cəza çəkmə dövründə onun davranışının nəzərə alınmasını tələb edir. Belə ki, Azərbaycan Respublikası CİM-in 109.1-ci maddəsinin tələbinə görə "...verilən tənbeh xətanın ağırlığına və xüsusiyyətinə uyğun olmalıdır".

**Qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsipi** də Azərbaycan Respublikasının CİM-də yalnız təsbit edilməmiş, eyni zamanda bu qanunun bir çox normalarında öz əksini tapmışdır. Bu normalar ilk növbədə həvəsləndirici normalardır. Misal üçün, CİM-in 50, 60, 107, 113.3, 113.5, 115.3, 117.3, 121.4, 122.2, 124.3, 124.5-ci maddələri. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına münasibətdə, məhkumların saxlanılması şəraitinin yaxşılaşdırılmasını tənzimləyən normalar da mühüm rol oynayır. Bundan başqa, məhkumların müşayiətsiz gediş-gəlişini, məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yaşamasını, məhkumların cəza-

çəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlərini nəzərdə tutan normalar da (Azərbaycan Respublikası CİM-in 87-89-cu maddələri) həvəsləndirici normalardır.

**Cəza-icra hüququ elmini** xarakterizə etdikdə, qeyd olunmalıdır ki, o, hüquq sahəsinə müvafiqdir və cəzaların icrası sahəsində meydana çıxan sosial-siyasi, iqtisadi, hüquqi, mənəvi, pedaqoji-psixoloji problemlərin bütün kompleksini öyrənməyə, cəzanın icrası üzrə hüquqtətbiqetmə fəaliyyəti prosesində təşəkkül tapan ənənə və qanunauyğunluqları aşkar etməyə, cəza-icra siyasətinin inkişafı, qanunvericiliyin və onun tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üzrə təkliflər verilməsinə xidmət edir. Buna görə də cəza-icra hüququ elminin predmeti özünün məzmununa görə müvafiq hüquq sahəsinin predmetindən daha genişdir. Belə ki, cəza-icra hüququ elminin predmetinə aşağıdakılar aiddir:

- cəzaların icrası sahəsində dövlət siyasəti;
- cəzaların icrası qanunvericiliyinin və cəzaları icra edən müəssisə və orqanların inkişaf tarixi;
- cəza-icra siyasətinin, cəza-icra hüququnun və qanunvericiliyinin prinsipləri;
- qanunvericilik sistemi və onun mənbələri;
- cəza-icra hüququ normalarının məzmunu və quruluşu;
- cəzaların icrası və çəkilməsi prosesində yaranan hüquq münasibətləri;
- məhkumların hüquqi vəziyyəti və onun xarakteristikası;
- cəzaları icra edən müəssisə və orqanların sistemi və onların işçi heyəti;
- xarici ölkələrin cəza-icra hüququ;
- məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktlar;
- cəzaların icrası sahəsində mövcud problemlər və onların həlli yolları və s.

## Mövzu 2. Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi, onun məqsəd və vəzifələri

Hüquq nəzəriyyəsində qanunvericilik anlayışı dar və geniş mənada təsvir edilir. Dar mənada qanunvericilik dedikdə, onun nizamasalma predmetinə aid olan ictimai münasibətləri nizama salan yalnız qanunların məcmusu, geniş mənada qanunvericilik dedikdə isə, bu münasibətləri nizama salan bütün normativ hüquqi aktlar sistemi başa düşülür. **Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi – Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 42-ci maddəsində göstərilən bütün cəza növlərinin icrası və çəkilməsi, məhkumlara islah edilmə vasitələrinin tətbiq edilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi prosesində yaranan ictimai münasibətlərin bütün kompleksini nizama salan normativ hüquqi aktlar sistemidir.**

Cəza-icra hüququnun mövcud mənbələrinə aiddir:

- ❖ Azərbaycan Respublikasının Konstitusiyası;
- ❖ Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi;
- ❖ Azərbaycan Respublikasının digər qanunları;
- ❖ Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları;
- ❖ Azərbaycan Respublikası Nazirlər Kabinetinin cəzaların icrası ilə əlaqədar qərar və sərəncamları;
- ❖ cəzaların icrası həvalə edilmiş, ilk növbədə Azərbaycan Respublikası Ədliyyə və Müdafiə nazirliklərinin, habelə digər nazirliklərin normativ aktları.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də dövlətimizin

qanunvericilik sisteminin, o cümlədən cəzaların icrası qanunvericiliyinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilir.

Azərbaycan Respublikası CİM-in 2.1-ci maddəsinə əsasən, cəzaların icrası qanunvericiliyinin məqsədi **məhkumları islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır.**

Hüququn bu sahəsinin əsas məqsədlərindən biri **məhkumların islah edilməsidir.** Bu anlayış ilk dəfədir ki, respublikamızın cəza-icra qanununda təsbit edilmişdir. **Məhkumların islah edilməsi – onlarda qanuna itaətin həvəsləndirilməsi, insana, cəmiyyətə, əməyə, birgəyaşayış qayda və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır.**

Digər məqsəd – ilk növbədə **məhkumlar tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır.** Bu məqsəd məhkumlara Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş kompleks profilaktika tədbirlərinin, islah etmə vasitələrinin tətbiqi vasitəsilə həyata keçirilir. **Digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq** məqsədi ümumi xəbərdarlığı həyata keçirir. Qanunla nəzərdə tutulmuş məcburetmə tədbirləri, qadağalar, kifayət qədər sərt cəzaçəkmə şəraiti, məhkumların hüquq və azadlıqlarının məhdudlaşdırılması qeyri-sabit, cinayət törətməyə meylli vətəndaşlara təsir göstərmək məqsədi güdür.

Cəzaların icrası qanunvericiliyinin məqsədləri qanunvericiliyin bu sahəsi qarşısına konkret vəzifələrin qoyulması yolu ilə həyata keçirilir. Azərbaycan Respublikası CİM-in 2.2-ci maddəsində bu vəzifələr kifayət qədər dəqiq və aydın ifadə olunmuşdur. Bu vəzifələr, cəza-icra hüququnun institut və normalarının həyata keçirilməsinin daha vacib istiqamətlərini əhatə etməklə, **cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini tənzimləməkdən,**

**məhkumların islah edilmə vasitələrini müəyyən etməkdən, məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaqdan ibarətdir.**

Cəza növlərindən asılı olaraq, onların icrası prosesində bu vəzifələr konkretləşdirilir. Cəzaların icrası qanunvericiliyinin qeyd edilən vəzifələri ümumi vəzifələr sayılır və onlar müvafiq qaydada icra yolu ilə cəzanın məqsədlərinə nail olunmasının təmin edilməsinə yönəlmişdir. Bu anlayışda cəzanın məqsədlərinin vahidliyi, əlaqəliliyi və onun icrasının vəzifələri ifadə olunmuşdur.

Cəzaların icrası qanunvericiliyinin qarşısında duran vəzifələr cəzanı icra edən müəssisə və orqanlar tərəfindən yerinə yetirilir. Onlar cəzanın növü və müddəti haqqında məhkəmə hökmünün göstərişlərinin icrasını təmin etməyə, məhkumların islah edilməsinə nail olmağa, həm məhkumlar, həm də digər şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısını almağa borcludurlar. Cəzanı icra edən müəssisə və orqanların bu vəzifələrini geniş mənada ədalət mühakiməsinin funksiyalarından birinin – məhkumların islah edilməsinin həyata keçirilməsinin təmin edilməsi kimi izah etmək olar.

Nəhayət, cəzaların icrası qanunvericiliyinin qeyd edilən vəzifələri cəzanın ayrı-ayrı növlərini icra edən müəssisə və orqanlar üzərinə daha konkret vəzifələr qoyulması yolu ilə yerinə yetirilir. Misal üçün, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaları icra edən cəzaçəkmə müəssisələri, bir qayda olaraq, məhkəmə hökmlərinin icrası üzrə aşağıdakı vəzifələri yerinə yetirirlər:

- ❖ cəzanın icrası zamanı hüquq qaydasını və qanunçuluğu, cəzaçəkmə müəssisələrinin işçi heyətinin, cəza çəkən məhkumların, müxtəlif səbəblərlə əlaqədar bu müəssisələ-

rin ərazisində olan vəzifəli şəxslərin və vətəndaşların təhlükəsizliyini təmin edir;

- ❖ məhkumları əməyə cəlb edir, habelə onların ümumi orta, peşə təhsili və peşə hazırlığını təşkil edir;
- ❖ məhkumların sağlamlığının qorunmasını təmin edir;
- ❖ bağlı qalmış cinayətlərin açılması üzrə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir və müvafiq dövlət orqanlarına kömək edir və s.

Beləliklə, cəzaların icrası qanunvericiliyinin vəzifələri ümumi və konkret vəzifələrdən ibarət olan müəyyən sistem yaradır. Bu vəzifələr cəzanı icra edən müəssisə və orqanların vəzifələri olub, onların fəaliyyətində məhkumlara kompleks islah-tərbiyə təsiri tədbirlərinin tətbiqi yolu ilə yerinə yetirilir.

Cəzaların icrası qanunvericiliyi normalarının səmərəli tətbiqi onların məkanda və zamanda həyata keçirilməsini nəzərdə tutur ki, bunun da əsas qaydaları Azərbaycan Respublikası CİM-in 5-ci maddəsində müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 5.1-ci maddəsinə əsasən, Cəzaların İcrası Məcəlləsi Azərbaycan Respublikasının bütün ərazisində tətbiq edilir.

Azərbaycan Respublikası CİM-in 5.2-ci maddəsində qeyd edilir ki, "cəzaların icrası, habelə məhkumlara islah edilmə vasitələrinin tətbiqi və cəza çəkməkdən azad edilmiş şəxslərə yardım edilməsi onların icrası zamanı qüvvədə olan qanunvericiliyə uyğun həyata keçirilir". Bu müddəadan irəli gələrək qeyd etmək olar ki, yeni qəbul olunmuş qanunvericilik Azərbaycan Respublikası CİM-in hüquqi qüvvəyə minməsinədək məhkum edilmiş şəxslərə də şamil edilir, başqa sözlə, geriyə qüvvəyə malikdir. Qanunun geriyə qüvvəsi barədə Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində birbaşa göstəriş vardır: "Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq mə-

suliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir". Konstitusiyanın bu müddəasına əsasən demək olar ki, məhkumların hüquqi vəziyyətini yalnız yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların geriyə qüvvəsi var. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Qanununun 2-ci maddəsində qeyd edilir ki, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minir". 14 iyul 2000-ci ildə qəbul edilmiş və həmin ilin sentyabr ayının 1-də qüvvəyə minmiş Azərbaycan Respublikasının CİM-i ilk dəfə olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (bundan sonra – CM) nəzərdə tutulmuş bütün cəza növlərinin icrasını nizama salır. Burada əvvəlki qanunlardan, yəni 1925-ci və 1970-ci illərin İslah-Əmək məcəllələrindən fərqli olaraq hüquqi nizamasalma predmeti dəqiq müəyyən edilmiş, cəzaların icrası sahəsinə aid olmayan ictimai münasibətləri tənzimləyən institut və normalardan imtina edilmişdir. Bunlara əvvələr mövcud olmuş işçi heyətinin stasusunu tənzimləyən normaları misal göstərmək olar.

**Cəza-icra hüququnun norması** dedikdə, hüquq münasibətləri subyektlərinin və iştirakçılarının tələb edilən davranış modeli başa düşülür. Norma, hüquq sahəsinin əsas elementi, onun birinci səviyyəsidir. İkinci səviyyəni, müəyyən qrup ictimai münasibətləri, misal üçün, müxtəlif cəzaların icrası zamanı, cəza çəkməkdən azad etmə zamanı və s. yaranan ictimai münasibətləri nizama salan normalar kompleksi yaradır. İkinci səviyyəli normaların belə birləşdirilməsi cəza-icra hüququnun müəyyən institutunu təşkil edir. Hüquq sahəsinin özü isə, üçüncü səviyyəni – onun strukturu-

nun ali səviyyəsini yaradır.

Cəza-icra hüququ norması özünün daxili quruluşuna malikdir ki, buraya **hipoteza, dispozisiya** və **sanksiya** daxildir. Hüquq normasının hipotezası onun realizəsi, sanksiyanın tətbiqi ilə bağlı müəyyən hərəkətin edilməsi və ya edilməməsi ilə əlaqələndirilir, yəni onun tətbiq edilməli olduğu şərait və ya hal göstərilir.

Əksər hallarda hipoteza cəza-icra hüquq normasının hüdudlarından kənara çıxır. Hipoteza bir çox norma üçün ümumi ola bilər. Burada cəzanın çəkilməsi əsası kimi məhkəmənin qanuni qüvvəyə minmiş hökmü nəzərdə tutulur. Bir sıra normalarda hipoteza normativ aktın özündə əks olunur. Misal üçün, Azərbaycan Respublikası CİM-in 87.1-ci maddəsində məhkumlara müşayiətsiz gediş-gəliş hüququ verilməsi, 88.1-ci maddəsində məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yaşaması, 89.1-ci maddəsində məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlərə buraxılması şərtləri və s. göstərilmişdir.

Cəza-icra hüquq normasının **dispozisiyasında** hüquq münasibəti subyektlərinin və digər iştirakçılarının davranış qaydası göstərilmiş, onların hüquq və vəzifələri müəyyən edilmişdir. Normanın **sanksiyasında** isə müəyyən edilmiş davranış qaydasının pozulmasına görə hüquq norması ilə nəzərdə tutulan nəticə ehtiva olunur. Dispozisiyaların səlahiyyətverici, qadağanedici və ya vəzifə müəyyənedici kimi növləri mövcuddur.

Cəza-icra hüququ normalarının sanksiyasını digər hüquq sahələrinin, misal üçün, cinayət hüququ normasının sanksiyasından fərqləndirən cəhət ondan ibarətdir ki, bu sanksiya digər maddədə ola bilər və Azərbaycan Respublikası CİM-in müxtəlif maddələrində müəyyən edilmiş davranış qaydalarının pozulmasına görə tətbiq edilə bilər.

Hüquq ədəbiyyatında cəza-icra hüquq normalarının müxtəlif əsaslara görə növlərə bölünməsinə rast gəlinir: maddi, prosessual, təşkliati-texniki, prinsip və digərləri. Müəyyən edilən davranış qaydalarının xarakterindən asılı olaraq cəza-icra hüquq normalarının **tənzimedici, həvəsləndirici** və **mühafizəedici** normalara ayrılması ilə əlaqədar bölgüsü qəbul edilmişdir.

**Tənzimedici normalar** cəza-icra hüquq münasibətlərinin subyektlərinin və digər iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir. Müəyyən edilən hüquq və vəzifələrin xarakterindən asılı olaraq onlar öz növbəsində məcburedici, səlahiyyətverici və qadağanedici normalara bölünür. **Məcburedici normalar** subyektlərə müəyyən hərəkətlərin edilməsi tələbini müəyyənləşdirir. Misal üçün, Azərbaycan Respublikası CİM-in məhkumların əsas vəzifələrindən bəhs edən 11.3-cü maddəsindən aydın görünür ki, məhkumlar cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirməlidir və s. Məcburedici normanın tətbiq edilməsi, subyekt tərəfindən müəyyən hərəkətlərin yerinə yetirilməsi digər subyektlərin hüquqlarına və qanuni mənafelərinə əməl edilməsini təmin edir.

**Səlahiyyətverici normalar** subyektlərə qanunla müəyyən edilmiş çərçivədə davranış qaydası seçmək hüququ verir. Misal üçün, Azərbaycan Respublikası CİM-in 16.1-ci maddəsinə əsasən cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxsləri məhkumun razılığı ilə onun ailəsinə və ya yaxın qohumlarından birinə, yaxud məhkumun göstərdiyi şəxsə ona təyin olunmuş cəzanın icrası, cəzanın çəkilmə yeri, məhkumun yerdəyişmələri və azad edilməsi barədə məlumat verməlidirlər. Azərbaycan Respublikası CİM-in 81.9-cu maddəsində isə qeyd edilir ki, məhkumun vəkili və ya hüquqi yardım göstərmək hüququna malik olan şəxslə görüşləri tərəflərin arzusu ilə təklikdə keçirilir.

**Qadağanedici normalar** isə əksinə qanunla hüquqazidd hərəkət kimi qiymətləndirilən müəyyən hərəkətlərdən subyektlərin çəkinməsi tələbini müəyyən edir. Qanunun normasında qadağan həm ümumi, həm də konkret formada təyin oluna bilər. Qadağanın ümumi formasına misal olaraq Azərbaycan Respublikası CİM-in 95.4-cü maddəsini göstərmək olar: "**Məhkumların əməyindən istifadə edilməsi, qadağan olunan işlərin və vəzifələrin siyahısı cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilir".** Konkretləşdirilmiş qadağan isə, ayrı-ayrı hərəkət növlərinə yönəlmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 82.1-ci maddəsində qeyd edilir ki, **"bir sovqatın çəkisi bir bağlama üçün müəyyən olunmuş çəkidən artıq olmamalıdır".** Hazırda beynəlxalq poçt daşımalarına görə bir bağlamanın çəkisi 31,5 kq müəyyən edilmişdir. Qadağanedici normalara misal olaraq Azərbaycan Respublikası CİM-in 86.3-cü maddəsini də göstərmək olar: "**Məhkumların müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrləri əldə etməsi, saxlaması, onlara abunə yazılması və onları yayması qadağandır".** Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara münasibətdə qadağanedici normalara Azərbaycan Respublikası CİM-in 30 və 43-cü maddələrini misal göstərmək olar.

Cəza-icra hüququnun **həvəsləndirici** normaları qanunda arzu edilən, bəyənilən davranışın əldə olunmasına, məhkumların islah olunmasına yönəlmişdir. Bu normalara CİM-in 50, 51-6 və 105-ci maddələrini misal göstərmək olar. Lakin CİM-dəki həvəsləndirici normaların siyahısı qeyd edilən maddələrdəki tədbirlərlə bitmir.

Cəza-icra hüququnda həvəsləndirici normaların xüsusiyyəti ondan ibarətdir ki, bu normalar həvəsləndirmək hüququnu yalnız

bir subyektə – cəzanı icra edən müəssisə və ya orqanın müdiriyyətinə təqdim edir. Digər subyekt – məhkum isə müvafiq həvəsləndirmə tədbirinin tətbiq edilməsini tələb edə bilməz. Bunun üçün o, qanunun tələblərini nümunəvi yerinə yetirməlidir.

**Mühafizəedici normalar** cəzanın icrası prosesində yaranan hüquq münasibətlərini müdafiə etməklə, cəza-icra hüququnun digər normalarının realizəsini təmin edir. Belə normalara məhkum olunmuş şəxslərə tətbiq edilən tənbeh tədbirlərini müəyyən edən normaları aid etmək olar (misal üçün, Azərbaycan Respublikası CİM-in, 51, 51-7 və 107-ci maddələri).

Cəza-icra hüquq normaları həmçinin **maddi** və **prosessual** normalara bölünür. Maddi hüquq normaları davranış qaydalarının məzmununu müəyyən edirsə, prosessual hüquq normaları bu davranışların realizə olunması qaydasını və şərtlərini tənzimləyir. Misal üçün, Azərbaycan Respublikası CİM-in 105 və 107-ci maddələri məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərini nəzərdə tutursa, 106-cı və 109-cu maddələr onların tətbiq edilməsi qaydasını müəyyən edir.

**Cəza-icra hüquq münasibətləri dedikdə, bütün cəza növlərinin icrası və çəkilməsi, məhkumlara islah təsiri tədbirlərinin, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi prosesində yaranan və cəza-icra hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər başa düşülür.** Bu münasibətlər məhkəmənin ittiham hökmü və ya qərarı qanuni qüvvəyə mindiyi andan yaranır və məhkum tərəfindən cəza çəkilib qurtaranadək (cəza çəkməkdən azad edilənədək) davam edir.

Ümumən cəza-icra hüquq münasibətlərinin tərkib elementləri müvafiq subyektlərdən və iştirakçılardan, məzmundan, obyektlərdən, habelə hüquqi faktlardan ibarətdir.

Hüquq münasibətlərinin subyektləri və digər iştirakçıları cə-

za-icra hüquq normaları ilə müəyyən edilmiş müəyyən subyektiv hüquq və vəzifələrə malik olan hüquqi və fiziki şəxslərdir. **Hüquq münasibətlərinin subyektləri** dedikdə, daha çox həcmdə subyektiv hüquq və vəzifələrə malik olan tərəflər başa düşülür. Onlar olmadan hüquq münasibətləri yaranmır. Cəza-icra hüquq münasibətlərində subyektlər və iştirakçılar fərqləndirilir.

**Cəza-icra hüquq münasibətlərinin subyektlərinə** aiddir:

- ❖ cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar;
- ❖ cəzalara məhkum edilmiş şəxslər;
- ❖ cinayət-hüquqi xarakterli tədbirlər tətbiq edimiş məhkumlar və hüquqi şəxslər.

**Cəza-icra hüquq münasibətlərinin iştirakçılarına** aiddir:

- ❖ cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarəti həyata keçirən vəzifəli şəxslər;
- ❖ himayəçilik şuralarının və ictimai birliklərin üzvləri;
- ❖ qeyri-hökumət təşkilarlarının nümayəndələri;
- ❖ din xadimləri;
- ❖ məhkumların qohumları;
- ❖ kütləvi informasiya vasitələrinin nümayəndələri;
- ❖ digər iştirakçılar.

**Cəza-icra hüquq münasibətlərinin məzmunu** dedikdə, bu münasibətlərin subyektlərinin və iştirakçılarının faktiki davranışı, həmçinin onların hüquq və vəzifələrinin məcmusu başa düşülür.

Məzmun baxımından cəza-icra hüquq münasibətlərinin iki növü fərqləndirilir:

**1.** cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası zamanı yaranan hüquq münasibətləri;

**2.** islah etmə vasitələrinin tətbiqi zamanı yaranan hüquq

münasibətləri.

Birinci növ hüquq münasibətləri cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası zamanı, ikinci növ hüquq münasibətləri isə, məhkumlara islah edilmə vasitələrinin tətbiqi zamanı yaranır.

**Cəza-icra hüquq münasibətlərinin obyektləri** – barəsində hüquq münasibəti yaranan təzahür və predmetlər, başqa sözlə, real mövcud olan hallardır. Hüquq münasibətlərinin obyekti onun subyektlərinin və iştirakçılarının müəyyən qanuni mənafeləri də ola bilər.

**Hüquqi faktlar** dedikdə, cəza-icra hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və xitam olmasına səbəb olan hərəkətlər və hadisələr başa düşülür. Deməli, hüquqi faktları hadisələrə və hərəkətlərə bölmək olar. Hadisələr subyektlərin iradəsindən asılı olmayaraq baş verir və cəza-icra hüquq münasibətlərini yaradır, dəyişdirir və ya xitam edir. Hərəkətlər isə subyektlərin iradəsindən asılı olaraq, bu münasibətləri yaradır, dəyişdirir və ya xitam edir.

Azərbaycan Respublikasının CİM-i qüvvəyə mindiyi vaxtdan ötən dövr ərzində, yəni 2000-2022-ci illərdə Milli Məclis tərəfindən qəbul edilmiş 47 qanunla yüz doxsandan çox müxtəlif dəyişikliklərə məruz qalmışdır. Nəticədə məcəllədən bir fəsil (VIII fəsil), 19 maddə (52-64, 160-165-ci maddələr) çıxarılmış, yeni bölmə (VIII), üç fəsil (VII-I, XXII, XXIII fəsillər) və 21 maddə (15-1-15-2, 17-1, 51-1–51-7, 69-1, 91-1 124-1 və 183-190-cı maddələr) əlavə edilmişdir. 2022-ci ilin 01 iyun tarixinə Azərbaycan Respublikasının CİM-i struktur baxımından iki hissədən (Ümumi və Xüsusi hissələr), 8 bölmədən, 23 fəsildən və 184 maddədən ibarət olmuşdur.

## Mövzu 3. Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Belə ki, dövlətimizin uzun illər boyu xarici təcavüzlərə məruz qalması, işğal edilməsi onun müstəqil qanunvericilik sisteminin, eləcə də cəzaların icrası qanunvericiliyinin formalaşması və inkişafına maneələr yaratmışdır. Buna görə də öz müstəqil cəzaların icrası qanunvericiliyi olmayan Azərbaycanın cəzaların icrası sahəsində formalaşmış qanunvericiliyi 1920-ci ildən sonrakı dövrü əhatə edir. Ondan əvvəlki dövrlərdə cəzaların icrası cinayət əməllərinə görə məsuliyyəti nəzərdə tutan müxtəlif aktlara əsasən, sonradan isə dövlətimizin çar Rusiyasının tərkibində olduğu müddətdə mövcud qanunvericiliyə uyğun həyata keçirilmişdir.

1920-ci ildən başlayaraq bu günə qədər respublikamızın cəzaların icrası qanunvericiliyi öz inkişafında üç əsas mərhələdən keçmişdir:

1. **1920 – 1970-ci illərdə cəzaların icrası qanunvericiliyi;**
2. **1971 – 2000-ci illərdə cəzaların icrası qanunvericiliyi;**
3. **2000-ci il 1 sentyabr tarixdən sonra cəzaların icrası qanunvericiliyi.**

**Birinci dövr** ərzində respublikamızın ilk İslah-Əmək Məcəlləsi (20 may 1925-ci il) qəbul edilmişdir. Bu Məcəllədə yalnız azadlıqdan məhrum etmə və məcburi işlər (hal-hazırdakı islah işləri cəzası) növündə cəzaların icrası tənzimlənirdi. Bu dövrdə cəzaların icrası ilə bağlı bir sıra əsasnamələr də qəbul edilmişdir. Misal üçün: “SSRİ DİN-in İslah-əmək düşərgələri və koloniyaları haqqında” Əsasnamə (10 iyul 1954-cü il); “SSRİ DİN-in İslah-əmək koloniyaları və həbsxanaları haqqında” Əsasnamə (08 dekabr 1958-ci il); “Azərbaycan SSR DİN-in İslah-əmək koloniya-

ları və həbsxanaları haqqında" Əsasnamə (29 iyul 1961-ci il) və s. Qeyd edilməlidir ki, 1920–1970-ci illərdə, xüsusilə repressiya illərində cəza-icra fəaliyyəti qanunvericilik aktları ilə deyil, sabiq SSRİ Xalq Daxili İşlər Komissarlığının, sonra isə Daxili İşlər Nazirliyinin normativ aktları ilə tənzimlənirdi.

**İkinci dövr,** Azərbaycanın ikinci İslah-Əmək Məcəlləsinin qəbul edilməsi ilə (23 dekabr 1970-ci il) başlanır. Sayca ikinci Məcəllədə artıq dörd cəza növünün – azadlıqdan məhrum etmədən islah işləri, sürgün, köçürmə və azadlıqdan məhrum etmə cəzalarının icrası qaydası və şərtləri öz əksini tapmışdı. Bu dövrdə digər cəzaların icrası qanun qüvvəli olmayan normativ hüquqi aktlarla tənzimlənirdi. Bunlar Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanları ilə təsdiq edilmiş "Tərbiyə-əmək profilaktoriyası haqqında" Əsasnamə (01 mart 1983-cü ildə qəbul edilmişdir); "Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cəzaların icrası qaydası və şərtləri haqqında" Əsasnamə (01 fevral 1984-cü il); "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində İntizam Batalyonu haqqında" Əsasnamə (23 iyul 1992-ci il) idi.

Nəhayət, Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin **üçüncü inkişaf dövrü** dövlətimizin ilk milli Cəzaların İcrası Məcəlləsinin qəbul edilməsindən (14 iyul 2000-ci il) bu günədək olan dövrü xarakterizə edir. İlk dəfə olaraq Cəzaların İcrası Məcəlləsində dövlətimizdə tətbiq ebilən bütün cəza növlərinin icrası qaydasını və şərtlərini tənzimləyən normalar cəmlənmişdir. Yeni Məcəllənin müsbət cəhətlərindən biri də ondan ibarətdir ki, o, heç bir kənar təsirə məruz qalmamış və beynəlxalq penitensiar qanunvericiliyin, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş aktların tələblərini nəzərə almışdır. Belə ki, yeni Məcəllə məhkumların hüquqi vəziyyətini təsbit etməklə, habelə hüquqi nizamasalma predmetini genişlən-

dirməklə öz sələflərindən əhəmiyyətli dərəcədə fərqlənir. Burada cəzaların icrası qanunvericiliyinin məqsədi (məhkumların islah edilməsi, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması) haqqında Azərbaycan Respublikasının cəza-icra siyasətinin mühüm müddəaları əks olunmuşdur. Qısaca olaraq 2000-ci il Cəzaların İcrası Məcəlləsinin əvvəlki məcəllələrdən fərqli cəhətləri üzərində dayanaq. Yeni Məcəllə ilk növbədə xüsusi dəyərlərə, yəni insan amilinə, onun hüquq və azadlıqlarına hörmət edilməsinə əsaslanır. Burada, demək olar ki, əksər normalarda BMT-nin insan hüquqlarına həsr edilmiş konvensiyalarının, BMT və Avropa Şurası tərəfindən qəbul edilmiş sahəvi aktların (BMT-nin "Məhbuslarla minimal standart davranış qaydaları"nın, "Avropa Penitensiar Qaydaları"nın və s.) tələblərindən irəli gələrək, qeyd edilən məsələlərə xüsusi diqqətlə yanaşılmış, respublikamızın cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlarla davranış qaydaları beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Qeyd edilən bu cəhət Azərbaycan Respublikası CİM-in bir çox maddələrində özünü aşkar surətdə büruzə verir. Misal üçün, Azərbaycan Respublikası CİM-in 83.1-ci maddəsində göstərilir ki, "Bu Məcəllənin 83.3-cü maddəsində nəzərdə tutulmuş hallardan başqa məhkumlara məhdudiyyətsiz sayda məktub, teleqram almağa və göndərməyə icazə verilir". Göründüyü kimi, bu maddə məhkumların yazışma hüququna elə də əhəmiyyətli dərəcədə məhdudiyyət qoymur. Burada istisna hal ondan ibarətdir ki, cəzaçəkmə müəssisələrində saxlanılan və qohum olmayan məhkumlar arasında yazışmalara cəzaçəkmə müəssisəsi müdiriyyətinin icazəsi ilə yol verilir (Azərbaycan Respublikası CİM-in 83.3-cü maddəsi). Yeni Məcəllə məhkumların yazışma hüququndakı məhdudiyyətləri ləğv etməklə yanaşı, həm də onların görüşlərinin sayını, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün xərcləmək hüququna malik olduğu pul məbləğini, alı-

nan bağlama, sovqat və banderolların sayını əhəmiyyətli dərəcədə artırmış, rejim qaydalarının pozulmasına görə qadın məhkumların, yetkinlik yaşına çatmayan məhkumların cərimə və intizam təcridxanalarına salınması müddətlərini xeyli azaltmışdır. Bütün bu və digər yeniliklər yeni Məcəllə ilə cəzaçəkmə rejiminin daha da humanistləşdirilməsini nümayiş etdirir.

Təcrübədə elə hallara rast gəlinir ki, ayrı-ayrı cəza növlərinin icrası zamanı müəyyən obyektiv və subyektiv səbəblərdən qanunçuluğun tələbləri pozulur. Belə arzuolunmaz neqativ halları aşkar etmək və onların qarşısını almaq məqsədi ilə yeni Məcəlləyə müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti, məhkəmə nəzarəti və ictimai nəzarət institutları daxil edilmişdir. Məcəllədəki digər yeniliklər barədə dərslikdəki mövzularda aidiyyəti üzrə məlumat veriləcəkdir.

Beləliklə, 2000-ci il CİM-i sabiq məcəllələrdən fərqli olaraq aşağıdakı müsbət cəhətləri özündə əks etdirir:

❖ yeni Məcəllə respublikamızın Konstitusiyasını əsas götürmüş, qüvvədə olan qanunlarımızın tələblərini gözləyir, xalqımızın adət və ənənələrinə, müsəlman dünyasına, dinimizə, psixologiyamıza xas olan xüsusiyyətləri nəzərə almışdır;

❖ o, ilk növbədə cəmiyyətin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir;

❖ o, cinayət qanununun cəza institutu qarşısında duran əsas məqsədlərə – məhkumların islah edilməsinə, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına nail olunmasını təmin edir;

❖ burada Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cəza növlərinin və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası qaydası və şərtləri öz ətraflı və dəqiq əksini tapmışdır;

❖ Məcəllədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı

insan və vətəndaş hüquqlarının, azadlıqlarının gözlənilməsinə, xüsusilə cinayət törətməklə əlaqədar məcburi dövlət təsiri tədbirlərinə məruz qalmış şəxslərlə davranışa həsr olunmuş beynəlxalq konvensiyaların, sazişlərin müddəaları nəzərə alınmış, lazımi hallarda onlara üstünlük verilir və s.

Beləliklə, Azərbaycan Respublikasının CİM-i dövlətimizdə həyata keçirilən islahatların məntiqi nəticəsi olmaqla, müasir dövrün tələblərinə cavab verir və cəza-icra siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsini təmin edir. Azərbaycan Respublikasının CİM-in normaları əsasında ölkəmizdə cəza-icra islahatının inkişafına kömək edən çoxsaylı normativ hüquqi aktlar qəbul edilmişdir. Onlara dərslikdəki digər mövzularda toxunulmuş, həmin normativ aktları tənzimləmə predmetinə, məzmununa, xüsusiyyətlərinə və əhəmiyyətinə aydınlıq gətirilmişdir.

Yuxarıda göstərilənlər nəzərə alınmaqla, müasir cəza-icra qanunvericiliyinə daxil olan Azərbaycan Respublikasının CİM-dən savayı əsas normativ aktlar aşağıdakılar hesab edilir: "İcra məmurları haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikasının Ədliyyə və Müdafiə nazirliklərinin normativ aktları (təlimatlar, əmrlər, sərəncamlar). Eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr də dövlətimizin cəzaların icrası qanunvericiliyinin tərkibinə daxildir. Cəzaların icrasına həsr olunmuş beynəlxalq aktlar dərsliyin sonrakı mövzularında nəzərdən keçiriləcəkdir.

## Mövzu 4. Cəzaların icrası və çəkilməsi anlayışı, əsasları, məhkumların islah edilmə vasitələri

Cəzaların icrası və çəkilməsi anlayışları bir-birindən fərqlənsələr də, vahid bir prosesi, yəni məhkəmə hökmünün (onun əsas hissəsi olan cəzanın) həyata keçirilməsi prosesini ehtiva edir. Cəzanın icrası, cəzanı icra edən müəssisə və orqanların məhkəmə hökmünün təmin olunmasına yönəlmiş fəaliyyətini, cəzanın çəkilməsi isə cinayət-hüquqi xarakterli dövlət məcburiyyət tədbirinə məruz qalmış şəxslərin müvafiq dövr ərzində qanunla müəyyən edilmiş məhrumiyyətlərə məruz qalmasını özündə ehtiva edir.

Ümumən **cəzaların icrası dedikdə, cəza-icra hüququ normaları ilə tənzimlənən dövlət məcburiyyət tədbirlərinin – məhkumların hüquq və azadlıqlarının məhdudlaşdırılması kompleksinin tətbiqi sahəsində fəaliyyət başa düşülür.**

Cəzaların icrası və islah təsiri tədbirlərinin tətbiqi üçün **ilkin əsas,** yalnız məhkəmənin qanuni qüvvəyə minmiş hökmüdür. **Törəmə əsaslar** isə məhkəmə hökmünü dəyişdirən digər qərarlar, habelə amnistiya və əfvetmə aktlarıdır. Hüquqi formada məcburiyyət tədbirləri cəzanın icrası və çəkilməsi qaydasında və ya rejimdə ifadə olunur. Qeyd edilən məfhumlar məhkumlara vahid məcburi təsir prosesini əks etdirsə də, cəza-icra hüquq münasibətlərinin müxtəlif subyektlərinə və iştirakçılarına yönəlmişdir. Cəzaların icrası məfhumu altında cəzanı icra edən müəssisə və orqanların fəaliyyəti nəzərdə tutulur. Cəzanın çəkilməsi isə, məhkuma aiddir. Bu, şəxsin cəzadan doğan məhrumiyyətlərə, hüquq və azadlıqların məhdudlaşdırılmasına məruz qalmasını ifadə edir.

Cəzaların icrası zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün məhkumlara islah edilmə vasitələri tətbiq edilir. Azərbaycan Respublikası CİM-in 8-ci maddəsi məhkumların islah

edilməsi və onun əsas vasitələrindən bəhs edir. Belə ki, **məhkumların islah edilməsi** – onlarda qanuna itaətin həvəsləndirilməsi, insana, əməyə, cəmiyyətə, birgəyaşayış qayda və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır. Məhkumların islah edilməsinin əsas vasitələrinə aiddir:

- ❖ **cəzanın icrasının və çəkilməsinin müəyyən edilmiş qaydası (rejim);**
- ❖ **tərbiyə işi;**
- ❖ **ictimai faydalı əmək;**
- ❖ **ümumi təhsil;**
- ❖ **peşə təhsili və peşə hazırlığı;**
- ❖ **ictimai təsir.**

Məhkumların islah edilmə vasitələri məcmu halında islah təsirini yaradır və cəzaların icrası zamanı həyata keçirilən tərbiyəvi-pedaqoji prosesin xüsusi növü kimi çıxış edir.

İslah edilmə vasitələrinin tətbiqi həcmi və xarakteri icra edilən cəzanın növündən, onun məzmunundan, məhkumun şəxsiyyətindən, onun davranışından, törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsindən və xarakterindən asılıdır.

**Cəzanın icrası və çəkilməsi rejimi** cəzanın növündən asılı olaraq müəyyən edilir. Rejim hüquqi kateqoriya olaraq məhkuma müxtəlif məhdudiyyətlər yaratmaqla cəzalandırma vəzifəsini yerinə yetirsə də, həmçinin tərbiyə vəzifəsini də həyata keçirir. Rejim məhkumlara intizamlı olmağı, qanunlara riayət etməyi öyrədir və bununla da digər islah etmə vasitələrinin tətbiq edilməsi üçün zəruri şərait yaradır. Eyni zamanda rejim, qanunçuluğun və ictimai qaydanın, cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin, məhkumların, habelə cəzanın icrası ilə əlaqədar olaraq müəssisələrdə olan vəzifəli şəxslərin və digər vətəndaşların təhlükəsizliyinin təmin olunması üçün müvafiq şəraitin yaradılmasını da nəzər-

də tutur.

Rejim qaydaları həm işdən kənar vaxtda, həm də əmək fəaliyyəti prosesində məhkumların bütün həyat tərzini tənzimləyir. Rejim məhkumların, cəzanı icra edən müəssisələrnin müdiriyyətinin nəzarəti altında olan bütün həyat fəaliyyəti sahələrini əhatə edir.

Geniş mənada rejimin anlayışından irəli gələrək onun funksiyalarını da nəzərdən keçirmək məqsədəuyğun olardı. Bu funksiyalara tənbehedici, tərbiyəedici, təminedici və sosial nəzarət funksiyaları aiddir.

**Tənbehedici funksiya,** cəzaçəkmə prosesində məhkumlara hüquq məhdudiyyətləri sisteminin müəyyənləşdirilməsi yolu ilə həyata keçirilir.

Rejimin **tərbiyəedici funksiyası,** tənbehin həyata keçirilməsi yolu ilə realizə olnur. Rejim qaydaları məhkumu müəyyən edilmiş cəzaçəkmə qaydalarına riayət etməyə məcbur edir, onları intizama dəvət edir.

Rejimin **təminedici funksiyası,** məhkumu əməyə cəlb etmək, tərbiyəvi tədbirləri həyata keçirmək, ümumi təhsili və peşə təhsilini aparmaq üçün yaradılmış hüquqi vasitələrdən istifadə edilməsi yolu ilə həyata keçirilir.

Nəhayət, rejimin **sosial nəzarət funksiyası,** məhkumların davranışını nizama salmaq, onlar üzərində nəzarəti təşkil etmək və pozitiv (həvəsləndirmə tədbirləri) və neqativ (tənbeh tədbirləri) sanksiyaların tətbiq edilməsi əsasında onların davranışının qiymətləndirilməsi yolu ilə həyata keçirilir.

**Tərbiyə işi,** psixoloji-pedaqoji kateqoriya olmaqla, özündə məhkumların şəxsi xüsusiyyətlərini, onların sosial-mənəvi pozğunluq dərəcəsini, törədilmiş cinayətin xarakteri və ağırlığı, yaş, təhsil və cəza müddətindəki davranışını nəzərə almaqla, məhkum-

lara təsir göstərilməsinin üsul və formalarının məcmusunu müəyyənləşdirir.

**İctimai faydalı əmək,** məhkumları islah etmə vasitəsi kimi iqtisadi, tərbiyəvi, ictimai və sağlamlığın qorunması kimi vəzifələri yerinə yetirir. Məhkumların ictimai faydalı əməklə məşğul olması istər milli qanunvericilikdə, istərsə də beynəlxalq aktlarda vacib sayılır. Buna görə də məhkumlar onların iş qabilyyəti, səhhəti, o cümlədən imkan daxilində malik olduqları ixtisas nəzərə alınmaqla işə cəlb olunurlar. Lakin, Azərbaycan Respublikası CİM-in tələbinə görə məhkumların əmək fəaliyyəti cəzanı icra edən müəssisə və orqanların əsas vəzifəsinə, yəni məhkumların islah edilməsinə mane olmamalıdır.

**Məhkumların ümumi təhsili** onların yalnız müəyyən biliklər əldə etməsinə yönəlməmişdir. Təhsil həmçinin məhkumun mənəvi və estetik tərbiyəsini, onun mədəni səviyyəsinin yüksəldilməsini nəzərdə tutur.

**Peşə təhsili və peşə hazırlığı** islah etmə prosesində məhkumlara yeni ixtisas almaq və ya mövcud ixtisası artırmaq imkanı verir.

**İctimai təsir,** yəni ictimaiyyətin islah etmə prosesində iştirakı cəzanı icra edən müəssisə və orqanların məhkumların islah edilməsi məqsədilə həyata keçirdikləri tədbirlərin səmərəsinin daha da artırılmasına kömək edir.

Əlbəttə, islah etmə vasitələri bütün məhkumlara tam şəkildə və eyni həcmdə tətbiq olunmur. Azərbaycan Respublikası CİM-in 8.3-cü maddəsi müəyyən etmişdir ki, məhkumlara islah etmə vasitələri təyin edilmiş cəzanın növü, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla tətbiq edilir.

Cəzanın icrasının və islah təsiri prosesinin **differensiasiyası,**

törətdikləri cinayət əməlinin ictimai təhlükəlilik dərəcəsindən və xarakterindən, keçmiş cinayətkar fəaliyyətindən asılı olaraq məhkumların müxtəlif kateqoriyalarına müxtəlif həcmdə tənbeh təsirinin, hüquq məhdudiyyətlərinin tətbiqini nəzərdə tutur, onlarla tərbiyə işinin məhkumların şəxsiyyətlərinin, yaş hədlərinin, cinslərinin və digər pedaqoji-psixoloji xüsusiyyətlərinin tipoloji xüsusiyyətləri nəzərə alınmaqla aparılmasını tələb edir.

Əgər cəzanın icrasının differensiasiyası əsasən cəzaçəkmə müəssisəsinin müəyyən növünün hüdudları (çərçivəsi) ilə məhdudlaşdırılırsa, islah təsirinin differensiasiyası konkret cəzaçəkmə müəssisəsi hüdudlarında həyata keçirilir.

Cəzanın icrasının və islah təsiri tədbirlərinin **fərdiləşdirilməsi,** törətdikləri cinayət əməlinin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, şəxsiyyəti, həmçinin davranışları nəzərə alınmaqla məhkumlara fərdi qaydada islah edilmə vasitələrinin tətbiqini nəzərdə tutur, cəzanın icrasının fərdiləşdirilməsinə əsaslanır. O, konkret məhkuma tənbeh təsirinin həcminin dəyişdirilməsi yolu ilə bir cəzaçəkmə müəssisəsinin növü hüdudunda, həmçinin məhkumu bir cəzaçəkmə müəssisəsi növündən digərinə keçirmə yolu ilə həyata keçirilir.

## Mövzu 5. Məhkumların xarakteristikası və onların hüquqi vəziyyəti (statusu)

Cəzaların icrası üzrə bütün fəaliyyət bu və ya digər şəkildə məhkumun şəxsiyyətinin öyrənilməsi ilə bağlıdır. Məhkumların şəxsiyyətinin ətraflı öyrənilməsi onların islah olunması işinin əsasını təşkil etməklə yanaşı, həm də onlarla fərdi tərbiyə işinin daha səmərəli təşkilinə kömək edir.

Məhkumun şəxsiyyətinin öyrənilməsi prosesi çox mürəkkəbdir. Çünki şəxsiyyəti xarakterizə edən hallar və əlamətlər kifayət qədər çoxdur. Onları sosial-demoqrafik, cinayət-hüquqi və cəza-icra xarakteristikalarına görə qruplara bölmək olar.

Məhkumların **sosial-demoqrafik** xarakteristikasına aiddir:

- yaş;
- cins;
- ailə vəziyyəti;
- əmək qabiliyyəti;
- təhsil;
- məşğuliyyət növü;
- daimi yaşayış yerinin olması;
- vətəndaşlıq.

Məhkumların **cinayət-hüquqi** xarakteristikasına aiddir:

- törətdilmiş cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi;
- törətdilmiş cinayətlərin kateqoriyası (ağırlığı);
- törədilmiş cinayətlərin residivi;
- təqsirin forması;
- təyin edilmiş cəzanın növü.

Məhkumların **cəza-icra** xarakteristikasına aiddir:

- cəza çəkmə yeri;

- yaşayış yeri;
- cinayətin törədildiyi yer;
- haqqı ödənilən işlə təmin olunma;
- peşə təhsili və peşə hazırlığı;
- ümumi təhsil;
- məhkuma tətbiq edillən həvəsləndirmə və tənbeh tədbirləri;
- özfəaliyyət təşkilatlarının işində iştirak;
- islah olunma dərəcəsinin qiymətləndirilməsi.

Məhkumların hüquqi vəziyyətini ümumi şəkildə Azərbaycan Respublikası vətəndaşlarının ümumi statusuna əsaslanan və cəza çəkmə dövründə cəza-icra hüquq normaları ilə müəyyən edilən vəziyyət kimi qiymətləndirmək olar. Beləliklə, **məhkumların hüquqi vəziyyəti (hüquqi statusu) – cəzaların çəkilməsi dövründə onların müxtəlif hüquq sahələrinin normalarında təsbit edilən və subyektiv hüquqlarının, qanuni mənafelərinin və hüquqi vəzifələrinin məcmusu vasitəsi ilə ifadə olunan vəziyyətidir.**

Məhkumların xüsusi hüquqi vəziyyətinin (statusunun) fərqləndirici cəhəti ondan ibarətdir ki, o, Azərbaycan Respublikası vətəndaşlarının hüquqi vəziyyətinə (statusuna) əsaslanır. Çünki bu və ya digər növ cəzaya məhkum etmə şəxsi Azərbaycan Respublikasının vətəndaşlığından və ölkənin vətəndaşlarının ümumi hüquqi statusundan məhrum etməyə səbəb olmur.

Dövlət məcburiyyəti hüquqi formada insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasında ifadə olunur. Misal üçün, azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər üçün hərəkət, yaşayış yerini seçmək azadlığının məhdudlaşdırılması, islah işlərinə məhkum olunmuşlar üçün isə, iş yeri və növü seçmək azadlığının məhdudlaşdırılması müəyyən

edilir.

Cəzaçəkmə şəraitində vətəndaşların ümumi hüquqları yalnız məhdudlaşdırılmır, onlar həm də konkretləşdirilir və əlavələrə məruz qalır. Ümumi hüquqların **konkretləşdirilməsi** dedikdə, cəzaçəkmə şəraitində vətəndaşların hüquqlarının, azadlıqlarının və vəzifələrinin bütün incəlikləri ilə aydınlaşdırılması başa düşülür.

Cəza çəkmə şəraitində vətəndaşların hüquq və azadlıqlarına **əlavələr edilməsi,** ictimai həyatda bənzəri olmayan və yalnız bu və ya digər cəza növünün çəkilməsi şəraitinə xas olan səciyyəvi münasibətlərin qanunla tənzimlənməsi hesabına baş verir.

Məhkumların hüquqi vəziyyətinin (statusunun) məzmununa onların **subyektiv hüquqları, qanuni mənafeləri və vəzifələri** daxildir. Onlar bir qayda olaraq, cinayət və cəza-icra hüquq münasibətləri çərçivəsində yaranır və həyata keçirilir. Lakin məhkumların hüquqları, qanuni mənafeləri və vəzifələri konstitusiya, inzibati, mülki və ya digər hüquq sahələrinin normaları ilə tənzimlənən münasibətlərdə də yarana bilir.

Məhkumların **subyektiv hüquqları** dedikdə, cəza çəkənlərin müəyyən davranışının və ya onlar tərəfindən sosial nemətlərdən istifadə edilməsinin qanunla təsbit edilən və dövlət tərəfindən təminat verilən, cəzanı icra edən müəssisə və orqanların vəzifəli şəxslərinin, yaranan hüquq münasibətlərinin digər subyektlərinin hüquqi vəzifələri ilə təmin edilən real imkanları başa düşülür.

Məhkumların **qanuni mənafelərini,** cəzaçəkmə müəssisələrinin müdiriyyəti, cəzanı icra edən orqanların vəzifəli şəxsləri və məhkəmə tərəfindən cəzaçəkmə vaxtı onların davranışının qiymətləndirilməsi nəticəsində təmin edilən, məhkumların bu və ya digər nemətləri (imtiyazları) əldə etməyə cəhd üzrə hərəkətləri kimi müəyyən etmək olar.

Məhkumların **vəzifələrini,** cəzaçəkmə zamanı onların qada-

ğanedici və məcburedici hüquq normalarında müəyyən edilən, cəzanın məqsədlərinə nail olmanı, cəzaçəkmə vaxtı hüquq qaydasının qorunub saxlanmasını, həm vəzifəli şəxsin özünün, həm də digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə əməl edilməsini təmin edən zəruri davranış tədbirləri kimi müəyyən etmək olar.

Məhkumların hüquqi vəziyyətinin normativ əsasları Azərbaycan Respublikası CİM-in 9.1-ci maddəsində təsbit edilmişdir. Orada qeyd olunur ki, Azərbaycan Respublikası məhkumların hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edir və onları qoruyur, məhkumlara islah edilmə vasitələrinin tətbiq edilməsinin qanuniliyini, cəzaların icrası zamanı onların hüquqi müdafiəsini və şəxsi təhlükəsizliyini təmin edir. Beləliklə, məhkumlar, bəzən dövlət mənafeyi əleyhinə cinayət törətsələr də, hər şeydən öncə onlar Azərbaycan Respublikasının hüquqi və sosial müdafiəsi altında qalırlar. Qeyd edilənlər hüquqların, azadlıqların və qanuni mənafelərin ictimai, hüquqmüdafiə təşkilatları tərəfindən müdafiəsini istisna etmir, lakin burada məhz dövlət müdafiə prosedurasına üstünlük verilir. Bundan başqa, Azərbaycan Respublikası digər vətəndaşlarla və özünün yurisdiksiyası altında olan digər şəxslərlə bərabər surətdə məhkumların da hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edir və onları qoruyur.

Azərbaycan Respublikası CİM-ın 9.2-ci maddəsinə əsasən cəzaların icrası zamanı məhkumlara dair Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual məcəllələri, Cəzaların İcrası Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşdırmalar və istisnalarla onların Azərbaycan Respublikası vətəndaşlarına mənsub olan hüquq və azadlıqlarına təminat verilir.

Azərbaycan Respublikası CİM-in II fəslində ilk dəfə olaraq

məhkumların subyektiv hüquqlarının və hüquqi vəzifələrinin geniş sistemi öz əksini tapmışdır. Qeyd olunan qanunun 10-cu və 11-ci maddələri məhkumların əsas hüquqlarından və vəzifələrindən bəhs edir. Belə ki, Azərbaycan Respublikası CİM-in 10-cu maddəsinə əsasən məhkumların aşağıdakı **əsas hüquqları** var:

- cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək;
- ictimai faydalı əməklə məşğul olmaq;
- bədən tərbiyəsi və idman ilə məşğul olmaq;
- istirahət etmək;
- pensiya və sosial müavinət almaq;
- ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq;
- öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barədə məlumat almaq;
- hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə, bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək;
- cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək;
- dini ayinlərin icra edilməsində iştirak etmək;
- hüquqi yardım almaq;
- "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

- təhsil almaq və peşə hazırlığı keçmək;
- cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki qüsurlardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə, onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək.

Eyni zamanda, əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumlar qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək hüququna malikdirlər.

Azərbaycan Respublikası CİM-in 11-ci maddəsində isə məhkumların aşağıdakı **əsas vəzifələri** təsbit edilmişdir:

- Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən edilmiş vəzifələri yerinə yetirmək;
- cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına riayət etmək;
- Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəllə si-

nin, habelə ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinə riayət etmək;

- cəzanı icra edən müəssisə və orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirmək;
- cəzanı icra edən müəssisə və orqanın işçi heyətinə və cəzaçəkmə müəssisəsinə baş çəkən şəxslərə, habelə digər məhkumlara qarşı nəzakətlə davranmaq;
- "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi dövlət daktiloskopik və dövlət genom qeydiyyatından keçmək.

Ümumiyyətlə, məhkumların qeyd edilən əsas hüquq və vəzifələrinin məzmunu onların vacibliyi və aktuallığından, həmçinin universallıq dərəcəsindən və müxtəlif cəza növləri üçün ümumiliyindən irəli gələrək formalaşdırılmışdır. Qanunverici məhkumların şəxsi təhlükəsizlik, müraciət hüquqlarına, habelə vicdan və dini etiqad azadlıqlarının təmin edilməsinə xüsusi önəm vermiş, onlara müstəqil normalar həsr etmişdir.

Cəzaların İcrası Məcəlləsinin qəbulundan ötən dövr ərzində qanunun 10-cu maddəsinə edilmiş dəyişikliklər, habelə bu Məcəlləyə bir sıra yeni normaların əlavə edilməsi (misal üçün, Azərbaycan Respublikası CİM-in 91-1-ci və 124-1-ci maddələri) məhkumların hüquqi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir etmiş, onu kifayət qədər humanistləşdirmişdir. Belə əlavələrdən biri Azərbaycan Respublikası CİM-in 10.2.2-1-ci maddəsində nəzərdə tutulmuş məhkumların bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququdur. Məhkumların bədən tərbiyəsi və idmanla məşğul olması yeni hüquqdur və onun qanunvericiliyə daxil edilməsi ilk növbədə Azərbaycan Respublikasında "Bədən tərbiyəsi və idman haqqında" Qanunun qəbulu ilə şərtlənir. Eyni zamanda, yeni

hüquq məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktların, yəni BMT-nin Məhbuslarla minimal standart davranış qaydalarının (Nelson Mandela qaydalarının) yenidən baxılımış 23-cü, Avropa Penitensiar Qaydalarının 27-ci qaydalarının tələbləri ilə bağlıdır. Belə ki, hər iki beynəlxalq akt məhkumların bədən tərbiyəsi və idmanla məşğul olmasına şərait yaradılmasını vacib hesab edir. Bu hüququn həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 05 mart 2010-cu il tarixli Qanunu ilə Cəzaların İcrası Məcəlləsinə 91-1-ci maddə əlavə edilmişdir. Yeni maddəyə əsasən cəzaçəkmə müəssisələrinin gün bölgüsündə məhkumlar üçün fiziki məşqlər, o cümlədən səhər gimnastikası və gündə bir saatdan az olmayaraq idmanla məşğul olmaq üçün vaxtın ayrılması nəzərdə tutulmuşdur. Bədən tərbiyəsi və idmanla məşğul olmaq məqsədi ilə cəzaçəkmə müəssisələrində məhkumlar onlar üçün qanunda müəyyən edilmiş məbləğdən əlavə öz vəsaitləri hesabına idman geyimi və alətləri əldə etmək hüququna malikdirlər. Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına əsasən işləyən məhkumlar bədən tərbiyəsi və idmanla işdən sonra, işləməyən məhkumlar isə gün ərzində, asudə vaxtlarda məşğul ola bilərlər.

Azərbaycan Respublikasının CİM-in 10-2.7-1-ci maddəsində öz əksini tapmış növbəti yeni norma məhkumların cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək hüququ ilə bağlıdır. Bu hüququn qanunda birbaşa təsbit edilməsi bir daha təsdiqləyir ki, dövlətimiz məhkumları cəmiyyətin üzvü kimi qəbul edir, onların hüquqlarının qorunmasına təminat verir.

Azərbaycan Respublikasının CİM-nə son illərdə (Azərbaycan Respublikasının 24 iyun 2008-ci il tarixli qanunu ilə) edilmiş əlavələrdən biri məhkumların psixoloji yardım almaq hüququdur. Bu hüququn həyata keçirilməsi üçün cəzaçəkmə müəssisələrində psi-

xoloji xidmət fəaliyyət göstərir. Məhkumlara psixoloji yardım yalnız onların razılığı əsasında göstərilə bilər. Qeyd etmək lazımdır ki, məhkumlara psixoloji yardımı belə fəaliyyətlə məşğul olmaq hüququna malik olan şəxslər və ya əhaliyə bu növ yardım göstərən ixtisaslaşdırılmış xidmətlərin işçiləri də göstərə bilərlər. Belə mütəxəssislərin dəvət olunması məhkumun və ya onun yaxın qohumunun hesabına müəssisə müdiriyyəti tərəfindən həyata keçirilir.

## Mövzu 6. Cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar, onların qarşısında duran vəzifələr

Cəzalar və cinayət-hüquqi xarakterli digər tədbirlər məhkəmə hökmü ilə Azərbaycan Respublikası adından təyin edildiyindən, onun icrası da dövlət tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin birinci hissəsinə əsasən, "məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir." Eyni zamanda, həmin maddənin ikinci hissəsində göstərilir ki, "məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Cəzalar və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası məqsədilə bir halda, xüsusi dövlət müəssisələri və orqanları yaradılır, digər halda isə, bu funksiya cəzaların icrası ilə bilavasitə məşğul olmayan, digər müəssisə və orqanların üzərinə qoyulur. Cəzaları, habelə cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar qanunvericilik tərəfindən, yəni Azərbaycan Respublikası CİM-in 15-ci maddəsində müəyyən edilmişdir. Belə ki:

❖ **ictimai işlər** növündə cəza məhkumun yaşadığı, **cərimə** növündə cəza və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir isə hökmü çıxaran məhkəmənin, həmçinin məhkumun işlədiyi və ya onun əmlakının olduğu yerin icra məmuru tərəfindən icra edilir;

❖ **hüquqi şəxslərə tətbiq edilən cərimə** və **xüsusi müsadirə** növündə cinayət-hüquqi tədbirlər hüquqi şəxsin olduğu yerin icra məmuru tərəfindən icra edilir;

❖ **hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə və hüquqi şəxsi ləğvetmə** növündə cinayət-hüquqi tədbirlər müvafiq icra hakimiyyəti orqanı[1] tərəfindən icra edilir;

---

[1] Burada "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini hüquqi şəxsə müvafiq icazə və ya lisenziyanı vermiş, habelə hüquqi şəxsi ləğvetmə səlahiyyətinə malik Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirirlər.

- **Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma** növündə cəza əsas cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada Dövlət Miqrasiya Xidməti tərəfindən icra edilir;
- **müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə** növündə cəza məhkumun yaşayış yeri üzrə icra məmuru və ya cəzaçəkmə müəssisələrinin müdiriyyəti tərəfindən icra edilir. Həmin cəza ilə bağlı hökmün tələbləri bilavasitə işəgötürən tərəfindən həyata keçirilir;
- **nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə** növündə cəzanı nəqliyyat vasitəsini idarəetmə hüququnu verən orqan icra edir;
- **islah işləri** növündə cəzanı icra məmuru icra edir;
- **azadlığın məhdudlaşdırılması** növündə cəzanı məhkumun yaşayış yeri üzrə icra məmuru icra edir;
- **müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə** növündə cəzaların icrasını cəzaçəkmə müəssisələri həyata keçirirlər;
- **xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə** növündə cəza hökmü çıxaran məhkəmə tərəfindən icra edilir. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə barəsində hökmün tələbləri həmin rütbəni, fəxri adı və ya dövlət təltifini verən orqan tərəfindən həyata keçirilir;
- **hərbi xidmət üzrə məhdudlaşdırma** növündə cəza hərbi qulluqçuların xidmət yeri üzrə hərbi hissə komandiri, **intizam xarakterli hərbi hissədə saxlama** növündə cəza isə bu məqsədlər üçün yaradılmış hərbi hissənin komandiri

tərəfindən icra edilir;

- **şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, habelə cəzasının icrası təxirə salınmış** məhkumlara nəzarəti yaşayış yeri üzrə icra məmurları həyata keçirirlər**.**

Beləliklə, qanunvericiliyin təhlili göstərir ki, cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirlərin icra edilməsi əsasən iki nazirliyə, yəni Ədliyyə və Müdafiə nazirliklərlərinə həvalə edilmişdir. Bu nazirliklər arasında Ədliyyə Nazirliyi xüsusi yer tutur. Belə ki, bu nazirlik daha çox cəza və cinayət-hüquqi xarakterli digər tədbirlərin, yəni cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə, xüsusi müsadirə, müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə və hüquqi şəxsi ləğvetmə tədbirlərinin icrası, eləcə də şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər, cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi vəzifələrinin icrasını təşkli edir. Ədliyyə Nazirliyi üzərinə qoyulmuş sözügedən vəzifələrin icrasını özünün iki qurumu, yəni Probasiya və Penitensiar xidmətləri vasitəsi ilə həyata keçirir.

Penitensiar Xidmət iki cəzanın, yəni müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə

növündə cəzaların, Probasiya Xidməti isə, məhkumun cəmiyyət-dən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə, xüsusi müsadirə, müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirlərinin icrasını təşkil edir. Eyni zamanda, Ədliyyə Nazirliyi İcra Baş İdarəsi vasitəsi ilə hüquqi şəxslər də daxil olmaqla, xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrasını həyata keçirir. Qeyd edilməlidir ki, cəzaları icra edən müəssisə və orqanların məcmusu Azərbaycan Respublikasının cəza-icra sistemini təşkil edir.

Əksər cəzaların və cinayət-hüquqi tədbirlərinin icrasını həyata keçirən Probasiya Xidməti üzərində dayanaq. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə cəmiyyətdən təcrid etmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin nəzdində Probasiya Xidməti yaradılmışdır. Dövlət başçısının 2017-ci ilin noyabr ayının 7-də imzaladığı Fərmanla həmin xidmət Ədliyyə Nazirliyinin strukturunda ayrıca baş idarə səlahiyyətli qurum kimi təsis edilmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 22 dekabr 2017-ci il tarixli qərarı ilə isə Probasiya Xidməti haqqında Əsasnamə təsdiq edilmişdir. Bu Əsasnamə ilə Xidmətin fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları, fəaliyyətinin təşkili qaydası və digər məsələlər tənzimlənmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə, “İcra məmurları haqqında” Qanuna və digər normativ hüquqi xa-

rakterli aktlara istinadən təsdiq edilmiş Probasiya Xidmətinin Əsasnaməsinə əsasən onun aşağıda göstərilən **fəaliyyət istiqamətləri** müəyyən olunmuşdur:

- **cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil edir;**
- **cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;**
- **şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;**
- **cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;**
- **ictimai işlər növündə inzibati tənbehin icrasını təşkil edir;**
- **üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası**

**işini təşkil edir;**

- **qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.**

Penitensiar Xidmət, onun fəaliyyət istiqamətləri, vəzifələri və hüquqları barədə dərsliyin 12-ci, yəni cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təşklilati əsasları mövzusunda ətraflı məlumat verilmişdir.

Müdafiə Nazirliyi qarşına qoyulmuş vəzifələrlə yanaşı hərbi qulluqçulara tətbiq edilən hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların icrasının təşkili vəzifəsini də yerinə yetirir.

Azərbaycan Respublikası CM-in 41.2-ci maddəsində qeyd edilir ki, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Cəzaların icrası mərhələsində bu məqsədlər müəyyən dərəcədə konkretləşdirilir və bu da Azərbaycan Respublikası CİM-in məqsəd və vəzifələrindən bəhs edən 2.1-ci maddəsində öz əksini tapmışdır. Belə ki, qanunvericiliyə əsasən, hökmün çıxarılması ilə sosial ədalətin bərpası məqsədinə artıq nail olunduğundan cəzaların icrası prosesində birinci yerdə məhkumun mənəvi cəhətdən təkmilləşdirilməsi, saflaşdırılması, başqa sözlə, onun islah edilməsi əsas vəzifə qismində çıxış edir. Sonra isə, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi gəlir.

Cəza-icra qanunvericiliyinin təhlili göstərir ki, ümumilikdə cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar qarşısına aşağıdakı əsas vəzifələr qoyulur:

- **məhkəmə hökmünü icra etmək;**
- **məhkumların islah edilməsi prosesini təmin etmək;**

- **həm məhkumlar, həm də digər şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısını almaq.**

Cəzaları, cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar arasında azadlıqdan məhrum etmə cəzasını icra edən cəzaçəkmə müəssisələri xüsusi yer tutur. Cəzaçəkmə müəssisələrinin sistemi çoxşaxəlidir. Cəzaçəkmə müəssisələri üzərinə cəzaların məqsədlərinə, cəzaların icrası qanunvericiliyinin məqsəd və vəzifələrinə nail olunması üzrə konkret vəzifələr qoyulur. Lakin cəzaçəkmə müəssisələri qarşısında həm də yalnız onlara xas olan vəzifələr də durur. Bu vəzifələrə aiddir:

❖ cəzanın icrası rejimini təmin etmək;

❖ məhkumların əməyini təşkil etmək;

❖ məhkumların ümumi və peşə təhsilini, peşə hazırlığını təşkil etmək;

❖ məhkumların sağlamlığının qorunmasını təmin etmək;

❖ məhkumların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini qorumaq;

❖ məhkumlara tərbiyəvi təsir göstərilməsini təşkil etmək;

❖ azadlıqdan məhrum etmə yerlərinin işçi heyətinin sosial-hüquqi müdafiəsini təmin etmək;

❖ işçi heyətin, məhkumların və cəzaçəkmə müəssisəsinə gələn digər şəxslərin təhlükəsizliyini təmin etmək;

❖ əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək və bu fəaliyyəti həyata keçirən digər orqanlara köməklik göstərmək.

Bu vəzifələrin bəziləri üzərində qısa dayanaq.

**Cəzanın icrası rejimini təmin etmək** cəzaçəkmə müəssisələri qarşısında duran əsas vəzifədir. Bu vəzifəni yerinə yetirmək üçün cəzaçəkmə müəssisələrində məhkumların müəyyən edilmiş qaydada uçotu aparılır, onlar dəstələr və istehsal obyektləri üzrə bölünür, onların və müəssisənin ərazisində olan digər şəxslərin

davranışına daimi nəzarət həyata keçirilir, xarici aləmdən təcrid etmənin zəruri səviyyəsi qorunub saxlanır və s.

Cəzaçəkmə müəssisələrində rejimin təmin edilməsi vəzifəsi universaldır. Ona, məhkumlara digər islah təsiri tədbirlərinin tətbiqi prosesində nail olunur. Bir tərəfdən, ictimai-faydalı əmək, məhkumlarla tərbiyə işi, onların ümumi təhsili və peşə təhsili cəzaçəkmə müəssisələrində rejimə ciddi riayət olunması şəraitində tətbiq edilir. Digər tərəfdən, islah təsiri tədbirləri azadlıqdan məhrum etmə yerlərində məhkumda qanuna və hüquq qaydasına hörmətin, ehtiramın aşılanmasına yönəlmişdir.

Cəzaçəkmə müəssisələrinin mühüm vəzifələrindən biri **məhkumların əməyinin təşkilidir.** Bunun üçün cəzaçəkmə müəssisələrinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb edirlər. Məhkumlar müəssisədə təsərrüfat və məişət xidməti üçün cəlb edilə, habelə fərdi təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər.

Cəzaçəkmə müəssisələri qarşısında duran növbəti vəzifə **məhkumların sağlamlığının qorunmasını təmin etməkdir.** Bu vəzifə Azərbaycan Respublikası CİM-in 10-cu maddəsində təsbit olunmuş məhkumların sağlamlığın qorunması hüququndan irəli gəlir. Bu vəzifə dövlət təminatları sisteminin köməyi ilə, başqa sözlə, ətraf mühitin mühafizəsi ilə, məhkumlar üçün zəruri əmək, istirahət, tərbiyə və təhsil şəraitlərinin yaradılması ilə, qidalanma üzərində nəzarətlə, nəhayət, məhkumlara tibbi və sosial yardım təqdim olunması ilə təmin edilir.

**Azadlıqdan məhrum edilmiş şəxslərlə tərbiyə işi aparmaq** vəzifəsi, faktiki olaraq cəzaçəkmə müəssisələrinin bütün işçi heyətinin qarşısına qoyulmuşdur. Bu vəzifə qüvvədə olan qanunvericiliyin izah edilməsi, təbliğat-təşviqat xarakterli, habelə mədəni-

kütləvi və idman tədbirlərinin keçirilməsi yolu ilə realizə olunur. Məhkumlarla **fərdi iş** – onlarla tərbiyə işinin istiqamətlərindən biridir. Bu tədbir hər bir məhkumun şəxsiyyətinin öyrənilməsi əsasında psixoloji-pedaqoji təsir metodlarından geniş istifadə etməklə həyata keçirilir.

Müasir dövrdə cəzaçəkmə müəssisələri qarşısında duran ən aktual vəzifələrdən biri **azadlıqdan məhrum etmə yerlərinin işçi heyətinin sosial-hüquqi müdafiəsinin təmin edilməsidir**. Bu vəzifə milli qanunvericiliyin (ilk növbədə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun) müddəalarından, habelə məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktların normalarından irəli gəlir. Misal üçün, BMT-nin "Məhbuslarla minimal standart davranış qaydaları"nın (Nelson Mandela qaydalarının) 74.3-cü bəndinə əsasən **"...bu işin (**yəni, işçi heyətinin fəaliyyəti) **müstəsna çətin şəraitini nəzərə alaraq, həmin insanlara müvafiq güzəştlər edilməli və iş şəraiti olmalıdır".** Bu məsələ Avropa Penitensiar Qaydalarının 76-79-cu maddələrində də tənzimlənmişdir:

"**76. İşçi heyəti diqqətlə seçilməli, istər xidmətin əvvəlində, istərsə mütamadi həyata keçirilən hazırlıq müddətində, mülki cəmiyyətdə hörmətə malik statusu olmalı və mütəxəssis səviyyəsində əmək haqqı almalıdır.**

**77. Yeni işçi heyətinin seçilməsi zamanı penitensiar müəssisənin müdiriyyəti onların ağır işi yerinə yetirəcəyini nəzərə almaqla vicdanlılıq, humanistlik, ixtisas bacarıqları və şəxsi yararlılıq keyfiyyətlərinin təmin olunmasına xüsusi diqqət yetirməlidir.**

**78. Xüsusi işçi heyəti bir qayda olaraq, dövlət qulluqçusu statuslu daimi işə təyin olunur, əmək intizamının pozulmasına yol verilməməsi, səmərəlilik, möhkəm fiziki və psixoloji sağ-**

**lamlıq şərtlərinə və müvafiq təhsil səviyyəsinə uyğun təminatlı məşğuliyyətlə təmin edilir.**

**79.1. Müvafiq işçi heyətini işə cəlb etmək və işdə saxlamaq üçün əmək haqqı kifayət qədər olmalıdır.**

**79.2. Ödənişlər və əməyin şərtləri hüquq mühafizə orqanlarındakı fəaliyyətin məsuliyyətini əks etdirməlidir".**

Azadlıqdan məhrum etmə növündə cəzanı icra edən müəssisələr "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənmiş **əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək** kimi vəzifəni də yerinə yetirirlər. Bundan başqa, onlar əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinə, yəni daxili işlər, dövlət təhlükəsizliyi və digər orqanlara da köməklik göstərməlidirlər ki, bu da qanunvericilik əsasında cəzaçəkmə müəssisələrinin qeyd edilən orqanlarla qarşılıqlı əlaqələri çərşivəsində həyata keçirilir.

Cəzaların icrası üzrə fəaliyyətləri prosesində cəzanı icra edən müəssisə və orqanlar cinayətkarlığa qarşı bilavasitə və dolayı yolla mübarizə aparan dövlət strukturları ilə də geniş qarşılıqlı əlaqədə olurlar. Bu qarşılıqlı əlaqənin dairəsi törədilmiş cinayətə görə dövlət məcburiyyəti mexanizmində sonuncu element olan cəza-icra sisteminin sosial rolu ilə müəyyən edilir.

Cinayətkarlığa qarşı mübarizə aparan orqanların bir-biri ilə qarşılıqlı əlaqəsinin özünəməxsus spesifikliyi var. Bu xüsusiyyət cəmiyyətin ümumi iqtisadi və siyasi inkişaf səviyyəsi ilə, cinayətkarlığa qarşı mübarizədə həmin orqanın yeri və rolu ilə, onlar qarşısında duran konkret vəzifələrin spesifikliyi və digər amillərlə şərtlənir.

**1. İstintaq orqanları ilə cəzanı icra edən cəzaçəkmə müəssisələrinin və orqanların qarşılıqlı əlaqəsi.** Cinayətlərin istintaqı, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi və cəzanın ic-

rası, fikrimizcə, cinayətkarlığa qarşı mübarizənin bir-biri ilə az əlaqədə olan iki mərhələsini bildirir. Lakin istintaq və təhqiqat orqanları, cəzanı icra edən müəssisə və orqanlar özlərinin təcrübi fəaliyyətlərində bir-biri ilə sıx əlaqədardır və onların qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsində bir-birinə köməklik göstərirlər. Bu xüsusilə də, istintaq orqanları ilə cəzaçəkmə müəssisələrinin qarşılıqlı əlaqəsinə aiddir. Belə ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə görə istintaq orqanları üzərinə yalnız cinayətləri açmaq və cinayətkarları ifşa etmək deyil, həm də cinayətlərin törədilməsinə kömək edən səbəb və şəraiti müəyyən etmək, onların aradan qaldırılması üçün tədbirlər görmək vəzifəsi qoyulmuşdur. Bu müddəa cinayətlərin qarşısının alınması üçün, xüsusilə də cəza çəkən şəxslər tərəfindən cinayətlərin törədilməsinə kömək edən səbəb və şəraitin aşkar edilməsi və aradan qaldırılması üçün prinsipial əhəmiyyətə malikdir. Misal üçün, müstəntiq istintaq zamanı cəzaçəkmə müəssisəsinin işinin təşkilindəki və fəaliyyətindəki çatışmazlıqları aşkar edə bilər. O, istintaq prosesində aşkar etdiyi, məhkumlar tərəfindən yeni cinayətlərin törədilməsinə şərait yaradan çatışmazlıqların aradan qaldırılması barədə cəzaçəkmə müəssisəsinin müdiriyyətinə təqdimat verir və bu da öz növbəsində həmin müəssisələrin işinin təkmilləşdirilməsinə, məhkumlar arasında intizamın möhkəmləndirilməsinə, tərbiyə prosesinin keyfiyyətinin yüksəlməsinə kömək edir.

İstintaq orqanları məhkumların şəxsiyyətinin öyrənilməsi məsələsində cəzanı icra edən müəssisə və orqanların müdiriyyətinə yardım göstərirlər. Bu, xüsusilə də yetkinlik yaşına çatmamış məhkumlarla tərbiyə işinin təşkili üçün əhəmiyyət kəsb edir. Məhkum tərbiyə müəssisəsinə daxil olarkən onun şəxsi işindəki məlumatlar bəzən kifayət qədər tam olmur. İşdə hökmün surəti,

həbs edilmişin anketi və bir sıra digər məlumatlar olur. Burada çox vaxt istintaq prosesində müstəntiqin müəyyən etdiyi və tərbiyəçinin gələcəkdə ehtiyacı olacağı aşağıdakı məlumatlar olmur:

- cinayət törətməyə kömək edən səbəb və şərait haqqında;
- cinayətin törədilməsində yetkinlik yaşına çatmamış məhkumun rolu barədə;
- həbs edilənədək məhkumun məişətdə, istehsalatda davranışını xarakterizə edən məlumatlar;
- şəxsin keçmiş cinayətkar fəaliyyəti haqqında məlumatlar və s.

Müstəntiqin belə məlumatları göndərməsi, tərbiyə müəssisəsinin işçi heyətinə istiqamət verməsi məhkumlarla tərbiyə işinin daha səmərəli təşkili üçün ilkin şərait yaradır. İstintaq orqanları ilə belə qarşılıqlı əlaqə digər cəzaçəkmə müəssisələri üçün də mümkündür.

Cəzadan azad edilmiş və ya cəza çəkən şəxslər tərəfindən yeni cinayətlər törədilərkən, cəzaçəkmə müəssisələrinin müdiriyyəti təqsirləndirilənin şəxsiyyətinin öyrənilməsində istintaq orqanlarına kömək edir, onlara məhkumun ətraflı xarakteristikasını, zəruri hallarda isə, istintaq üçün maraq kəsb edə bilən məhkumun şəxsi işinin digər materiallarının surətini təqdim edir.

Törətdikləri digər cinayətləri istintaq orqanlarından, məhkəmədən gizlədən şəxslər də cəzaçəkmə müəssisələrində cəza çəkə bilər. Belə cinayətləri aşkar etmək həm istintaq orqanlarının, həm də azadlıqdan məhrum etmə yerlərinin müdiriyyətinin mühüm vəzifəsidir.

**2. Cəzanı icra edən müəssisə və orqanların məhkəmələrlə qarşılıqlı əlaqəsi.** Məhkəmələr öz fəaliyyətlərində cəzanı icra edən müəssisə və orqanlarla sıx qarşılıqlı əlaqədə olurlar. Belə əlaqənin spesifikliyi yalnız cəzanı təyin etmək və cəzadan azad et-

mək deyil, həm də üzərlərinə məhkəmə hökmlərinin icrası vəzifəsi qoyulmuş müəssisə və orqanların fəaliyyətinə məhkəmə nəzarətini həyata keçirilməsi ilə şərtlənir.

Məhkəmələrlə cəzanı icra edən müəssisə və orqanların qarşılıqlı əlaqəsinin əsası artıq məhkəmə araşdırması gedişində qoyulur. Bu zaman məhkəmə cinayət törətməkdə təqsirləndirilən şəxslərə tərbiyəvi təsir göstərir və bununla da onlarla həyata keçiriləcək islah işinin səmərəli təşkili üçün şərait yaradır.

Cinayət mühakimə icraatı vətəndaşların, o cümlədən də təqsirləndirilən şəxsləin Azərbaycan Respublikasının qanunlarını dönmədən icra etmək, insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət etmək ruhunda tərbiyə edilməsinə kömək edir. Məhkəmə baxışı gedişində sədrlik edən məhkəmə prosesinin tərbiyəvi təsirini təmin edərək məhkəmə iclasına rəhbərlik edir. Nəhayət, məhkəmə cəza tətbiq etməklə yalnız cinayətkarları tənbeh etmir, həm də onları islah etmək məqsədi güdür.

Azadlıqdan məhrum etmə növündə cəza təyin edərkən, məhkəmə, yalnız onun ölçüsü ilə kifayətlənmir. O, həm də məhkumun cəza çəkəcəyi cəzaçəkmə müəssisəsinin növünü və rejimini müəyyən edir. Bununla da məhkəmə cəzanın azadlıqdan məhrum etmə yerlərində icrasının fərdiləşdirilməsi üçün zəruri şərait yaradır.

Məhkəmə, məhkuma cəzaçəkmə müəssisəsinin müəyyən növünü (həbsxanada, cəzaçəkmə müəssisəsində və ya tərbiyə müəssisəsində saxlama) və rejimin növünü (ümumi, ciddi, xüsusi) təyin edərək, məhkumların müxtəlif kateqoriyalarına differensiasiyalı yanaşmanı həyata keçirir, cəzanın icra olunacağı hüquqi çərçivəni, onun tənbeh təsirini, habelə məhkumlara islah təsirinin xüsusiyyətlərini müəyyən edir.

Məhkəmə, həm də cəzadan azad edilmiş şəxslərin yeni cina-

yət törətməkdə ittiham edilməsi üzrə cinayət işlərinə baxarkən, cəzanı icra edən müəssisə və orqanlara, onların işdə buraxdıqları nöqsan və pozuntuların aradan qaldırılmasında köməklik göstərə bilər.

Azərbaycan Respublikasının ərazisində hüquq qaydasının təmin edilməsi üzrə ümumi vəzifələrin mövcud olması cəzanı icra edən müəssisə və orqanlarnın hakimiyyət və müvafiq icra hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqədə olmasını nəzərdə tutur. Belə qarşılıqlı əlaqə barədə qanunvericilik aktlarında birbaşa göstəriş vardır. Misal üçün, Azərbaycan Respublikasının CİM-də göstərilən orqanların qarşılıqlı əlaqəsinin istiqamətləri müəyyən edilmişdir. Hər şeydən əvvəl burada maddi və digər yardımın göstərilməsini qeyd etmək olar. Dövlət hakimiyyəti və müvafiq icra hakimiyyəti orqanları cəzaçəkmə müəssisələri ilə qarşılıqlı surətdə cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin hüquqi və sosial müdafiəsi təminatlarının həyata keçirilməsində iştirak edirlər.

Cəzaların icrası qanunvericiliyi cəzaçəkmə müəssisələrinin əməkdaşlarının bir sıra sahələrdə imtiyazlarını, onlara bəzi güzəştlər edilməsini nəzərdə tutur. Bu tədbirlər yerli icra hakimiyyəti orqanlarının köməyi ilə həyata keçirilir.

Cəzaçəkmə müəssisələrinin təsərrüfat ehtiyaclarını və istehsal fəaliyyətini təmin etmək üçün bir sıra məhkumlara cəzaçəkmə müəssisəsindən kənarda müşayiətsiz hərəkət etmək hüququ verilir. Belə məhkumların davranış qaydaları, onların hərəkət marşrutu, Ədliyyə Nazirliyi ilə razılaşdırılmaqla cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilir.

Məhkumlarla tərbiyə işinin aparılmasında dövlət hakimiyyəti və müvafiq icra hakimiyyəti orqanları ilə cəzaçəkmə müəssisələrinin qarşılıqlı əlaqəsi mühüm əhəmiyyətə malikdir. Belə qarşılıqlı

əlaqə formaları kifayət qədər genişdir:

- ❖ tərbiyə işinin maddi bazasını yaratmaq və yaxşılaşdırmaq;
- ❖ aparılan tərbiyəvi tədbirlərdə iştirak etmək;
- ❖ belə tədbirlərdə iştirak etməyə ictimaiyyət nümayəndələrini cəlb etmək və s.

Belə qarşılıqlı əlaqə formaları içərisində məhkumlara islah təsirinin nəticələrinin möhkəmləndirilməsi üzrə tədbirlər xüsusi yer tutur. Çünki bu tədbirlər yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yönəlmişdir. Fəaliyyətin bu istiqamətində qarşılıqlı əlaqənin vacibliyi həm də cəzaçəkmə müəssisələrinin işinin az səmərəliliyi ilə izah olunur. Bunun da nəticəsində bəzi məhkumlar tam islah olunmadan cəzadan azad olunur və yenidən cinayət törədirlər.

Cəzanı icra edən müəssisə və orqanların ərazi polis orqanları ilə qarşılıqlı əlaqəsi cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər tərəfindən, ilk növbədə isə ağır cinayətlərə görə məhkum edilmiş şəxslər tərəfindən törədilə biləcək cinayətlərin profilaktikasına və qarışısının alınmasına yönəlmişdir. Bu orqanların qarşılıqlı əlaqəsində iki mərhələni göstərmək olar. **Birinci mərhələ,** hazırlıq mərhələsi adlanır. Bu mərhələ məhkumun azad edilməsinə üç ay qalmış başlayır. Bu mərhələdə qeyd edilən orqanlar cəzadan azad ediləcək məhkumla azad edilmədən sonrakı həyat şərtləri və qaydaları barədə, gələcək iş və yaşayış yeri barədə və s. söhbətlər aparır.

**İkinci mərhələ,** cəzadan azad edilənlər barəsində cəzanı icra edən müəssisə və orqanlarla polis orqanlarının bir-birinə qarşılıqlı məlumat verməsi mərhələsi adlanır. Burada azad edilmiş məhkumun şəxsiyyətini xarakterizə edən məsələlərə, onun cinayətkar əməlləri davam etdirmək meyli (əgər bu faktlar cəza çəkmə prosesində aşkar edilmişsə) barədə məsələlərə baxılır.

# Mövzu 7. Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar struktur baxımından Azərbaycan Respublikasının cinayətkarlığa qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının sisteminə daxildir. Onların fəaliyyəti məhkumların islah edilməsinə, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yönəldiyi üçün dövlət və cəmiyyət üçün çox əhəmiyyətlidir.

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar tərəfindən məhkumların hüquqlarının və qanuni mənafelərinin mühafizəsinin təmin edilməsində cəmiyyətin və dövlətin həyata keçirdiyi nəzarət mühüm əhəmiyyətə malikdir. Çünki cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası zamanı cəzaların icrası qanunvericiliyinin məqsəd və vəzifələrinin realizə olunma dərəcəsi bu müəssisə və orqanların işçi heyətindən asılıdır. Bu barədə yalnız milli qanunvericilikdə deyil, həmçinin də bir sıra beynəlxalq hüquqi sənədlərdə birbaşa göstəriş var. Belə ki, BMT-nin 17 dekabr 1979-cu il tarixli 34/169 saylı qətnaməsi ilə qəbul edilmiş "Hüquq mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsi"ndə qeyd olunur:

**"- xidməti vəzifələrini yerinə yetirən hər bir hüquq mühafizə orqanı əməkdaşı insan ləyaqətinə hörmətlə yanaşmalı və onu müdafiə etməli, eyni zamanda bütün insanların insan hüquqlarını təmin etməli və qorumalıdır (maddə 2);**

**- hüquq mühafizə orqanlarının əməkdaşları tutulan şəxslərin sağlamlığının tam qorunmasını təmin etməlidirlər və zəruri hallarda təcili tibbi yardımın təmin edilməsi üçün cavab-**

**dehdirlər (maddə 6);**

**- hüquq mühafizə orqanlarının əməkdaşları qanunlara və bu Məcəlləyə riayət etməlidirlər. Onlar bütün bacarıqları ilə səy göstərməli, qanunların pozulmasına qarşı qətiyyətli olmalı, belə pozuntuların qarşısını almalıdırlar. Hüquq mühafizə orqanlarının əməkdaşları bu Məcəllənin pozulduğunu və ya pozulacağını bildiyi halda bu barədə öz rəisinə, zəruri hallarda isə aidiyyəti üzrə müvafiq dövlət orqanına müraciət etməlidirlər (maddə 8)".**

Eyni zamanda, BMT-nin 2015-ci il tarixli "Məhbuslarla minimal standart davranış qaydaları"nın 74-cü qaydasının 1-ci bəndində göstərlir ki, **"Həbsxanaların idarəsi bütün kateqoriyalardan olan işçilərin diqqətlə seçilməsinin qayğısına qalmalıdır. Belə ki, həbsxanaların yaxşı idarə edilməsi bu əməkdaşların vicdanlığından, humanistliyindən, səriştəsindən və şəxsi keyfiyyətlərindən asılıdır".**

Habelə, BMT-nin 14 dekabr 1990-cı il tarixli 15/111 saylı qətnaməsi ilə təsdiq edilmiş "Məhbuslarla davranışın əsas prinsipləri"nin 10-cu prinsipində qeyd edilir ki, **"zərərçəkmişlərin maraqları hərtərəfli nəzərə alınmaqla, ictimaiyyətin və sosial institutların iştirakı və köməyi ilə sabiq məhbuslara cəmiyyətə inteqrasiya üçün əlverişli şərait yaradılır".**

Nəhayət, Avropa Şurasının 11 yanvar 2006-cı il tarixli "Avropa Penitensiar Qaydalar"nın 92-ci qaydasında göstərlir: **"Penitensiar müəssisələr dövlət orqanları vasitəsi ilə idarəetmənin milli qanunvericiliyə və beynəlxalq hüquqa, habelə bu Qaydalara uyğunluğunun qiymətləndirilməsi məqsədilə vaxtaşırı təftiş edilirlər".**

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarətin mahiyyəti aşağı-

dakılardan ibarətdir:

- **birincisi,** bu müəssisə və orqanlar tərəfindən özlərinin funksional vəzifələrinin həyata keçirilməsinə nəzarətin həyata keçirilməsindən;

- **ikincisi,** cəzanın icra edildiyi yerlərdə qanunçuluğun və hüquq qaydasının vəziyyəti barədə obyektiv və düzgün informasiya əldə edilməsindən;

- **üçüncüsü,** qanunçuluğun və intizamın pozulmasının qarşısının alınması və aradan qaldırılması üzrə tədbirlərin görülməsindən;

- **dördüncüsü,** cinayətlərin və digər hüquq pozuntularının törədilməsinə kömək edən səbəb və şəraitin aşkar edilməsindən;

- **beşincisi,** qanunçuluğun və intizamın pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi üzrə tədbirlərin görülməsindən.

**Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət dedikdə, hüquq pozuntularının aşkar edilməsi, onların qarşısının alınması və gələcəkdə baş verməsinin xəbərdarlığı məqsədi ilə bu müəssisə və orqanların fəaliyyətinin cəzaların icrası qanunvericiliyinin, digər normativ hüquqi aktların tələblərinə uyğunluğu üzərində müşahidə və yoxlamalar sistemi başa düşülür.**

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət böyük sosial-hüquqi əhəmiyyətə malikdir. İlk öncə, nəzarətin həyata keçirilməsi gedişində cəzaların icrası zamanı **qanunçuluğa riayət edilməsi** təmin edilir.

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar, onların fəaliyyətinə nəzarət, onun növləri və qaydası Azərbaycan Respublikası CİM-in III fəslində təsbit

edilmişdir. Bu fəsildəki normalarla tənzimlənən nəzarət müxtəlif əsaslar üzrə təsnif edilə bilər. Ümumən, nəzarəti həyata keçirən subyektlərdən asılı olaraq, **dövlət, ictimai və beynəlxalq** nəzarət növləri fərqləndirilir.

Qeyd olunmalıdır ki, cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən orqanlar üzərində nəzarətin, cəzanı icra edən müəsisisə orqanlar üzərində həyata keçirilən nəzarətə kifayət qədər oxşarlığı olsa da, müəyyən fərqlər də mövcuddur. Həmin fərqlər ilk növbədə, cinayət-hüquqi xarakterli digər tədbirlərin sayının cəzaların sayından azlığı, cəza sistemində hüquqi şəxsi ləğv etmə növündə cəza növünün olmaması ilə nəzəri cəlb edir. Digər fərqlər icra prosesində yaranan cəza-icra hüquq münasibətlərinin subyektlərinin müxtəlifliyi, yəni fiziki və hüquqi şəxslər olması, onların icrasındakı xüsusiyyətləri, habelə, cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası üzərində həyata keçirilə bilən ictimai və beynəlxalq nəzarətin konkret mexanizmlərinin müəyyən edilməməsi ilə əlaqədardır.

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə **dövlət nəzarəti** aşağıdakı orqanlar tərəfindən həyata keçirilir:

1. **dövlət hakimiyyəti orqanları;**
2. **müvafiq icra hakimiyyəti orqanları;**
3. **məhkəmə.**

Dövlət hakimiyyəti orqanlarına Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və yerli icra hakimiyyəti orqanları aiddir.

Cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanlarının nəzarətinin hüquqi əsası 2000-ci il Cəzaların İcrası Mə-

cəlləsinin qəbulu ilə qoyulmuşdur. Belə ki, Azərbaycan Respublikasının CİM-in 18-ci maddəsi birbaşa olaraq cəzaların icrasına müvafiq icra hakimiyyəti orqanlarının nəzarətinə həsr edilmişdir. Həmin maddəyə əsasən "Cəzaları icra edən müəssisə və orqanın fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Bu nəzarətin həyata keçirilməsi qaydaları normativ hüquqi aktlarla müəyyənləşdirilir". Bir qayda olaraq müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama növündə cəzalara aid hissədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 99-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Onun ayrı-ayrı sahələr üzrə səlahiyyətlərindən irəli gələn funksiyaları müvafiq dövlət orqanları tərəfindən həyata keçirilir. Belə ki, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanları, başqa sözlə desək, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi öz səlahiyyətləri daxilində hərbi qulluqçulara tətbiq edilən cəza növlərinə aid hissədə isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir.

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanının 2-ci bəndinə əsasən ədliyyə orqanlarına icrası həvalə edilmiş cəzaların icrasına nəzarəti bu məqsədlər üçün yaradılmış Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyi həyata keçirir. Müfəttişliyin Əsasnaməsi Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarəti həyata keçirməsini də dövlət nəzarətinə aid etmək olar. Çünki, bu orqan dövlət təsisatıdır.

**Məhkəmə nəzarətinin** həyata keçirilməsinin növləri və qaydası Azərbaycan Respublikasının Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrində göstərilmişdir.

Cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrasına məhkəmə nəzarəti funksiyası Azərbaycan Respublikası Konstitusiyasının 7-ci və 125-ci maddələrinə, eləcə də digər qanunlara (Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə və s.) əsaslanır. Məhkəmənin fəaliyyətinin əsas növləri, forma və metodları çox müxtəlifdir və kifayət qədər səmərəlidir. Onlar daha çox ədalət mühakiməsi orqanı kimi məhkəmənin rolu ilə izah olunur. Cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanların fəaliyyətinə məhkəmə nəzarətini əsasən üç növə bölmək olar. **Birincisi,** mülki, ailə, əmək və inzibati hüquq münasibətlərindən yaranan mübahisələr üzrə işlərə və mülki mühakimə icraatı qaydaları üzrə həyata keçirilən xüsusi icraat işlərinə baxılması zamanı məhkəmə nəzarətidir. Belə işlərin icraatı zamanı cəzanı icra edən müəssisə və orqanların fəaliyyəti mülki işlər üzrə tərəflərin mübahisəsinin bilavasitə predmeti ola bilər. Misal üçün, azadlıqdan məhrum etmə cəzasının çəkilməsi zamanı əmək qabiliyyətini itirmiş şəxsin cəzaçəkmə müəssisəsinin təqsiri üzündən ona dəymiş ziyanın ödənilməsi haqqında iddiasının həll edilməsi zamanı. Yaxud əksinə, yəni cəzanın çəkilməsi dövründə məhkum tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi barədə cəzaçəkmə müəssisəsinin iddiasına baxılması zamanı. Hər iki halda məhkumların cəza çəkmə dövründə əmək hüquqlarına əməl olunması üzrə cəzanı icra edən müəssisə və ya orqanın fəa-

liyyəti məhkəmə tərəfindən qiymətləndirilə bilər.

Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə məhkəmə nəzarətinin **ikinci növü** cinayət mühakimə icraatı qaydaları üzrə həyata keçirilən cinayət işləri üzrə icraat zamanı nəzarətdir. Nəzarətin bu növü də öz növbəsində iki yerə bölünür:

**a)** məhkəmədə cinayət işlərinə baxılması zamanı nəzarət;

**b)** məhkəmə hökmlərinin icrası məsələlərinə məhkəmə baxışı zamanı nəzarət.

Cəzanın çəkilməsi dövründə məhkumlar tərəfindən törədilmiş cinayətlər üzrə cinayət işlərinə baxılması zamanı da məhkəmə nəzarəti mövcuddur. Belə ki, yuxarı məhkəmə orqanlarının göstərişlərinə əsasən, cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma (Azərbaycan Respublikası CM-in 317-ci maddəsi), cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsi (Azərbaycan Respublikası CM-in 317-1-ci maddəsi), cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi (Azərbaycan Respublikası CM-in 317-2-ci maddəsi) kimi əməllərə görə məsuliyyət haqqında cinayət işlərinə baxılması zamanı məhkəmələr qanunla nəzərdə tutulmuş məsələlərdən əlavə həmin hüquqazidd hərəkətlərin məhkumların hüquqlarının pozulması ilə əlaqədar olub-olmamasını yoxlamağa borcludur. Məhkəmə cəzaçəkmə müəssisəsinin işçi heyəti tərəfindən qanunçuluğun pozulması faktını aşkar edərsə, xüsusi qərardad qəbul etməklə buna öz münasibətini bildirməlidir.

Məhkumların hüquqlarının, qanuni mənafelərinin realizəsi, onlar tərəfindən öz vəzifələrinin icrası məsələləri digər əsaslar üzrə qaldırılmış cinayət işlərinə baxılması zamanı məhkəmə nəza-

rətinin predmeti ola bilər.

Hökmün icrası mərhələsində cəzaların icrasına məhkəmə nəzarəti:

- ❖ cəzanın icrası şərtlərinin dəyişdirilməsi;
- ❖ bir cəza növünün digəri ilə əvəz edilməsi;
- ❖ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə;
- ❖ cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi;
- ❖ məhkumların və digər şəxslərin cəzanı icra edən müəssisə və orqanların müdiriyyətinin hərəkətlərindən şikayətlərə baxılması zamanı həyata keçirilir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 508.1-ci, Azərbaycan Respublikası CİM-in 19.1-ci maddəsinə əsasən, cəzanı icra edən müəssisə və orqanın vəzifəli şəxsləri məhkuma təyin olunmuş cəzanın icrası, cəzanın çəkilmə yeri, məhkumun yerdəyişmələri və azad edilməsi barədə hökm çıxarmış və hökmün icrası barədə göstəriş vermiş hakimə dərhal məlumat verməlidirlər.

Cəzaların icrası qanunvericiliyinə görə (Azərbaycan Respublikası CİM-in 20-ci maddəsi) ictimai təşkilatlar cəzanı icra edən müəssisə və orqanların fəaliyyətində iştirak edə bilərlər. Ümumiyyətlə, ictimai təşkilatların belə iştirakı müxtəlif istiqamətlərdə həyata keçirilə bilər:

**1. Cəzanı icra edən müəssisə və orqanların işində iştirak etmək.** Bu zaman ictimai təşkilatlar cəzanı icra edən müəssisə və orqanların maddi-texniki bazasının möhkəmləndirilməsində, məhkumların və onların ailə üzvlərinin sosial müdafiəsində, cəza çəkməkdən azad edilmiş şəxslərin maddi və məişət şəraitinin təmin edilməsində və s. yaxından köməklik göstərirlər.

**2. Məhkumların islah edilməsində iştirak etmək.** Buraya hamilik işi, müxtəlif tədbirlərdə mühazirələrlə, konsertlərlə məh-

kumlar qarşısında çıxışlar, dini tərbiyə, ictimai tərbiyəçi qismində iş, qrup halında və fərdi qaydada söhbətlərin aparılması və digər tədbirlər aid edilə bilər. Belə iştirakın təşkilati formaları çox müxtəlifdir. Onlar arasında ilk növbədə Himayəçilik Şurasını və Valideynlər komitəsini (onlar tərbiyə müəssisəsində fəaliyyət göstərir), dəstə tərbiyəçilər şurasını (cəzaçəkmə müəssisələrində mövcuddur), tədris-tərbiyə şuralarını (tərbiyə müəssisəsində yaradılır), cəzaçəkmə müəssisələrində özfəaliyyət təşkilatlarını, çoxsaylı beynəlxalq hüquq-müdafiə təşkilatlarını göstərmək olar.

**3. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət etmək.** Belə nəzarətin hüquqi əsası Azərbaycan Respublikası CİM-in 20-ci maddəsində göstərilmişdir. Həmin maddəyə uyğun olaraq **"Məhkumların islah edilməsində ictimaiyyətin iştirakı və cəzanı icra edən müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi Qaydaları"** hazırlanmış, bu normativ akt Ədliyyə Nazirliyi Kollegiyasının 29 dekabr 2011-cı il tarixli 7-N nömrəli Qərarı ilə təsdiq olunmuşdur. Bu Qaydalarda ictimaiyyətin belə fəaliyyətinin məqsəd və prinsipləri, məhkumların islah edilməsində iştirakın və ictimai nəzarətin formaları, ictimai nəzarətin həyata keçirilməsində iştirak etmək istəyən şəxslərin seçilməsi, bu şəxslərə aid tələblər və digər məsələlər öz əksini tapmışdır.

Həmin Qaydaların 5.1-ci bəndində ictimai nəzarətin həyata keçirilməsinin əsas formaları göstərilmişdir:

- ❖ cəzaçəkmə müəssisələrində saxlanma şəraiti, maddi-məişət, tibbi-sanitariya təminatı, məhkumların əməyə cəlb olunması, onlarla həyata keçirilən tərbiyə işi, ümumi təhsil, peşə təhsili və peşə hazırlığı işinin təşkili ilə tanış olmaq;
- ❖ cəzaçəkmə müəssisələrində keçirilən kütləvi tədbirlərdə

iştirak etmək, işçi heyəti və məhkumlarla görüşlər keçirmək;

- cəzaçəkmə müəssisələrində məhkumların qəbulunu keçirmək, onların hüquq və azadlıqlarının pozulmasına dair müraciətlərini qəbul etmək, onları müdiriyyət vasitəsilə aidiyyəti üzrə göndərmək;
- zəruri hallarda cəzaçəkmə müəssisələrinin nümayəndəsinə görmək imkanı verən, lakin eşitməyi istisna edən şəraitdə məhkumlarla təklikdə söhbət etmək;
- aidiyyəti normativ hüquqi aktlarla, habelə zəruri hallarda məhkumlar barəsində məhkəmə qərarları ilə tanış olmaq;
- cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin olunması ilə əlaqədar müdiriyyətə müraciət etmək;
- cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar, habelə müəyyən olunmuş pozuntu və nöqsanların aradan qaldırılması üçün Ədliyyə Nazirliyinə tövsiyə xarakterli təkliflər vermək.

Cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə **beynəlxalq nəzarət** beynəlxalq aktlarda, ilk növbədə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (1948-ci il), İşgəncələrə qarşı BMT və Avropa konvensiyalarında (müvafiq olaraq 1984 və 1987-ci illər), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il) nəzərdə tutulmuşdur. Sadalanan aktlara istinadən nəzəriyyədə beynəlxalq nəzarətin dörd növü müəyyənləşdirilmiş və onlar aşağıdakılardır:

**1. Dövlətlər tərəfindən insan hüquqlarına (o cümlədən, cəzaların icrası zamanı) əməl olunması barədə təqdim olunmuş dövri hesabatlara, məruzələrə baxılması.**

BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqətli alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyasına Azərbaycan Respublikası 31 may 1996-ci ildə qoşulduqdan sonra həmin Konvensiyanın 19-cu maddəsinin müddəalarına uyğun olaraq dövlətimiz göstərilən beynəlxalq aktın icrası ilə əlaqədar üzərinə götürdüyü öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə hər dörd ildən bir dövrü hesabat hazırlayır və onu Azərbaycan Respublikasının Hökuməti adından Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinə təqdim edir. Hesabatın hazırlanması və təqdim edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xarici işlər Nazirliyinin rəhbərliyi ilə müxtəlif nazirliklərin (Ədliyyə, Müdafiə, Daxili İşlər, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri), Dövlət Təhlükəsizliyi Xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, habelə ölkənin Baş Prokurorluğunun və digər dövlət qurumlarının rəhbər işçilərindən ibarət işçi qrupu yaradılır. Qeyd olunmalıdır ki, 1999, 2003, 2009 və 2015-ci illərdə BMT-nin İşgəncələrə qarşı Komitəsində Azərbaycan Respublikasının təqdim etdiyi dövri hesabatlara baxılmış və onlar üzrə müvafiq qərarlar qəbul olunmuşdur.

Dövlətimiz tərəfindən sözügedən Konvensiyaya uyğun olaraq sonuncu hesabat 2020-ci ildə təqdim olunmuşdur. Qeyd edilməlidir ki, hesabat hazırlanarkən ölkədə insan hüquqlarının təmin edilməsi ilə əlaqədar müxtəlif məsələlərlə yanaşı həbs edilmiş şəxslərin və məhkumların da hüquq və azadlıqlarının həyata keçirilməsinə diqqət ayrılır. Hesabata baxılarkən müzakirə predmeti olmuş məsələlərlə, o cümlədən həbs edilmiş şəxslərlə və məhkumlarla bağlı tövsiyələr verilir, onların həyata keçirilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə təyin edilmiş müddətdə BMT-nin İşgəncələrə qarşı Komitəsinə məlumat verilməsi nəzərdə tutulur.

BMT yuxarıda qeyd olunan beynəlxalq akta uyğun olaraq üzv dövlətlərdə cəzaların icrasına nəzarət mexanizmini gücləndirmək məqsədilə təhlillər aparmış və 18 dekabr 2002-ci ildə İşgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın Fakultativ Protokolunu qəbul etmişdir. Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlandığı yerlərə müstəqil beynəlxalq və milli başçəkmələr sisteminin yaradılmasından ibarətdir. Konvensiyanın Fakultativ Protokolu 22 iyun 2006-cı ildə qüvvəyə minmişdir. Bu beynəlxalq aktı Azərbaycan Respublikası 15 iyun 2005-ci ildə imzalamış və Protokol 02 dekabr 2008-ci il tarixli Oanunla təsdiq edilmişdir. Azadlıqdan məhrum etmə yerlərinə başçəkmələrin həyata keçirilməsi məqsədilə BMT-nin İşgəncələrə qarşı Komitəsinin nəzdində Altkomitə (bu qurum qısa şəkildə **SPT** adlandırılır) yaradılmışdır. Altkomitə iştirakçı dövlətlərin müxtəlif sahələrdə biliklərə malik vətəndaşlarından seçilən on üzvdən (ekspertdən) ibarətdir.

Fakultativ Protokolda nəzərdə tutulmuş işgəncələrin qarşısının alınması məqsədilə başçəkmələr sisteminin ikinci elementi, iştirakçı dövlətlərin təsis etdiyi Milli Preventiv Mexanizmlərdir. İstər Altkomitənin, istərsə Milli Preventiv Mexanizmin tərkibinə daxil olan üzvlərə fəaliyyətlərinin normal təşkili, vəzifələrinin səmərəli, müstəqil həyata keçirilməsi üçün kifayət qədər səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdur. Protokola uyğun olaraq iştirakçı dövlətlər hər iki təsisatın normal fəaliyyətinə təminat verməli, bunun üçün zəruri şərait yaratmalı, başçəkmələrdən sonra verilmiş tövsiyələrin həyata keçirilməsi üçün mümkün tədbirləri görməlidirlər. Altkomitə hər ilin əvvəlində iştirakçı dövlətlərə başçəkmələrlə bağlı proqram qəbul edir və bu barədə dövlətləri

məlumatlandırır. BMT-nin Altkomitəsi 2014-cü və 2015-ci illərdə Azərbaycana səfər etmiş və bu zaman penitensiar müəssisələrə baş çəkmişdir. Milli Preventiv Mexanizmlər isə Altkomitədən fərqli olaraq müvafiq dövlət daxilində başçəkmələri sərbəst, əvvəlcədən xəbərdarlıq etmədən mütəmadi olaraq həyata keçirirlər.

Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı ilə Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) müəyyən edilmişdir. Həmin ildən başlayaraq Milli Preventiv Mexanizmin üzvləri Azərbaycan Respublikasında dəfələrlə tutulmuş və ya azadlığı hər hansı formada məhdudlaşdırılmış şəxslərin saxlanma yerlərinə, o cümlədən cəzaçəkmə müəssisələrinə mütəmadi başçəkmələr həyata keçirir və onların nəticələri barədə aidiyyəti orqanlara hesabatlar təqdim edir, tövsiyələr verir. Eyni zamanda, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun olaraq İnsan hüquqları üzrə müvəkkilin hər il Milli Məclisə təqdim etdiyi "Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında" məruzəsinə digər məsələlərlə yanaşı Milli Preventiv Mexanizmin müvafiq il üzrə fəaliyyəti ilə bağlı məlumatlar da daxil edilir.

**2. İnsan hüquqlarının pozulması barədə xarici dövlətlər və bir sıra beynəlxalq təşkilatlar tərəfindən məlumatlar verilməsi.** Bu nəzarət forması BMT-nin 10 dekabr 1984-cü il tarixli "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"sının 21-ci maddəsinə əsaslanır. Bu maddəyə əsasən:

"**a)** bir iştirakçı dövlət digər iştirakçı dövlətin bu Konvensiyanın müddəalarını yerinə yetirmədiyini hesab edirsə, onda bu

məsələni yazılı surətdə həmin iştirakçı dövlətə bildirə bilər. Bu məlumatı aldıqdan sonra dövlət üç ay ərzində belə məlumatı göndərmiş dövlətə yazılı formada izahat və ya bu məsələni aydınlaşdıran digər bəyanat göndərir; burada mümkün və məqsədəuyğun olduğu qədər daxili prosedurlar və bu məsələ üzrə görülmüş, görüləcək, yaxud görülə biləcək tədbirlər göstərilməlidir;

**b)** məlumat alan dövlət ilk məlumatı aldıqdan sonra altı ay ərzində sözügedən məsələ hər iki müvafiq iştirakçı dövlət üçün qənaətbəxş şəkildə həll edilməzsə, bu dövlətlərdən hər hansı birinin, Komitəyə və digər dövlətə bildiriş göndərməklə, məsələni Komitəyə vermək hüququ vardır;

**c)** Komitə bu maddəyə uyğun olaraq ona verilmiş məsələyə yalnız bütün mümkün daxili hüquq müdafiə vasitələrinin hamılıqla tanınmış beynəlxalq hüquq normalarına müvafiq olaraq tətbiq edildiyini və tükəndiyini yəqin etdikdən sonra baxır...".

**3. Azərbaycan Respublikasının yurisdiksiyası altında olan şəxslərin İnsan hüquqları üzrə Avropa Məhkəməsində fərdi şikayətlərinə baxılması.** Məlumdur ki, hüquqları pozulmuş hər bir şəxs, o cümlədən də məhkumlar pozulmuş hüquqlarının bərpası ilə bağlı məhkəmələrə, həmçinin də İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edə bilərlər. Bu Məhkəməyə müraciət və ona baxılması qaydası 04 noyabr 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası ilə tənzimlənmişdir. Belə ki, Konvensiyanın 35-ci maddəsinə əsasən "Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquqmüdafiə vasitələri tükəndikdən sonra və son qərarın çıxarıldığı tarixdən altı ay müddət keçənədək məsələyə baxa bilər". İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarının icrası üzv dövlətlər üçün məcburidir. Ötən dövr ərzində Azərbaycan Respublikasının vətəndaşlarının şıkayətlərinə İnsan hüquqları üzrə Avropa

Məhkəməsində baxılması, onlar üzrə müvafiq qərarlar qəbul edilməsi halları olmuş və həmin qərarların icrası ilə bağlı tədbirlər zəruri tədbirlərin görülməsi təmin edilmişdir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən üzv dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə əlaqədar qəbul edilmiş qərarlar həmin məhkəmənin rəsmi saytında yerləşdirilmişdir.

**4. İşgəncələrə qarşı Avropa Komitəsinin (CPT) üzvləri, Avropa Şurası ekspertləri tərəfindən cəzanı icra edən müəssisə və orqanlara baş çəkilməsi.** Azərbaycan Respublikası müvafiq Avropa Konvensiyasını ratifikasiyası haqqında 2002-ci ilin 15 apreldə qanun qəbul etmişdir. Həmin qanun qüvvəyə mindikdən sonra İşgəncələrə qarşı Avropa Komitəsi 2002-2021-ci illərdə bir neçə dəfə ölkəmizə səfərlər etmiş, bu zaman digər məcburi saxlanma yerlərinə, o cümlədən istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə də baş çəkmiş və başçəkmənin nəticələrinə dair hökumətə müvafiq yekun hesabatlar təqdim olunmuşdur. Hesabatlarda verilmiş tövsiyələrlə bağlı müxtəlif xarakterli tədbirlər görülmüş, onların nəticələri barədə İşgəncələrə qarşı Avropa Komitəsinə məlumat təqdim edilmişdir.

Avropa Şurası müvafiq sahədə ixtisaslaşmış ekspertlər qrupunun vasitəsi ilə 1998-ci və 2003-cü illərdə dövlətimizlə birilkdə həyata keçirilən layihələr çərçıivəsində Azərbaycanın penitensiar, yəni cəza-icra sisteminin təhlilini aparmış və onların nəticələri barədə respublikamızın hökumətinə cəzaların icrası ilə əlaqədar tövsiyələri özündə əks etdirən hesabatlar təqdim etmişdir. Qeyd olunan hesabatlarla bağlı zəruri, o cümlədən respublikanın cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi ilə əlaqədar tədbirlər görülmüşdür.

Qeyd olunmalıdır ki, bütün dünyada, o cümlədən Azərbaycan Respublikasında beynəlxalq nəzarətin mövcud formalarından fəal şəkildə istifadə edilir.

# XÜSUSİ HİSSƏ

## Mövzu 8. Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların və əlavə cəzaların icrası

Son illərdə azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılması, onun alternativlərlə əvəz olunması və nəticədə cəzaçəkmə müəssisələrində məhkumların sayının aşağı düşməsi dövlətlərin cinayət-hüquq siyasətində xüsusi yer tutmaqdadır. Bu da təsadüfi deyildir. Çünki azadlıqdan məhrum etmə növündə cəzaya alternativlər, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalar həm dövlət, həm də məhkumlar üçün daha əlverişlidir. Belə ki, məhkəmələr bu cəza növlərini təyin etməklə ilk növbədə, dövləti məhkumların cəza çəkəcəyi ixtisaslaşdırılmış müəssisələrin yaradılması, onların saxlanması ilə əlaqədar kifayət qədər maliyyə vəsaiti ayırmaqdan azad edir. Digər tərəfdən, bu cəza növlərinə məhkum olunmuş şəxslər azadlıqdan məhrum etmə yerlərində saxlanılan kriminal yönümlü məhkumlarla təmasda olmur, kütləvi qaydada deyil, azadlıqda sərbəst şəkildə islah təsiri tədbirlərinə məruz qalır, onların ailələri, tanışları, işlədikləri əmək kollektivinin üzvləri ilə faydalı sosial əlaqələri pozulmur, əmək fəaliyyətlərini davam etdirir, eləcə də gələcəkdə aktual məsələlərdən biri olan sosial adaptasiya, yəni azad həyata uyğunlaşma kimi problemli məsələ ilə üzləşmirlər.

Bütün dünyada azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların daha geniş tətbiqi, onların dairəsinin genişləndirilməsi, digər ölkələrdə istifadə edilən müxtəlif alternativlərin (probasiya, sınaq sistemi, mediasiya (barışıq) institutu və s. tədbirlər) təşviqi davam edir. Belə ki, BMT-nin hələ 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərə dair minimal standart qaydaları"nda (Tokio qaydaları), habelə Avropa Şurasının bir sıra akt-

larında, xüsusilə 20 yanvar 2010-cu il tarixli Avropa Probasiya Qaydalarında cəza təyini zamanı azadlıqdan məhrum etməyə alternativlərin daha geniş tətbiqi tövsiyə edilmişdir.

Azərbaycan Respublikası da bu təşəbbüsə qoşulmuş, ölkədə cəza siyasətinin humanistləşməsi, cəza tətbiqi təcrübəsində alternativlərin geniş tətbiqinə xüsusi əhəmiyyət verilir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu 25 iyun 2003-cü il tarixli "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" qərarında məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara daha cox üstünlük verilməsini tövsiyə etmişdir.

Eyni zamanda, azadlıqdan məhrum etməyə alternativlərin geniş tətbiqinin təmin olunması, cəzaların icrası sahəsində islahatların müasir dövrün tələblərinə, beynəlxalq qabaqcıl təcrübəyə uyğun davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasi Prezidenti cənab İlham Əliyev 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Uzun müddətə hesablanmış, hüquq mühafizə, o cümlədən cəzanı icra edən müəssisə və orqanlar üçün strateji hədəfləri özündə əks etdirən "xəritə" rolunu oynayan həmin sənəddə bir daha azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların məhkəmə təcrübəsində geniş tətbiq edilməsinin vacibliyi xüsusi olaraq vurğulanır. Ölkə başçısı tərəfindən cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmış, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi prosesində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin

genişləndirilməsi məqsədilə elektron nəzarət vasitələrinin tətbiqi məqsədəuyğun hesab edilmişdir.

Ölkə başçısı cəza siyasətinin humanistləşdirilməsi, cəzanın və qətimkan tədbirlərinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə əlaqədar aidiyyəti dövlət strukturlarına tapşırıqlar vermişdir. Ötən müddət ərzində bu tapşırıqlara uyğun olaraq kompleks tədbirlər görülmüş, cinayət qanunvericiliyi əsaslı şəkildə humanistləşdirilmiş, Milli Məclis, Nazirlər Kabineti tərəfindən cəzaların səmərəli icrasına yönəlmiş qanunlar və digər normativ hüquqi aktlar qəbul edilmiş, həbs qətimkan tədbirinin, habelə azadlıqdan məhrumetmə cəzasının tətbiqi ilə əlaqədar istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin və məhkumların sayı müəyyən qədər azalmış, alternativ cəzaların icrasını təmin edən Ədliyyə Nazirliyinin Probasiya xidməti fəaliyyətə başlamış, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi zamanı elektron qolbaqlardan istifadə geniş vüsət almışdır.

Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların sistemində **məcburi əmək fəaliyyəti ilə əlaqədar** və **əlaqədar olmayan** cəzaları fərqləndirmək lazımdır.

Məcburi əmək fəaliyyəti ilə əlaqədar olmayan cəzalara **cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, azadlığın məhdudlaşdırılması və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma** aiddir. Bu qrup cəzaların spesifikliyi ondan ibarətdir ki, bu zaman məhkumlara azadlıqdan məhrum etmə növündə cəzada olduğu kimi daimi islah və tərbiyəvi təsir

göstərilmir. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma və azadlığın məhdudlaşdırılıması növündə cəzalar istisna olmaqla, digər cəzalar məhkumun hərəkət azadlığını, yaşayış yeri və iş yeri seçmək hüququnu məhdudlaşdırmır.

İndi isə ardıcıllıqla yuxarıda sadalanan cəzaların icrası qaydası və şərtləri ilə tanış olaq.

**Cərimə.** Azərbaycan Respublikası CM-in 44-cü maddəsinə əsasən, cərimə qanunla müəyyn edilən həddə məhkəmə tərəfindən məhkum barəsində tətbiq edilən pul tənbehidir. Cərimə həm əsas, həm də əlavə cəza növüdür. Cərimə növündə cəzanın icrasını icra məmuru həyata keçirir.

Cərimə təyini barədə hökm qanuni qüvvəyə mindikdən sonra icra məmuru:

- hökmün (qərarın) daxil olması və icraya qəbul edilməsi ilə bağlı məhkəməyə məlumat verir;
- məhkuma cəzanın icrasının qayda və şərtlərini izah edir;
- məhkumu qeydiyyata götürür və ona şəxsi iş açır;
- məhkum edilmiş şəxs barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir;
- məhkəmənin hökmü (qərarı) barədə yeddi gün müddətində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir;
- məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirir;
- yeri məlum olmayan məhkumların müəyyən olunmuş qaydada axtarışını təşkil edir;
- məhkumun ölkədən çıxışına müvəqqəti məhdudiyyət qoyur;

- cərimə cəzasının icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

İcra məmuru təyin edilmiş cərimə məbləğinin bir aydan gec olmayaraq ödənilməsi tələbini məhkuma izah edir və cərimənin ödənilməməsi təqdirində onun müəyyən məhrumiyyətlərlə üzləşəcəyini, yəni cərimənin məcburi tutulacağı barədə xəbərdar edir. Qanun, yəni Azərbaycan Respublikasının CPM-in 510-cu və CİM-in 23.2-ci maddələri məhkumun ərizəsi əsasında məhkəmə qərarına əsasən cərimənin altı ayadək müddətə təxirə salınmasına və ya onun hissə-hissə ödənilməsinə yol verir. Cərimənin ödənilməsinin təxirə salınması və ya onun hissə-hissə ödənilməsi əsasları qanunvericilikdə qəti surətdə tənzimlənməmişdir. Burada yalnız göstərilir ki, məhkum cəriməni üzrlü səbəbdən bir ay müddətində ödəyə bilmədikdə, Azərbaycan Respublikasının CPM-nə uyğun olaraq, məhkəmə məhkumun ərizəsinə əsasən cərimənin ödənilməsinin altı ayadək müddətə təxirə salınması və ya müddəti göstərilməklə onun hissə-hissə ödənilməsi haqqında qərar qəbul edə bilər. Belə olan halda məhkum tərəfindən gətirilən dəlillər məhkəmə tərəfindən qiymətləndirilir. Cərimənin ödənilməsinin təxirə salınması və ya onun hissə-hissə ödənilməsi barədə məhkumun xahişi, əgər gətirilən dəlillər təsdiqlənərsə, təmin edilməlidir. Bu, ilk növbədə məhkumun düşdüyü ağır maddi vəziyyətlə (misal üçün, onun işsiz olması, ağır xəstəliyi, hamiləliyi, azyaşlı uşaqlarının olması, yanğın və ya digər təbii fəlakətlərlə və s. əlaqədar olaraq) şərtlənir. Cərimənin dərhal ödənilməsinin mümkünsüzlüyü, həmçinin yaxın qohumların ağır xəstəliyi, himayədə olanlarla və digər hallarla da əlaqələndirilə bilər. Bütün bu hallarda məhkumun gətirdiyi dəlillər məhkəmə tərəfindən yoxlanılmalıdır.

Cərimənin dərhal ödənilməsinin mümkünsüzlüyündən onun ümumiyyətlə ödənilə bilməməsini fərqləndirmək lazımdır. Belə

hallara məhkumun əmək qabiliyyətini tamamilə itirməsini, onun, tutulmaların aparılmasına qanunun yol verdiyi əmlakının, habelə digər gəlir mənbəyinin olmamasını aid etmək olar. Digər tərəfdən, əgər belə vəziyyət yaranarsa, məhkum tibbi arayış və digər sənədlər, həmçinin də cərimənin ödənilməsinin mümkünsüzlüyü barədə icra məmuru tərəfindən tərtib edilmiş sənəd (məhkumun əmlakının və digər gəlir mənbəyinin olmaması barədə akt) təqdim etməlidir. Əgər cərimənin ödənilməsi mümkün deyilsə, məhkəmə onun digər cəza növü ilə əvəz edilməsini nəzərdən keçirilməlidır.

Azərbaycan Respublikası CİM-in 24-cü maddəsinin tələbinə görə, məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada, yəni məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilməklə həyata keçirilir.

"İcra haqqında" Azərbaycan Respublikasının 27 dekabr 2001-ci il tarixli Qanununun 43-cü maddəsinin tələblərindən irəli gələrək cərimənin məcburi qaydada tutulması məhkumun aşağıdakı əmlakına yönəldilə bilər:

- məhkumun əmlakına (onun uzərinə həbs qoymaq və onu satmaq yolu ilə);
- məhkumun əmək haqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə;
- məhkumun üçüncü səxslərdə olan pul vəsaitlərinə və digər əmlakına.

Qeyd etmək lazımdır ki, **məhkumun əmlakı** dedikdə, onun xüsusi mülkiyyətdə olan istənilən əmlakı, ümumi mülkiyyətdə olan payı, pulu, qiymətli kağızları, maliyyə-kredit təşkilatlarında və banklarda olan əmanətləri, habelə saxlanmağa verilmiş sərvət-

ləri, digər şəxslərin idarəçiliyinə verilmiş əmlakı və pul vəsaiti başa düşülür.

**Cərimə məbləğinin məhkumun əmlakına yönəldilməsi dedikdə**, bu əmlakın üzərinə həbs qoyulması, götürülməsi və satılması nəzərdə tutulur. Bu zaman cərimə məbləği məhkum və onun ailə üzvləri üçün zəruri olan ərzaq məhsullarına, daimi istifadə edilən qab-qacağa və mətbəx ləvazimatına, digər ilk zərurət əşyalarına, habelə ixtisas uzrə kitablara və peşə fəaliyyəti ilə məşğul olmaq üçün avadanlığa yönəldilə bilməz. Cərimənin tutulmasını təmin etmək məqsədilə icra məmuru məhkumun əmlakını siyahıya alır və üzərinə həbs qoyur. Bu siyahı məhkəmə tərəfindən təsdiqlənir. Əmlakın siyahıya alınması cərimə məbləğinin tutulması üçün zəruri olan həddə həyata keçirilir. Bu halda, əgər cərimə məbləğini ödəmək üçün məhkumun şəxsi əmlakı kifayət etmirsə, onda onun digər şəxslərlə ümumi mülkiyyətdə olan əmlakı da siyahıya alınır.

Məhkum cərimə məbləğinin birinci növbədə hansı əmlaka və əşyalara yönəldilməsini icra məmuruna bildirmək hüququna malikdir. Məhkumun belə müraciəti icra sənədinin icrasına mane olmursa, icra məmuru onu təmin etməyə borcludur.

Məhkumun əmlakı üzərinə həbs qoyulması əmlakın siyahıya alınmasından, həmin əmlak üzərində sərəncam vermək hüququnun qadağan olunmasından, zəruri hallarda isə əmlakdan istifadə hüququnun məhdudlaşdırılmasından, onun götürülməsindən və ya saxlanmaq üçün verilməsindən ibarətdir. Hökm icraya yönəldilənə qədər məhkumun əmlakına həbs qoyulmayıbsa və ya onun icrası zamanı tələb borclunun əmlakına yönəldilməmişdirsə, əmlak üzərinə həbs, bir qayda olaraq, icra məmurunun əsaslandırılmıs təqdimatına əsasən məhkəmənin qərarı ilə qoyulur. Təxirəsalınmaz hallarda məhkum tərəfindən əmlakın məhv edilməsini, zədə-

lənməsini, korlanmasını, gizlədilməsini və ya özgəninkiləşdirilməsini güman etməyə əsas verən dəqiq məlumat olduqda, icra məmuru məhkəmənin qərarı olmadan da əmlakın üzərinə həbs qoya bilər. Bu halda icra məmuru 24 saat ərzində bu barədə icra üzrə nəzarəti həyata keçirən məhkəməyə məlumat verməlidir.

Məhkumun əmlakı üzərində sərəncam vermək hüququna və ya məhkumun əmlakından istifadə etmək hüququna icra məmuru tərəfindən qoyulmuş məhdudiyyətlərə əməl olunmaması Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Məhkumdan götürülmüş xarici valyutada olan pul vəsaitlərini icra məmuru bir gün müddətində satılmaq üçün Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olan banka və ya digər kredit təşkilatına verir. İcra məmuru məhkumun Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olan banklarda və ya başqa kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olan xarici valyuta ilə pul vəsaitləri üzərinə həbs qoyur və öz qərarı ilə xarici valyutanın "İcra haqqında" Qanunun 45.7-ci maddəsində nəzərdə tutulmuş həcmdə satışını həmin banka və ya digər kredit təşkilatına həvalə edir.

Məhkumun xarici valyutada olan pul vəsaitləri Azərbaycan Respublikasında xarici valyuta satmaq hüququ olmayan banklarda və ya digər kredit təşkilatlarında hesablarda və əmanətlərdə, habelə saxlancda olduqda, icra məmuru həmin pul vəsaitlərinin belə hüququ olan banka və ya digər kredit təşkilatına köçürülməsini onların öhdəsinə qoyur.

Cərimə məbləğinin tutulması məhkumun əmək haqqına və qazancına o halda yönəldilir ki, onun, **birincisi,** müvafiq dəyərdə (və ya ümumiyyətlə) əmlakı olmasın, **ikincisi,** bu əmlak cərimənin ödənilməsi üçün kifayət etməsin.

Cərimə növündə cəzaya məhkum olunmuş şəxsin olduğu yer müəyyən edilmədikdə Azərbaycan Respublikası CİM-in 15-1.4-cü maddəsinə uyğun olaraq icra məmuru on günədək müddətə ilkin axtarış tədbirlərini həyata keçirir. Bu müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul edir, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün aidiyyəti üzrə polis orqanına göndərilir.

Cəriməni ödəməkdən boyun qaçırmanın nəticələri də qanunvericiliklə tənzimlənmişdir. Belə ki, Azərbaycan Respublikası CM-in 44.4-cü və Azərbaycan Respublikası CİM-in 26-cı maddəsinə əsasən məhkum ona edilən rəsmi xəbərdarlıqdan sonra cəriməni ödəməkdən boyun qaçırarsa və onun xüsusi mülkiyyətdə əmlakı, ümumi mülkiyyətdə payı və digər qazancı olmazsa, məhkəmə əsas cəza kimi təyin edilmiş bu cəza növünü icra məmurunun təqdimatına əsasən ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edə bilər.

**Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə.** Azərbaycan Respublikası CM-in 46-cı maddəsinə əsasən bu cəza növü məhkəmənin hökmü ilə şəxsə bu və ya başqa vəzifəni tutmağı, yaxud da müəyyən növ əmək fəaliyyəti ilə məşğul olmağı qadağan edir, həm əsas, həm də əlavə cəza növü kimi tətbiq edilə bilər. Bu cəza əsas cəza kimi bir ildən beş ilə qədər müddətə, əlavə cəza kimi isə bir ildən üç ilədək

müddətə tətbiq edilir. Qeyd edilən cəza dövlət orqanlarında, yerli özünüidarə orqanlarında konkret vəzifə tutmağın və ya konkret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir. Bu cəza növü məhkumun yaşayış yeri üzrə icra məmuru və ya cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən icra edilir.

İcrası qaydası və şərtləri Azərbaycan Respublikası CİM-in V fəslində nəzərdə tutulmuş müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza iki müstəqil cəza növündən ibarətdir:

**1) dövlət xidmətində və ya yerli özünüidarəetmə orqanlarında müəyyən vəzifə tutmanın qadağan edilməsi;**

**2) müəyyən peşə və ya digər fəaliyyətlə məşğul olmanın qadağan edilməsi.** Bu qadağa həm məhkumun əmək fəaliyyəti sahəsinə, həm də asudə vaxtına (misal üçün, şəxsə pedoqoji fəaliyyətlə, ovçuluqla və s. məşğul olmanın qadağan edilməsi) aid ola bilər.

Qeyd etmək lazımdır ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası qaydasını Azərbaycan Respublikası CİM-in 28-33-cü maddələri, habelə həmin maddələrə istinad edilməklə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 30.11.2018-ci il tarixli 31-N nömrəli qərarı ilə təsdiq edilmiş "Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası Qaydaları" tənzimləyir.

Əgər bu cəza növü intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə növündə cəzalara əlavə cəza kimi təyin edilirsə, əsas cəzanı icra edən müəssisə məhkəmədən, bu şəxsin məhkum edilməsi barədə hökmün surətini alır. Buna görə

də həmin şəxs barəsində əlavə cəzanın icra edilməsi həmin müəssisənin müdiriyyətinə aid olur.

Əsas cəzanın icrası dövründə məhkumlara, əlavə cəzanın təyin edilməsi ilə əlaqədar olan hüquq məhdudiyyətləri şamil edildiyi üçün, bu kateqoriya məhkumlar hökmə əsasən yerinə yetirmələri qadağan olunmuş işlərə cəlb edilə bilməzlər. Bu tələb, misal üçün, məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən, müvafiq cəza tətbiq edilmiş məhkumlara da aiddir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza əlavə cəza qismində təyin edildikdə, əsas cəzanı icra edən cəzaçəkmə müəssisəsinin müdiriyyəti həmin cəzanın icrası müddəti başa çatdıqdan sonra, yaxud da məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edildiyi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunduğu hallarda, habelə əfv və amnistiya qaydasında cəzadan azad edildiyi təqdirdə, hökmün surətini cəzanın icrası üçün məhkumun yaşadığı yerin icra məmuruna göndərir.

Əgər müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə əsas cəza kimi və yaxud da azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya, misal üçün, cərimə cəzasına əlavə cəza qismində təyin edilirsə, habelə şərti məhkum etmə zamanı məhkəmə qanuni qüvvəyə minmiş hökmün surətini cəzanın icra edilməsi üçün məhkumun işlədiyi yer üzrə işəgötürənə, həmçinin də bu cəzanın icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir. Əgər məhkum işləmirsə, hökmün surətinin ikinci nüsxəsi, o, işə düzəldikdən sonra iş yerinin müdiriyyətinə göndərilir.

İcra məmuru cəzanın icrası ilə bağlı məhkum barəsində şəxşi iş açır, onu qeydiyyata götürür və bu barədə hökmü çıxarmış məhkəməyə məlumat verir. Qanunvericiliyn tələbinə görə, əgər

cəzanın icrası müddətində məhkum hərbi xidmətə qəbul edilərsə, bu halda icra məmuru müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə barədə hökmün surətini cəzanın icrası üçün məhkumun xidmət yerinə göndərir.

Qanunvericilikdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası zamanı işəgötürənin, cəzanı icra edən müəssisə və ya orqanın, habelə icra məmurunun vəzifələri də dəqiq tənzimlənmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 29.1-ci maddəsinə əsasən işəgötürən hökmün surətini aldığı gündən sonra üç gün ərzində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş məhkumla əmək müqaviləsinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada xitam verir və məhkəmənin hökmünə uyğun olaraq məhkumun əmək kitabçasına onun hansı əsasla, hansı müddətə və hansı vəzifəni tutma hüququndan məhrum edilməsi və ya hansı fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum edilməsi barədə qeyd edir. Hökmü çıxarmış məhkəməyə bu barədə dərhal məlumat verilir.

İşəgötürən hökmə zidd olmadıqda məhkumun razılığı ilə ona başqa vəzifə və ya başqa fəaliyyət növü ilə məşğul olmaq imkanı yarada bilər.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs əmək müqaviləsi bağlayarkən onun əmək kitabçasında müvafiq qeyd olmadıqda işəgötürən bu cəzanın icrasına nəzarət edən müvafiq icra məmurunun təqdimatı ilə məhkəmənin hökmünə uyğun olaraq həmin əmək kitabçasında onun hansı əsasla, hansı müddətə və hansı vəzifəni tutma hüququndan məhrum edilməsi və ya hansı fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum edilməsi barədə qeyd edir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul ol-

ma hüququndan məhrum etmə növündə cəza çəkmiş, yaxud qanunla müəyyən edilmiş qaydada bu cəzadan azad edilmiş şəxsə onun xahişi ilə əmək kitabçası əvəzinə bu kitabçanın cəza haqqında qeyd yazılmamış dublikatı verilir.

Qanunvericiliyə əsasən məhkumun yaşadığı yerin icra məmuru:

❖ hökmün (qərarın) daxil olması və icraya qəbul edilməsi ilə bağlı məhkəməyə məlumat verir;

❖ məhkuma cəzanın icrasının qayda və şərtlərini izah edir;

❖ məhkum olunmuş şəxsi qeydiyyata götürür və ona şəxsi iş açır;

❖ məhkumun ölkədən çıxışına müvəqqəti məhdudiyyət qoyur;

❖ məhkum edilmiş şəxs barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir;

❖ məhkəmənin hökmü (qərarı) barədə yeddi gün müddətində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir;

❖ məhkum, habelə cəzanın müddəti barədə məlumatın Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək müqaviləsi bildirişi" altsisteminə yerləşdirilməsini təmin edir;

❖ müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə barədə məhkəmənin hökmünün tələblərinə məhkumun riayət etməsinə nəzarət edir;

❖ müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə barədə məhkəmənin hökmündə nəzərdə tutulan tələblərin işəgötürən tərəfindən yerinə yetirilməsini yoxlayır;

❖ məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirir;

❖ yeri məlum olmayan məhkumların müəyyən olunmuş qaydada axtarışını təşkil edir;

❖ müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs hökmdə görülməsi ona qadağan edilmiş işə girdikdə, yaxud hökmlə ona qadağan edilmiş fəaliyyətlə məşğul olduqda icra məmuru işəgötürənə məlumat verərək, məhkumun hökmlə qadağan edilmiş fəaliyyətinə xitam verilməsi üçün üç gün müddətində tədbir görülməsini təklif edir və onu hökmün icra edilməməsinin məsuliyyətə səbəb olması barədə xəbərdar edir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməyə məhkum olunmuş şəxsin olduğu yer müəyyən edilmədikdə, Azərbaycan Respublikası CİM-in 15-1.4-cü maddəsinə uyğun olaraq icra məmuru on günədək müddətə ilkin axtarış tədbirlərini həyata keçirir. Bu müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul edir, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün aidiyyəti polis orqanına göndərilir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul ol-

ma hüququndan məhrum edilmiş məhkum cəzanın çəkilməsindən qərəzli boyun qaçırdıqda, habelə vəzifəli şəxs müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı qərəzli icra etmədikdə, onlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Məhkumun azadlıqdan məhrum etmə ilə bağlı olmayan, məcburi əməyə cəlb edilmə ilə əlaqədar cəza növlərinə **ictimai işlər** və **islah işləri** aiddir.

**<u>İctimai işlər.</u>** İctimai işlər növündə cəza cinayət qanunvericiliyində yeni cinayət-hüquqi xarakterli dövlət məcburiyyət tədbiridir. Qeyd olunmalıdır ki, bu cəza növü bir sıra ölkələrdə məcburi və ya icbari işlər, habelə ictimai faydalı işlər kimi də adlandırılır. İctimai işlər XX əsrin ikinci yarısından sonra bir çox ölkələrdə azadlıqdan məhrum etmə cəzasına alternativ kimi tətbiq edilməyə başlanmışdır. İlk dəfə olaraq ictimai işlər müstəqil cəza növü kimi 1971-ci ildə İsveçrənin Cinayət Məcəlləsinə daxil edilmişdir. Sonradan bu cəza Böyük Britaniyanın, Almaniyanın, Danimarkanın, İspaniyanın, İtaliyanın, Kanadanın, Polşanın, Çexiya Respublikasının, Yaponiyanın və digər ölkələrin cinayət qanunvericiliyində öz əksini tapmış, hal-hazırda dünyanın əksər dövlətlərində tətbiq edilməkdədir.

Qeyd etmək lazımdır ki, azadlıqdan məhrum etmə cəzasının azalmasına yönəlmiş beynəlxalq aktlar digər alternativlərlə yanaşı, ictimai işlərin tətbiqini də tövsiyə edirlər. Belə ki, BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərə dair minimal standart qaydaları (Tokio qaydaları)" üzv ölkələrə ictimai işlər növündə sanksiyanın tətbiqini tövsiyə edir.

Avropa Şurası öz növbəsində qəbul etdiyi tövsiyələrdə, ilk növbədə 1976-cı il tarixli "Azadlıqdan məhrum etməyə bir sıra al-

ternativlər barədə", 1992-ci il tarixli "Ümumi sanksiya və tədbirlər üzrə Avropa Qaydaları"nda və bir sıra digər sənədlərdə ictimai işlər növündə cəzanın tətbiqini təşviq etmişdir. Qeyd olunmalıdır ki, Avropa Şurası 20 yanvar 2010-cu il tarixdə qəbul etdiyi Avropa Probasiya Qaydalarında da məhkəmələrə ictimai işlərin daha tez-tez təyin olunmasını tövsiyə etmişdir.

Sabiq SSRİ-də ictimai işlər ilkin olaraq 02 iyul 1991-ci il tarixdə qəbul edimiş "SSRİ və müttəfiq respublikaların cinayət qanunvericiliyinin Əsasları"na daxil edilsə də, müvafiq dövlətlər birliyi, yəni SSRİ-nin süqut etməsi səbəbindən bu yeni cəza növü müvafiq məkanda tətbiqsiz qalmışdır. Sonradan müstəqil dövlətlər kimi Rusiya Federasiyası, Ukrayna, Belarus, Qazaxıstan, Moldova, Gürcüstan, Qırğızıstan öz yeni Cinayət məcəllələrində ictimai işləri müstəqil cəza növü kimi cəza sisteminə daxil etmişlər. Azərbaycan Respublikasında bu cəza növü 1999-cu ilin dekabrında qəbul edilmiş Cinayət Məcəlləsinə əsas cəza kimi daxil edilmişdir.

İctimai işlər cəzasının icrası qaydası müvafiq qanunla, yəni Azərbaycan Respublikası CİM-in 34-39-cu madələri ilə tənzimlənir. Eyni zamanda, bu cəzanın icrasının təşkili ilə bağlı ətraflı mexanizmin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirıiyinin 2018-ci il 25 aprel tarixli Kollegiya qərarı ilə "İctimai işlər növündə cəzanın icrası Qaydası" təsdiq edilmişdir.

Azərbaycan Respublikası CİM-in 15-ci maddəsinə əsasən ictimai işlər növündə cəzanın icrasını məhkumun yaşayış yeri üzrə icra məmuru həyata keçirir. İctimai işlər növündə cəzaya məhkum olunmuş şəxs məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surəti və onun icrası haqqında göstərişin icra məmuru tərəfindən alındığı gündən sonra on beş gün müddətində cəzanın çəkilməsinə

cəlb olunmalıdır. İcra məmuru məhkumu yuxarıda göstərilən müddətlərdə ictimai işlərə cəlb etmək məqsədilə həmin şəxsə icra qurumuna gələrək qeydiyyatdan keçmək məqsədilə yaşadığı ünvana bildiriş göndərir. Məhkum probasiya qurumuna gəldikdən sonra icra məmuru onu qeydiyyata alır, məhkumun ölkədən getmək hüququnu müvəqqəti məhdudlaşdırır, cəzanın icrasının qayda və şərtlərini izah edir, yerli icra hakimiyyəti orqanı tərəfindən təqdim edilmiş ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısında göstərilən yerlərdən birində işləmək üçün göndəriş verir. Eyni zamanda, icra məmuru məhkum edilmiş şəxs barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir, məhkəmənin hökmü (qərarı) barədə yeddi gün müddətində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir.

İctimai işlər növündə cəzanın çəkilmə müddəti, bir qayda olaraq, həftə ərzində on iki saatdan az olmayaraq müəyyən edilir. İctimai işlərin çəkilmə, yəni həmin işlərin yerinə yetirilmə müddəti istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri, ümumxalq hüzn günündə və müvafiq şəxslərin əsas işindən və ya təhsilindən asudə vaxtlarında dörd saatdan, iş günlərində isə iki saatdan, məhkumun razılığı ilə isə dörd saatdan çox ola bilməz. Üzrlü səbəblər olduqda, icra məmuru məhkuma həftə ərzində müəyyən olunmuş vaxtdan az işləməyə icazə verə bilər. Qanunvericilyə əsasən əsas iş yerində məhkuma növbəti məzuniyyətin verilməsi ictimai işlər növündə cəzanın icrasını dayandırmır.

Azərbaycan Respublikası CM-in 85-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan məhkumlar üçün ictimai işlərin müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından

on altı yaşınədək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz. Cinayət Məcəlləsinin bu norması Azərbaycan Respublikası CİM-in 36.2-ci maddəsində də öz əksini tapmışdır.

Bu cəza növü tətbiq edilmiş şəxslər, ictimai işləri yerinə yetirdikləri yerin müəssisədaxili intizam qaydalarına riayət etməli, əməyə vicdanla yanaşmalı, onlar üçün müəyyən olunmuş yerlərdə, hökm və ya məhkəmənin qərarında müəyyən olunmuş müddətdə işləməli, təqdim edilmiş elektron nəzarət vasitəsindən istifadə etməklə onu ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, nəzarət vasitəsini işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli və yaşayış yerini dəyişdikdə, bu barədə icra məmuruna məlumat verməlidirlər. Qeyd edilməlidir ki, ictimai işlər növündə cəza çəkən şəxslərin üzərinə elektron nəzarət vasitəsindən istifadə edilməsi bağlı vəzifə Azərbaycan Respublikası CM-in 47-ci və Azərbaycan Respublikası CİM-in 35-ci maddələrinə 29 iyun 2020-ci il tarixli qanunla edilmiş dəyişikliklərlə əlaqədar qoyulmuşdur. Həmin dəyişikliklərlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 25 nömrəli Qərarı ilə "İctimai işlər növündə cəza çəkən və ya ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərin elektron nəzarət vasitəsindən istifadə Qaydası" təsdiq edilmişdir. İctimai işlər növündə cəzanın icrası prosesində elektron nəzarət vasitələrinin tətbiqi ictimai işlərin görüldüyü yerlərdə nəzarətin daha səmərəli təşkil olunması, bu sahədə formal yanaşmanın, cəzadan yayınmaların, icraya məsul şəxslər tərəfindən yol verilə biləcək sui-istifadələrin qarşısının alınması (məsələn, müvafiq şəxslərin təyin olunmuş yerlərə vaxtında gəlmələrinin, həmin yerlərdə müvafiq vaxtlarda olmalarının, habelə iş yerlərinin müəyyən olunmuş vaxtdan sonra tərk etmələrinin izlənməsi, ictimai işlər üzrə yerinə yetirilmiş iş saatlarının uçotunun elektron qaydada he-

sablanmasının təşkili) ilə bağlıdır. Eyni zamanda, ictimai işlər cəzasını çəkən məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi icra məmurlarının xidmət yükünün xeyli azalmasına əlverişli zəmin yaratmışdır.

İctimai işlər növündə cəzanın icrası zamanı işəgötürən, yəni ictimai işləri təqdim edən müəssisə və ya orqan, öz növbəsində məhkumlar üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edir, onların işlədikləri saatların uçotunu aparır və ictimai işlərin yerinə yetirilməsindən boyun qaçırma halları barədə icra məmuruna məlumat verir.

Qanunvericiliyə əsasən ictimai işlər növündə cəza tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2017-ci il tarixli 438 saylı qərarı ilə təsdiq edilmiş "İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəkləri işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası" (bundan sonra – Qaydalar) ilə müəyyən edilmişdir.

Həmin Qaydalara uyğun olaraq yerli icra hakimiyyəti orqanları müvafiq inzibati ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək müvafiq icra məmuruna göndərməlidirlər. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə, icra məmuru yerli icra hakimiyyəti orqanına bu barədə sorğu verir. Sorğuya beş iş günündən gec olmayaraq cavab verilməlidir.

Qanunvericiliyin tələbinə əsasən işəgötürən, yəni ictimai işləri təqdim edən orqan və ya təşkilat həmin işlərin həyata keçirilməsi üçün mövcud olan yerlər barədə icra məmuruna düzgün və tam

məlumat verməli, şəxs ictimai işlərin həyata keçiriləcəyi yerdə qəbul edilərək ictimai işə təhkim edildikdə, onun tərəfindən ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək, üç gündən gec olmayaraq icra məmuruna göndərməlidir. Eyni zamanda, işəgötürən barəsində müvafiq cəza tətbiq edilən şəxslər üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət etməli, onların işlədikləri saatların uçotunu aparmalı və ictimai işləri yerinə yetirməkdən boyun qaçırma halları barədə dərhal icra məmuruna məlumat verməlidir.

Qaydalara uyğun olaraq ictimai işlər aşağıdakı yerlərdə həyata keçirilir:

❖ şəhər, rayon ərazisinin, küçə, park və meydanların, yolların abadlaşdırılması və təmizlənməsi (o cümlədən, yaşıllaşdırılması, qar və yağış sularının fəsadlarının aradan qaldırılması);

❖ məişət tullantılarının (əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyaların, maddələrin və materialların, tullantıların) yığılması (toplanılması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması;

❖ yaşayış ərazilərinin, xəstəxanaların, məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin, yataqxana və pansionatların, sosial xidmət müəssisələrinin, habelə sosial sahənin digər obyektlərinin tikintisi və təmiri;

❖ kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi;

❖ təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması;

❖ ictimai əhəmiyyətli digər işlər.

Qaydalara əsasən ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi yerlər yerli icra hakimiyyəti orqanının bilavasitə tabeliyində olmayan müəssisələr üzrə yalnız sonuncunun razılığı və müraciəti əsasında müəyyən edilməlidir.

Məhkumların cəlb ediləcəyi işlərin həyata keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi zamanı yerli icra hakimiyyəti orqanları tərəfindən həmin şəxslərin peşə vərdişləri, təcrübəsi, yaşı, eləcə də iş rejimi və zəruri əmək şəraitinin həmin şəxslərin sağlamlıq vəziyyətinə uyğunluğu nəzərə alınmalıdır. Bu zaman açıq havada və kollektiv formada təşkil olunan iş yerlərinə üstünlük verilməlidir. İş yerlərinin müəyyənləşdirilməsi məqsədi ilə inzibati ərazi vahidinin ərazisində fəaliyyət göstərən mühəndis-kommunikasiya və yol-infrastruktur layihələrini həyata keçirən qurumların siyahısı şəhər və rayon icra hakimiyyəti orqanları tərəfindən müəyyən olunur və onların internet səhifəsində dərc edilir. Bu siyahı yarım ildə bir dəfə yenilənməlidir.

İnzibati ərazi vahidində fəaliyyət göstərən qeyri-dövlət hüquqi şəxslər ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin işlərə cəlb edilməsi üçün siyahıya müvafiq əlavələrin edilməsi təşəbbüsü ilə çıxış edə bilərlər. İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin işə cəlb edilməsi təşəbbüsü ilə çıxış edən qurumun (təşkilatın) rəhbəri həmin şəxslərin siyahıya daxil edilməsi məqsədi ilə müvafiq rayon və ya şəhər icra hakimiyyətinə müraciət etməlidir. Müraciətə işlərin növləri, həyata keçiriləcəyi yerlər, habelə ictimai işlər təyin olunmuş şəxslərin işə cəlb edilməsi üçün əlaqəli vəzifəli şəxslər barədə məlumat əlavə edilməlidir.

Barəsində ictimai işlər tətbiq olunmuş yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq Qaydalar bir sıra əlavə tələblər də müəyyən etmişdir. Belə ki, bu kateqoriyalı məhkumların işə cəlb olunması zamanı onların təhsilindən və ya əsas işindən sonra asudə vaxtlarında yerinə yetirə biləcəyi işlər əsas götürülməli, onların yaş dövrünə uyğun psixoloji cəhətlərinə xüsusi diqqət verilməlidir.

Qaydalar yetkinlik yaşına çatmayan şəxslərin aşağıda göstərilən xüsusatlarının nəzərə alınmasını tələb edir:

- təhsili və ya əsas işi;
- cinsi mənsubiyyəti;
- yaş dövrünə uyğun fiziki sağlamlığı və psixoloji cəhətləri;
- həyatı qavrama baxışları.

Barəsində ictimai işlər tətbiq olunmuş yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyən edilən zaman kənardan hamının sərbəst şəkildə görə bilmədiyi, həmçinin, belə işlərin icrasının digər şəxslər tərəfindən foto və video çəkilişlərinin aparılması mümkün olmadığı işlərə və iş yerlərinə üstünlük verilməlidir.

İctimai işlərə cəlb olunmuş şəxslərin cəzasının icrasının təşkili zamanı onların əmək qanunvericiliyində nəzərdə tutulmuş əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri ilə əlaqədar hüquqlarının təmin olunmasına da diqqət verilmişdir. Bu məhkumların əməyin mühafizəsi qaydalarına və təhlükəsizlik texnikası normalarına əməl olunmasına, onların əməyindən səmərəli istifadəyə görə məsuliyyət bilavasitə işəgötürənin, yəni ictimai işlərin yerinə yetirildiyi müəssisələrin, təşkilatların müdiriyyətinin üzərinə qoyulmuşdur.

Qanunvericiliyə əsasən məhkum ictimai işlərin yerinə yetirilməsi qaydalarını pozduqda, icra məmuru ona məsuliyyət daşıyacağı barədə yazılı şəkildə rəsmi xəbərdarlıq edir.

İctimai işlər növündə cəza çəkən məhkumun olduğu yer müəyyən edilmədikdə, Azərbaycan Respublikası CİM-in 15-1.4-cü maddəsinə uyğun olaraq icra məmuru on günədək müddətə ilkin axtarış tədbirlərini həyata keçirir. Bu müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul edir, həmçinin məhku-

mun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün aidiyyəti polis orqanına göndərilir.

İctimai işlər növündə cəza çəkən məhkum çəzanın çəkilməsindən qərəzli boyun qaçırdıqda, icra məmuru Azərbaycan Respublikası CM-in 47.3-cü və Azərbaycan Respublikası CİM-in 38-ci maddəsinə uyğun olaraq həmin cəzanın digər cəza ilə əvəz edilməsi üçün məhkəməyə təqdimat verir. Azərbaycan Respublikası CİM-in 39-cu maddəsinə əsasən ictimai işlər növündə cəzanın çəkilməsindən qərəzli boyun qaçıran məhkumlar aşağıdakılar hesab olunurlar:

- **üzrsüz səbəbdən ayda iki dəfədən çox ictimai işə çıxmayanlar;**
- **ayda iki dəfədən çox cəzanın icrası yerlərində əmək intizamını pozanlar;**
- **elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edənlər, onu zədələyənlər və ya digər üsulla yararsız vəziyyətə salanlar, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməyənlər;**
- **cəzanı çəkməmək məqsədilə gizlənənlər.**

Qanunvericiliyə uyğun olaraq, ictimai işlər növündə cəzanın çəkilməsindən qərəzli boyun qaçıran məhkumların cəzaları icra məmurunun təqdimatına əsasən məhkəmə tərəfindən daha sərt, yəni Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 2017-ci ilin 20 oktyabrında edilmiş dəyişikliklər nəzərə alınmaqla, azadlığın məhdudlaşdırılması və yaxud azadlıqdan məhrum etmə nö-

vündə cəza ilə əvəz edilə bilər. Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır, çəkilməmiş dörd saat ictimai iş bir gün azadlığın məhdudlaşdırılması və ya səkkiz saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

İctimai işlər növündə cəzanın icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsi, belə məhkumların cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (bundan sonra – İXM) yeni 528-1-ci maddə əlavə edilmişdir. Bu yeni normaya əsasən iştimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısının və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatın vaxtında icra məmuruna göndərilməməsinə, yaxud ictimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı sorğulara vaxtında cavab verilməməsinə görə yerli icra hakimiyyəti orqanlarının aidiyyəti vəzifəli şəxslərinin inzibati məsuliyyəti müəyyən olunmuş və onların göstərilən hərəkətlərə görə dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilməsi təsbit edilmişdir. Bundan əlavə, ictimai işlər növündə cəzanın icra edildiyi yerdə işəgötürən tərəfindən şəxs üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edilməməsinə, yaxud məhkumun işlədiyi saatların uçotunun aparılmamasına və ya düzgün aparılmamasına, şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtların cədvəlinin tərtib edilməməsinə, həmin cədvəlin icra məmuruna vaxtında göndərilməməsinə, habelə ictimai işlərin yerinə yetirilməsindən boyun qaçırma halları barədə icra məmuruna dərhal məlumat verilməməsinə görə aidiyyəti vəzifəli şəxslər üçün inzibati məsuliyyət, yəni dörd yüz manatdan səkkiz yüz manatadək pul cəriməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, icra məmuru tərəfindən ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda

həmin işlərin görüldüyü yerlərə baş çəkilməməsinə görə də inzibati məsuliyyət, yəni üç yüz manatdan altı yüz manatadək cərimə növündə tənbeh tədbiri nəzərdə tutulmuşdur.

**<u>İslah işləri.</u>** İslah işlər növündə cəzanın icrası, çəkilməsi qaydası və şərtləri Azərbaycan Respublikası CİM-in Ümumi hissəsinin normalarında təsbit edilmiş cəzaların icrasının ümumi müddəalarına və prinsiplərinə müvafiq olmaqla, həmin Məcəllənin 40-51-ci maddələri ilə tənzimlənir. Eyni zamanda, bu cəzanın icrası mexanizmini müəyyənləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 24 aprel 2018-ci il tarixli qərarı ilə "İslah işləri növündə cəzanın icrası Qaydaları" təsdiq edilmişdir.

Azərbaycan Respublikası CM-in 49.1-ci maddəsinə əsasən "islah işləri cəzası məhkumun iş yeri üzrə çəkilir". Cəzaların İcrası Məcəlləsi bu normanı konkretləşdirərək, cəzanın "əsas iş yeri"ndə çəkilməsini müəyyən etmişdir. Bu, ilk növbədə onunla izah olunur ki, nəzərdən keçirilən cəzanın tənbeh məzmunu dövlət xeyrinə tutulan pul məbləğindən deyil, məhkumun qazancından tutulmaların aparılması şəklində onun hüququnun məhdudlaşdırılması faktından ibarətdir. Buna görə də, əgər məhkum əvəzçilik üzrə işə düzəlirsə, onda onun əlavə qazancından tutulmalar aparılmır.

**Məhkumun əsas iş yeri** dedikdə, onunla əmək müqaviləsi bağlanmış, habelə adına əmək kitabçası açılmış müəssisə, idarə və ya təşkilat başa düşülür. Eyni zamanda, dövlət qeydiyyatından keçməklə fərdi əməklə məşğul olanları da yuxarıda göstərilən şəxslərin sırasına daxil etmək olar. İslah işləri növündə cəzanın mahiyyəti ondan ibarətdir ki, bu cəza növünə məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Məhkumlar başqa vəzifəyə və ya işə əmək qanunvericili-

yi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər. Əgər onlar işdən çıxarsa və yeni iş yeri tapa bilməzsə, icra məmuru, onların əmək qabiliyyətini və imkan daxilində ixtisaslarını nəzərə almaqla, bu məsələdə onlara yerli məşğulluq qurumları vasitəsi ilə kömək etməlidir.

Əgər məhkəmə hökmü qanuni qüvvəyə mindikdən sonra məhkum ağır xəstəliyə düçar olarsa və bu xəstəlik onun əmək fəaliyyətini yerinə yetirməsinə mane olarsa, bu halda həm məhkumun özü, həm də onun qanuni nümayəndəsi islah işləri növündə cəzanın daha yüngül cəza növü ilə əvəz edilməsi barədə məhkəməyə müraciət edə bilərlər. Belə müraciətə müvafiq səhiyyə orqanı tərəfindən verilmiş və məhkumun xəstəliyini təsdiq edən tibbi rəy də əlavə olunmalıdır. Qeyd edilən müraciət cəzanın icrasını dayandırdığı üçün, həmin müraciət məhkəmə tərəfindən həll edilənədək məhkum islah işlərini yerinə yetirməyə cəlb edilə bilməz.

Azərbaycan Respublikası CİM-in 8-ci maddəsində təsbit olunmuş islah edilmə vasitələri bütün məhkumlara, o cümlədən də islah işləri növündə cəzaya məhkum olunmuş şəxslərə də şamil olunur. Lakin qanunun (Azərbaycan Respublikası CİM-in 42.1-ci maddəsinin) tələbinə görə islah işləri növündə cəza çəkən şəxslərin islah edilməsi onların ictimai faydalı əməkdə iştirakı əsasında təşkil olunur. Buna görə də məhkumların əməyinin təşkilinə qanunverici xüsusi diqqət yetirmişdir. İslah işləri növündə cəza məhkum barəsində məhkəmə hökmünün qanuni qüvvəyə mindiyi gündən icraya yönəldilir və bu zaman onun əmək haqqından hökmdə müəyyən edilmiş məbləğdə tutulmalar həyata keçirilir.

Qanunvericilik islah işləri növündə cəzanın icrasını məhkumun yaşayış yeri üzrə icra məmuruna həvalə etmiş və onun vəzifələrini müəyyənləşdirmişdir. Belə ki, islah işləri növündə cəzanı icra edən icra məmuru:

- hökmün (qərarın) daxil olması və icra qəbul edilməsi ilə bağlı məhkəməyə məlumat verir;
- məhkum olunmuş şəxsi qeydiyyata götürür və ona şəxsi iş açır;
- məhkuma islah işlərinin icrasının qayda və şərtlərini izah edir;
- məhkumun ölkədən getmək hüququnu müvəqqəti məhdudlaşdırır;
- məhkum edilmiş şəxs barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir;
- məhkəmənin hökmü (qərarı) barədə yeddi gün müddətində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir;
- məhkumların qazancından tutulmaların düzgün aparılmasına və cəzanın icrası üçün qanunvericiliklə müəyyən edilmiş şərtlərə işəgötürən tərəfindən riayət olunmasına nəzarət edir;
- məhkumlarla tərbiyə işini aparır;
- məhkumlar barəsində qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;
- islah işləri növündə cəzaya məhkum olunmuş şəxslərə zəruri hallarda işə düzəlməkdə köməklik göstərir;
- məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirir;
- yeri məlum olmayan məhkumların müəyyən olunmuş qaydada axtarışını təşkil edir;
- islah işlərinin icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

Qanunvericilikdə islah işləri növündə cəzanın icrası ilə bağlı

məhkumun iş yeri üzrə işəgötürənin də vəzifələri nəzərdə tutulmuşdur. Bu isə öz növbəsində işəgötürənin məhkəmənin hökmündə göstərilmiş tələblərin yerinə yetirilməsinə məsul olduğunu göstərir. Məhkumun iş yeri üzrə işəgötürənin vəzifələri aşağıdakılardır:

- ❖ məhkəmə hökmünün məzmununu əmək kolektivinin nəzərinə çatdırmaq;
- ❖ məhkumun davranışına nəzarət etmək;
- ❖ məhkumla tərbiyə işinin aparılmasında icra məmuruna kömək etmək;
- ❖ məhkumun qazancından dövlət nəfinə tutulmaları düzgün və vaxtında aparmaq və tutulmuş məbləğləri müəyyən edilmiş qaydada dövlət nəfinə keçirmək;
- ❖ məhkumların əmək intizamına riayət etməsinə nəzarəti həyata keçirmək, onlara ixtisaslarının artırılmasında kömək etmək;
- ❖ cəzanın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş şərtləri yerinə yetirmək.

Digər tərəfdən, qanunverici Azərbaycan Respublikası CİM-in 42-ci maddəsində cəzanın icrası zamanı məhkumun da konkret vəzifələrini müəyyən etmişdir və bu vəzifələr aşağıdakılardır:

- ❖ cəzanı çəkmək üçün müəyyən edilmiş qaydaya riayət etmək;
- ❖ icra məmurunun çağırışı üzrə gəlmək.

Əgər məhkum üzrlü səbəblər olmadan icra məmurunun çağırışına gəlməzsə, o, məcburi gətirilə bilər. Üzrlü səbəblərə məhkumun xəstələnməsi, vəfat etmiş ailə üzvünün və ya yaxın qohumunun dəfn mərasimində iştirakı və digər hallar aid edilə bilər. Məhkumun məcburi qaydada gətirilməsi barədə qərar məhkəmə tərəfindən çıxarılır və məhkumun yaşayış yeri üzrə polis or-

qanı tərəfindən icra edilir.

İcra məmuru məhkəmə hökmünu və cəzanın icraya yönəldilməsi barədə göstərişi aldıqdan sonra öz növbəsində üç gündən gec olmayaraq həmin hökmün surətini və müəyyən edilmiş formada bildirişi məhkumun əsas iş yeri üzrə işəgötürənə göndərir, qazancdan aylıq tutulmaların vaxtında və düzgün həyata keçirilməsinə nəzarət edir.

İslah işləri növündə cəzanın məzmununa işləmək vəzifəsi ilə yanaşı, həm də məhkumun əmək haqqından məhkəmə tərəfindən təyin edilmiş məbləğdə tutulmaların aparılması daxildir. Bununla da məhkumun tam əmək haqqı almaq hüququ müəyyən qədər məhdudlaşdırılır. Belə hüquq məhdudiyyətlərinin tətbiqinin mümkünlüyü BMT-nin 14 dekabr 1990-cı il tarixli "Həbslə əlaqədar olmayan tədbirlər barəsində minimal srandart davranış qaydaları"nda nəzərdə tutulmuşdur. Həmin qaydalar azadlıqdan məhrum etməyə alternativ qismində iqtisadi sanksiyaların və pul tənbehlərinin tətbiqinə yol verilməsini məqsədəuyğun hesab edir.

İslah işləri növündə cəzanın icrası şərtləri həm ümumi, həm də bu cəza növü üçün səciyyəvi olan xarakter daşıyır. Onların bir qismi tənbeh elementlərinə malik olmasa da, digərləri cəzanın tənbeh məzmununu ifadə edir.

Ümumi xarakterli şərtlərə məhkumun müəyyən edilmiş cəza çəkmə qaydasına riayət etmək və əməyə vicdanla yanaşmaq vəzifələri aiddir. Səciyyəvi şərtlərə isə müəyyən edilmiş vəzifə və qadağalar aiddir. Misal üçün, məhkumun əmək haqqından tutulmaların aparılması. İslah işləri növündə cəzanın çəkilməsi şərtlərinin ümumiləşdirici əlaməti bu şərtlərin məcburiliyi və onların pozulmasına görə məhkum üçün mənfi nəticələrin baş verməsidir.

İslah işləri növündə cəzanın icrası məhkumun əmək fəaliyyəti ilə bağlı olduğundan, işləməyən məhkum bu cəzanı çəkmiş hesab

olunmur. Təcrübə göstərir ki, icra məmurları məhkumun bir işdən digərinə keçməsinə mane olmurlar. Çünki əksər hallarda bu, məhkumun əmək haqqını artırmaq və ya iş yerini yaşayış yerinə yaxınlaşdırmaq arzusu ilə əlaqədar olur. Məhkum əvvəlki iş yerindən getdikdə və heç yerdə işləmədikdə, icra məmuru məhkuma üç ay müddətində işə girməyi təklif edir. İşsiz məhkum özü işə düzəlməlidir. Zəruri hallarda icra məmuru məhkuma işə düzəlməkdə kömək edir və bu zaman məhkum icra məmurunun iştirakı ilə məşğulluq xidməti orqanında qeydiyyata durmalıdır. Məhkum məşğulluq xidməti orqanının ona təklif etdiyi işdən imtina edə bilməz. Göstərilən müddətdə məhkum üzrlü səbəblər olmadan işə girmədikdə, onun barəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər tətbiq edilir.

İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər əmək qanunvericiliyi ilə müəyyən edilmiş haqqı ödənilən illik növbəti məzuniyyətdən istifadə etmək hüququna malikdirlər. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası CİM-in qəbulunadək respublikamızın Əmək Məcəlləsinin (bundan sonra – ƏM) 132-ci maddəsinin ikinci hissəsi əlavə məhdudiyyət kimi islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi barədə norma müəyyən etmişdi. Bu norma Azərbaycan Respublikası CİM-in 10-cu və 44.3-cü maddələrinin tələbləri ilə uzlaşmırdı. Bununla əlaqədar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 19 aprel 2001-ci il tarixdə Azərbaycan Respublikası ƏM-in 132-ci maddəsinin ikinci hissəsinin islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsinə dair müddəasının Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilməsi barədə qərar qəbul etmişdir.

İslah işləri növündə cəzanın icrası müddətinin hesablanmasına həsr edilmiş Azərbaycan Respublikası CİM-in 45-ci maddəsinə uyğun olaraq məhkumun iş yerinə onun bu cəza növünə məhkum edilməsi barədə məhkəmə hökmünün surəti və ya digər sənədlər daxil olduğu gün, məhkum məzuniyyətdə və ya xəstə olarsa, onda bu cəza növünün çəkilməsi müddətinin hesablanması onun işə çıxdığı birinci gündən başlayır.

Azərbaycan Respublikası CİM-in 45-ci maddəsinin tələbinə görə islah işləri növündə cəzanın icrası müddəti bu cəza növünə məhkum edilmiş şəxsin həqiqətən işlədiyi və onun əmək haqqından tutulmaların aparıldığı aylar və günlərlə hesablanır. Əgər məhkumun işlədiyi günlərin sayı məhkəmə hökmü ilə müəyyən edilmiş təqvim ayına düşən iş günlərinin sayına uyğun gələrsə, cəza müddəti çəkilmiş sayılır. Buna görə də, əgər məhkum, məhkəmə hökmü ilə müəyyən edilmiş günləri işləməmişsə və onun işləmədiyi günlərin cəza müddətinə hesablanması üçün əsas yoxdursa, onda bu cəzanın icrası müddəti cəzanın təqvim müddətindən artıq olur.

Məhkumun üzrlü səbəblərə görə işləmədiyi və müvafiq qanunvericiliyə uyğun olaraq onun əmək haqqı saxlandığı vaxt cəzanın icrası müddətinə hesablanır. Tibbi sənədlərlə təsdiq edilmiş əmək qabiliyyətinin müvəqqəti itirildiyi vaxt, habelə sosial məzuniyyətlərdə olma vaxtı bu müddətə daxil edilir.

Məhkumun üzrlü səbəblərdən işləmədiyi, lakin onun əmək haqqının saxlandığı müddətə aşagıdakılar daxildir:

- ❖ məhkumun xəstəlik vaxtı (bu müddətin islah işlərinin çəkilməsi müddətinə hesablanmadığı hallar istisna olmaqla);
- ❖ xəstə ailə üzvünə qulluq göstərilməsi ilə əlaqədar vaxt;
- ❖ növbəti və əlavə məzuniyyətdə olma vaxtı;
- ❖ hamiləliyə və doğuşa görə məzuniyyət vaxtı;

- ❖ şahid qismində məhkəmə araşdırmasında iştirak vaxtı və s.

Bütün bunlarla yanaşı daha iki hal mövcuddur ki, bu zaman işlənilməmiş vaxt məhkəmə hökmünə əsasən islah işlərinin çəkilməsi müddətinə hesablanır:

**1)** cinayət törətməklə əlaqədar məhkumun həbsdə olduğu vaxt (əgər burada törədilmiş cinayət əməlinə görə şəxsə islah işləri növündə cəza təyin edilibsə);

**2)** azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi vaxtı (əgər bu cəza növü məhkumun azadlıqdan məhrum etmə yerlərindən azad edilməsinədək islah işləri növündə cəza ilə əvəz edimişsə).

Aşağıdakı müddətlər islah işləri növündə cəzanın çəkilməsi müddətinə hesablanmır:

- ❖ мəhkumun işləmədiyi (yuxarıda sadalanan hallar istisna olmaqla) və ona əmək haqqı verilmədiyi vaxt;
- ❖ əmək haqqı verilmədən məzuniyyətdə olma vaxtı;
- ❖ alkoqol, narkotik və toksik sərxoşluq nəticəsində yaranmış xəstəlik vaxtı;
- ❖ islah işlərinin icrası zamanı məhkuma inzibati tənbeh kimi verimiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbs müddəti;
- ❖ məhkəmə qərarına əsasən cəzanın icrasının təxirə salındığı vaxt.

Məhkumun əmək fəaliyyəti ilə əlaqədar olan islah işləri növündə cəzanın spesifikliyini nəzərə alaraq, qanun, bir sıra hallarda, işləmək imkanlarının olmadığı üçün onların barəsində cəzanın çəkilməsinin təxirə salınmasını mümkün sayır. Misal üçün, məhkumun uzun müddət xəstə olması, məhkum qadının hamiləliyi və s.

İşlər işləri cəzasını çəkən məhkumun qazancından tutulmalar

onun cəzanı çəkməyə başladığı gündən aparılır. Əvəzçilik üzrə işləyən şəxslərdən tutulmalar hər iş yerindəki qazancdan aparılır. Qanunvericilik tutulmaların bütün cəza çəkmə dövrü üçün birdəfəlik və ya hissə-hissə aparılmasını nəzərdə tutmamışdır. Belə ki, Azərbaycan Respublikası CİM-in 46.2-ci maddəsinin tələbinə görə məhkumun qazancından tutulmalar əmək haqqı verilərkən hər işlənmiş ay üçün, məhkum işdən çıxdıqda isə ayın işlənmiş hissəsi üçün aparılır.

Qanun aşağıdakı mənbələrdən tutulmaların aparılmasına yol vermir:

- pensiyadan;
- sosial təminat və sosial sığorta qaydasında verilən müavinətlərdən;
- birdəfəlik verilən və əmək haqqı sistemində nəzərdə tutulmayan ödəmələrdən (o cümlədən istifadə edilməmiş məzuniyyətə görə verilən ödəmələrdən);
- ezamiyyətlərlə əlaqədar xərclər üçün əvəz kimi verilən məbləğdən;
- qanunvericiliklə nəzərdə tutulmuş digər ödəmələrdən.

Əgər məhkumun əməyi hissə-hissə pul və natura formasında ödənilirsə, bu halda tutulmalara proporsional qaydada məhkumun qazancının həm pul, həm də natura hissəsi cəlb edilir. Qazancın natura hissəsinin dövlət nəfinə keçirilməsi mümkün olmadığı üçün, bu hissə işəgötürənin sərəncamında qalır, onun dəyəri isə dövlət nəfinə keçirilir.

İcra məmuru məhkumla tərbiyə işini fərdi söhbət aparmaqla həyata keçirir. Fərdi söhbətin aparılması barədə protokol tərtib olunur və həmin protokol icra məmuru və məhkum tərəfindən imzalanır. Məhkum protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır.

Qanunvericiliyə əsasən islah işləri növündə cəzaya məhkum olunmuş şəxslər cəzanın icrası qaydalarını pozduqda, icra məmuru məhkuma xəbərdarlıq və ya töhmət növündə tənbeh verə bilər. Tənbeh verilməzdən əvvəl məhkumdan yazılı izahat alınır. Xətanın aşkara çıxarıldığı gündən bir ay keçdikdən sonra məhkuma tənbeh verilə bilməz. Məhkum ona verilmiş tənbehdən yuxarı vəzifəli şəxsə şikayət edə bilər.

İslah işləri növündə cəzaya məhkum olunmuş şəxsin olduğu yer müəyyən edilmədikdə, Azərbaycan Respublikası CİM-in 15-1.4-cü maddəsinə uyğun olaraq icra məmuru on günədək müddətə ilkin axtarış tədbirlərini həyata keçirir. Bu müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul edir, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün aidiyyəti polis orqanına göndərilir.

İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər cəzanı çəkməkdən boyun qaçırdıqda, icra məmuru onlara rəsmi xəbərdarlıq edir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər rəsmi xəbərdarlıqdan sonra cəzanı çəkməkdən qərəzli boyun qaçırdıqda, icra məmuru Azərbaycan Respublikasının CM-nə uyğun olaraq islah işlərinin çəkilməmiş hissəsinin azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi haqqında məhkəməyə təqdimat verir. Təqdimat təmin edildikdə, məhkəmə tərəfindən məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş

iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya dörd gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

**<u>Azadlığın məhdudlaşdırılması.</u>** Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci ildən qüvvəyə minmiş yeni CM-in 53-cü maddəsində nəzərdə tutulmuş azadlığın məhdudlaşdırılması cəzasının mahiyyəti ittiham hökmü cıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanılmasından ibarət olmuşdur. Lakin sonradan icrasında müəyyən problemlər yaşandığına görə bu cəza Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsindən çıxarılmışdır. Həmin tarixli digər qanunla azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasını təzimləyən Azərbaycan Respublikası CİM-dən VIII fəsil, 52-64-cü maddələr çıxarılmışdır. Qeyd olunan qanuna əsasən azadlığın məhdudlaşdırılması növündə cəzanı icra edən xüsusi müəssisələrin fəaliyyəti dayandırılmaqla onlar ləğv olunmuş, həmin zaman qeyd olunan cəzanı cəkən məhkumların cəzaları cərimə cəzası ilə əvəz edilmişdir.

Azadlığın məhdudlaşdırılması növündə cəza Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamında cəza siyasətinin hümanistləsdirilməsi ilə bağlı verdiyi tapşırığa əsasən azadlıqdan məhrum etməyə real alternativ kimi Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə yenidən cəza sisteminə daxil edilmişdir. Azərbaycan Respublikası CM-in 52-1-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılması cəzası məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarətdir. Qeyd olunan sonuncu maddədə əks olunmuş azadlığın məhdudlaşdırılması cəzasının ləğv edilmiş sabiq cəzadan fərqi məhkum üçün qa-

nunvericiliklə müəyyən olunmuş məhdudiyyətlərin humanistləşdirilməsində ifadə olunur. İlkin olaraq məhkum yaşayış yerindən, öz ailəsindən ayrılmır, sosial funksiyalarını, o cümlədən əmək fəaliyyətini və ya təhsilini davam etdirir. Eyni zamanda, bu cəza yetkinlik yaşına çatmayan şəxslərə də tətbiq edilə bilər. Həmin cəzanın təyini zamanı məhkəmə məhkumun yaşayış yerini (tamamilə və ya günün müəyyən vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsini məhdudlaşdırır, habelə onun üzərinə yerinə yetirilməsi məcburi olan vəzifələr qoyur. Bu vəzifələr məhkumun elektron nəzarət vasitəsini gəzdirməsi, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməsi, habelə cəzanın icrasına nəzarət edən orqanı iş və ya təhsil yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırması ilə bağlıdır. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası CM-in 52-1-ci maddəsinə əsasən məhkəmə məhkum üzərinə əlavə vəzifələr, habelə onun islahına kömək edən digər vəzifələr qoya bilər. Əlavə vəzifələr kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək, məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək, alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçməklə bağlı ola bilər. Məhkumun islahına kömək edən digər əlavə vəzifələr məhkəmənin mülahizəsinə əsasən təyin edilə bilər.

Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası qaydası və şərtləri Azərbaycan Respublikasının CİM-nə 01 dekabr 2017-ci il tarixində yeni əlavə edilmiş VII-I fəsildəki normalarla, yəni Məcəllənin 51-1–51-7-ci maddələri ilə tənzimlənir. Eyni zamanda, bu cəzanın icrasının təşkili ilə bağlı ətraflı mexanizmin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2018-ci il 24 aprel tarixli Kollegiya qərarı ilə “Azadlığın

məhdudlaşdırılması növündə cəzanın icrası Qaydası” təsdiq edilmişdir.

Azərbaycan Respublikası CİM-in 15.5-1-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılması növündə cəza məhkumun yaşayış yeri üzrə çəkilir və onun icrasını müvafiq yerin icra məmuru həyata keçirir. İcra məmuru məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surətini və həmin hökmün icrası barədə göstərişi aldığı vaxtdan üç gün müddətində azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsə gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildiriş göndərir. Məhkum bu bildirişi aldıqdan sonra üç gün müddətində cəzanın icrasına nəzarət edən probasiya qurumuna gəlməlidir. Üzrsüz səbəblərdən gəlməyən məhkumlar icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı ilə məcburi gətirilir. Həmin qərar Daxili İşlər Nazirliyinin yerli polis orqanı tərəfindən icra edilir.

Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası müddəti məhkumun cəzanı icra edən orqanda qeydiyyata alındığı vaxtdan hesablanır. Lakin cəzanın icrası zamanı məhkuma inzibati tənbeh kimi verilmiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbsin müddəti həmin cəzanın icrası müddətinə hesablanmır.

Azadlığın məhdudlaşdırılması növündə cəzanı icra edən icra məmuru:

- hökmün (qərarın) daxil olması və icra qəbul edilməsi ilə bağlı məhkəməyə məlumat verir;
- məhkum olunmuş şəxsi qeydiyyata götürür və ona şəxsi iş açır;
- məhkuma cəzanın icrasının qayda və şərtlərini izah edir;
- məhkuma elektron nəzarət vasitələrini tətbiq edir;
- məhkumun ölkədən getmək hüququnu müvəqqəti məh-

dudlaşdırır;

- məhkum edilmiş şəxs barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir;
- məhkəmənin hökmü (qərarı) barədə yeddi gün müddətində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir;
- məhkumun qanunvericiliklə müəyyən edilmiş cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməsinə nəzarət edir;
- məhkumla tərbiyə işini aparır;
- məhkum barəsində Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;
- olduğu yer məlum olmayan məhkumun axtarışını təşkil edir;
- cəzanın icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

İcra məmuru məhkuma elektron nəzarət vasitələrinin tətbiqi zamanı məhkuma həmin vasitəni daşımalı olduğunu, işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, habelə hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yol verilməzliyini izah edir, elektron nəzarət vasitəsini məhkumun üzərinə bağlayır və bu barədə protokol tərtib edir. Qeyd olunmalıdır ki, azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslərə elektron nəzarət vəsitələri, yəni elektron qolbaq Azərbaycan Respublikası CİM-in 15-2-ci maddəsinin, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 aprel 2018-ci il tarixli 144 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının

təsdiq edilməsi haqqında Qaydalar''a uyğun olaraq tətbiq edilir. Bu vasitələr sanitariya qaydalarına uyğun, məhkumun saglamlığı üçün təhlükəli olmayan materialdan hazırlanır, şəxsin həyatına və gündəlik fəaliyyətinə çətinlik yaratmır.

İcra məmuru azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslə tərbiyə işini onunla əməyə və təhsilə vicdanlı münasibət göstərilməsinə, cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına riayət edilməsinə yönəlmiş fərdi söhbətlər aparmaqla həyata keçirir. Bu zaman məhkumun fərdi xüsusiyyətləri, xarakteri və törədilən cinayətin səbəbləri nəzərə alınır. Məhkumların tərbiyə xarakterli tədbirlərdə fəal iştirakı həvəsləndirilir və onların islah edilməsi müəyyən olunarkən nəzərə alınır.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsə cəzanın icrası qaydalarını nümunəvi yerinə yetirdiyinə görə icra məmuru tərəfindən təşəkkür elan edilə, əvvəllər verilmiş tənbeh götürülə, istirahət və bayram günlərini müəyyən edilmiş ərazi hüdudlarından kənarda keçirməyə icazə verilə bilər. Məhkuma tətbiq edilmiş həvəsləndirmə, habelə tənbeh tədbirləri onun islah edilməsi müəyyənləşdirilərkən nəzərə alınır.

Məhkum məhkəmənin hökmündə müəyyən edilmiş vəzifələri yerinə yetirməli və icra məmurunun tələbi ilə cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat verməlidir. Məhkumun cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməsinə nəzarət etmək məqsədi ilə icra məmuru (gecə vaxtı istisna olmaqla) onun yaşayış yerinə daxil olmaq və müəyyən edilmiş vəzifələrə əməl edilməsini yerində yoxlamaq hüququna malikdir. Bu halda müvafiq protokol tərtib edilir.

Məhkum edilmiş şəxsin müəyyən vaxtlarda yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) müvəqqəti tərk et-

məsinə icazə icra məmuru tərəfindən aşağıdakı müstəsna hallarda verilir:

➲ yaxın qohumların ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi (yeddi gün müddətinə qədər);

➲ təbii fəlakət və digər fövqəladə hadisə ilə bağlı şəxsin yaşayış yerində müəyyən müddət qalmasının mümkün olmaması;

➲ yaxın qohumların nikaha daxil olması (iki gün müddətinə qədər);

➲ şəxsə tibbi yardım göstərilməsi zərurətinin yaranması (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda);

➲ istirahət və bayram günlərində, həvəsləndirmə tədbiri qismində.

Tibbi göstəricilərə görə məhkum yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsinə yeddi gündən çox stasionar müalicəyə yerləşdirildikdə (yaşayış məntəqəsinin ərazisində yerləşən tibb müəssisələrində bu mümkün olmadıqda), onun üçün müəyyən edilmiş məhdudiyyətlər qüvvəsində qalmaqla cəzanın icrası yeri müvafiq tibb müəssisəsi hesab edilir.

Məhkumun yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını müvəqqəti tərk etməsi ilə bağlı müraciətinə təxirəsalınmadan baxılır və əsaslandırılmış qərar qəbul edilir. Məhkuma yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını müvəqqəti tərk etmək üçün icazə verilmiş vaxt cəzanın icrası müddətinə hesablanır.

İcra məmuru azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun yaşayış yerini (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) dəyişdirməsinə dair ərizəsi əsasında bu barədə məhkumun yaşayış yeri üzrə məhkəməyə təqdimat verir.

Məhkəmə aşağıdakı müstəsna hallarda məhkumun yaşayış yerini dəyişməsinə icazə verilməsi barədə qərar qəbul edir:

- ❖ məhkumun ailə vəziyyəti dəyişdikdə;
- ❖ məhkum digər yaşayış sahəsi üzərində mülkiyyət hüququ əldə etdikdə;
- ❖ şəxsin xəstəliyi ilə bağlı ona yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsində uzunmüddətli tibbi yardım göstərilməsi zərurəti yarandıqda (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda), yəni məhkum narkomaniyadan, habelə müalicəsi uzun müddət tələb edən xəstəliklə bağlı müalicə keçdikdə.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxs cəzanın çəkilməsi qaydalarını pozduqda və ya onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdıqda, icra məmuru ona töhmət növündə tənbeh verir. Tənbeh tədbiri yazılı şəkildə əsaslandırılmış qərarla verilir. Tənbeh tətbiq edilməzdən əvvəl məhkumdan yazılı izahat alınır. Xətanın müəyyən edildiyi gündən bir ay keçdikdən sonra məhkum barəsində tənbeh tədbiri tətbiq edilə bilməz. Məhkum tətbiq edilmiş tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət edə bilər.

Azərbaycan Respublikası CİM-in 51-7.2-ci maddəsinə uyğun olaraq azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin aşağıdakı əməlləri törətməsi, onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən **boyun qaçırma** hesab edilir:

- ➲ icra məmurunun cəzanın çəkilməsi üçün gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildirişini aldıqdan sonra üç gün müddətində üzrlü səbəblər olmadan cəzanın icrasına nəzarət edən orqana gəlməməsi;
- ➲ üzrlü səbəb olmadan məhkəmə tərəfindən müəyyən edil-

miş vəzifələri yerinə yetirməməsi;

➲ cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat vermək üçün icra məmurunun çağırışı ilə gəlməməsi;

➲ barəsində inzibati həbs növündə tənbeh tədbirinin tətbiq edilməsi.

Azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun olduğu yer müəyyən edilmədikdə Azərbaycan Respublikası CİM-in 15-1.4-cü maddəsinə uyğun olaraq icra məmuru on günədək müddətə ilkin axtarış tədbirlərini həyata keçirir. Bu müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan olunması haqqında qərar qəbul edir, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün ərazi aidiyyəti üzrə polis orqanına göndərilir.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxs onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda icra məmuru cəzanın çəkilməmiş hissəsinin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi üçün məhkəməyə təqdimat verir.

Üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığına görə töhmət almış məhkumun il ərzində CİM-in 51-7.2-ci maddəsində sadalanan əməlləri daha iki dəfə törətməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.

Aşağıdakı əməllər azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasından **qərəzli boyun qaçırma** hesab edilir:

❖ məhkumun müəyyən edilmiş ərazi hüdudlarını icazəsiz tərk etməsi;

❖ məhkumun elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etməsi, onu zədələməsi və ya digər üsulla yararsız vəziyyətə salması, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməməsi;

❖ məhkumun yaşayış yerini Azərbaycan Respublikası CİM-in 51-3.3 və ya 51-3.6-cı maddələrində nəzərdə tutulmuş icazə olmadan 10 gündən artıq müddətdə tərk etməsi.

Məhkəmənin müəyyən etdiyi vəzifələri mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçıran məhkumun cəzasının çəkilməmiş hissəsi məhkəmə tərəfindən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilir. Bu zaman iki gün azadlığın məhdudlaşdırılması bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

**<u>Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə</u>.** Azərbaycan Respublikası CM-in 45-ci maddəsində nəzərdə tutulumuş nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş hallarda, nəqliyyat vasitəsini idarəetmə ilə bağlı cinayət törətmiş şəxsin şəxsiyyəti, cinayətin xarakteri və digər hallar nəzərə alınmaqla yalnız əlavə cəza kimi bir ildən beş ilədək müddətə təyin edilir.

Azərbaycan Respublikası CM-in 45.2-ci maddəsinin tələblərinə əsasən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq

təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır. Beləliklə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə hökm qanuni qüvvəyə mindikdən sonra və bu cəza intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara əlavə olaraq təyin edildikdə, onun icrası əsas cəzanın icrası müddəti başa çatdıqdan sonra başlayır.

Əgər nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya əlavə cəza kimi təyin edildikdə, habelə şərti məhkum etmə zamanı onun icrası əsas cəzanın icrası ilə birlikdə başlayır. Bu zaman məhkəmə qanuni qüvvəyə minmiş hökmün surətini cəzanın icra edilməsi üçün məhkumun işlədiyi yerin işəgötürəninə, habelə bu cəzanın icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir. Cəzanın icrasına nəzarəti həyata keçirən icra məmuru hökmün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi məhkuma bu hüququ verən orqana göndərir. Respublikamızda belə əsas orqanlardan biri Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisidir. Dövlət Yol Polisi məhkəmə hökmünün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi aldıqdan sonra hökmdə göstərilmiş müddət ərzində onun saxlanılması üçün bütün tədbirləri, o cümlədən məhdudiyyət barədə məlumatı müvafiq məlumat bazasına daxil etməlidir. Digər nəqliyyat vasitələrini (hava, dəmiryol və su nəqliyyatı) idarəetmə hüququ verən orqanlar da qanunvericiliklə müəyyən edilmiş tədbirləri görməli və bu barədə icra məmuruna məlumat verməlidirlər. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxsin işlədiyi yerin işəgötürəni məhkəmənin hökmündə göstərilən tələblərə riayət etməli, əmək qanunvericiliyinə uyğun olaraq məh-

kumla nəqliyyat vasitəsini idarəetmə ilə bağlı olan əmək müqaviləsinə xitam verməli, bu barədə məhkəməni və icra məmurunu məlumatlandırmalıdır. Eyni zamanda, işəgötürən habelə cəzanın icra olunduğu müəssisə və ya orqan nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etməyə məhkum olunmuş şəxsi nəqliyyat vasitəsini idarəetmə ilə əlaqədar işlərdə istifadə etməməlidir.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara əlavə olaraq təyin edildiyi hallarda, cəzanı icra edən müəssisə və ya orqan əsas cəza müddəti qurtardıqdan sonra, yaxud məhkum şərti olaraq vaxtından əvvəl azad olunduqda, cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilərsə, habelə amnistiya, əfv aktlarına görə məhkum əsas cəzadan azad olunduqda, hökmün surəti və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənəd (bu sənəd məhkumun şəxsi işində olarsa) məhkumun yaşadığı yerin icra məmuruna göndərir. İcra məmuru öz növbəsində nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi, yaxud həmin sənəd olmadıqda isə, hökmün surətini yuxarıda göstərilən tədbirləri görmək məqsədilə müvafiq orqana göndərir. Eyni zamanda, icra məmuru məhkumun qeydiyyatını aparır, onun məhkəmənin hökmündə göstərilən tələblərə riayət etməsinə nəzarət edir və hökmdə göstərilən tələblərin məhkumun işlədiyi yerin işəgötürəni tərəfindən yerinə yetirilməsini yoxlayır.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs məhkəmənin hökmü ilə qadağan edilmiş nəqliyyat vasitəsini idarəetmə ilə əlaqədar əmək fəaliyyətilə məşğul olduqda, icra məmuru işəgötürənə məlumat verərək məhkumun hökmlə qadağan edilmiş müvafiq əmək fəaliyyətinə üç gün müddətinə xitam verilməsini təklif edir və onu

hökmün icra edilməməsinin məsuliyyətə səbəb olması barədə xəbərdar edir. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünü qərəzli olaraq icra etməyən məhkum və ya vəzifəli şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyəti daşıyır.

Cəzaların icrası qanunvericiliyi əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər barəsində də nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası qaydasını tənzimləyir. Belə ki, əgər məhkum Azərbaycan Respublikasının hüdudlarını tərk etmişsə, onda cəzanı icra edən orqan nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etməyə məhkum olunmuş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində hökmün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsi ilə məhkumun mənsub olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəliklərinə və ya həmin dövlətə göndərməklə müvafiq cəza barədə məlumat verir.

**Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə.** Azərbaycan Respublikası CM-in 48-ci maddəsində ğır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin ictimai təhlükəliliyinin xarakterini və dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə müvafiq qərar qəbul edir və onu məsələyə baxılması məqsədilə həmin orqana göndərir.

Bu cəza növünün icrası qanunvericiliklə hökmü çıxaran məhkəməyə həvalə edildiyindən quvvəyə minmiş qərar onun tərəfindən icra olunmaq məqsədilə aidiyyəti orqana göndərilir.

Dövlət təltifləri ilə təltif etmək, ali hərbi və ali xüsusi rütbələ-

rin verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23 və 24-cü bəndlərinə, habelə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının fəxri adları haqqında" 22 may 1998-ci il tarixli Fərmanına görə fəxri adların, dövlətin ən ali və yüksək fərqlənmə dərəcələri – "Vətən Müharibəsi Qəhrəmanı", "Azərbaycanın Milli Qəhrəmanı" adlarının verilməsi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmişdir. Bu baxımdan, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə barədə məhkəmə qərarı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir. Azərbaycan Respublikasının Prezidenti müvafiq cəzaya məhkum edilmiş şəxsin rütbə və fəxri adlardan və dövlət mükafatlarından məhrum edilməsi haqqında müvafiq fərman və ya sərəncam imzalayır.

Digər xüsusi rütbələr və hərbi rütbələr dövlət orqanlarının, yəni ədliyyə, prokurorluq, daxili işlər, gömrük orqanlarının əməkdaşlarına, diplomatik, vergi, dövlət təhlükəsizliyi xidməti orqanları işçilərinə, Azərbaycan Respublikasının Silahlı Qüvvələri sırasında xidmət edən sıravi, zabit və ali zabit heyətinə verildiyindən, müvafiq qərar icra olunmaq üçün aidiyyəti üzrə müvafiq nazirlik, xidmət və komitələrə göndərilir. Müvafiq orqan müəyyən edilmiş qaydada məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsi haqqında müvafiq sənədlərə yazılı qeyd edir, habelə şəxsin xüsusi və ya hərbi rütbə, fəxri addan və dövlət təltifi ilə əlaqədar hüquq və güzəştlərdən məhrum edilməsinə dair tədbirlər görür.

Ehtiyatda olan hərbi qulluqçulara dair hökmün surəti onların qeydiyyatda olduğu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin ərazi qurumuna göndərilir.

Qanunvericiliyə əsasən xüsusi və ya hərbi rütbədən, fəxri ad-

dan və dövlət təltifindən məhrum etmə ilə əlaqədar məhkəmə hökmünün icrası barədə onu icra edən orqan bir ay müddətində məhkəməyə məlumat verməlidir.

**Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma.** Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəza cinayət qanunvericiliyində nəzərdə tutulmuş yeni cəza növüdür. Bu cəza Azərbaycan Respublikası CM-in 52.1-ci maddəsinin yeni redaksiyasına əsasən bir ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə təyin edilir və onlar əsas cəza növünü çəkdikdən sonra icra olunur.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəzanın icrası qaydası Azərbaycan Respublikasının CİM-in 166-cı maddəsi ilə tənzimlənir. Belə ki, qeyd edilən maddənin tələbinə görə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəzaya məhkum edilmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində təyin edilmiş əsas cəzanı icra edən orqan və ya müəssisə müəyyən edilmiş əsas cəza müddətinin bitməsinə iki ay qalmış, əsas cəza növü kimi cərimə cəzası təyin edildikdə isə cəzanın icraya yönəldilməsinə dair göstəriş daxil olduqdan dərhal sonra Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə müvafiq hökmün surətini, məhkum, onun mənsub olduğu dövlət, cəzanın icrası (cəzanın çəkilmə yeri, məhkumun yerdəyişmələri, vaxtından əvvəl azad edilməsi və digər), cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi vəziyyəti barədə məlumatları təqdim edir.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs əsas cəzasını çəkib qurtardığı və ya müəyyən olunmuş qaydada cəzadan azad olunduğu gün əsas cəzanı icra edən orqan və ya müəssisənin nümayəndəsinin müşayiəti ilə əlavə cəzanı icra edən orqana, yəni Dövlət

Miqrasiya Xidmətinə təhvil verilir. Şəxsiyyətini təsdiq edən sənədi olmayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs əlavə Dövlət Miqrasiya Xidmətinə əsas cəzanı icra edən orqan və ya müəssisə tərəfindən təqdim olunan azadetmə haqqında fotoşəkilli arayış əsasında təhvil verilir.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəzaya məhkum edilmiş şəxsin şəxsiyyətinin dəqiqləşdirilməsinə ehtiyac yarandıqda, əsas cəzanı icra edən müəssisə və ya orqan tərəfindən verilən məlumat əsasında Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq tədbirlər görür.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəzaya məhkum olunmuş şəxslər 48 saat ərzində Azərbaycan Respublikasının ərazisindən çıxarılmalıdır. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının tətbiqi ilə bağlı sənədləşmə yubandıqda və ya çıxarılma haqqında qərarın vaxtında icrasına mane olan digər üzrlü səbəb olduqda, şəxsin saxlandığı yer üzrə birinci instansiya məhkəməsi Dövlət Miqrasiya Xidmətinin əsaslandırılmış təqdimatı əsasında çıxarılma müddətinin uzadılması məsələsinə baxır.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının icrasından yayınmaqla hökmün icrasından boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsas olduqda, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulan qaydada tutulur və hökmün icrası təmin edilir. Bu zaman göstərilən şəxslər məhkəmənin qərarı ilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətdə Dövlət Miqrasiya Xidmətinin qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ölkə hüdudlarından kənara məcburi çıxarılan şəxs barədə əvvəlcədən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinə yazılı məlumatlar göndərilir. Məhkum Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılarkən, Azərbaycan Respublikasının sərhəd nəzarət məntəqələrinədək Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən müşayiət olunur və dövlət sərhədinin buraxılış məntəqələrində Dövlət Sərhəd Xidmətinin əməkdaşlarına təhvil verilir.

Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma xərclərini məhkumun özü və ya onun mənsub olduğu dövlətin diplomatik və konsulluq nümayəndəlikləri ödəyirlər. Bu mümkün olmadığı halda, məhkumun Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma xərclərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ödəyir.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının tətbiqindən irəli gələn digər məsələlər Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulan müddəalara zidd olmamaq şərti ilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq həll edilir.

Azərbaycan Respublikası CM-in 52.1-1-ci maddəsinə əsasən barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası tərbiq edilmiş şəxsin Azərbaycan Respublikasına gəlmək hüququ onun məhkumluğu ödənilənədək və ya götürülənədək məhdudlaşdırılır.

## Mövzu 9. Azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin təsnifi və onların cəzaçəkmə müəssisələrinə bölüşdürülməsi, cəzanın çəkilməsi yeri

Azərbaycan Respublikasında ölüm cəzası 10 fevral 1998-ci il tarixdə ləğv edildikdən sonra azadlıqdan məhrum etmə cəzası yaratdığı coxsaylı məhrumiyyətlərə, məhkumun hüquq və azadlıqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına görə Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəzaların ən sərti və ya ağırı hesab edilir. Digərləri ilə müqayisədə bu cəza müddətcə böyük, məhkum üçün kifayət qədər repressiv olmaqla, böyük mənfi nəticələr yaradır (ailədən ayrı düşmə, iş yerinin, müsbət sosial əlaqələrin itirilməsi, sərbəst hərəkətin və müstəqil qərar qəbul etmənin məhdudlaşdırılması və s.). Azadlıqdan məhrum etmə yeganə cəzadır ki, öz ağırlıq dərəcəsinə görə fərqləndirilən bütün növ cinayətlərə, yəni böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə görə təyin oluna bilər. Məhz bu baxımdan azadlıqdan məhrum etmə cəzasına Azərbaycan Respublikası CM-in Xüsusi hissəsindəki sanksiyalarda daha çox rast gəlinir. Bu da öz növbəsində ölkəmizdə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzadan cəzaların təyin edilməsi təcrübəsində daha çox istifadə olunmasına şərait yaradır. Mahiyyətcə, məhkumun cəmiyyətdən təcrid olunmaqla müxtəlif növlü cəzaçəkmə müəssisələrinə yerləşdirilməsi ilə müşayiət olunan bu cinayət-hüquqi xarakterli tədbir, əsas cəza olmaqla yanaşı, iki növə bölünür: müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə. Bu cəzanın icrası qaydası və şərtləri digər cəzalardan, xüsusilə məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalardan xeyli fərqlidir. Belə növ cəzanın

icrası kifayət qədər maliyyə vəsaiti tələb etməklə, bu məqsədlər üçün yaradılımış xüsusi dövlət müsəssisələrində, yəni cəzaçəkmə müəssisələrində həyata keçirilir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası CİM-in Xüsusi hissəsinin səkkiz böyük fəsli bilavasitə bu cəzanın icrası prosesinə həsr olunmuşdur.

İlk növbədə cinayət və cəzaların icrası qanunvericilikləri ilə müəyyən olunmuş müxtəlif əsaslara görə azadlıqdan məhrum edimiş şəxslərin təsnifatının (bölgüsünun) və yaxud təsnifinin, bir sözlə, belə kateqoriyalı məhkumların cəzanı çəkəcəkləri müəssisənin növünün müəyyən olunması qaydası maraq doğurur. Azadlıqdan məhrum edilmiş məhkumların təsnifi cəzanın icrasına daha əlverişli zəmin yaratmaqla, məhkumların islahı prosesinin səmərəli təşkili üçün xüsusi əhəmiyyətə malik institutdur. **Azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin təsnifi dedikdə, onların törətdikləri cinayətlərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən, cinsindən, yaşından və şəxsiyyətinin digər cəhətlərindən, həmçinin cəzaçəkmə dövründə davranışlarından asılı olaraq nisbətən yekcins, yəni oxşar kateqoriyalara bölgüsü başa düşülür.**

Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifi cəzanın icrasının differensiasiyası və fərdiləşdirilməsi üçün zəruri şərait yaradır, cəza-icra sisteminin formalaşdırılmasına təsir göstərir və məhkumların ayrılıqda saxlanılması üçün əsas yaradır. Təsnifin hüquqi əsasını Azərbaycan Respublikası CM-in 56-cı, 72-ci və 85-ci maddələri müəyyənləşdirir, lakin Cəzaların İcrası Məcəlləsi qarşısına qoyulmuş səciyyəvi vəzifələrin yerinə yetirilməsinə nail olmaq məqsədilə həmin təsnifi müəyyən qədər genişləndirir. Belə ki, qeyd olunan Məcəllənin 72-ci maddəsi məhkumların cəzaçəkmə müəssisələrində ayrılıqda saxlanması ilə bağlı qaydalara müəyyən əlavələr etmişdir. Azadlıqdan məhrum edilmiş məkum-

ların təsnifatının sosial-demoqrafik, cinayət-hüquqi və cəza-icra meyarları fərqləndirilir.

Təhlil göstərir ki, azadlıqdan məhrum etmə cəzasına məhkum edimiş şəxslərin təsnifi aşağıdakı meyarlar üzrə aparılır:

- yaş;
- cins;
- törədilmiş cinayətin ağırlıq dərəcəsi;
- təqsirin forması;
- təyin edilmiş cəzanın müddəti;
- məhkumluq;
- əvvəllər azadlıqdan məhrum etmə cəzasının çəkilməsi faktı;
- cinayətlərin residivi;
- sağlamlıq vəziyyəti;
- məhkumun əvvəllər məhkəmədə və ya digər hüquq-mühafizə orqanlarında işləməsi.

Məhkumların təsnifinin bu meyarlarının bəziləri üzərində qısaca dayanaq.

Yetkinlik yaşına çatmayan məhkumlar bütün dünyada ənənəvi olaraq azadlıqdan məhrum edilmiş yaşlılardan ayrı saxlanılırlar. Bu eyni zamanda beynəlxalq aktların tələblərindən irəli gəlir. Misal üçün, BMT-nin "Məhbuslarla minimal standart davranış Qaydaları"ında (Nelson Mandela qaydaları) qeyd olunur:

**"11. Müxtəlif kateqoriyalardan olan məhbuslar onların cinsi, yaşı, əvvəllər məhkum olunması, həbs edilməsinin hüquqi səbəbləri və onlarla davranışa dair sərəncam nəzərə alınmaqla, ayrı-ayrı müəssisələrdə, yaxud eyni müəssisənin müxtəlif hissələrində saxlanılmalıdırlar. Beləliklə:**

**a) kişilər və qadınlar, mümkün qədər, ayrı-ayrı müəssisələrdə saxlanılmalıdırlar; kişilər və qadınlar eyni müəssisədə**

**saxlanırsa, tamamilə ayrı-ayrı binalarda yerləşdirilməlidir;**

**b) məhkum edilməmiş məhbuslar məhkum edilmişlərdən ayrı yerləşdirilməlidir;**

**c) borc öhdəliklərini yerinə yetirmədiyinə görə məhkum edilmiş şəxslər və mülki işlərə görə həbs edilmiş məhbuslar cinayət törətmiş şəxslərdən ayrı yerləşdirilməlidir;**

**d) azyaşlı qanun pozucuları yaşlılardan ayrı saxlanılmalıdır.”**

Avropa Şurasının Avropa Penitensiar Qaydalarının müxtəlif bəndlərində də belə ayrı saxlanma tövsiyə olunur:

**“11.1. 18 yaşına çatmayanlar yaşlılar üçün penitensiar müəssisələrdə yox, onlar üçün nəzərdə tutulmuş xüsusi müəssisələrdə saxlanılmalıdırlar.**

**11.2. Lakin istisna hallarda, yetkinlik yaşına çatmayanlar belə penitensiar müəssisələrdə saxlanılarsa, onların hüquqi vəziyyəti və ehtiyacları nəzərə alınmaqla, xüsusi qaydalar müəyyənləşdirmək məqsədəuyğundur.**

**12.1. Ruhi xəstəliklərdən əziyyət çəkən və yaxud psixi durumu həbsdə saxlanma ilə uyğun olmayan şəxslər bu məqsədlər üçün müəyyən olunmuş müəssisələrdə saxlanmalıdırlar.**

**18.8. Məhbusun bu və ya digər penitensiar müəssisəyə, yaxud penitensiar müəssisənin konkret bölməsinə göndərilməsi barədə qərar qəbul edilərkən həbsdə saxlanılmanın aşağıdakı qaydalarını ciddi şəkildə nəzərə almaq lazımdır:**

**a. təqsirləndirilən şəxslər məhkumlardan ayrı;**

**b. kişilər qadınlardan ayrı; və**

**c. yetkinlik yaşına çatmayan məhbuslar yaşlı məhbuslardan ayrı”.**

Yetkinlik yaşına çatmayan məhkumların müstəqil qrupa ayrılması sosial-əxlaqi və kriminal cəhətdən daha pozğun şəxslə-

rin onlara mənfi təsirinin qarşısının alınması zərurəti ilə, habelə onların şəxsiyyətinin psixofizioloji xüsusiyyətləri ilə, həmçinin cəzanın icrası zamanı tərbiyə prosesinin təşkilinin spesifikliyi ilə şətrlənir.

Qadınlar da məhkumların müstəqil qrupunu təşkil edir. Bu hal da onların şəxsi təhlükəsizliyini təmin etmək üçün müəyyən edilmiş və qadınların şəxsiyyətlərinin psixofizioloji xüsusiyyətləri nəzərə alınmaqla, onlarla tərbiyə işinin düzgün təşkili ilə şərtlənir.

Nəhayət, respublikamızın cəzaların icrası qanunvericiliyi, yəni Azərbaycan Respublikası CİM-in 72.3-cü maddəsi məhkumların təsnifatını apararkən, məhkəmə və hüquq-mühafizə orqanlarının sabiq əməkdaşlarını da müstəqil qrupa aid edir və onların digər məhkumlardan ayrılıqda saxlanılmasını nəzərdə tutur. Bu hal qeyd edilən şəxslərin əvvəllər cinayətkarlığa qarşı mübarizə aparması və digər məhkumlarla bir yerdə saxlanılmasının onların həyat və sağlamlığı üçün təhlükəli olması ilə izah olunur.

Azadlıqdan məhrum edilmiş şəxslər törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olaraq da ayrı-ayrı kateqoriyalara bölünürlər. Burada məhkumlar aşağıdakı kateqoriyalara bölünürlər:

- qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər;
- qəsdən az ağır cinayət törətmiş şəxslər;
- qəsdən ağır cinayət törətmiş şəxslər;
- qəsdən xüsusilə ağır cinayət törətmiş şəxslər.

Respublikamızın cinayət və cəzaların icrası qanunvericilikləri cəzanın təyini və icrası zamanı təqsirin formasını, başqa sözlə, cinayətin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsini nəzərə alır. Məlumdur ki, ehtiyatsızlıqdan törədilmiş cinayətlər qəsdən törədilmiş cinayətlərə nisbətən daha az ictimai təhlükə doğurur. Buna görə də ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər barəsində cə-

zanın icrası zamanı onlara daha az həcmdə islah təsiri tədbirləri tətbiq edilir. Bu kateqoriya məhkumlar cəzalarını da daha güzəştli şəraitdə çəkirlər.

Cinayət və cəzaların icrası qanunvericilikləri ilk dəfə cinayət törətmiş şəxsləri də ayrıca kateqoriya kimi nəzərdə tutur. Bu halda qanunvericilik məhkumluğun ödənilməsindən və ya götürülməsindən, cəzanın çəkilməsindən sonra keçmiş müddətdən, təqsirin formasından və cəzanın çəkilmə yerindən asılı olmayaraq, təqsirkar şəxs tərəfindən əvvəllər azadlıqdan məhrum etmə cəzasının çəkilməsi faktını nəzərə alır.

Məhkumun cəza çəkəcəyi cəzaçəkmə müəssisəsinin növü cinayət qanunvericiliyi normaları əsasında məhkəmə tərəfindən hökm çıxarılarkən müəyyən edilir. Bu məsələlər Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 28 iyun 2002-ci il tarixli "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" 2 nömrəli qərarında ətraflı açıqlanmışdır.

**Cəzanın çəkilməsi yeri.** Azərbaycan Respublikası CİM-in 65.1-ci maddəsinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzalarını bir qayda olaraq, yaşayış yerinə yaxın ərazidə yerləşən cəzaçəkmə müəssisələrində çəkirlər. Bu, məhkumun faydalı sosial əlaqələrinin (ilk növbədə ailələri ilə) qorunub saxlanması, habelə qeyd olunan şəxslərin islah prosesinə cəlb olunması məqsədi daşıyır. Lakin bu qaydadan istisnalar da var. Belə ki, Azərbaycan Respublikası CİM-in 65.2-ci maddəsinə əsasən cinayətlərin xüsusi təhlükəli residivinə görə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya və ya cəzalarının bir hissəsini həbsxanada çəkməyə məhkum olunanlar, həmçinin əcnəbilər və ya vətəndaşlığı

olmayan şəxslər cəzalarını çəkmək üçün yaşadıqları yerdən asılı olmayaraq, müvafiq cəzaçəkmə müəssisələrinə göndərilirlər. Azərbaycan Respublikasında qeyd olunan maddənin tələblərinə riayət etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli Fərmanına uyğun olaraq regionlarda penitensiar komplekslər (qarışıq rejimli cəzaçəkmə müəssisələri) inşa olunmaqdadır. 2008-ci ildə ilk belə müəssisə Naxçıvan Muxtar Respublikasında, 2013-cü ildə Şəkidə, 2022-ci ildə Bakıda (tərbiyə müəssisəsi) istifadəyə verilmiş, hal-hazırda Lənkəranda, Gəncədə, Kürdəmirdə bu tipli müəssisələrin inşası ilə bağlı işlər davam etdirilir. Qarışıq rejimli cəzaçəkmə müəssisələrində Azərbaycan Respublikası CİM-in 72.6-cı maddəsinə uyğun olaraq cəzalarını müxtəlif rejimli cəzaçəkmə müəssisələrində çəkməli olan şəxslər bir ərazidə, lakin ayrılıqda və bir-birindən təcrid edilməklə saxlanılırlar. Eyni zamanda, bu tipli müəssisələrin ərazisində istintaq təcridxanalarının da inşası və fəaliyyəti nəzərdə tutulmuş, bu məqsədilə istifadəyə verilmiş Naxçıvan Muxtar Respublikasında və Şəkidəki müəssisələrin nəzdində istintaq təcridxanası fəaliyyət göstərir.

Qanunvericiliyə uyğun olaraq məhkumlar cəzaçəkmə müəssisəsinə onlar barəsində çıxarılmış hökm qanuni qüvvəyə mindikdən sonra göndərilirlər. Müəyyən müddətə və ömürlük azadlıqdan məhrum edilmiş məhkum istintaq təcridxanalarından da cəzaçəkmə müəssisəsinə müşayiət altında göndərilir. Bu zaman müvafiq maddi-məişət və sanitariya-gigiyena şəraiti təmin edilir.

Azərbaycan Respublikası CİM-in 71.1-ci maddəsinə əsasən, məhkumlar cəzaçəkmə müəssisələrinə həmin müəssisələrin Daxili İntizam Qaydalarına uyğun olaraq müdiriyyət tərəfindən qəbul edilirlər.

Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının 43-

cü bəndinə əsasən cəzaçəkmə müəssisələrinə daxil olan məhkumlar müəssisənin böyük inspektoru (rəisin növbətçi köməkçisi), qarovul rəisi, qeydiyyat hissəsinin əməkdaşı, habelə böyük inspektor (psixoloq) və tibb-sanitariya hissəsinin əməkdaşı tərəfindən qəbul edilir. Qeyri-iş vaxtlarında daxil olmuş məhkumların qəbulu böyük inspektor (rəisin növbətçi köməkçisi) və qarovul rəisi tərəfindən həyata keçirilir.

Yeni daxil olmuş məhkumların cəzaçəkmə müəssisələrinə qəbulu zamanı müəssisənin aidiyyəti əməkdaşları şəxsi işlərlə tanış olurlar. Müəyyən olunmuş davranış qaydalarının pozulması, xüsusilə qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsinə görə cinayət məsuliyyəti daşıyacaqları barədə məhkumlara xəbərdarlıq edilir və onlardan bu barədə yazılı iltizam alınır. Məhkum iltizamı imzalamaqdan imtina edərsə, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən imtinanın səbəbləri göstərilməklə müvafiq akt tərtib edilir. İltizam və ya onun imzalanmasından imtina barədə akt məhkumun şəxsi işinə əlavə edilir. Tibb-sanitariya hissəsinin həkimi və ya feldşeri daxil olmuş məhkumların təklikdə tibbi müayinəsini keçirir, bu zaman onların üzərində bədən xəsarətlərinin mövcudluğuna xüsusi diqqət yetirilir, onların mənşəyi araşdırılır, bu barədə aidiyyəti orqanlara məlumat verilir. Müayinənin nəticələri barədə hər bir məhkuma açılmış tibbi kitabçada müvafiq qeydlər aparılır.

Qəbul zamanı məhkumların üstündə tam axtarış, onlara məxsus əşyalara isə baxış keçirilir. Məhkumlara əldə etməyə, özlərində saxlamağa, sovqatlarda gətirilməsinə, habelə bağlama və banderollarda göndərilməsinə icazə verilən əşya, mallar və ərzaq məhsulları istisna olmaqla, digər əşya, mallar və ərzaq məhsulları aşkar edildikdə, həmin əşyalar götürülür və cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən qanunvericiliyə uyğun tədbir görülür.

Məhkumun belə hərəkətləri cəzanın icrası qaydalarının pozuntusu kimi də qiymətləndirilə bilər. Məhkumlardan götürülmüş əşya, mallar və ərzaq məhsulları saxlanmaq üçün anbara təhvil verilir, yaxud cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış qərarına əsasən məhv edilir və bu barədə məhkuma məlumat verilməklə müvafiq akt tərtib olunur. Qeydiyyat hissəsinin əməkdaşı tərəfindən cəzaçəkmə müəssisələrinin analitik informasiya sisteminə müəssisəyə yeni daxil olmuş məhkumlar barədə tam məlumat daxil edilir.

Məhkumlar cəzaçəkmə müəssisələrinə daxil olarkən, Daxili İntizam Qaydalarının 351-352-ci bəndləri ilə və mövcud sanitar-epidemioloji normalarla müəyyən edilmiş qaydada tibbi müayinədən və sanitar təmizləmədən keçirlər.

Cəzaçəkmə müəssisələrinə yeni qəbul edilmiş məhkumlar iki həftəyədək müddətə başqa məhkumlardan ayrı saxlanılırlar. Məhkumların ayrı saxlandığı müddətdə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən onların hüquq və vəzifələri, qanunla nəzərdə tutulmuş əmək və istirahət şəraiti izah olunmalı, cəzanın icrasını tənzimləyən qanunvericilik aktları və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə tanış olmaları üçün şərait yaradılmalıdır. Eyni zamanda, məhkumun müəssisədə cəzasını çəkə biləcəyi ilə bağlı məsələ aydınlaşdırılır.

## Mövzu 10. Cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təşkilati əsasları

Azərbaycan Respkblikasında cəzaçəkmə müəssisələrinə ümumi rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 1993-cü il tarixli Fərmanı ilə azadlıqdan məhrum etmə cəzalarının icrası vəzifəsi və bu vəzifəni həyata keçirən cəzaçəkmə müəssisələri Daxili İşlər Nazirliyinin tabeliyindən alınaraq Ədliyyə Nazirliyinə verilmiş və onun tərkibində Məhkəmə Qərarlarının İcrası Baş İdarəsi (MQİBİ) yaradılmışdır. Həmin vaxt məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların, habelə əlavə cəzaların icrası (hərbi qulluqçulara tətbiq edilən cəzalar, yəni hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama istisna olmaqla) da MQİBİ-yə həvalə edilmişdi. 1999-cu ilin dekabr ayında “Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında” Qanun qəbul edildikdən sonra məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların, habelə əlavə cəzaların icrası Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinə həvalə olundu. MQİBİ isə üç cəzanın: azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzalarının icrasını həyata keçirməyə başladı. Sonradan MQİBİ Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli fərmanı ilə Penitensiar Xidmət adlandırılmışdır. Penitensiar Xidmətin Əsasnaməsi, strukturu və ştat cədvəli Ədliyə naziri tərəfindən təsdiq edilmişdir. Penitensiar xidmətin təsdiq olunmuş strukturuna əsasən onun tərkibinə daxildir:

- Baş İdarə (aparat);
- Mühafizə Alayı;
- Konvoy Taboru;
- İstintaq təcridxanaları;

- ❖ Cəzaçəkmə müəssisələri;
- ❖ Təlim Mərkəzi;
- ❖ Təchizat İdarəsi;
- ❖ Avtonəqliyyat Təsərrüfatı;
- ❖ "Cəmiyyət və cəza" jurnalının redaksiyası.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti haqqında" Əsasnamə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 31 oktyabr 2019-cu il tarixli 21-N nömrəli Qərarı ilə təsdiqlənmişdir. Əsasnamənin 1.2-ci bəndinə əsasən "Penitensiar xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarını (Nelson Mandela Qaydaları), BMT-nin Məhbuslarla rəftarın əsas prinsiplərini, Avropa Penitensiar Qaydalarını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Cəzaların İcrası və Cinayət-Prosessual məcəllələrini, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununu, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqların təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur".

Əsasnaməyə uyğun olaraq Penitensiar Xidmət cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına rəhbərliyi bilavasitə həyata keçirir və onun **fəaliyyət istiqamətləri** aşağıdakılardır:

- ➲ müəyyən müddətə və ömürlük azadlıqdan məhrumetmə cəzalarının icrasını həyata keçirmək;

- müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumların islahı işini həyata keçirmək;
- həbs edilmiş şəxslərin və məhkumların mühafizəsini, onların müşayiətini həyata keçirmək;
- barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin saxlanılmasını təmin etmək;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;
- cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərin reabilitasiyasına və sosial adaptasiyasına köməklik göstərmək;
- səlahiyyətləri daxilində mülki müdafiə, yanğın təhlükəsizliyi və səfərbərlik işini təşkil etmək;
- hüquqi maarifləndirmə işində iştirak etmək;
- qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

Əsasnaməyə əsasən Penitensiar Xidmət fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

- cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının həbs edilmiş şəxslərin və məhkumların mühafizəsini və müşayiətini həyata keçirən hərbi qurumların və Penitensiar xidmətin strukturuna daxil olan digər qurumların fəaliyyətini təşkil etmək;
- barələrində məhkəmələrin hökm və qərarları olan şəxslərin müvafiq müəssisələrdə saxlanılmasını təmin etmək;
- məhkumların qanunvericiliklə müəyyən edilmiş üsul və vasitələrlə islahı işini təşkil etmək;
- məhkumların və istintaq təcridxanalarında saxlanılan şəxslərin hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaq;
- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında

saxlanılan şəxslər tərəfindən hazırlanan və törədilə biləcək cinayətlərin və digər hüquqpozmaların qarşısını almaq üçün tədbirlər görmək;

- həbs edilmiş şəxslərin və məhkumların mühafizəsini və müşayiətini həyata keçirmək;
- Penitensiar xidmətin struktur qurumlarında hüquq qaydasını və qanunçuluğu, penitensiar müəssisələrdə işçilərin, burada saxlanılan şəxslərin və müəssisələrin ərazisində olan digər şəxslərin təhlükəsizliyini təmin etmək;
- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında saxlanma, cəzaların icrası və çəkilməsi qayda və şərtlərini təmin etmək;
- müvafiq Əsasnamə və digər hüquqi aktlar ilə müəyyən edilmiş səlahiyyətlər daxilində cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında cəza çəkən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl və xəstəliyə görə azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı tədbirlər görmək;
- normativ hüquqi aktlarla müəyyən edilmiş səlahiyyətlər daxilində azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzanın qalan hissəsinin çəkilməsi üçün Azərbaycan Respublikasına qəbul edilməsi, Azərbaycan Respublikasında cəza çəkən əcnəbi vətəndaşların mənsub olduqları ölkələrə verilməsi ilə bağlı tədbirlər görmək;
- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında saxlanılan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin mənsub olduqları dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud

beynəlxalq təşkilatlarla əlaqə hüququnun həyata keçirilməsini təmin etmək;

- həbs edilmiş şəxslərin və məhkumların maddi-məişət təminatını təşkil etmək;
- həbs edilmiş şəxslərin və məhkumların ümumi və şəxsi sanitariya-gigiyena tələblərinə əməl etmələri ilə bağlı tədbirlər görmək;
- həbs edilmiş şəxslərin və məhkumların sağlamlıqlarının qorunması, tibbi-sanitariya təminatının həyata keçirilməsi üçün zəruri şərait yaratmaq;
- məhkumların islahına yönəlmiş tərbiyə işini həyata keçirmək;
- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında cəza çəkən şəxslərin reabilitasiyasına və sosial adaptasiyasına köməklik göstərmək;
- həbs edilmiş şəxslərə və məhkumlara psixoloji yardım göstərilməsi işini təşkil etmək;
- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında həbs edilmiş şəxslərin və məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi məqsədilə zəruri dini ayinlərin yerinə yetirilməsi üçün müvafiq şərait yaratmaq;
- məhkumların özfəaliyyət təşkilatlarının işini təşkil etmək;
- həbs edilmiş şəxslərin və məhkumların qeydiyyatını və uçotunu aparmaq;
- qanunvericiliyə uyğun olaraq həbs edilmiş şəxslərin və məhkumların əmək fəaliyyətinə cəlb edilməsi, onlara sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması, əməyin mühafizəsi və ödənilməsi üzrə tədbirlər görmək;
- cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilini və peşə hazırlığını təşkil etmək;

- ❖ məhkumların islah edilməsində ictimaiyyətin iştirakını təmin etmək və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlıq etmək;
- ❖ cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında baş verə biləcək fövqəladə halların və hadisələrin qarşısını almaq, onların nəticələrinin aradan qaldırılması məqsədilə aidiyyəti hüquq mühafizə və digər orqanlarla qarşılıqlı əlaqələr qurmaq və birgə fəaliyyət göstərmək;
- ❖ səlahiyyətləri daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək və bu işə nəzarət etmək;
- ❖ Penitensiar xidmətə daxil olan müəssisə və qurumların işçi heyətinin qanuni mənafelərinin və hüquqlarının qorunmasını təmin etmək;
- ❖ işçi heyətinin və onların ailə üzvlərinin hüquqi və sosial müdafiəsinin, şəxsi təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;
- ❖ işçi heyəti və onların ailə üzvləri barədə məlumatların məxfiliyinin qorunması üçün tədbirlər görmək;
- ❖ vətəndaşların və penitensiar müəssisələrdə saxlanılan şəxslərin qəbulunu həyata keçirmək, Penitensiar xidmətin səlahiyyətlərinə aid məsələlər üzrə onların müraciətlərinə baxmaq;
- ❖ Penitensiar xidmətdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunması üçün tədbirlər görmək, o cümlədən müvafiq informasiya sistemlərinin fəaliyyətinin təmin olunmasında iştirak etmək;
- ❖ əfv məsələlərinə baxılması üçün müvafiq sənədlər hazırlamaq;

- amnistiya və əfv aktlarını icra etmək;
- aidiyyəti orqanlarla birgə penitensiar müəssisələrdə mülki müdafiə və yanğından mühafizə işini təşkil etmək;
- səfərbərlik hazırlığı və səfərbərlik, nəqliyyat səfərbərliyi haqqında qanunvericilikdən irəli gələn vəzifələri yerinə yetirmək;
- Penitensiar xidmətin strukturuna daxil olan qurumlarda işçilər tərəfindən əmək funksiyalarının icra olunmasına nəzarət etmək;
- fəaliyyət istiqamətləri üzrə həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi, habelə cəzaların icrası, cinayət-prosessual qanunvericiliyi və digər normativ hüquqi aktlarla nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;
- fəaliyyət istiqamətlərindən irəli gələn digər vəzifələrini yerinə yetirmək.

Penitensiar Xidmətə bu və digər vəzifələri həyata keçirmək üçün aşağıdakı səlahiyyətlər verilmişdir:

- cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında və Penitensiar xidmətin strukturuna daxil olan digər qurumların yaradılması, yenidən təşkili və ləğvi ilə əlaqədar təkliflər vermək;
- Penitensiar xidmətin işinin təşkili ilə bağlı Penitensiar xidmətin strukturuna daxil olan müəssisə və qurumlar üçün icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər vermək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki qüvvə, xidməti itlər, xüsusi vasitələr və silah tətbiq etmək;
- Penitensiar xidmətin strukturuna daxil olan müəssisə və qurumların fəaliyyətinin yoxlanılmasını həyata keçirmək;

- səlahiyyətlərinə aid olan məsələlərə dair xidməti yoxlamalar və araşdırmalar həyata keçirmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və beynəlxalq təcrübəni öyrənmək;
- Azərbaycan Respublikasının və xarici dövlətlərin xüsusi təyinatlı təhsil müəssisələrində penitensiar xidmət üçün ixtisaslı kadrların hazırlanması məqsədilə müqavilələr bağlamaq;
- həbs edilmiş şəxslərin və məhkumların təhlükəsizliyini və mühafizəsini təmin edən obyektlərin kino, foto və video çəkilişlərinə icazə vermək;
- Penitensiar xidmətin və digər struktur qurumların mühafizəsinin, məhkum və həbs edilmiş şəxslərin davranışlarına nəzarətin təmin edilməsi, cinayətlərin törədilməsinin, cəzanın icrası qaydalarının pozulmasının qarşısını alınması məqsədi ilə mühafizə sistemlərini, video-müşahidə, mühəndis-texniki qurğu və vasitələri tətbiq etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada sərəncamında olan dövlət əmlakının təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət satınalmalarını həyata keçirmək;
- Penitensiar xidmətin ehtiyacları üçün tikinti işləri aparılması, bina və tikililərin yenidən qurulması və təmiri ilə bağlı tədbirlər görmək;
- səfərbərlik hazırlığı və səfərbərlik, nəqliyyat səfərbərliyi haqqında qanunvericilikdən irəli gələn hüquqları həyata keçirmək;

- fəaliyyətindən irəli gələn məsələlərlə bağlı məhkəmələrdə iddialar qaldırmaq;
- cinayət-prosessual və cəzaların icrası qanunvericiliyinə uyğun olaraq həbs edilmiş şəxslərin və məhkumların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması və həmin məhdudlaşdırmanın götürülməsi ilə bağlı tədbirlər görmək;
- Penitensiar xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və ictimaiyyətə bu barədə məlumat verilməsi məqsədilə kütləvi informasiya vasitələri ilə əməkdaşlıq etmək;
- verilmiş səlahiyyət daxilində kadr işini həyata keçirmək;
- həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi, cəzaların icrası və cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;
- vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

Əsasnaməyə əsasən Penitensiar Xidmət hüquqi şəxsdir. Onun tərkibinə daxil olan müəssisələrin maliyyələşdirilməsi dövlət hesabına və hər il üçün Milli Məclis tərəfindən təsdiq olunan büdcə haqqında qanunda ayrıca sətirdə göstərilməklə həyata keçirilir. Qanunvericiliklə Penitensiar Xidmət qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün onun öz əmlakı və bu əmlak üzərində səlahiyyətləri vardır. Penitensiar Xidmət qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün onun müxtəlif xidmət sahələrindən ibarət aparatı, yəni baş idarə və tabe müəssisələri, təşkilatları yaradılır.

Cəzaçəkmə müəssisələri bilavasitə müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların icrasını həyata keçirirlər. İstintaq təcridxanaları məhkəmənin qərarı ilə həbs edilmiş şəxslərin Azərbaycan Res-

publikası CPM-i ilə müəyyən edilmiş müddətlərdə saxlanılması məqsədi ilə təşkil edilmiş penitensiar müəssisələrdir. Bu müəssisələr Ədliyyə Nazirliyi tərəfindən yaradılır və ləğv edilir. Cəzaçəkmə müəssisələri cinayət və cəzaların icrası qanunvericiliklərinə əsasən müxtəlif növlərə bölünür. Cəzaçəkmə müəssisələrinə rəhbərliyi müdiriyyət, yəni müəssisə rəisləri həyata keçirir və onlar işin təşkilinə cavabdehlik daşıyır. Cəzaçəkmə müəssisələrinin qarşısına qoyulmuş əsas vəzifənin – azadlıqdan məhrum etmə növündə cəzanın icrasını həyata keçirmək üçün müxtəlif xidmət sahələri yaradılır. Xidmət sahələri onlara həvalə edilmiş bir neçə qrupa bölünən aşagıda göstərilən vəzifələri həyata keçirirlər:

**I qrup vəzifələr:** məhkumların mühafizəsi, cəzaçəkmə müəssisələrində hüquq qaydasının qorunub saxlanması, cinayətlərin və rejim pozuntularının xəbərdarlığı, işçi heyətin, məhkumların və cəzaçəkmə müəssisələrinə baş çəkməyə gəlmiş digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı;

**II qrup vəzifələr:** məhkumlara sosial-pedaqoji təsir göstərilməsi ilə əlaqədar;

**III qrup vəzifələr:** kommunal-məişət, tibbi-sanitariya və maddi-texniki məsələlərlə bağlı;

**IV qrup vəzifələr:** məhkumların əməyinin və müəssisədə fəaliyyət göstərən istehsal sahələrinin fəaliyyətinin təşkili ilə əlaqədar;

**V qrup vəzifələr:** müəssisənin işçi heyətinin xidmətinin təşkili ilə bağlı.

Cəzaçəkmə müəssisələrində məhkumların islahı prosesini səmərəli təşkil etmək üçün məhkumlar dəstələrə ayrılırlar. Məhkumların dəstələrinə tərbiyə işinin təşkili şöbəsi (bölməsi), bilavasitə bu xidmət sahəsinə tabe olan böyük inspektorlar (dəstə rəisləri) rəhbərlik edir. Bu şəxslər məhkumların tərbiyə işini təşkil et-

məklə, cəzaçəkmə müəssisələrinin müxtəlif xidmət sahələri ilə (əməliyyat, rejim-nəzarət, istehsalat və s.) qarşılıqlı əlaqədə digər islah etmə vasitələrinin cəza çəkən şəxslərə tətbiqi üçün əlverişli şərait yaradır. Onların vəzifələri və səlahiyyətləri aidiyyəti normativ aktlarla müəyyənləşdirilir və ümumən aşağıdakılardan ibarətdir:

- məhkumlarla islah işi aparmaq;
- məhkumların şəxsiyyətini öyrənmək;
- məhkumlara sosial-hüquqi xarakterli yardım göstərmək;
- məhkumlar arasında müəyyən olunmuş intizamı və qaydanı qorumaq;
- məhkumların asudə vaxtının səmərəli keçirilməsinə kömək etmək;
- məhkumlarla hüquqi biliklərin əsaslarına dair məşgələlər keçirmək;
- həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə cavabdehlik və məsuliyyət daşımaq.

## Mövzu 11. Cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası (cəzaçəkmə rejimi)

Cəzanın icrası və çəkilməsi qaydası, yəni rejim – məhkumların islah edilməsinin əsas vasitələri sırasına daxil olmaqla xüsusi əhəmiyyətə malikdir. **Rejim**, bütün cəzaların icrası zamanı məhkumlara tətbiq edilən islah etmə vasitəsi olmaqla, azadlıqdan məhrum etmə cəzasının icrası prosesində digər islah etmə vasitələri ilə vəhdət təşkil edir və məhkumların islahına əlverişli zəmin yaradır.

Qüvvədə olan Azərbaycan Respublikası CİM-in 74-cü maddəsində cəzaçəkmə rejiminə aşağıdakı məzmunda anlayış verilmişdir: **Cəzaçəkmə müəssisələrində rejim qanunla və normativ hüquqi aktlarla müəyyən olunmuş müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların icrası və çəkilməsi qaydasıdır.** Qanunverici habelə, cəzaçəkmə rejiminin əsas vəzifələrinə də xüsusi önəm verməklə onun təmin etdiyi məsələləri müəyyən etmişdir:

- ❖ məhkumların mühafizəsi və təcrid olunması;
- ❖ məhkumlara daim nəzarət edilməsi;
- ❖ məhkumların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsi;
- ❖ məhkumların hüquq və azadlıqlarının həyata keçirilməsi;
- ❖ işçi heyətinin və məhkumların şəxsi təhlükəsizliyinin təmin edilməsi;
- ❖ müxtəlif kateqoriyalı məhkumların bir-birindən ayrı saxlanılması;
- ❖ cəzaçəkmə müəssisəsinin məhkəmə tərəfindən təyin edilmiş növündən asılı olaraq müxtəlif saxlanılma şəraitinin, cəzanın icrası şərtlərinin dəyişdirilməsi.

Rejimdə cəzanın mahiyyəti və məzmunu ifadə olunur ki, bu

da məhkumlara tətbiq edilən hüquq məhdudiyyətlərinin məcmusundan ibarətdir. Rejim normaları məhkumlara digər islah edilmə vasitələrinin tətbiqi üçün zəruri şərait yaradır. Rejimi tənzimləyən hüquqi normalar bir sıra vəzifələrə nail olunmasına, onun tənbehedici, tərbiyəedici, təminedici və sosial nəzarət funksiyalarının həyata keçirilməsinə yönəldilir.

**Tənbehedici funksiya,** cəzanın çəkilməsi prosesində məhkumlar üçün müxtəlif hüquq məhdudiyyətlərinin müəyyən edilməsi yolu ilə həyata keçirilir. Bu hüquq məhdudiyyətləri məhkumların cəmiyyətdən təcrid edilməsi ilə müəyyən olunan subyektiv mülki hüquq və azadlıqları sahələrini əhatə edir.

Rejimin **tərbiyəedici funksiyası,** tənbehin həyata keçirilməsi yolu ilə realizə edilir. Çünki məcburiyyət insanı tərbiyələndirməyə yönəlməklə, onları intizama, cəzaçəkmə qaydalarına əməl etməyə təhrik edir. Tərbiyəedici funksiya, həm də öz təbiətinə görə tənbeh olmayan davranış qaydalarının müəyyən edilməsi və realizəsi yolu ilə də həyata keçirilir. Misal üçün, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarında iş və istirahət vaxtı, məhkumların davranış qaydaları müəyyən edilir. Bunlar əmlaka qayğı ilə yanaşmaq, əməyə və təhsilə vicdanlı münasibət göstərmək, öz aralarında və cəzaçəkmə müəssisəsinin əməkdaşları ilə davranışda nəzakətli olmaq, yaşayış və xidmət otaqları, iş yerini, paltarı təmiz saxlamaq, şəxsi gigiyena qaydalarına əməl etmək və digər qaydalardır. Tərbiyəedici funksiya həm də islah təsiri vasitələrinin tətbiqi üçün zəruri hüquqi şəraitin yaradılması yolu ilə həyata keçirilir.

Rejimin **təminedici funksiyası,** məhkumlara tərbiyəvi və profilaktik təsir vasitələrinin bütün kompleksinin realizəsinə yönəldilmişdir. Çünki islah prosesi məcburi xarakter daşıyır. Rejim tələbləri məhkumların əməyinin təşkili və onların əməyə cəlb

edilməsi qaydasını, ümumi təhsilin, peşə təhsilinin, peşə hazırlığının, mədəni-kütləvi, idman və digər tərbiyə tədbirlərinin keçirilməsinin spesifikliyini müəyyən edir.

**Sosial nəzarət** (profilaktik funksiya kimi də ifadə olunur) **funksiyası,** həm məhkumlar, həm də cəzaçəkmə müəssisələrinin obyektlərində və onlara bitişik ərazilərdə yerləşən digər şəxslər tərəfindən yeni cinayətlərin və hüquq pozuntularının qarşısını almağa yönəlmişdir.

Cəzaçəkmə müəssisələrinin fəaliyyəti, onun əsas funksiyaları ilə müəyyən edilir və bura həmin növ cəzanın icrası və çəkilməsi qaydalarını və şərtlərini təmin edən və ya tənzimləyən qaydaların məcmusu daxildir. Onları şərti olaraq dörd qrupa bölmək olar:

- ❖ **tənbehedici hüquq məhdudiyyətlərini ifadə edən qaydalar;**
- ❖ **cinayətlərin xəbərdarlığına yönəlmiş qaydalar;**
- ❖ **islah edilmə vasitələrinin tətbiqinə yönəlmiş qaydalar;**
- ❖ **məhkumların məişətdə davranışını və onların həyat fəaliyyətini təmin edən qaydalar.**

Rejimin təmin edilməsi vasitələri onun məzmununa daxil olur, onların təyinatı isə – cəza-icra hüquq münasibətlərinin bütün subyektləri və iştirakçıları tərəfindən cəzanın icrası və çəkilməsi qaydalarını və şərtlərini təmin etməkdən ibarətdir. Qeyd edilən vasitələri iki qrupa bölmək olar: ümumi və xüsusi xarakterli vasitələr. Ümumi xarakterli vasitələrə hüquq münasibəti subyektlərinin və iştirakçılarının qanuna itaətini, qanunçuluğun tələblərinə əməl etməsini təmin edən tərbiyəvi təsir tədbirləri aiddir.

Rejimin məzmunu kifayət qədər geniş olduğundan, onun hüquqi tənzimlənməsini müəyyən edən hüquqi normalar da xeyli çoxdur. Rejimin məzmunu aşağıdakı əsas elementlərlə müəyyənləşir:

- cəzaçəkmə müəssisələrində tətbiq edilən texniki nəzarət vasitələri;
- cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyəti;
- cəzaçəkmə müəssisələrində fövqəladə hallarda saxlanma şərati;
- məhkumların ərzaq məhsulları və ən zəruri mallar əldə etməsi;
- məhkumların qohumları, vəkilləri və digər şəxslərlə görüşləri;
- məhkumların bağlama, sovqat və banderol alması;
- məhkumların yazışması, pul baratları alması və göndərməsi;
- məhkumların telefon danışıqları;
- məhkumların gəzintisi;
- məhkumların ədəbiyyat və yazı ləvazimatları əldə etməsi və saxlaması;
- məhkumların müşayiətsiz gediş-gəlişi;
- məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yasaması;
- məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısamüddətli səfərləri;
- məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri;
- məhkumlara tətbiq edilən təhlükəsizlik tədbirləri.

Rejimin məzmununu müəyyənləşdirən aşagıdakı əsas elementləri nəzərdən keçirək.

**Texniki nəzarət vasitələri.** Qanunvericiliyə əsasən cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumlar tərəfindən cəzanın icrası yerindən qaçmanın və digər cinayətlər törədilməsinin, cəzanın icrası qaydalarının pozulmasının qarşısını almaq, məhkum-

ların davranışı haqqında məlumatlar əldə etmək üçün video və səsyazmadan, elektron və digər texniki vasitələrdən istifadə etmək hüququna malikdir. Texniki nəzarət vasitələrinin tətbiq edilməsi, o cümlədən bu vasitələrin məhkumların həyat və sağlamlıqları üçün təhlükə yaradacağı barədə, cəzaçəkmə müəssisəsinin müdiriyyəti onları yazılı şəkildə xəbərdar edir. Texniki nəzarət vasitələrinin növləri və onlardan istifadə qaydası normativ aktlarla müəyyənləşdirilir.

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumlara, onların üst-başına, əşya və geyimlərinə, həmçinin cəzaçəkmə müəssisəsinin ərazisindəki binalara baxış və onlarda axtarış keçirə bilər. Şəxsi axtarış məhkumlarla eyni cinsdən olan şəxs tərəfindən aparılır. Təxirəsalınmaz hallarda məhkumların yaşadığı binalarda gecə baxışı da aparıla bilər. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti bu müəssisəyə daxil olan və çıxan şəxslərə, onların əşyalarına, nəqliyyat vasitələrinə baxış keçirmək hüququna malikdir. Baxış və axtarış tədbirlərinin keçirilməsi qaydası, yəni mexanizmi cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilmişdir.

**Əməliyyat-axtarış fəaliyyəti.** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cəzaçəkmə müəssisələrində rejimin təmin edilməsi vasitəsi kimi əməliyyat-axtarış fəaliyyəti həyata keçirilir. Cəza-icra qanunvericiliyi ilə cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətinin aşağıdakı vəzifələri müəyyən edilmişdir:

❖ işçi heyətinin, məhkumların və başqa şəxslərin təhlükəsizliyini təmin etmək;

❖ cəzanın icrası qaydalarının pozulması hallarını aşkar etmək, cəzaçəkmə müəssisələrində hazırlanan və törədilən cinayətlərin qarşısını almaq və onları açmaq;

❖ cəzaçəkmə müəssisələrindən qaçmış, həmçinin müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzanı çəkməkdən boyun qaçıran şəxsləri müəyyən edilmiş qaydada axtarmaq;

❖ məhkumların törətdikləri digər cinayətlərin aşkar edilməsi və açılmasında hüquq-mühafizə orqanlarına köməklik göstərmək.

Cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətini cəzaçəkmə müəssisəsinin müdiriyyəti həyata keçirir. Hüquq mühafizə orqanları, öz səlahiyyətlərinə aid edilmiş cinayət işlərinin təhqiqatı üzrə əməliyyat-axtarış fəaliyyətini cəzaçəkmə müəssisəsinin müdiriyyəti ilə birgə həyata keçirirlər.

Bu fəaliyyətin həyata keçirilməsi zamanı qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər.

**Ərzaq məhsulları və ən zəruri mallar əldə etmə.** Məhkumlar nağdsız haqq-hesabla şəxsi hesablarında olan vəsaitlə cəzaçəkmə müəssisələrində təşkil edilmiş ticarət köşklərindən ərzaq məhsulları və ən zəruri mallar əldə edirlər. Məhkumlara xərcləmək üçün icazə verilən vəsaitin məbləği cəzaçəkmə müəssisəsinin növü və rejimi nəzərə alınmaqla Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilir. Müəssisənin növü və rejimi dəyişdikdə xərcləmək üçün icazə verilən vəsaitin məbləği də dəyişir. Cəzaçəkmə müəssisələrində məhkumlara almaq üçün icazə verilən ərzaq məhsulları və ən zəruri malların siyahısı Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilmişdir.

**Qohumlar, vəkillər və digər şəxslərlə görüşlər.** Azadlıqdan məhrum edilmiş şəxslər üçün xarici aləmlə əlaqələr, habelə ailə üzvləri, müdafiəçi, maraq kəsb edən digər şəxslərlə təmas, o cümlədən görüşlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Res-

publikası CİM-in 81-ci madəsinə əsasən məhkumlar cəzaçəkmə müəssisəsinin ərazisində dörd saatadək qısa müddətli və bir gündən üç günədək uzun müddətli görüş hüququna malikdirlər. Qısa müddətli görüşlər qohumlarla və başqa şəxslərlə cəzaçəkmə müəssisəsinin nümayəndəsinin iştirakı ilə verilir. Məhkumlara uzun müddətli görüşlər birlikdə yaşamaq hüququ ilə yaxın qohumlarla (arvadı, əri, valideynləri, babası, nənəsi, övladları, övladlığa götürənləri və götürdükləri, nəvələri, qardaşları və bacıları) verilir. Məhkumların xahişi ilə uzun müddətli görüşlər qısa müddətli görüşlərlə əvəz edilə bilər. Görüşlərin sayı və növləri cəzaçəkmə müəssisəsinin növü və rejimi nəzərə alınmaqla Azərbaycan Respublikası CİM-in müvafiq maddələri ilə müəyyən edilmişdir. Hüquqi yardım almaq üçün məhkumların özlərinin, yaxın qohumlarının və ya onların qanuni nümayəndələrinin ərizəsinə əsasən məhkumlara vəkillərlə, habelə belə yardımı göstərmək hüququna malik olan digər şəxslərlə görüş verilir. Belə görüşlərin sayı və müddəti məhdudlaşdırılmır, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına riayət edilməklə həyata keçirilir. Belə görüşlər Azərbaycan Respublikasının CİM-i ilə müəyyən edilmiş görüşlərin sayına daxil edilmir.

**Bağlama, sovqat, banderolların alınması.** Cəzaçəkmə müəssisələrində məhkumlar Azərbaycan Respublikasının CİM-i ilə müəyyən edilmiş sayda bağlama, sovqat və ya banderol alırlar. Bir bağlama və ya banderolun yuxarı çəkisi mövcud poçt göndərişləri qaydaları ilə müəyyən edilir. Bir sovqatın çəkisi bir bağlama üçün müəyyən olunmuş çəkidən, yəni 31,5 kiloqramdan artıq olmamalıdır. Banderolun maksimal çəkisi isə 2 kiloqramdır.

Ağır xəstə, hamilə və uşaq evlərində uşaqları olan qadın, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumların bağlama, sovqat və ya banderol

almalarına məhdudiyyət qoyulmur. Habelə, tibbi rəyə əsasən məhkumların aldığı dərman preparatları və tibbi məmulatlar bu müəyyən olunmuş bağlama, sovqat və ya banderolların sayına daxil edilmir. Belə dərman preparatları və tibbi məmulatlar məhkumların müalicəsində istifadə məqsədilə saxlanmaq üçün cəzaçəkmə müəssisələrinin tibb-sanitar hissəsinə verilir.

Bağlama, sovqat və banderollara müdiriyyət tərəfindən baxış keçirilir**.** Məhkumların bağlama, sovqat və ya banderol alması və onlara baxış keçirilməsi qaydası, məhkumlara saxlanması, əldə edilməsi, habelə alınması və ya saxlanması qadağan edilən əşyaların siyahısı cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilir.

Məhkumların adına göndərilmiş bağlama və banderollarda qanunvericiliklə nəzərdə tutulanlar istisna olmaqla, digər əşya, mallar və ərzaq məhsulları aşkar edildikdə onlar götürülür. Bu əşya, mallar və ya ərzaq məhsulları məhkum azad olunanadək saxlanılması üçün anbara təhvil verilir və ya bağlama və banderolu göndərmiş şəxsin hesabına geri qaytarılır, yaxud cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış qərarına əsasən məhv edilir. Cəzaçəkmə müəssisəsinin müdiriyyətinin razılığı ilə məhkumlar da yaxın qohumlarına bağlama və ya banderol göndərə bilərlər.

**Yazışma, pul baratlarının alınması və göndərilməsi.** Məhkumlara məhdudiyyətsiz sayda məktub, teleqram almağa və göndərməyə icazə verilir. Məhkumlar məktub və teleqramları öz hesablarına göndərirlər. Məhkumların müdafiəçi və ya qanuni əsaslarla hüquqi yardım göstərən digər şəxslərlə yazışmaları istisna olmaqla, onlar tərəfindən alınan və göndərilən yazışmalar hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibi, cəzanın çəkilməsi qaydasını və şəxslərin həyat və təhlükəsizliyini təmin et-

mək məqsədilə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən senzuradan keçirilə bilər. Yazışmadakı məlumatların cinayətlərin törədilməsinə yönəlməsi barədə cəzaçəkmə müəssisəsi müdiriyyətinin əsaslı məlumata malik olduğu hallarda məhkumların yazışmaları üzərində cəzaçəkmə müəssisəsi müdiriyyətinin əsaslandırılmış qərarı ilə nəzarət həyata keçirilir.

Qanunvericiliklə qadağan olunmuş əşyaların ötürülməsinin qarşısını almaq məqsədilə məhkumların adına gələn və onlar tərəfindən göndərilən məktublar cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən açıla bilər. Bu halda həmin məktubların oxunmasına yol verilmir. Cəzaçəkmə müəssisələrində saxlanılan və qohum olmayan məhkumlar arasında yazışmalara cəzaçəkmə müəssisəsi müdiriyyətinin razılığı ilə icazə verilir. Məhkumların adına gəlmiş məktubların verilməsi, habelə ünvan sahiblərinə məhkumların məktublarının göndərilməsi məktubun gəldiyi və ya məhkum tərəfindən verildiyi gündən ən geci üç gün müddətində cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən həyata keçirilir. Teleqramlar məhkuma cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən təxirə salınmadan verilir. Cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), onun nəzdində fəaliyyət göstərən Milli Preventiv Qrupa və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə ünvanlanmış təklif, ərizə və şikayətlər senzuradan keçirilmir və bir gündən gec olmayaraq (istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) aidiyyəti üzrə göndərilir.

Məhkumlar məhdudiyyətsiz pul baratları almaq, həmçinin şəxsi hesablarından yaxın qohumlarına pul baratları göndərmək hüququna malikdirlər. Başqa şəxslərə məhkumlar cəzaçəkmə müəssisəsinin müdiriyyətinin icazəsi ilə pul baratları göndərə bi-

lərlər.

**Telefon danışıqları.** Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər isə həftədə bir dəfə müddəti on beş dəqiqə olmaqla, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilmiş qaydada telefonla danışmaq hüququna malikdirlər. Şəhərlərarası telefon danışıqlarının haqqı məhkumun şəxsi vəsaiti hesabına və ya yaxın qohumları tərəfindən ödənilir. Texniki imkanlar olmadıqda, bir telefon danışığı bir qısa müddətli görüşlə əvəz edilir. Məhkumun xahişi ilə onun yeni cəzaçəkmə müəssisəsinə gəlməsi ilə əlaqədar, həmçinin müstəsna hallarda ona cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən əlavə telefon danışığına icazə verilə bilər. Tənbeh tədbiri kimi intizam və ya cərimə təcridxanalarında, kamera tipli otaqlarda və birnəfərlik kameralarda saxlanılan məhkumların telefon danışıqlarına yalnız müstəsna hallarda icazə verilə bilər. Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar arasında, yaxın qohumlar istisna olmaqla, telefon danışıqlarına icazə verilmir. Məhkumların telefon danışıqlarına cəzaçəkmə müəssisəsinin işçi heyəti tərəfindən nəzarət edilir.

**Məhkumların gəzintisi.** Əgər məhkumlar açıq havada işləmirlərsə, yaxud bağlı otaq və yaxud kamerada saxlanılırlarsa, onlar hər gün bir saatdan az olmayan müddətə gəzinti hüququna malikdirlər. Məhkumların gəzintisi gündüz vaxtı, cəzaçəkmə müəssisəsi ərazisinin xüsusi təchiz olunmuş hissəsində, yəni gəzinti otaqlarında (yerlərində) hər bağlı otaq və ya kamera üçün ayrılıqda keçirilir. Gəzinti zamanı müvafiq qaydalar məhkum tərəfindən pozulduqda, gəzinti vaxtından əvvəl dayandırıla bilər.

**Ədəbiyyat və yazı ləvazimatlarının əldə edilməsi və onların saxlanması.** Azadlıqdan məhum edilmiş məhkumların bağ-

lama, sovqat və ya banderol ilə, habelə şəxsi hesablarında olan vəsait hesabına məhdudiyyət qoyulmadan yazı ləvazimatı, ədəbiyyat almaq, qəzet və jurnallara abunə yazılmaq hüquqları vardır. Əldə olunmuş ədəbiyyat onlara Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş bağlama və banderolların sayına daxil edilmir. Məhkumlara özlərində on cildədək kitab (jurnal) saxlamağa icazə verilir. Onlara müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrləri əldə etmək, saxlamaq, onlara abunə yazılmaq və onları yaymaq qadağandır.

**Məhkumların müşayiətsiz gediş-gəlişi.** Bir sıra hallarda cəzaçəkmə müəssisəsinin ətrafında və ya yaxınlığında təsərrüfat və ya məişət xidməti ilə əlaqədar müxtəlif xarakterli işlər görülməsi (təmir, abadlıq, tullantıların çıxarılması, ərzağın daxilə daşınması və s.) zərurəti yaranır. Belə işlər daimi və ya müvəqqəti xarakter daşıya bilər. Bununla bağlı qanunvericilik müəyyən şərtlərlə məhkumların müşayiətsiz hərəkətini nəzərdə tutmuşdur. Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən və müsbət xarakterizə olunan məhkumlara cəza müddətinin ən azı üçdə bir hissəsini çəkdikdən sonra onların gördüyü işin xüsusiyyətinə görə zəruri hallarda mühafizə olunan ərazidən kənarda müşayiətsiz hərəkət etməyə icazə verilə bilər. Cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslərə, ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz olunmuş şəxslərə, tibbi xarakterli məcburi tədbirlər keçməli olan şəxslərə, bir cəzaçəkmə müəssisəsində altı aydan az müddətə cəza çəkən məhkumlara, tənbehi olan məhkumlara, cəzanın icrası dövründə qəsdən törədilmiş cinayətlərə görə yenidən məhkum olunmuşlara, vərəm xəstəliyinə tutulmuş

(vərəm çöpləri ifraz edənlər) və zöhrəvi xəstəliklərdən tam müalicə kursu keçməyən məhkumlara mühafizə olunan ərazidən kənarda müşayiətsiz hərəkət etməyə icazə verilmir.

Məhkuma mühafizə olunan ərazidən kənarda müşayiətsiz hərəkət etmək üçün icazə cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin) Penitensiar Xidməti ilə razılaşdırılmış qərarına əsasən verilir. Müşayiətsiz hərəkət etməyə icazə verilmiş məhkumlar ayrı yaşayış binalarında yerləşdirilə bilərlər. Mühafizə olunan ərazidən kənarda müşayiətsiz hərəkət etməyə icazə verilmiş məhkumların hüquq və vəzifələri, onların davranışı cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə tənzimlənir. Məhkum tərəfindən davranış qaydaları pozulduqda və ya işin xüsusiyyəti dəyişdikdə müşayiətsiz hərəkət etməyə icazə cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin) Penitensiar Xidməti ilə razılaşdırılmış qərarı ilə ləğv olunur.

**Məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yasaması.** Azərbaycan Respublikasının CİM-nə uyğun olaraq əməyə vicdanlı münasibət bəsləyən və cəzaçəkmə rejiminin tələblərinə riayət edən, habelə cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkum qadınlara cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən əsaslandırılmış və nəzarəti həyata keçirən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin) Penitensiar xidməti ilə razılaşdırılmış qərarla hamiləliyə və ya doğuşa görə qanunla müəyyən edilmiş qaydada, işdən azad edildikləri vaxt ərzində, habelə uşaq üç yaşına çatanadək cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilə bilər.

Cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilmiş məhkum qadınlar:

❖ cəzaçəkmə müəssisəsinin ərazisi yaxınlığında yaşamağa yerləşdirilir və müdiriyyətin daimi müşahidəsi altında olurlar;

❖ adi həyatda işlədilən paltar geyinə bilərlər;

❖ məhdudiyyətsiz halda yazışa bilər, pul baratları ala bilər və nağd puldan istifadə edə bilər, qohumları, həkimi və başqa şəxslərlə görüşə bilər, bağlama, sovqat və ya banderol ala bilərlər;

❖ hüdudları cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilən ərazi daxilində sərbəst gediş-gəliş hüququndan istifadə edə bilərlər.

Cəzaçəkmə rejimi və ya davranış qaydaları məhkum qadın tərəfindən müntəzəm və ya qəsdən pozulduqda, cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin) Penitensiar Xidməti ilə razılaşdırılmış qərarına əsasən cəzaçəkmə müəssisəsindən kənarda yaşamaq üçün verilən icazə ləğv edilir, məhkum qadın isə cəzasını çəkmək üçün cəzaçəkmə müəssisəsinə qaytarılır.

**Məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısamüddətli səfərləri.** Məhkumlarla davranışa həsr edilmiş beynəlxalq aktların tövsiyələrinə uyğun olaraq cəzaların icrası qanunvericiliyi, yəni Azərbaycan Respublikası CİM-in 89-cu maddəsi məhkumların cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlərini nəzərdə tutmuşdur. Məhkumların belə imkanları daha çox xarici amillərin təsiri nəticəsində yaranır.

Belə ki, məntəqə tipli cəzaçəkmə müəssisələrində, ilk dəfə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş ümumi rejimli cəzaçəkmə müəssisələrində

və tərbiyə müəssisələrində saxlanılan məhkumlara onların yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi ilə əlaqədar, habelə məhkumlara və ya onların ailəsinə təbii fəlakətlə və digər fövqəladə hadisə nəticəsində əhəmiyyətli maddi zərər vurulduqda cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində və fövqəladə vəziyyət ləğv edildikdən sonra) yeddi gün müddətinə qısa müddətli səfərə getməsinə icazə verilə bilər. Bu zaman gedib-gəlmək üçün sərf olunan vaxt, iki gündən çox olmamaq şərti ilə, nəzərə alınmır.

Cəzaçəkmə müəssisələrindəki uşaq evlərində uşaqları olan qadınlara öz məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) on beş günədək qısa müddətli səfərə getməsinə icazə verilə bilər.

İlk dəfə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş və ümumi rejimli cəzaçəkmə müəssisələrində və ya ümumi rejimli tərbiyə müəssisələrində saxlanılma şəraiti yaxşılaşdırılan məhkumlara ildə bir dəfə məzuniyyətləri vaxtı cəzaçəkmə müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) yeddi günədək müddətə, yola sərf olunan iki günədək müddət nəzərə alınmamaqla, qısa müddətli səfər etməyə icazə verilə bilər.

Nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştirakına görə məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən və cəzaçəkmə müəssisəsindən kənarda, yaxud çəzaçəkmə müəssisəsinin istehsalat sahəsində əmək fəaliyyəti ilə məşğul olan məhkuma cəzaçəkmə müəssisəsi müdiriyyətinin qərarı ilə əmək məzuniyyə-

tini cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda (yalnız ölkə daxilində) keçirməyə icazə verilə bilər.

Yetkinlik yaşına çatmayan məhkumların tərbiyə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlərə buraxılması yalnız məhkumun valideynlərinin və ya himayəçilərinin müşayiəti və yazılı öhdəçiliyi əsasında verilə bilər Müstəsna hallarda (valideynlər və ya himayəçilər olmadıqda və ya ağır xəstə olduqda) isə həmin məhkumların qısa müddətli səfəri müəssisə nümayəndələrinin müşayiəti ilə də həyata keçirilə bilər.

Qısa müddətli səfərə cəzaçəkmə müəssisəsinin müdiriyyəti, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin) Penitensiar Xidməti ilə razılaşdırıldıqdan sonra məhkumun şəxsiyyətini və davranışını nəzərə almaqla icazə verir. Səfərə getməmişdən əvvəl məhkum təlimatlandırılır və cəza çəkməkdən boyun qaçıracağı halda Azərbaycan Respublikası CM-in 305-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunacağı barədə xəbərdar edilir və ondan yazılı iltizam alınır. Məhkumun qısa müddətli səfərə buraxılması məsələsi müsbət həll olunduğu halda müəssisə müdiriyyəti (müəssisə rəisi və ya onun vəzifəsini icra edən şəxs) tərəfindən qəbul olunmuş qərara əsasən məhkuma möhürlə təsdiq olunmuş vəsiqə təqdim olunur. Qısa müddətli səfərə icazə verilməməsi əsaslandırılmalıdır.

Məhkumun cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda olduğu vaxt cəzanın icrası müddətinə hesablanır. Məhkumun yol xərcini özü və ya qohumları ödəyir. Qısa müddətli səfər zamanı gedəcəyi yerin iqliminə uyğun olaraq məhkum şəxsi paltar və ayaqqabısından istifadə edir. Məhkuma məxsus şəxsi geyim olmadıqda və ya cəzaçəkmə müəssisəsində ona verilmiş paltar, ayaqqabı yararsız vəziyyətdə olduqda, məhkum, şəxsi hesabına

təzə paltarla təmin edilir. Məhkum onun üçüm müəyyən edilmiş yaşayış məntəqəsinə gəlməsinin məqsədi, müddəti və yaşadığı ünvan barədə bir sutkadan gec olmayaraq ərazi polis orqanının növbətçi hissəsinə məlumat verməyə borcludur. Qısa müddətli səfər zamanı məhkum xəstələnərsə və bu halda onun cəzaçəkmə müəssisəsinə qayıtması qeyri-mümkün olarsa, həmin məhkum polis orqanının təşəbbüsü ilə yaxınlıqda yerləşən, azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisəsinə, belə müəssisə olmadıqda isə dövlət tibb müəssisəsinə yerləşdirilir. Polis orqanı bu barədə cəzaçəkmə müəssisəsinin müdiriyyətinə məlumat verir və müalicədən sonra məhkumun vaxtında cəzaçəkmə müəssisəsinə qayıtmasına nəzarət edir. Cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərə icazə verilmiş məhkum onun üçün müəyyən edilmiş vaxtda geriyə qayıtmadıqda, onun yerinin müəyyən olunması ilə bağlı axtatış tədbirləri görülür.

Məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərə buraxılması qaydası Azərbayvan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2003-cü il 31 oktyabr tarixli 17-T nömrəli əmri ilə təsdiq edilmiş və dövlət qeydiyyatına alınmış normativ aktla müəyyən edilmişdir.

**Cəzaçəkmə müəssisələrində fövqəladə hallarda saxlanma şərati.** Cəzaçəkmə müəssisələrində müdiriyyətin, işçi heyətinin və ya məhkumların həyatı və sağlamlığı üçün təhlükə yaradan kütləvi iğtişaşlar, həmçinin təbii fəlakət və ya digər fövqəladə hadisə baş verə bilər. Bu zaman Azərbaycan Respublikası CİM-in 77-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Ədliyyə nazirinin qərarına əsasən xüsusi saxlanma şəraiti tətbiq edilə bilər və ya məhkumlar eyni rejimli cəzaçəkmə müəssisəsinə keçi-

rilə bilər. Cəzaçəkmə müəssisələrində xüsusi saxlanma şəraitinin tətbiqi dövründə məhkumların Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulan hüquqlarının həyata keçirilməsi, istehsal, kommunal-məişət, mədəni-maarif, tibbi-sanitar və başqa xidmətlərin fəaliyyəti fövqəladə hallar aradan qaldırılanadək məhdudlaşdırıla bilər. Bu müddət ərzində məhkumlara görüş verilməsi dayandırılır və cəzaçəkmə müəssisəsinə buraxılış xüsusi qaydada həyata keçirilir. Buna misal olaraq COVİD-19 infeksiyası ilə bağlı ölkədə tətbiq edimiş karantin rejimini misal göstərmək olar. Bu zaman müəyyən vaxt ərzində məhkumların görüşlərinə, onlara qohumlarının baş çəkmələrə məhdudiyyət tətbiq edilmişdi. Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən cəzaçəkmə müəssisələrində xüsusi saxlanma şəraitinin tətbiqi Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirinin qərarı ilə də həyata keçirilə bilər. Bu halda qəbul edilmiş qərarın təsdiqi üçün dərhal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə məlumat verilir. Təxirəsalınmaz hallarda cəzaçəkmə müəssisələrinin müdiriyyəti yuxarıda göstərilən tədbirləri müstəqil həyata keçirir və bu barədə dərhal Azərbaycan Respublikasının Ədliyyə nazirinə məlumat verir.

Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının 222-ci bəndinə əsasən xüsusi saxlanma şəraiti 30 gün müddətinə tətbiq edilir. Zərurət olduqda, bu müddət xüsusi saxlanma şəraitini tətbiq etmiş vəzifəli şəxs tərəfindən 30 günədək uzadıla bilər.

**Məhkumlara tətbiq edilən təhlükəsizlik tədbirləri.** Azərbaycan Respublikası CİM-in 78-ci maddəsinə əsasən cəzaçəkmə müəssisələrində rejimin təmin edilməsi, habelə yol verilə biləcək pozuntuların, müəssisənin normal fəaliyyətini pozulması ilə müşayiət edilən halların aradan qaldırılması məqsədilə təhlükəsizlik tədbirləri tətbiq edilə bilər. Belə ki, qanunvericilikdə göstərilmiş konkret hallarda, yəni cəzaçəkmə müəssisələrinin işçi heyəti-

nin qanuni tələblərinə tabe olmayan, onlara müqavimət göstərən, kütləvi iğtişaşlarda, insanların girov götürülməsində iştirak edən, vətəndaşlara hücum edən və ya digər ictimai təhlükəli hərəkətlər törədən məhkumlara, həmçinin məhkumların cəzaçəkmə müəssisəsindən qaçması və ya qaçanların tutulması zamanı göstərilən hüquqazidd hərəkətlərin, habelə bu məhkumların ətrafdakı insanlara və ya özlərinə ziyan vurmasının qarşısının alınması, hazırlanan və ya törədilən cinayətlərin qarşısının alınması məqsədilə təhlükəsizlik tədbirləri (fiziki qüvvə, xüsusi vasitələr, xidməti itlər və odlu silah) tətbiq edilə bilər. Təhlükəsizlik tədbirlərinin tətbiqi qaydası qanunda tamlıqla öz əksini tapmışdır. Təhlil göstərir ki, bu tədbirlər yalnız müstəsna hallarda, o cümlədən məhkumlar tərəfindən işçi heyətə, digər məhkumlara qarşı qeyri-qanuni hərəkətlərin qarşısının alınması məqsədi ilə, qısa müddətdə və adekvat tətbiq edilməlidir.

Yuxarıda göstərildiyi kimi məhkumlara tətbiq edilən təhlükəsizlik tədbirləri dörd əsas növə, yəni fiziki qüvvə, xüsusi vasitələr, xidməti itlər və odlu silaha bölünür.

**I. Fiziki qüvvə aşağıdakı hallarda tətbiq edilir:**

❖ qalmaqal salan, fiziki müqavimət göstərən məhkumların sakitləşdirilməsi üçün;

❖ müəssisədən qaçan məhkumların tutulması üçün;

❖ digər zorakılıq hərəkətləri edən məhkumların qanunsuz hərəkətlərinin qarşısının alınması üçün.

**II. Xüsusi vasitələr** (rezin dəyənəklər, əl qandalları, gözyaşardıcı qazlar, sədləri dağıtma vasitələri, suatanlar, zirehli maşınlar və s.) **aşağıdakı hallarda tətbiq edilir:**

❖ qalmaqal salan, fiziki müqavimət göstərən məhkumların sakitləşdirilməsi üçün;

❖ məhkumların və digər şəxslərin cəza-icra sistemi işçilərinə

hücumlarını dəf etmək üçün;

❖ kütləvi iğtişaşların, qrup halında pozuntuların qarşısını almaq, habelə qərəzli şəkildə tabe olmayan şəxsləri tutmaq üçün;

❖ girovların, tutulmuş binaların, qurğuların, otaqların və nəqliyyat vasitələrinin azad edilməsi üçün;

❖ məhkumların qaçması, özlərinə və ətrafdakılara zərər vurması ehtimal olunan hallarda onların mühafizəsi və müşayiəti üçün;

❖ müəssisədən və ya həbsdən qaçan məhkumların tutulması və qaytarılması üçün.

**III. Xidməti itlərdən aşağıdakı hallarda istifadə edilir:**

❖ kütləvi iğtişaşların, qrup halında pozuntuların qarşısını almaq, habelə qərəzli şəkildə tabe olmayan şəxsləri saxlamaq üçün;

❖ müəssisədən və ya həbsdən qaçan məhkumların tutulması və müşayiəti üçün.

**IV. Odlu silah aşağıdakı müstəsna hallarda tətbiq edilir:**

❖ mühafizə altından qaçışın qarşısını almaq üçün;

❖ məhkumların və digər şəxslərin cəza-icra sistemi işçilərinə hücumlarını dəf etmək üçün;

❖ insanların həyatı üçün təhlükə yaradan basqınların qarşısını almaq üçün;

❖ girovların, tutulmuş binaların, qurğuların, otaqların və nəqliyyat vasitələrinin azad edilməsi üçün;

❖ mühafizə edilən obyektlərə, binalara, qurğulara, otaqlara və nəqliyyat vasitələrinə qrup halında və ya silahlı basqınları dəf etmək üçün;

❖ silahlı müqavimət göstərən, ağır cinayət törədərkən yaxalanan, qaçmağa və ya digər məhkumları azad etməyə cəhd göstərən şəxsləri saxlamaq üçün.

Cəza-icra qanunveiciliynə əsasən qadınlar və yetkinlik yaşına

çatmayan şəxslər cəzaçəkmə müəssisəsindən qaçdıqda, onlara qarşı odlu silah tətbiq edilməsinə yol verilmir. Qanun, yuxarıda qeyd edilən məsələləri tənzimləməklə yanaşı, cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsinə dair də bir sıra mühüm tələbləri müəyyən etmişdir ki, bura da aşağıdakılar daxildir:

**1)** ilkin olaraq təhlükəsizlik tədbirləri tətbiq etmək hüququ ədliyyə orqanlarının sıravi və rəis heyətinin xüsusi rütbəyə malik olan işçi heyətinə məxsusdur. Bura cəzaçəkmə müəssisəsinin rəisi, onun əməliyyat-rejim üzrə müavini, müəssisə rəisinin növbətçi köməkçisi, habelə bilavasitə xidmət aparan əməkdaşlar daxildir;

**2)** təhlükəsizlik tədbirləri cəzanı icra edən müəssisələrin ərazisində və rejim tələblərinin müəyyən olunduğu, onlara bitişik ərazilərdə tətbiq edilir;

**3)** təhlükəsizlik tədbirləri tətbiq edilməkdən əvvəl işçi heyəti onların tətbiqi barədə xəbərdarlıq etməlidir ki, məhkumların və digər şəxslərin onların tələblərini yerinə yetirməsi üçün kifayət qədər vaxtı olsun;

**4)** təhlükəsizlik tədbirlərinin tətbiqi prosesində işçi heyəti məhkumlara və digər şəxslərə daha az zərər vurulmasını təmin etməlidir;

**5)** işçi heyəti təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində xəsarət alanlara tibbi yardım göstərilməsini təmin etməlidir;

**6)** təhlükəsizlik tədbirlərinin, xüsusilə də odlu silahın tətbiq edilməsinin hər bir halı barədə işçi heyəti özlərinin bilavasitə rəislərinə, o, isə müvafiq icra hakimiyyəti orqanlarına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə) məlumat verməlidirlər.

**Məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh təd-**

**birləri.** Qanunvericiliklə müəyyən edilmiş məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərinə, onların tətbiqi qaydalarına məhkumlarla tərbiyə işinin təşkili ilə bağlı mövzuda ətraflı aydınlıq gətiriləcəkdir.

Cəzaçəkmə müəssisələrində rejimin təmin edilməsində **Daxili İntizam Qaydaları** mühüm əhəmiyyətə malikdir. Daxili İntizam Qaydaları Azərbaycan Respublikası CİM-in 15.10-cu maddəsinə əsasən azadlıqdan məhrum edilmiş şəxslərin cəzalarının icrası və çəkilməsi qaydalarının həyata keçirilməsi mexanizmi, yəni onların hüquq və azadlıqlarının, qanuni mənafelərinin, vəzifələrinin realizə olunması prosesini dəqiqləşdirir. Bu Qaydalar Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli qərarı ilə təsdiq edilmiş və dövlət qeydiyyatına alınmısdır.

Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ümumilikdə cəzaçəkmə müəssisələrinin işçi heyəti və məhkumlar arasında qarşılıqlı münasibət, qidalanma, əşya, kommunal-məişət və digər maddi-texniki təminat, məhkumların davranışının və onların həyat fəaliyyətinin təmin olunması, sanitar-epidemioloji qaydanın, şəxsi gigiyenanın qorunması, məhkumların tibbi təminatı qaydalarını tənzimləyir. Eyni zamanda Daxili İntizam Qaydaları çəzaçəkmə müəssisələrinin fəaliyyəti ilə əlaqədar aşağıdakı digər məsələlərə toxunur:

❖ cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarət;

❖ cəzaçəkmə müəssisələrinin quruluşuna dair ümumi tələblər;

❖ müxtəlif cəzaçəkmə müəssisələrinin quruluşunun xüsusiyyətləri;

❖ məhkumların cəzaçəkmə müəssisələrinə qəbul edilməsi qaydası;

❖ məhkumun cəzaçəkmə müəssisəsinə gəlməsi barədə məlumatın verilməsi;

❖ məhkumun təhlükəsiz yerə keçirilməsi;

❖ cəzaçəkmə müəssisələrində gün bölgüsü və onun təşkili;

❖ məhkumların yoxlanılması;

❖ məhkumların işə çıxarılması;

❖ məhkumların fərdi qəbulu və digər məsələlər.

Cəzaların İcrası Məcəlləsi öz növbəsində cəzaçəkmə rejiminin təmin edilməsinin xüsusi vasitələrini müəyyən etmişdir. Onlara aiddir:

❖ **məhkumların mühafizəsi;**

❖ **onlar üzərində nəzarət;**

❖ **məhkumlara tətbiq edilən təhlükəsizlik tədbirləri;**

❖ **məhkumların şəxsi təhlükəsizliyinin təmini tədbirləri;**

❖ **əməliyyat-axtarış fəaliyyəti;**

❖ **məhkumlara tətbiq edilən intizam təsiri tədbirləri.**

Məhkumların mühafizəsi Ədliyyə Nazirliyi Penitensiar xidmətinin nəzdində fəaliyyət göstərən hərbiləşdirilmiş qurum və onlar üzərində nəzarət isə, cəzaçəkmə müəssisəsinin işçi heyəti tərəfindən həyata keçirilir. Mühafizə və nəzarətin vəzifəsi cəzaçəkmə müəssisələrinin obyektlərinin təhlükəsizliyini təmin etmək, həm məhkumlar, həm də bu müəssisələrin obyektlərində olan digər şəxslər tərəfindən cinayətlərin və digər hüquq pozuntularının qarşısını almaq, müəyyən edilmiş daxili intizam qaydalarına əməl edilməsini təmin etməkdən ibarətdir. Texniki nəzarət və mühafizə vasitələri də burada mühüm əhəmiyyətə malikdir. Bu vasitələr audiovizual, elektron və digər vasitələrə bölünməklə, qaçışların və digər cinayətlərin xəbərdar edilməsi, müəyyən edilmiş cəza çəkmə qaydasının pozulmasının qarşısının alınması, məhkumların davranışı haqqında zəruri məlumatların əldə edilməsi məqsədi ilə

tətbiq olunur. Texniki nəzarət və mühafizə vasitələrinin təyinatına daxildir:

- ❖ müşahidənin həyata keçirilməsi;
- ❖ xəbərdarlıq edilməsi;
- ❖ məhkumların və onlarda olan qadağan edilmiş əşyaların və maddələrin axtarışı və aşkar edilməsi;
- ❖ əlaqə saxlanılması;
- ❖ məhkumların hüquqazidd əməllər törətmə cəhdinə fəal müqavimət göstərilməsi.

## Mövzu 12. Cəzaçəkmə müəssisələrində məhkumlarla tərbiyə işi, onların ümumi təhsili

Azadlıqdan məhrum olunmuş məhkumlarla tərbiyə işinin aparılması, onların ümumi təhsilə cəlb edilməsi əsas islah etmə vasitəsi olmaqla cəzanın icrasının səmərəli təşkilinə, son nəticədə cəzanın qarşısına qoyulmuş əsas məqsədlərə, xüsusilə məhkumların islah edilməsinə zəmin yaradır. Məhkumlara tərbiyəvi təsirin hüquqi tənzimlənməsi onlarla tərbiyə işinin aparılmasını, həmçinin onlara həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsini nizama salmaq məqsədi daşıyır. Azərbaycan Respublikası CİM-in 101.1-ci maddəsinə əsasən, **məhkumlarla tərbiyə işi, onların ictimai faydalı əməklə məşğul olmasına, əməyə vicdanlı münasibətə və cəmiyyətdə qəbul edilmiş davranış normalarına riayət edilməsinin, təhsil və mədəniyyət səviyyəsinin artırılmasının formalaşdırılmasına və möhkəmləndirilməsinə yönəldilir.**

Azərbaycan Respublikasının CİM-də tərbiyə işi ilə bağlı iki əhəmiyyətli prinsip mövcuddur. **Birincisi,** tərbiyə tədbirlərində məhkumların iştirakı onların islah edilməsi müəyyənləşdirilərkən, habelə həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi zamanı nəzərə alınır. **İkincisi,** məhkumlarla tərbiyə işi onların şəxsiyyətinin fərdi xüsusiyyətləri, xarakteri və törədilən cinayətlərin səbəbləri nəzərə alınmaqla həyata keçirilir. Beləliklə, qanunda tərbiyəvi tədbirlərin fərdiləşdirilməsi prinsipi təsbit edilmişdir ki, bu da şübhəsiz ki, onların səmərəliliyini artırır. Cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum edilmiş məhkumlarla tərbiyə işi üç əsas formada – **fərdi, qrup** və **kütləvi** şəkildə həyata keçirilir.

Azadlıqdan məhrum edilmiş şəxslərlə tərbiyə işinin təşkili cəzaların icrasını həyata keçirən müəssisə və orqanlar üzərinə qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsinə görə ilk növbədə,

cəzaçəkmə müəssisələrinin tərbiyəvi təsir prosesini həyata keçirən işçiləri (cəzaçəkmə müəssisələrinin rəisləri, böyük inspektor (dəstə rəisi), psixoloqlar və bilavasitə məhkumlarla işləyən digər əməkdaşlar) məsuliyyət daşıyırlar.

Cəzaçəkmə müəssisələrində funksional vəzifəsi məhkumlar arasında tərbiyəvi tədbirlər aparmaq olan əsas vəzifəli şəxs böyük inspektordur (dəstə rəisi). Dəstə sistemi azadlıqdan məhrum etmə növündə cəzanı icra edən müəssisələrdə tərbiyə prosesinin əsas təşkilati həlqəsi olduğu üçün, dəstə çərçivəsində məhkumların qarşılıqlı əlaqələri sistemi formalaşdırılır, şəxsiyyətin hərtərəfli öyrənilməsi təmin edilir və məqsədyönlü tərbiyəvi təsir təşkil edilir.

Azərbaycan Respublikası CİM-in 102-ci maddəsi cəzaçəkmə müəssisələrində məhkumlarla tərbiyə işinin əsas formalarını müəyyən edir. Məhkumlarla tərbiyə işinin istiqamətləri qismində **hüquqi, əxlaqi, əmək** və **fiziki** tərbiyə növləri fərqləndirilir. Əgər, qanuna və cəzaçəkmə müəssisələrində cəzaçəkmə rejiminin tələblərinə zidd deyilsə, tərbiyə işinin digər formaları da tətbiq edilə bilər.

**Hüquqi tərbiyə** – azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərlə aparılan tərbiyə işinin əsas növlərindən biridir. Çünki məhz hüquqi şüurun qüsurları, qanunlara hörmətsizlik, onların tələbləri haqqında təhrif olunmuş təsəvvürlər cəza çəkən şəxsi cinayət törətməyə sövq etmişdir. Hüquqi tərbiyənin məqsədi məhkumlarda qanuna tabe olma ilə bağlı davranışı formalaşdırmaqdır. Bu işin əsas növlərinə aiddir: hüquqi mövzuda mühazirə və məşğələlərin, fərdi izahedici söhbətlərin keçirilməsi, hüquqi məsləhətlər və s.

**Əxlaqi tərbiyə** – vicdanlılığın, saflığın, məsuliyyət, şəxsi borc və ləyaqət hisslərinin formalaşdırılmasına, insanın mənəvi

səviyyəsinin yüksəldilməsinə yönəlmişdir. Bu işdə məhkumların dini etiqad azadlığı hüququnun həyata keçirilməsi də mühüm rol oynayır. Əxlaqi tərbiyə məhkumlarla aparılan bütün tərbiyəvi tədbirlərdə, istər fərdi, istərsə kütləvi qaydada həyata keçirilən tədbirlərdə öz əksini tapmalıdır. Burada məhkumların dini və etiqad azadlığının oynaya biləcəyi rolu da qeyd etmək lazımdır. Cəzaların İcrası Məcəlləsində azadlıqdan məhrum etmə yerlərində dini ayinlərin keçirilməsinin təşkilatı və hüquqi təminatı təcrübəsi öz əksini tapmışdır. Azərbaycan Respublikası CİM-in 13-cü maddəsinə əsasən cəzaçəkmə müəssisəsinin müdiriyyəti dini ayinlərin keçirilməsi üçün zəruri şərait yaradır. Eyni zamanda, azadlıqdan məhrum etmə yerlərində dini ayinlərin keçirilməsi könüllüdür, məhkumların hüquqlarını və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının tələblərinin pozulmasını istisna edən qaydada təşkil edilir.

**Əmək tərbiyəsi,** ənənəvi olaraq, məhkumlara islah təsirinin əsas istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Məhkumlarla aparılan əmək tərbiyəsi işi cəzaçəkmə müəssisələrində, cəza çəkməkdən azad edildikdən sonra əmək vasitəsilə ictimai faydalı fəaliyyətdə iştirakına imkan verən tərbiyəvi tədbir və vasitələrin sistemini bildirir. Məhkumların əmək tərbiyəsinin hüquqi əsasları Azərbaycan Respublikası CİM-in 95-ci maddəsində təsbit edilmişdir.

Məhkumların **fiziki tərbiyəsi,** cəmiyyətdən təcrid etmə şəraitində olan şəxslərin fiziki sağlamlığını inkişaf etdirmək və möhkəmləndirmək, həmçinin onların normal əxlaqi və psixi vəziyyətini qoruyub saxlamaq məqsədilə həyata keçirilir. Bu işin məzmununa idman yarışlarının, oyunların, idman bölmələrində məşğələlərin və s. təşkili daxildir. Bədən tərbiyəsi və idmanla məşğul olmaq məhkumların əsas hüquqları sırasına daxil olaraq, onlara

gündə bir saatdan az olmayaraq fiziki məşqlər, o cümlədən səhər gimnastikası, habelə idmanla məşğul olmaq imkanı yaradır. Qeyd olunanlar Azərbaycan Respublikası CİM-in 10.2.2-1 və 91-1-ci maddələrində öz əksini tapmışdır. Məhkumlar üçün müəyyən edilən gün bölgüsündə bir saatdan az olmayan müddət ərzində fiziki təmrinlərin həyata keçirilməsi nəzərdə tutulur.

Tərbiyə işinə differensial yanaşma tələbi yalnız məhkumlarla davranış sahəsində beynəlxalq aktlardan irəli gəlmir, həm də cəzanın icrası təcrübəsi ilə şərtlənir. Burada cəzanın icrasının differensiasiyası və fərdiləşdirilməsi arasındakı qırılmaz əlaqəni qeyd etmək lazımdır. **Fərdi iş** – məhkumlarla tərbiyə işinin formalarından biridir və onun əsasını cəzanın icrası məqsədlərinin – məhkumların islah edilməsinin və onlar tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasının həyata keçirilməsinə fərdi yanaşma təşkil edir. Cəzaçəkmə müəssisələrində mövcud olan psixoloji-pedaqoji xidmətin fəaliyyəti məhz buna yönəlmişdir. Təcrübə göstərir ki, qrup halında və kütləvi şəkildə yaxşı təşkil edilmiş tərbiyəvi tədbirlər, əgər onlar azadlıqdan məhrum edilmiş şəxslərlə fərdi işin müxtəlif növləri əlaqələndirilmədən tətbiq edilərsə, məhkumların islahına səmərə verməyəcəkdir. Nəhayət, məhkumların tərbiyə edilməsində müxtəlif kinofilmlərə və televiziya verilişlərinə baxış da mühüm rol oynayır. **Birincisi,** bu verilişlərə baxmaqla məhkumlar istər ölkədə, istərsə də beynəlxalq aləmdə baş verən proseslərlə tanış olur, bu barədə məlumat alır, **ikincisi,** bu kütləvi informasiya vasitələrində göstərilən mədəni, maarifləndirici və digər xarakterli verilişlər onların əxlaqi inkişafına öz töhfəsini verir. Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının 243-cü bəndinə əsasən ümumi, ciddi rejimli cəzaçəkmə müəssisələrində, tərbiyə müəssisələrində, xüsusi rejimli cəzaçəkmə müəssisələrinin adi yaşayış binalarında, habelə istintaq

təcridxanalarında və həbsxanalarda təsərrüfat və məişət xidməti işinə cəlb edilən məhkumlar üçün mərkəzləşdirilmiş qoşucu qurğu ilə təchiz edilmiş televizorlar quraşdırılır. Televiziya verilişlərinə baxış vaxtı gündəlik qayda ilə iş günlərində 2 saatdan, istirahət və bayram günlərində 4 saatdan artıq olmayaraq müəyyən edilir. Hər həftə üçün televiziya verilişlərinə baxış proqramı islah işləri və sosial müdafiə xidməti tərəfindən müəyyən edilir. Qanunvericiliyin tələbinə görə yalnız intizam və cərimə təcridxanalarında, kamera tipli otaqlarda, həmçinin həbsxanalarda (təsərrüfat və məişət xidməti işi üçün saxlanılan məhkumlar istisna olmaqla) məhkumların kinofilmlərə və televiziya verilişlərinə baxmasına icazə verilmir.

Tərbiyə işinin təşkili zamanı məhkumların psixoloji yardım almaq hüquqlarının yerinə yetirilməsi də əhəmiyyət kəsb edir.

Məhkumların əsas hüquqları sırasına daxil oan psixoloji yardım almaq onlarda yaranmış psixoloji problemlərin həlli, stress vəziyyətlərin nəticələrinin aradan qaldırılması, şəxsiyyətlərarası münasibətlərin və psixi sağlamlığın yaxşılaşdırılması, şəxsiyyətin inkişafı, sosial adaptasiya məqsədi ilə psixoloji prinsiplər və metodlar əsasında həyata keçirilən tədbirləri özündə ehtiva edir. Cəzaçəkmə müəssisələrində psixoloji yardımın göstərilməsi könüllülük, konfidensiallıq, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi prinsipləri əsasında, bu məqsədlər üçün xüsusi ayrılmış otaqlarda həyata keçirilir. Həmin otaqlar kompüter, psixoloji test bankı, xüsusi psixoloji ədəbiyyat, sənədləşdirmənin aparılması üçün dəftərxana ləvazimatları, dəmir dolab və ya seyflərlə təchiz olunur. Cəzaçəkmə müəssisələrində psixoloji yardım müəssisənin psixoloq əməkdaşları tərəfindən həyata keçirilir. Həmin tərbiyə işi kimi müvafiq planlar əsasında aparılır. Psixoloji yardım işi planlaşdırılan zaman məh-

kumların törətdikləri cinayət əməllərinin xarakteri, məhkum olunmuş şəxslərdən risk qrupuna aid olanlar – intihara, özünə və digər şəxslərə xəsarət yetirməyə və ya qaçmağa meyilli, potensial konfliktli şəxslər, habelə yetkinlik yaşına çatmayanlar, müəssisənin əməliyyat şəraiti, mövcud nizam-intizamın vəziyyəti, habelə əvvəlki dövr ərzində nizam-intizam vəziyyəti və dəstələrin fəaliyyətinin təhlili nəzərə alınır. Hər bir məhkumun psixoloji xüsusiyyətlərini özündə əks etdirən müvafiq sənəd, yəni psixoloji portret tərtib olunur.

Qeyd etmək lazımdır ki, cəzaçəkmə müəssislərində tərbiyə işinin təşkili və məhkumlara psixoloji yardım göstərilməsi işinin həyata keçirilməsi mexanizmi Ədliyyə Nazirliyi Kollegiyasınıın 29 iyun 2020-ci il tarixli 11-T nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərlə tərbiyə və psixoloji yardım işinin təşkili haqqında Təlimat"la tənzimlənir.

Vətəndaşların, həmçinin də məhkumların əsas hüquqlarından biri onların **təhsil almaq** hüququdur. Azadlıqdan məhrum edilmiş şəxslərin ümumi təhsilinin hüquqi tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş vətəndaşların təhsil hüququndan irəli gəlir. Məhkumların bu vacib hüququnun realizəsi cəzaların icrası qanunvericiliyi ilə, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu ilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Ədliyyə və Təhsil nazirliklərinin normativ aktları ilə həyata keçirilir. Məhkumların ümumi təhsil alması onların islah edilməsinin əsas vasitələrinə aid edilir (Azərbaycan Respublikası CİM-in 8.2.4-cü maddəsi). Qanun, azadlıqdan məhrum edilmiş şəxslərin ümumi təhsil almasının təminatlarını, onların müvafiq təhsilə cəlb edilməsi şərtlərini, məhkumların islah

olunma dərəcəsinin müəyyən edilməsi üçün təhsilin əhəmiyyətini müəyyən edən müddəaları təsbit etmişdir. Təhsil almaq məhkumların əsas hüquqlarından biridir. Məhkumun ümumi təhsili həvəsləndirilir və onların islah edilməsi müəyyənləşdirilərkən nəzərə alınır. Başqa sözlə, təhsilə vicdanla yanaşan məhkumların əlavə imkanlardan istifadəsi mümkündür.

Qanunverici bəzi kateqoriya məhkumların könüllülük əsasında təhsilə cəlb edilməsini müəyyən edir. Bunlar, yaşı qırxdan çox olan məhkumlar, birinci və ikinci qrup əlilliyi olan məhkumlardır. Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq ümumi təhsil alan məhkumlar imtahan vermək üçün işdən azad edilirlər. Onların imtahanlara hazırlaşması üçün müəssisədə zəruri şərait yaradılır. Bu dövr ərzində onlara əmək haqqı verilmir.

Məhkumların ümumi təhsili ilə məşğul olan pedaqoji kollektiv öz vəzifələrini yerinə yetirməklə yanaşı, cəzaçəkmə müəssisələrinin müdiriyyətinə də müəyyən köməklik göstərirlər. Onlar islah edilmə vasitələrindən birini – ümumi təhsili həyata keçirdikləri üçün, məhkumların islah edilməsi prosesində bilavasitə iştirak etmiş olurlar.

Dövlətimizin cinayət və cəzaların icrası qanunvericiliklərində ilk dəfə olaraq ömürlük azadlıqdan məhrum etmə cəzası, onun icrası qaydası və şərtləri müəyyən edilmişdir. Azərbaycan Respublikası CİM-in 104-cü maddəsinə bu kateqoriya məhkumların da ümumi təhsili barədə müəyyən normalar daxil edilmişdir. Belə ki, qeyd olunan məhkumların cəza çəkdikləri müəssisələrdə müdiriyyət tərəfindən onların da təhsil alması üçün şərait yaradılır.

Məhkumların ümumi təhsili onlara ilk növbədə bilik səviyyəsini artırmaq, sonra isə azadlığa qovuşduqdan sonra ictimai faydalı əməklə məşğul olmaq imkanı təqdim edir. Yaşı qırxdan aşağı

olan və ümumi təhsili olmayan məhkumların ümumi təhsil alması məcburidir və bunun üçün zəruri şərait yaradılır. Yaşı qırxdan çox olan məhkumlar, birinci və ikinci qrup əlilliyi olan məhkumlar ümumi təhsilə öz arzularına görə cəlb edilirlər. Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin ümumi təhsili təhsil qanunvericiliyinə əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 22 mart 2004-ci il tarixli 12-T saylı əmri ilə təsdiq edilmiş qaydalara uyğun təşkil edilməklə həyata keçirilir.

Cəzaların icrası qanunvericiliyinin həvəsləndirmə və tənbeh tədbirlərinin sistemini, onların tətbiq edilməsi qaydasını müəyyən edən normaları Azərbaycan Respublikası CİM-in "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərlə tərbiyə işi" adlı XIII fəslində təsbit edilmişdir. Bu onu göstərir ki, qanunverici qeyd edilən tədbirləri məhkumlarla tərbiyə işinin vasitələrindən biri kimi tanıyır (Azərbaycan Respublikası CİM-in 105-107-ci maddələri).

Azərbaycan Respublikası CİM-in 105.1-ci maddəsinə əsasən nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştirakına görə məhkumlara aşağıdakı **həvəsləndirmə tədbirləri** tətbiq edilə bilər:

- təşəkkür elan etmək;
- hədiyyə ilə mükafatlandırmaq;
- dörd manatadək miqdarda pulla mükafatlandırmaq;
- əlavə sovqat, bağlama və ya banderol almağa icazə vermək;
- əlavə telefon danışığına icazə vermək;

- əlavə qısa müddətli və ya uzun müddətli görüşə icazə vermək;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün on beş manatadək miqdarda əlavə pul xərcləməyə icazə vermək;
- verilmiş tənbehi vaxtından əvvəl götürmək;
- saxlanılma şəraitini yaxşılaşdırmaq;
- xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan və cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkumları kamera tipli otaqlardan adi yaşayış binalarına keçirmək;
- xüsusi rejimli cəzaçəkmə müəssisəsində və həbsxanada kameralarda saxlanılan məhkumlara bir ay ərzində bir saatadək əlavə gəzintiyə icazə vermək.

Azadlıqdan məhrum etmə (müəyyən müddətə və ömürlük) növündə cəza çəkən şəxslərə tətbiq edilən həvəsləndirmə tədbirləri elə tərbiyəvi təsir vasitələridir ki, onların köməyi ilə cəzaçəkmə müəssisələrinin müdiriyyəti cəza çəkən şəxsləri bir-birindən fərqləndirir, onların nümunəvi davranışını, əməyə və təhsilə vicdanlı münasibətini, özfəaliyyət təşkilatlarının işində fəal iştirakını qiymətləndirir. Ümumiyyətlə, məhkumların həm birdəfəlik müsbət hərəkəti (misal üçün, yanğının qarşısının alınmasında fəal iştirakı və s.), həm də cəza çəkmə dövründə uzun müddətli müsbət davranışı həvəsləndirilə bilər.

Həvəsləndirmə tədbirləri məhkumlarda qanunlara tabe olan davranışın formalaşdırılmasının mühüm vasitələrindən biridir. Məhkumların qanunlara tabe davranışı dedikdə, ilk növbədə onlar tərəfindən öz üzərlərinə düşən vəzifələrin vicdanla yerinə yetirilməsi, iş vaxtı və istirahət vaxtı cəzaçəkmə müəssisələrində müəyyən edilmiş davranış qaydalarına, gün bölgüsünə riayət etməsi başa düşülür. **Əməyə vicdanlı münasibət** dedikdə, müəyyən

edilmiş tapşırıqların, iş normalarının yerinə yetirilməsi, əmək intizamına, texniki təhlükəsizlik qaydalarına və s. riayət edilməsi başa düşülür.

Ümumi təhsilə, peşə təhsilinə və peşə hazırlığına münasibətin qiymətləndirilməsi, yalnız bu tədbirlərə cəlb edilən məhkumlara şamil edilir və onların islah olunma dərəcəsi müəyyənləşdirilərkən nəzərə alınır.

Tərbiyəvi tədbirlərdə, həmçinin də özfəaliyyət təşkilatlarının işində fəal iştirak, yalnız bu tədbirlərdə iştirak etməni deyil, eyni zamanda təşəbbüskarlığın göstərilməsini, tərbiyəvi tədbirlərin hazırlanmasında və keçirilməsində, yaxud özfəaliyyət təşkilatlarının işində cəzaçəkmə müəssisəsinin müdiriyyətinə köməklik göstərilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası CİM-in 105-ci maddəsində nəzərdə tutulan həvəsləndirmə tədbirlərini onların məhkumlar üçün əhəmiyyətliliyindən və hüquqi nəticələr yaratmasından asılı olaraq iki qrupa bölmək olar. Birinci qrup tədbirlərə bir cəzaçəkmə müəssisəsi hüdudlarında tətbiq edilən, məhkumların cəzaçəkmə şəraitinin dəyişdirilməsi ilə əlaqədar olmayan həvəsləndirmə tədbirləri aiddir. Bu tədbirlərin özü də aşağıdakı üç növə bölünür:

**1. mənəvi xarakterli həvəsləndirmə tədbirləri** – təşəkkür elan etmək;

**2. maddi xarakterli həvəsləndirmə tədbirləri** – hədiyyə ilə mükafatlandırmaq;

**3. rejim xarakterli həvəsləndirmə tədbirləri** – əlavə telefon danışığına, əlavə görüşlər almağa icazə vermək, verilmiş tənbehi vaxtından əvvəl götürmək və s.

İkinci qrup həvəsləndirmə tədbirləri isə müsbət xarakterizə olunan məhkumların cəzaçəkmə şəraitini əhəmiyyətli dərəcədə dəyişdirə bilər. Bu növ tədbirlərin fərqləndirici xüsusiyyəti ondan

ibarətdir ki, onlar yalnız cəza müddətinin müəyyən hissəsini çəkmiş məhkumlara tətbiq edilir. Misal üçün, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların kamera tipli otaqlardan adi yaşayış binalarına keçirilməsi cəza müddətinin ən azı üçdə birini çəkildikdən sonra tətbiq oluna bilər. Bu və ya digər həvəsləndirmə tədbirlərinin tətbiqi edilməsi məhkumların cəza çəkdiyi cəzaçəkmə müəssisəsinin növündən və onların davranışından asılıdır.

Tərbiyə müəssisələrində cəza çəkən yetkinlik yaşına çatmayan məhkumlar üçün Azərbaycan Respublikası CİM-in 105-ci maddəsində nəzərdə tutulan həvəsləndirmə tədbirlərindən başqa digər tədbirlər də tətbiq edilə bilər. Misal üçün, Azərbaycan Respublikası CİM-in 124.3.3-cü maddəsinə əsasən onlara müəssisənin hüdudlarından kənara qısa müddətli səfərlər, habelə Azərbaycan Respublikası CİM-in 124-1-ci maddəsinə əsasən isə, müəssisədən kənarda müşayiətlə idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə icazə verilə bilər.

Azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq edilən tənbeh tədbirlərini məhkumlara tərbiyəvi təsir tədbirlərindən biri kimi nəzərdən keçirmək olar. Azərbaycan Respublikası CİM-in 107-ci maddəsində məhkumlara tənbeh tədbirlərinin tətbiqi əsası kimi cəzanın icrası qaydalarının pozulması göstərilmişdir.

Cəzanın icrası qaydalarının pozulması məhkumun, cəzaların icrası qanunvericiliyi ilə cəzaçəkmə müəssisələrində müəyyən edilmiş rejim və daxili qayda tələblərinə hərəkət və ya hərəkətsizlik formasında qəsd edən hüquqazidd, təqsirli əməlidir. Özünün hüquqi təbiətinə görə qeyd edilən tələblərin məhkum tərəfindən pozulması intizam xətasıdır və buna görə təqsirli şəxs intizam məsuliyyətinə cəlb edilə bilər.

Azərbaycan Respublikası CİM-in 107.1-ci maddəsinə əsasən

cəzanın icrası qaydalarını pozan məhkumlara aşağıdakı tənbeh tədbirləri tətbiq edilə bilər:

❖ xəbərdarlıq;

❖ töhmət;

❖ cəzaçəkmə müəssisələrində və həbsxanalarda saxlanılan kişi məhkumların on beş günədək, qadın məhkumların isə on günədək müddətə cərimə təcridxanasına keçirilməsi;

❖ xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların adi yaşayış binalarından kamera tipli otaqlara keçirilməsi;

❖ cəzanın icrası qaydaları qərəzli pozulduqda, ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan kişi məhkumların bir aydan altı ay müddətinədək kamera tipli otaqlara, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların bir aydan altı ay müddətinədək birnəfərlik kameralara, həbsxanalarda saxlanılan məhkumların iki aydan altı ayadək müddətə ciddi saxlanma şəraitinə keçirilməsi (bu tənbeh tədbirləri yalnız Azərbaycan Respublikası CİM-in 107.1.1-107.1.3-cü maddələrində nəzərdə tutulmuş tənbeh tədbirləri verilmiş məhkumlara tətbiq edilə bilər);

❖ məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası qaydalarını qərəzli pozan məhkumlara bir ay müddətində müəssisədən kənara çıxmağın və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyin qadağan edilməsi.

Məhkumların intizam xətalarını, bir tərəfdən, əxlaq normalarının pozulmasından, digər tərəfdən isə cinayətlərdən fərqləndirmək lazımdır. Əgər məhkum hüquq pozuntusu sayılmayan əməl törədirsə və buna görə yalnız mənəvi cəhətdən mühakimə olunursa, bu halda ona intizam tənbehi tətbiq edilə bilməz.

Təcrübədə çox vaxt müəyyən edilmiş cəzaçəkmə qaydasının pozulmasını xuliqanlıq (ağırlaşdırıcı hallar olmadan), müdiriyyət nümayəndəsi barədə zor tətbiq etmə hədəsi, təhqir, sağlamlığa zərər vurma və s. kimi cinayətlərlə qarışıq salırlar. Nəzərə almaq lazımdır ki, intizam xətasını cinayət əməlindən fərqləndirən başlıca əlamət onun az ictimai təhlükəli olmasıdır.

Tənbeh tədbirlərini iki əsas qrupa bölmək olar. Bu bölgünün meyarı qismində tətbiq edilən tədbirlərin sərtlik dərəcəsi və onların tətbiq edilməsinin hüquqi nəticələri çıxış edir. Birinci qrupa heç bir məhdudiyyətlə müşayiət olunmayan, kifayət qədər sərtliyi ilə nəzərə çarpmayan tənbeh tədbirləri aiddir. Bu qrupa xəbərdarlıq və töhmət daxildir.

İkinci qrupa isə, məzmunu sərt, ciddi məhdudiyyətlə müşayiət olunan digər tənbeh tədbirləri aid edilir. Bu növ tənbeh tədbirləri aşağıdakılardır:

❖ cəzaçəkmə müəssisələrində və həbsxanalarda saxlanılan kişi məhkumları on beş günədək, qadın məhkumları isə on günədək müddətə cərimə təcridxanasına keçirmək;

❖ xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları adi yaşayış binalarından kamera tipli otaqlara keçirmək;

❖ ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan kişi məhkumları bir aydan altı ay müddətinədək kamera tipli otaqlara, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumları bir aydan altı ay müddətinədək birnəfərlik kameralara, həbsxanalarda saxlanılan məhkumları iki aydan altı ayadək müddətə ciddi saxlanma şəraitinə keçirmək;

❖ məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara bir ay müddətində müəssisədən kənara çıxmağı və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyi qadağan etmək.

Bu tədbirlərin xarakterik cəhəti ondan ibarətdir ki, onların tətbiqi nəticəsində məhkumlar bəzi hüquqlardan müvəqqəti və ya qanunda göstərilmiş müddətə məhrum edilir və onlar üzərinə Azərbaycan Respublikasının CİM-i ilə və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən olunmuş əlavə vəzifələr qoyulur. Məhkumların hüquqlarının belə sərt məhdudlaşdırılması tamamilə məntiqi izaha malikdir.

Qeyq olunmalıdır ki, qanunvericiliklə cərimə təcridxanasına keçirmə, kamera tipli otaqlara keçirmə və birnəfərlik kameralara keçirmə növündə tənbeh tədbirlərinin aşağı həddi müəyyən edilməmişdir.

Azərbaycan Respublikası CİM-in 111-ci maddəsinə əsasən, həvəsləndirmə və tənbeh tədbirlərini məhkumlara onların davranışından asılı olaraq cəzaçəkmə müəssisəsinin müdiriyyəti tətbiq edir.

Azərbaycan Respublikasının CİM-də **cəzanın icrası qaydalarının daha kobud, yəni qərəzli pozulması** halları da göstərilmiş və onların qəti siyahısı müəyyən edilmişdir. Bu da qanunçuluğun qorunması və məhkumların hüquqlarının müdafiəsi məqsədi daşıyır. Cəzanın icrası qaydalarının qərəzli pozulması halları aşağıdakılardır:

- ❖ alkoqol və ya digər güclü təsir göstərən maddələri qəbul etmək;
- ❖ narkotik vasitələri və ya psixotrop maddələri qəbul etmək;
- ❖ xırda xuliqanlıq;
- ❖ cəzaçəkmə müəssisəsinin işçi heyətini hədələmək, təhqir etmək və ya onların qanuni tələblərinə tabe olmamaq;
- ❖ xidməti borclarını yerinə yetirən digər dövlət nümayəndələrini hədələmək və ya təhqir etmək;
- ❖ qrup halında tabe olmamaq və ya belə qruplarda fəal işti-

rak etmək;

- il ərzində üç dəfədən çox tənbeh edilmək.

Məntəqə tipli cəzaçəkmə müəssisələrində əlavə olaraq cəzanın icrası qaydalarının qərəzli pozulması aşağıdakı hallar hesab edilir:

- məhkumun cəzaçəkmə müəssisəsini icazəsiz tərk etməsi;
- məhkumun üzrsüz səbəbdən ayda iki dəfədən çox cəzaçəkmə müəssisəsinə vaxtında qayıtmaması.

Qanunvericiliklə cəzaçəkmə müəssisələrində məhkumlarda müsbət vərdişləri inkişaf etdirmək, onların faydalı təşəbbüskarlığını həvəsləndirmək, habelə məhkumların islah olunmasında və yenidən tərbiyələnməsində kollektivin təsirindən istifadə etmək məqsədi ilə əmək fəaliyyətində, təhsildə, davranışda özünü müsbət göstərən və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına düzgün riayət edən məhkumların **özfəaliyyət təşkilatları** yaradılması nəzərdə tutulmuşdur. Məhkumların özfəaliyyət təşkilatlarının təşkili və fəaliyyəti qaydası Azərbaycan Respublikası CİM-in 103-cü maddəsi və Azərbaycan Respublikası ədliyyə nazirinin 8 iyul 2002-ci il tarixli 22-T nömrəli əmri ilə təsdiq edilmiş **“Məhkumların özfəaliyyət təşkilatlarının yaradılması və onların fəaliyyət Qaydası”** ilə tənzimlənir.

Özfəaliyyət təşkilatlarının işi cəzaların icrası qanunvericiliyinin, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla həyata keçirilir. Məhkumların özfəaliyyət təşkilatlarının fəaliyyətinə cəzaçəkmə müəssisəsinin müdiriyyəti nəzarət edir.

Məhkumlar özfəaliyyət təşkilatlarına üzvlüyə könüllülük əsasında qəbul edilirlər. Onların bu təşkilatların işində iştirakı həvəsləndirilir və islah olunma dərəcəsi müəyyən edildikdə nəzərə

alınır. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti özfəaliyyət təşkilatlarının üzvü olan məhkumları müəssisədə intizam və daxili qaydanın qorunub saxlanılması ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətlərlə təmin edir. Lakin bu məhkumlar əlavə güzəşt və hüquqlardan istifadə etmir, istehsalatda əsas işdən və müəssisədə keçirilən tədbirlərdə iştirak etməkdən azad olunmurlar.

**Məhkumların özfəaliyyət təşkilatları, bir qayda olaraq, müəssisə kollektiv şurasından, dəstə kollektiv şurasından və onların bölmələrindən ibarətdir.** Bölmələrin sayı və adı cəzaçəkmə müəssisələrinin fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla dəyişə bilər. Bir qayda olaraq bölmələr, cəzaçəkmə müəssisələrinin fəaliyyət istiqamətlərinə müvafiq işləri həyata keçirirlər.

**Müəssisə kollektiv şurasının tərkibi ictimai iaşə bölməsi və məhkumlar üçün mətbuat orqanının müxbirlər bölməsi, dəstə kollektiv şurasında isə hüquqpozmaların profilaktikası, istehsal işi, ümümtəhsil tədris, texniki-peşə tədris, mədəni-kütləvi iş, bədən tərbiyəsi və idman işi, sanitariya-məişət bölmələri olmaqla formalaşdırılır.**

Müəssisə kollektiv şurası açıq səsvermə yolu ilə məhkumların ümumi yığıncağında (və ya məhkumların dəstə nümayəndələrinin ümumi yığıncağında) tərkibi 11 nəfərdən az olmayaraq, dəstə kollektiv şurasının tərkibi isə 7 nəfərdən az olmayaraq dəstənin yığıncağında bir il müddətinə seçilir. Məhkumların özfəaliyyət təşkilatlarının fəaliyyətinin əsas məqsədləri Azərbaycan Respublikası CİM-in 103.3-cü maddəsində sadalanmışdır. Bunlar aşağıdakılardır:

- məhkumların islah edilməsinə, tərbiyəsinə, onların mənəvi və fiziki inkişafına köməklik göstərmək;
- məhkumlarda müsbət vərdişləri inkişaf etdirmək və on-

ların faydalı təşəbbüskarlığını həvəsləndirmək;

- cəzaçəkmə müəssisəsində əməyin, məişət şəraitinin və asudə vaxtın səmərəli keçməsinin təşkili məsələlərinin həllində iştirak etmək;
- məhkumlar arasında intizamı möhkəmləndirmək və onların bir-birinə qarşılıqlı müsbət münasibətlərini formalaşdırmaq;
- məhkumlara və onların ailələrinə yardım göstərmək.

Özfəaliyyət təşkilatları qarşısında duran ən mühüm vəzifələrdən biri məhkumlara və onların ailələrinə köməklik göstərməkdir. Bu vəzifə ilə bir sıra ölkələrdə müəyyən mənada ictimai yardım fondu məşğul ola bilər. Belə fond yaranması zamanı onun vəsaitlərindən cəzadan azad edilən məhkumlara, obyektiv səbəblərdən şəxsi hesabında kifayət qədər vəsait olmayan məhkumlara və onların ailələrinə, müəssisədə sosial-mədəni şəraitin yaxşılaşdırılmasına, ayrı-ayrı məhkumların mükafatlandırılmasına ayırmalar aparıla bilər.

Məhkumların özfəaliyyət təşkilatlarının üzvləri cəzaçəkmə müəssisəsində əməyin, məişət şəraitinin və asudə vaxtın səmərəli keçməsinin təşkili məsələlərinin həllində iştirak etmək, onların yaxşılaşdırılması üzrə təkliflər vermək və digər hüquqlara malikdirlər.

Özfəaliyyət təşkilatlarının bir növü olan cəzaçəkmə müəssisəsində təşkil edilən müəssisə kollektiv şurasının qərarı, yalnız cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən təsdiqləndikdən sonra, qüvvəyə malikdir.

## Mövzu 13. Cəzaçəkmə müəssisələrində məhkumların əməyi, peşə təhsili və peşə hazırlığı

İctimai faydalı əmək, habelə peşə təhsili və peşə hazırlığı əsas islah etmə vasitələri olmaqla, azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrası prosesində, nəticə etibarı ilə cəzanın məqsədlərinin əldə olunmasında mühüm əhəmiyyət kəsb edir. Cəzaların icrası qanunvericiliyində müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərin əməyə cəlb edilməsinin əsas prinsipləri, əsasları və formaları, əməyin təşkili, habelə peşə təhsili və peşə hazırlığı üzrə cəzaçəkmə müəssisələrinin müdiriyyətinin fəaliyyəti tənzimlənmişdir. Burada öz əksini tapmış prinsiplərdən biri ondan ibarətdir ki, məhkumların istehsalat fəaliyyəti cəzaçəkmə müəssisəsinin əsas vəzifəsinə, yəni məhkumların islah edilməsinə mane olmamalıdır. Digər prinsip isə, hər bir məhkumun cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olması ilə əlaqəlidir. Azərbaycan Respublikası CİM-in 95-ci maddəsinə əsasən, məhkumlar, bir qayda olaraq, cəzaçəkmə müəssisəsinin istehsalat sahələrində və cəzaçəkmə müəssisələrindən kənar digər istehsalat obyektlərində müəyyən olunmuş qaydada mühafizə və təcrid olunmaqla əməyə cəlb olunurlar. Bu zaman onların cinsi, yaşı, əmək qabiliyyəti, sağlamlığı, habelə imkan daxilində ixtisasları nəzərə alınır. Qanunvericiliyə əsasən bir qrup məhkum əməyə könüllülük əsasında cəlb edilə bilər. Məhkumlar, habelə cəzaçəkmə müəssisələrində müdiriyyətin icazəsi ilə fərdi əməklə də məşğul ola bilərlər. Son illərdə əməyin bu formasından geniş istifadə edilməyə başlanmışdır.

Məhkumların iş vaxtının müddəti, əməyin mühafizəsi və istehsalat sanitariyası qaydaları əmək qanunvericiliyinə uyğun ola-

raq müəyyən edilir.

Məhkumlar əmək qanunvericiliyinə uyğun olaraq əməyin qiymətləndirilməsi hüququna malikdirlər. İş vaxtının normasını tam işləmiş və öz əmək vəzifələrini yerinə yetirmiş məhkumların aylıq əmək haqqının məbləği əməyin ödənilməsinin müəyyən olunmuş minimum miqdarından az olmamalıdır. Natamam iş vaxtına görə əməyin ödənilməsi işlənmiş vaxta münasib və ya istehsaldan asılı olaraq həyata keçirilir. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 sentyabr 2001-ci il tarixli 149 nömrəli qərarı ilə müəyyən edilmişdir. Həmin Qaydanın 1.2-ci bəndinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əməyi, əməyin ödənilməsi dərəcələrinə uyğun olaraq iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə qüvvədə olan sahə əmsalları tətbiq edilməklə vahid tarif cədvəlləri əsasında ödənilir.

Cəzaçəkmə müəssisəsində məhkumların əməyinin ödənilməsi sisteminin əsasını normalaşdırılmış və dəqiq uçotunun aparılması mümkün olan işəmuzd və vaxtamuzd əmək haqqı təşkil edir. İşəmuzd əmək haqqı fərdi və kollektiv (briqada) əmək haqqı formalarına bölünür. Fərdi işəmuzd əmək haqqı hesablanarkən məhkumun ümumi maaşı onun hazırladığı yararlı məhsulun kəmiyyətinə və hər məmulat vahidinə qoyulan işəmuzd qiymətlərə görə müəyyənləşdirilir.

Kollektiv (briqada) işəmuzd əmək haqqı forması ilə işləyən kollektivin (briqadanın) ümumi maaşı kollektiv (briqada) işəmuzd qiymətlər əsasında, onun müəyyən vaxt ərzində (növbə, həftə, ay) gördüyü işin nəticələrinə görə hesablanır. Lakin kollektivin (bri-

qadanın) hər bir üzvünə maaş onun kollektivdə (briqadada) işlədiyi iş vaxtından və müəyyən edilmiş qaydalara əsasən ona verilmiş ixtisas dərəcəsindən asılı olaraq hesablanır.

Məhkumlara vaxtamuzd əmək haqqının tətbiq edilməsinə yalnız görülən işin normalaşdırılması və dəqiq uçotunun aparılması mümkün olmayan hallarda yol verilir. Vaxtamuzd əmək haqqı forması ilə işləyən məhkumlara gündəlik tarif (vəzifə) maaşları və işəmuzd əmək haqqı formasında işləyən məhkumlar üçün işəmuzd qiymətlər hesablanarkən, saatlıq tarif (vəzifə) maaşları əmək qanunvericiliyində nəzərdə tutulan 40 saatlıq iş həftəsi hesabı ilə müəyyən edilir.

İşçilərin ayrı-ayrı kateqoriyalarına Azərbaycan Respublikasının əmək qanunvericiliyinə və digər normativ hüquqi aktlara uyğun olaraq qısaldılmış iş vaxtı müəyyən edilə bilər. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşadək məhkumlar üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək məhkumlar, birinci və ikinci qrup əlil olan məhkumlar, həmçinin cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərindəki uşaqları olan qadınlar üçün 36 saatdan artıq olmamalıdır.

Azərbaycan Respublikası CİM-in 98-ci maddəsi cəzaçəkmə müəssisələrinin ərazilərinin və onlara bitişik ərazilərin abadlaşdırılması üzrə məhkumların təsərrüfat işləri ilə kifayətlənərək, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşların haqqı ödənilmədən cəlb edildikləri işlərin növünü müəyyən edir. Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına əsasən azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər şəxsi heyətin yerləşdiyi, silahların, xidməti sənədlərin və xüsusi texniki vasitələrin saxlanıldığı inzibati binalarda, həmçinin də cəzaçəkmə müəssisələrinin mühəndis mühafizə qurğularının yerləşdiyi ərazilərdə (qadağan olunmuş sahələrdə) belə işlərə cəlb oluna bilməzlər. Məh-

kumların bu ərazilərdə haqqı ödənilməyən işlərə cəlb edilməsinə yalnız təbii fəlakət, yaxud digər fövqəladə hallar nəticəsində onlara zərər vurulduqda və ya onlar dağıdıldıqda, yol verilə bilər.

Cəzaçəkmə müəssisələrinin və onlara bitişik ərazilərin abadlaşdırılması üzrə haqqı ödənilməyən işlərin yerinə yetirilməsində iştirak etmək əmək qabiliyyətli hər bir məhkum üçün məcburidir. Bu işlər məhkumların özləri üçün və əmək qabiliyyətsiz digər məhkumlar üçün lazımi həyat şəraiti yaradılmasına yönəlmişdir. Haqqı ödənilən işlər kimi, haqqı ödənilməyən işlər də altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlara, birinci və ikinci qrup əlilliyi olan məhkumlara, habelə 8 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlara şamil edilmir. Hamiləliyi dörd aydan çox və cəzaçəkmə müəssisəsinin nəzdindəki uşaq evlərində uşaqları olan qadınlar da belə işlərdə məcburi iştirakdan azaddırlar. Bu kateqoriya məhkumlar yalnız öz arzularına əsasən belə işlərə cəlb edilə bilərlər.

Haqqı ödənilməyən işlərdə iştirak cədvəli cəzaçəkmə müəssisəsi müdiriyyəti tərəfindən təsdiqlənir. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti belə işlərin yerinə yetirilməsinə nəzarət edir və məhkumlar tərəfindən işlənmiş iş vaxtlarının cəmləşdirilmiş uçotunu aparır. Qanunun tələbinə görə haqqı ödənilməyən işlərə məhkumlar ay ərzində ən çoxu səkkiz saat cəlb edilə bilərlər. Bu müddətin uzadılmasına yalnız məhkumun razılığı ilə yol verilə bilər.

Azərbaycan Respublikası CİM-in 90.1-ci maddəsinə əsasən, azadlıqdan məhrum edilmiş və işləyən məhkumlar dövlət məcburi sığortalanmasına cəlb edilir, qadın məhkumlar isə ümumi əsaslarla hamiləliyə və döğuşa görə müavinətlə təmin olunurlar.

Məhkumların ayrı-ayrı kateqoriyaları üçün işəgötürənlə saziş əsasında tam olmayan iş günü və ya tam olmayan iş həftəsi müəyyən edilə bilər. Belə ki, işəgötürən, məhkum hamilə qadınlar üçün

tam olmayan iş günü və ya tam olmayan iş həftəsi müəyyən etməyə borcludur. Belə halda əməyin ödənilməsi işlənmiş vaxta mütənasib və ya istehsaldan asılı olaraq həyata keçirilir.

Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin qazancından, pensiyalarından və digər gəlirlərindən tutulmalar aparılır. Bu tutulmalara gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı və digər məcburi ödənişlər aiddir. Yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment məhkumun qazancının bütün məbləğindən hesablanır. Cəzaçəkmə müəssisələrində və həbsxanalarda məhkumların şəxsi hesabına, bütün tutulmalı məbləğlərdən asılı olmayaraq onlara hesablanmış aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı əlli faizi, altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumların, birinci və ikinci qrup əlilliyi olan məhkumların, yetkinlik yaşına çatmayanların, habelə hamilə, cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların şəxsi hesabına isə ən azı altmış faizi keçirilir. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərə, habelə cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilmiş məhkum qadınlara tutulmalı bütün məbləğlərdən asılı olmayaraq ümumi gəlirin ən azı altmış beş faizi verilməlidir.

Azərbaycan Respublikası CİM-in 10.2.4-cü maddəsinə əsasən, məhkumların pensiya və sosial müavinət almaq hüququ vardır. Belə ki, məhkumların ödənişli əməyə cəlb edildikləri vaxt ümumi əmək stajına daxil edilir. Bu zaman növbəlilik qaydasında cəzaçəkmə müəssisəsinin ərazisinin və ona bitişik ərazilərin abadlaşdırılması üzrə haqqı ödənilməyən işlərə cəlb olunma vaxtı nəzərə alınmır. Məhkumların, azadlıqdan məhrum etmə növündə cəza çəkmə dövründə ümumi iş stajına hesablanan iş vaxtının uçotu qaydası sahəvi normativ hüquqi aktlarla müəyyən edilir.

Məhkumların mütəmadi olaraq (ay ərzində iki dəfə və ya daha çox) işi yerinə yetirməkdən boyun qaçırdığı vaxt ümumi iş stajına hesablanmır. İşlənmiş vaxtın uçotu təqvim ilinin yekunlarına görə aparıldığı üçün, müvafiq dövr, yekunların aparılması zamanı məhkumun ümumi iş stajından çıxarılır. Məhkumun işdən boyun qaçırdığı dövrün onun iş stajından çıxarılması barədə qərar cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən qəbul edilir. Əgər məhkum müdiriyyətin bu qərarı ilə razı deyilsə, o, qanunla müəyyən edilmiş qaydada, müdiriyyətin hərəkətlərindən şikayətlə yuxarı təşkilata və ya məhkəməyə müraciət edə bilər.

Azərbaycan Respublikası CİM-in 96.5-ci maddəsi əmək fəaliyyəti ilə məşğul olan məhkumların ödənişli məzuniyyət hüququnu müəyyən edir. Törədilmiş cinayətin xarakteri və ağırlıq dərəcəsi, çəkilmiş cəza müddəti, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla, məhkumlara məzuniyyət, cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara səfərlər formasında da verilə bilər. Səfərə çıxmağa icazəni cəzaçəkmə müəssisəsinin müdiriyyəti verir. Ödənişli məzuniyyət dövründə məhkumların cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərləri hüququnun həyata keçirilməsi qaydası Azərbaycan Respublikası CİM-in 89-cu maddəsinə müvafiq olaraq müəyyən edilir. Məhkumların cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərə buraxılması qaydaları Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla Ədliyyə Nazirliyinin 31 oktyabr 2003-cü il tarixli 17-T nömrəli əmri ilə təsdiq edilmişdir.

Məzuniyyət, azadlıqdan məhrum etmə cəzasının çəkilməsi dövründə, ödənişli işlərdə çalışan məhkumlara, ödənişli məzuniyyət verilməsi üçün əmək qanunvericiliyi ilə müəyyən edilmiş dövr işlənildikdən sonra verilir.

Azərbaycan Respublikası CİM-in 8.2.5-ci maddəsinə müva-

fiq olaraq məhkumların islah edilməsi vasitələrindən biri də peşə təhsili və peşə hazırlığıdır. Azərbaycanın cəzaçəkmə müəssisələrində ilk növbədə bu islah etmə vasitəsi peşəsi və ya ixtisası olmayan məhkumlara tətbiq edilir. Peşə təhsili və peşə hazırlığının əhəmiyyəti böyükdür. ***Birincisi,*** onun tətbiqi nəticəsində məhkum konkret peşəyə və ya ixtisasa yiyələnir. Çünki, məhkumun cəzaçəkmə müəssisəsində işlə məşğul olması onun hansı peşəyə və ya ixtisasa malik olmasından asılıdır. Digər tərəfdən, məhkum barəsində bir sıra tədbirlərin tətbiqi zamanı onun əməklə məşğul olması, əməyə, təhsilə münasibəti hökmən nəzərə alınır. Belə ki, məhkumun cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı onun müəssisədə peşə təhsili və peşə hazırlığına cəlb edilməsi müsbət hal kimi qiymətləndirilir.

***İkincisi,*** məhkumun müəyyən peşəyə və ya ixtisasa yiyələnməsi cəza çəkməkdən azad olunduqdan sonra onun cəmiyyətə, azadlıqdakı həyata tezliklə adaptasiyasına, yəni uyğunlaşmasına kömək edən amillərdəndir.

Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin təşkili məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2018-cü il tarixli 224 nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"si ilə tənzimlənir.

Cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən peşə təhsili müəssisəsi aşağıdakı məqsədlərə xidmət edir:

- ❖ müxtəlif peşələr üzrə ixtisaslı kadr hazırlığını, məhkumlar tərəfindən bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, eyni zamanda zəruri əmək bacarıqlarına yiyələnməni təmin etmək;
- ❖ məhkumları ictimai həyata hazırlamaq üçün onlara peşə bacarıqlarını aşılamaq;
- ❖ məhkumların peşə ixtisası almasını və ixtisaslarının daim

artırılmasını təmin etmək;

❖ təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri biliklərə və praktik bacarıqlara yiyələnən məhkumlardan müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

❖ məhkumların şəxsi inkişaflarını təmin etmək, onları Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının adət və ənənələrinə hörmət edən, ümumbəşəri dəyərləri qoruyan, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət kimi yetişdirmək;

❖ məhkumlara kollektiv daxilində birgə fəaliyyət və ünsiyyət mədəniyyəti, təbiətə və insanlara həssas münasibət, özünün və digərlərinin hüquqlarına hörmət hissi aşılamaq;

❖ məhkumlar tərəfindən sağlamlığın qorunması istiqamətində gigiyenik tələblərə və təhlükəsizlik qaydalarına əməl olunmasını təmin etmək.

Peşə təhsili müəssisəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

❖ məhkumlara iqtisadiyyatın müxtəlif sahələri üzrə peşə təhsilinin verilməsi;

❖ sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin təmin edilməsi;

❖ təhsil alanlarda sahibkarlıq düşüncə tərzinin formalaşdırılması, onlara müasir qeyri-standart yanaşma və sahibkarlıq bacarıqlarının aşılanması istiqamətində nəzəri məlumatların və praktiki bacarıqların öyrədilməsi;

❖ təhsil alanların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanması.

Peşə təhsili müəssisəsinə qəbul məhkumların ərizələri və cəzaçəkmə müəssisəsinin göndərişləri əsasında peşə təhsili müəssisəsinin direktorunun əmri ilə həyata keçirilir.

Cəzaçəkmə müəssisəsinin rəhbərliyi peşə təhsili almaq istəyən məhkumların şəxsi məlumatlarını peşə təhsili müəssisəsinə təqdim edir. Cəzaçəkmə müəssisəsində ehtiyac duyulan ixtisaslar barədə məlumat cəzaçəkmə müəssisəsinin rəhbərliyi tərəfindən peşə təhsili müəssisəsinə verilir. Cəzaçəkmə müəssisəsində istehsalat sahəsinə uyğun ixtisaslara ehtiyac olduqda, peşə təhsili müəssisəsi bu ixtisaslara uyğunlaşdırılır və seçilmiş ixtisaslar üzrə peşə təhsilini həyata keçirir. Peşə təhsili müəssisəsində təhsil alanlara münasibətdə intizam tənbehinin tətbiqi peşə təhsili müəssisənin rəhbərliyinin təqdimatı ilə cəzaçəkmə müəssisəsinin rəhbərliyi tərəfindən həyata keçirilir. Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin və ya peşə hazırlığının iki forması mövcuddur:

**1)** cəzaçəkmə müəssisələrinin nəzdində fəaliyyət göstərən texniki-peşə məktəblərində peşə təhsili və ya peşə hazırlığı;

**2)** cəzaçəkmə müəssisələrinin bilavasitə istehsalat sahələrində peşə təhsili və ya peşə hazırlığı.

Cəzaçəkmə müəssisələrində texniki-peşə məktəbləri müxtəlif funksiyaları yerinə yetirirlər. Belə ki, onlar:

**a)** müvafiq peşə-ixtisas üzrə mütəxəssislərin hazırlığını həyata keçirir;

**b)** mövcud peşə-ixtisas üzrə ixtisasın artırılmasını təşkil edir;

**c)** cəzaçəkmə müəssisələrinin bilavasitə istehsalat sahələrində təhsil alan məhkumlara yardım göstərən metodik mərkəz qismində çıxış edirlər. Məhkumların peşə təhsili kurs, briqada və fərdi metodlarla aparılır.

Hamilə və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınlar, altmış yaşından yuxarı kişi və əlli beş yaşından yuxarı qadın məhkumlar, birinci və ikinci qrup əlilliyi, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu

olan məhkumlar peşə təhsilinə və ya peşə hazırlığına öz arzularına görə cəlb edilirlər. Tərbiyə müəssisələrində peşə təhsili və ya peşə hazırlığı məhkumların iş günü müddəti ərzində həyata keçirilir.

Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar peşə təhsili üzrə imtahan vermək üçün əmək qanunvericiliyində nəzərdə tutulmuş müddətə işdən azad edilirlər.

Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların peşə təhsili üzrə imtahan verməsi dövründə onların maddi təminatı müəssisə müdiriyyəti tərəfindən həyata keçirilir.

## Mövzu 14. Cəzaçəkmə müəssisələrində məhkumların maddi-məişət və tibbi-sanitariya təminatları

Azadlıqdan məhrum etmə cəzasının icrası proresində məhkumların zəruri yaşayış, qidalanma ilə təmin edilməsi, onların sağlamlığının qorunması kimi əhəmiyyətli məsələlər cəzaçəkmə müəssisələrinin müdiriyyətinin əsas vəzifələri sırasına daxildir. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin maddi-məişət və tibbi-sanitariya təminatları onların yeməyə, geyimə, yaşayış şəraitinə, tibbi xidmətə olan insani ehtiyaclarının və tələbatlarının ödənilməsi üçün nəzərdə tutulmuş saxlanılma şəraitlərinin məcmusunun təşkilindən ibarətdir. Başqa sözlə, burada azadlıqdan məhrum etmə yerlərində insanın normal yaşamasının mikrososial şəraitindən söhbət gedir.

Məhkumların maddi-məişət təminatları aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- zəruri yaşayış və kommunal-məişət şəraitinin yaradılması;
- paltarla və ən zəruri mallarla təmin olunma;
- yeməklə təmin edilmə;
- ticarət-satış şəbəkələrinin və digər əlavə maddi-məişət təminatı mənbələrinin fəaliyyətinin təşkili.

Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına uyğun olaraq normal kommunal-məişət şəraitinin yaradılması məqsədi ilə cəzaçəkmə müəssisələrinin yaşayış sahəsində yataqxana, mətbəx, hamam, bərbərxana, camaşırxana, ayaqqabı və paltar təmiri üzrə emalatxana, şəxsi əşyaların saxlanması üçün anbarlar, paltar qurutma otağı, məhkumların asudə vaxtının təşkili üçün aidiyyəti otaq və binalar və digər kommunal-məişət obyektləri yerləşdirilir. Hər bir məhkuma ilk növbədə fərdi yataq yeri müəyyən olunur və yataq ləvazimatları təqdim olunur. Məhkumlar gün

ərzində orqanizmin normal fəaliyyətini təmin edən üç dəfə isti yeməklə təmin edilirlər. Məhkumların yemək normaları cəzaçəkmə müəssisəsinin növündən, məhkumun sağlamlıq vəziyyətindən və digər əlamətlərdən asılı olaraq müəyyən edilir.

Məhkumların paltar və əşya təminatı təsdiq olunmuş normalara uyğun, mövsümə görə yataq ləvazimatlarının, alt və üst geyim dəstlərinin, ayaqqabıların və digər əşyaların verilməsini nəzərdə tutur. Bu zaman məhkumun cinsi və iqlim şəraiti nəzərə alınır. Məhkumların əşyalarla təmin edilməsi normaları cəzaçəkmə müəssisələrinin növündən, məhkumun cinsindən, yaş həddindən, sağlamlıq dərəcəsindən asılı olaraq müəyyən edilir. Belə ki,

**1)** cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar üçün;

**2)** həbsxanalarda cəza çəkən məhumlar üçün;

**3)** müalicə müəssisələrində müalicə olunan məhkumlar üçün;

**4)** yetkinlik yaşına çatmamış məhkumlar üçün və s. müxtəlif normalar mövcuddur.

Azərbaycan Respublikası CİM-in 91.8-ci maddəsinə əsasən, hamilə və ya üç yaşına çatmamış uşağı olan məhkum qadınlara, yetkinlik yaşına çatmayan, xəstə, birinci və ikinci qrup əlilliyi olan məhkumlara yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır və onlar üçün yeməyin xüsusi normaları müəyyən edilir. Məhkumların maddi-məişət təminatı normaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2001-ci il tarixli 154 nömrəli qərarı ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyində nəzərdə tutulmuş məhkumların sovqat, bağlama və banderol almaq hüquqları azadlıqdan məhrum edilmiş məhkumların xarici aləmlə sosial əlaqələrinin qorunub saxlanılması və özlərinin maddi-məişət tələbatlarını ödəməsi formalarından biridir. Qanunvericiliyə əsasən cəzaçəkmə müəssisələrində cəza çəkən, habelə istintaq təc-

ridxanalarında təsərrüfat və məişət xidməti işi üçün saxlanılan məhkumlar cəzaların icrası qanunvericiliyi ilə nəzərdə tutulmuş sayda və çəkidə bağlama, sovqat və banderol ala bilərlər. Məhkumlar bu hüquqdan cəzaçəkmə müəssisələrinə və ya istintaq təcridxanalarına gəldikdən dərhal sonra istifadə etmək hüququna malikdirlər. Müxtəlif növ və rejimli cəzaçəkmə müəssisələrində məhkumların almaq hüququna malik olduqları bağlama, sovqat və banderolların sayı qanunvericiliklə dəqiq müəyyən edilmişdir. Misal üçün, Azərbaycan Respublikası CİM-in 113.2.4-cü maddəsinə əsasən, ümumi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar il ərzində qırx səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər. Hər bir bağlama, sovqat və ya banderolun alınması müddəti onların sayının il ərzində bərabər müddətlərə bölünməsi ilə müəyyən edilir. Əvvəlki və sonrakı bağlama, sovqat və ya banderol arasındakı müddət bərabər müəyyən edilir. Bu zaman həvəsləndirmə qaydasında alınan bağlama, sovqat və ya banderol nəzərə alınmır.

Vətəndaşlardan sovqatların qəbulu üçün cəzaçəkmə müəssisələrinin giriş hissəsində xüsusi otaqlar təşkil olunur. Bu otaqların görünən yerlərində sovqatların qəbulu qaydaları, məhkumlara verilməsi və ya ötürülməsi, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı barədə məlumat, habelə bu siyahıda göstərilən əşyaların yoxlamadan gizlədilməklə və ya hər hansı digər üsulla verilməsi (göndərilməsi və ya ötürülməsi) ilə bağlı məsuliyyəti müəyyən edən Azərbaycan Respublikası CM-in müvafiq maddəsinin və digər zəruri normativ hüquqi aktların mətni, habelə bu otaqların iş rejimi və vətəndaşların qəbul günləri barədə elanlar yerləşdirilir. Sovqat gətirmiş şəxs cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilmiş formada iki nüsxədən ibarət ərizə-blank doldu-

rur və onları imzalayır. Eyni zamanda, həmin şəxslər qeyd olunan ərizə-blankın arxa tərəfində qeyd edilmiş məhkumların saxlanılması, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı ilə, habelə həmin əşyaların hər hansı bir üsulla verilməsinə və ya ötürülməsinə görə cinayət məsuliyyəti ilə bağlı müvafiq mətnlə tanış olur və onu imzalayırlar.

Məhkumların adına gələn bağlama və banderollar, qohumlar tərəfindən gətirilən sovqatlara qadağan olunmuş, habelə məhkumlara saxlanmasına icazə verilməyən əşyaların müəyyən edilməsi məqsədi ilə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən baxış keçirilir. Baxışın keçirilməsi qaydası cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilmişdir. Sovqat onu gətirmiş şəxsin, bağlama və banderollar isə, məhkumların iştirakı ilə açılır və onlara xüsusi təhkim edilmiş əməkdaş tərəfindən baxış keçirilir. Aşkar edilmiş qadağan olunan əşyalar barədə akt tərtib edilir, cinayət-prosessual qanunvericiliyə uyğun olaraq sənədlər toplanır və bu barədə dərhal Ədliyyə Nazirliyinə, onun Penitensiar Xidmətinə məlumat verilir. Toplanmış sənədlər hüquqi qiymət verilməsi məqsədi ilə Ədliyyə Nazirliyinin İstintaq idarəsinə göndərilir. Bağlama, sovqat və banderolda olan pul və digər qiymətli əşyalar götürülür, məhkumun şəxsi hesabına keçirilmək üçün mühasibatlığa verilir.

Cərimə təcridxanalarına keçirilmiş məhkumlara bağlama, sovqat və banderol almaq qadağan edilir. Bunlar tənbeh tədbiri çəkildikdən sonra məhkuma verilir. Cəzaçəkmə müəssisələrinin müdiriyyəti bağlama, sovqat və banderolu qorumağa borclu olsa da, ərzaq məhsullarının istifadəyə yararsız hala düşməsinə görə cavabdehlik daşımır.

Məhkumların özləri də cəzaçəkmə müəssisəsi müdiriyyətinin

razılığı ilə yaxın qohumlarına, cəzaçəkmə müəssisəsinin mağazasından əldə etdiyi ərzaq məhsullarını və ən zəruri əşyaları, həmçinin də özlərinin şəxsi istifadəsində olan və ya müəssisənin anbarında saxlanılan əşyaları bağlama və ya banderolla göndərə bilərlər.

Azərbaycan Respublikasının CİM-i ilə bəzi kateqoriya məhkumların – ağır xəstə məhkumların, hamilə və cəzaçəkmə müəssisələrinin nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların, 18 yaşınadək sağlamlıq imkanları məhdud olan, habelə birinci və ikinci qrup əlilliyi olan məhkumların bağlama, sovqat və ya banderol almalarına məhdudiyyət qoyulmamışdır.

Müalicə üçün məhkuma lazım olan dərman preparatları və tibbi məmulatlar bağlama, sovqat və ya banderolların sayına daxil edilmir. Bu dərman preparatları və tibbi məmulatlar cəzaçəkmə müəssisəsinin tibb-sanitariya hissəsində saxlanılır.

Məhkumların tibbi-sanitariya təminatı məhkumlara müalicə-profilaktika, sanitariya-profilaktika və sanitariya-epidemiologiya yardımı növündə təşkil edilir. Tibbi-sanitariya xidmətinin hüquqi əsasları Azərbaycan Respublikasının müvafiq qanunları, Ədliyyə və Səhiyyə nazirliklərinin normativ hüquqi aktlarıdır. Məhkumların sağlamlığının mühafizəsini təmin edən sanitariya-gigiyena və epidemiya əleyhinə tələblərin yerinə yetirilməsinə görə məsuliyyət cəzaçəkmə müəssisəsinin müdiriyyəti üzərinə qoyulmuşdur.

Yuxarıda qeyd edilən normativ aktlara və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına müvafiq olaraq, hər bir cəzaçəkmə müəssisəsində müvafiq sayda həkimlərdən komplektləşdirilmiş və müvafiq avadanlıqlarla təmin edilmiş tibb-sanitariya hissəsi təşkil edilir.

Tibb-sanitariya hissəsi məhkumlara ambulator yardım göstərir və burada böyük olmayan stasionar təşkil edilir. Tibb-sanitari-

ya hissəsinin vəzifələrinə həmçinin aiddir:

- ❖ yeni qəbul edilmiş məhkumlara baxış keçirmək, xəsarət, işgəncə halları müəyyən edildikdə onları qeydə almaq və təxirəsalınmadan aidiyyəti üzrə məlumat vermək;
- ❖ yeni qəbul edilmiş məhkumların ilkin müayinəsini, rentgen-flüoroqrafiya və laboratoriya müayinəsini həyata keçirmək;
- ❖ yoluxucu xəstəlikləri aşkar etmək;
- ❖ məhkumları ambulator və ya stasionar müalicəyə cəlb etmək;
- ❖ məhkumların əmək qabiliyyəti haqqında məsələni həll etmək;
- ❖ sanitariya-profilaktika nəzarətini, gigiyena və epidemiya əleyhinə tədbirləri həyata keçirmək və s.

Tibb-sanitariya hissəsində həkimlərin nəzarəti altında məhkumların onlara qohumlarının sovqatla gətirdikləri dərman preparatları ilə müalicəsi, həmçinin də səhiyyə orqanlarının tibb müəssisələrinin mütəxəssislərinin məhkumlara pullu xidməti həyata keçirilir.

Cəzaçəkmə müəssisələrindəki tibb hissələrindən əlavə müalicə-profilaktika (infeksion, somatik, psixiatrik və s. xəstələr üçün) və xüsusi müalicə (vərəmə düçar olmuş, alkoqolizm və narkomaniyadan müalicə keçən, insan immunçatışmazlığı virusu ilə (İİV) yoluxmuş xəstələr üçün) müəssisələri də var. Məhkumlar bu müəssisələrə tibbi rəy əsasında göndərilirlər.

Məhkumlar müalicə-profilaktika müəssisələrində xəstəliyin xarakterindən asılı olaraq, məhkəmə tərəfindən təyin edilmiş cəzaçəkmə müəssisəsinin növü nəzərə alınmaqla müalicə palatalarında saxlanılırlar. Lakin, burada yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatmış məhkumlardan, kişilər isə qadınlardan

ayrılıqda saxlanılırlar. Müxtəlif yoluxucu xəstəliklərə yoluxmuş məhkumlar da bir-birindən ayrılmaqla saxlanılırlar. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişlər, ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilmiş məhkumlar, həmçinin cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişlər digər kateqoriya məhkumlardan ayrılıqda, həbsxana kameralarına oxşayan və qapıları bağlanan palatalarda saxlanılırlar.

Müalicə-profilaktika müəssisələrində, bir qayda olaraq, həkimlərin tövsiyəsinə, habelə müalicə keçən məhkumların arzularına görə uzun müddətli görüşlər qısa müddətli görüşlərlə əvəz edilir. Görüşlər, məhkəmənin hökmünə əsasən məhkuma, təyin edilmiş cəzaçəkmə müəssisəsinin növü üçün Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş normalara uyğun olaraq təqdim edilir. İnfeksion xəstəliklərdən müalicə keçən və görüşə gəlmiş şəxslərin həyatı üçün təhlükə yaradan məhkumlar, digər şəxslər bu barədə müdiriyyət tərəfindən xəbərdar edilirlər. Belə görüşlər müvafiq təhlükəsizlik tədbirləri görülməklə həyata keçirilir. Əgər məhkumun xəstəliyi ağırdırsa və onun həyatı üçün təhlükə yaradırsa, müalicə müəssisəsinin rəhbərliyinin qərarına əsasən növbədənkənar görüşlərə də icazə verilə bilər. Müalicə-profilaktika müəssisələrində uzun müddətli görüşlər, məhkumların razılığı ilə verilir.

Məhkumun özünə xəsarət yetirdiyi və ya özünü xəstəliyə vurduğu hallar istisna olmaqla, onun cərimə və ya intizam təcridxanasından, kamera tipli otaqlardan və birnəfərlik kameralardan müalicə-profilaktika müəssisəsinə keçirilmə vaxtı tənbeh müddətinə hesablanır.

Əgər məhkum, müalicə-profilaktika müəssisəsində müəyyən edilmiş rejim qaydalarını pozarsa, o, cərimə və ya intizam təcridxanasına, kamera tipli otaqlara və birnəfərlik kameraya salınma istisna olmaqla, digər tənbeh tədbirlərinə məruz qala bilər.

Məhkum müalicə-profilaktika müəssisəsində müəyyən edilmiş rejim tələblərini qərəzli pozduqda, əgər tibbi rəy buna yol verirsə, o, əvvəlki cəza çəkmə yerinə qaytarıla bilər.

Qeyd edilənlərdən əlavə, cəzaçəkmə müəssisələrində məhkumlar tibbi məsləhət və müalicə almaq üçün pullu xidmət göstərən tibb müəssisələrinə müraciət etmək hüququna malikdirlər. Bu növ xidmətlərin, habelə dərmanların ödəniş haqqı məhkum və ya onun qohumları tərəfindən həyata keçirilir.

Məhkuma məhkəmə tərəfindən alkoqolizmə və ya narkomaniyaya, həmçinin anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilərsə, bu tədbirlər cəza müddəti ərzində həyata keçirilir.

Məhkuma cəzadan əlavə məhkəmə tərəfindən təyin edilmiş alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlərin icrası prosesi spesifik olduğundan müvafiq icra mexanizmi qanunvericilikdə ayrıca və xüsusi normalarla tənzimlənmişdir. Bu prosesin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 06 oktyabr 2015-ci il tarixli qanunu ilə Cəzaların İcrası Məcəlləsinə dəyişiklik olunmaqla, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlərin tətbiqi xüsusiyyətlərini özündə ehtiva edən yeni 17-1-ci maddə əlavə edilmişdir. Bu maddənin tələblərinə əsasən müəyyən müddətə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş alkoqolizmdən və ya narkomaniyadan məcburi müalicəyə ehtiyacı olan şəxslər barəsində tətbiq edilmiş tibbi xarakterli məcburi tədbirlər cəza müddətində cə-

zanı icra edən cəzaçəkmə müəssisələri, yəni onların nəzdində fəaliyyət göstərən tibb xidməti (tibb-sanitariya hissələri) tərəfindən həyata keçirilir.

Müəyyən müddətə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərin narkomaniyadan məcburi müalicəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 yanvar 2016-ci il tarixli 14 nömrəli Qərarı ilə təsdiq edilmiş “Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları”na uyğun təşkil olunur. Bu normativ aktın tələblərinə əsasən narkoloji xəstə məhkumların məcburi müalicəsi cəzaçəkmə müəssisəsində həkim-narkoloq tərəfindən təyin edilmiş müayinə və müalicə planı əsasında, ambulator və ya stasionar qaydada aparılır. Məcburi müalicənin tətbiqi zamanı məhkumların Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş hüquqlarının məhdudlaşdırılmasına yol verilmir, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla, onlara görüşlər, sovqat, banderol və ya bağlamalar təqdim olunur, telefon danışıqları, yazışmaları təmin edilir.

Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumlara təyin edilmiş müalicə kursu basa çatdıqda, həkim-narkoloq müvafiq epikriz tərtib edir, onu məhkumun tibbi kitabçası ilə birlikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin nəzdində fəaliyyət göstərən həkim-məsləhət komissiyasına göndərir. Yuxarıda göstərilmiş Qaydalara uyğun olaraq həkim-məsləhət komissiyası aparılmış tibbi xarakterli məcburi tədbirlərin qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirmə zamanı məhkum zəruri müayinələrin aparılması məqsədilə Penitensiar xidmətin nəzdindəki müalicə müəssisəsinə keçirilir. Həkim-məsləhət komissiyası narkoloji xəstə məhkumun səhhətini və psixoloji vəziyyətini qiymətləndirərək, təyin edilmiş tibbi xarakterli

məcburi tədbirlərin davam etdirilməsi zərurətinin aradan qalxdığı nəticəsinə gəldikdə, müalicənin ləğvi, yaxud ehtiyac olduğu halda müalicənin davam olunması barədə tibbi rəy verir. Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin ləğvi məsələsinə baxılması məqsədi ilə həkim-məsləhət komissiyasının rəyi və cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatı cəzanın çəkildiyi yer üzrə məhkəməyə göndərilir. Məhkəmə öz növbəsində Azərbaycan Respublikası CPM-in tələblərinə uyğun müvafiq qərar qəbul edir.

Məhkumun cəza çəkdiyi müddətdə onun barəsində aparılmış tibbi xarakterli məcburi tədbirlər barədə məlumat azad edilməmişdən əvvəl cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən məhkumun yaşayış yeri üzrə narkoloji tibb xidməti göstərən müəssisəyə göndərilir.

Cəzacəkmə müəssisələrindən azad edilmiş, lakin məcburi müalicəsinin davam etdirilməsi zəruri olan şəxslər müalicələrini Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ixtisaslaşdırılmış tibb müəssisələrində davam etdirirlər.

Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum olunmuş alkoqolizmdən və ya narkomaniyadan məcburi müalicəyə ehtiyacı olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin icrası, yəni belə məhkumların müalicəsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan ixtisaslaşdırılmış tibb müəssisələri tərəfindən həyata keçirilir. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş məhkumun qanuni qüvvəyə minmiş hökmünün surəti icra edilməsi üçün məhkəmə tərəfindən ixtisaslaşdırılmış tibb müəssisəsinə, habelə məcburi müalicənin icrasına nəzarətin həyata keçirilməsinə nəza-

rətin təmini məqsədilə aidiyyəti üzrə yerli probasiya qurumunun icra məmuruna göndərilir. Qeyd olunan şəxslərə, nəzarətin həyata keçirilməsi mexanizmi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-cı il 17 noyabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası" ilə müəyyən edilmişdir.

İxtisaslaşdırılmış tibb müəssisələrində tibbi xarakterli məcburi tədbirlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 yanvar 2006-cı il tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış tibb müəssisələrində məcburu müalicənin sərtləri və qaydaları"na uyğun olaraq həyata keçirilir. İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicə dövlət hesabına aparılır.

## Mövzu 15. Müxtəlif növlü cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası və şərtləri

Azərbaycan Respublikası CİM-in 15.6-cı maddəsinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların icrasını cəzaçəkmə müəssisələri həyata keçirirlər. Azərbaycan Respublikası CM-in 56-cı maddəsi azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün çəzaçəkmə müəssisələrin sistemini və Azərbaycan Respublikası CİM-in 66-cı maddəsi isə öz növbəsində cəzaçəkmə müəssisələrinin sistemini bir qədər genişləndirmiş və aşağıdakı növlərini müəyyən etmişdir:

**1)** müxtəlif rejimli cəzaçəkmə müəssisələri;

**2)** məntəqə tipli cəzaçəkmə müəssisələri;

**3)** tərbiyə müəssisələri;

**4)** həbsxanalar;

**5)** müalicə müəssisələri.

Qeyd edilən müəssisələrdən ən çox yayılanı müxtəlif rejimli cəzaçəkmə müəssisəsidir. Cəzaçəkmə müəssisələri yetkinlik yaşına çatmış və müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin saxlanılması üçün müəyyən edilmiş əsas müəssisələrdir. Bu onunla izah olunur ki, **birincisi,** azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin böyük əksəriyyəti cəzalarını bu müəssisələrdə çəkir, **ikincisi isə,** burada məhkumlara islah edilmə vasitələrin tam həcmdə tətbiq edilməsi üçün daha geniş imkanlar yaradılmışdır.

Cəzaçəkmə müəssisələri cəzanın çəkilməsi rejiminə görə aşağıdakı növlərə bölünür:

**1) ümumi rejimli cəzaçəkmə müəssisələri.** Bu müəssisələr-

də qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, həmçinin cəzaları müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilmiş şəxslər cəza çəkirlər. Ehtiyatsızlıqdan törədilmiş, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş kişilər ilk dəfə ağır cinayətlərə görə məhkum olunmuş, habelə CİM-in 70.2-ci maddəsinə əsasən, yəni cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi qaydasında ciddi rejimli cəzaçəkmə müəssisələrindən ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilmiş kişilərdən ayrı saxlanılırlar.

Azərbaycan Respublikası CİM-in 113.2-ci maddəsinə əsasən, ehtiyatsızlıqdan törədilmiş, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin saxlandığı ümumi rejimli cəzaçəkmə müəssisələrində məhkumlar:

- ❖ adi yaşayış binalarında saxlanılırlar;
- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda əlli manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli qırx səkkiz görüş və uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində qırx səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda

on beş manatadək miqdarda pul xərcləyə bilərlər;

- il ərzində uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- hər il məzuniyyət vaxtı cəzaçəkmə müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfər edə bilərlər.

Ağır cinayətlərə görə ilk dəfə məhkum olunmuş və ciddi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş şəxslərin saxlandığı ümumi rejimli cəzaçəkmə müəssisələrində məhkumlar:

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iyirmi dörd görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- il ərzində iyirmi dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq;

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli on iki görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Beləliklə, Azərbaycan Respublikası CİM-in 113-cü maddəsinin məzmunundan görünür ki, törədilmiş cinayətin ağırlıq dərəcəsi artdıqca, məhkumlara qanunvericiliklə verilmiş hüquq və azadlıqların, habelə imtiyazların dairəsi daralır.

**2) ciddi rejimli cəzaçəkmə müəssisələri.** Bu müəssisələrdə xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, habelə cinayətlərin residivi zamanı, yəni əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər və cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş qadınlar cəza çəkirlər. Bu məhkumlar:

- ❖ adi yaşayış binalarında saxlanılırlar;
- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli on iki görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**3) xüsusi rejimli cəzaçəkmə müəssisələri.** Bu müəssisələrdə cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş və ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz olun-

muş kişilər cəza çəkirlər. Bu məhkumlar:

- ❖ kamera tipli otaqlarda və ya adi yaşayış binalarında saxlanılırlar;
- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda otuz beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli iki görüş və uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində üç bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Qanunvericiliyə uyğun olaraq cəzaçəkmə müəssisələrində məhkumlar üçün iki saxlanma şəraiti müəyyən edilir: adi və yaxşılaşdırılmış. Məhkumların bir saxlanma şəraitindən digərinə keçirilməsi Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş əsaslarla həyata keçirilir.

Xüsusi rejimli cəzaçəkmə müəssisələrinə cəza çəkməyə göndərilmiş məhkumlar kamera tipli otaqlarda saxlanılırlar. Məhkumlar Azərbaycan Respublikası CİM-in 105.10-cu maddəsində nəzərdə tutulmuş həvəsləndirmə qaydasında kamera tipli otaqlardan adi yaşayış binalarına keçirilə bilərlər.

Cəzaçəkmə müəssisələrinin **məntəqə tipli cəzaçəkmə müəs-**

**sisələri kimi** növü də vardır. Məntəqə tipli cəzaçəkmə müəssisələri öz növbəsində ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər üçün və CİM-in 70-ci maddəsinə müvafiq olaraq məhkəmənin qərarına əsasən ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş məhkumlar üçün nəzərdə tutulmuş məntəqə tipli cəzaçəkmə müəssisələrinə bölünür. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli 138-IVQD nömrəli Qanunu ilə Cəzaların İcrası Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən müəyyən qədər sərtləşdirilmişdir. 2011-cı ilin 31 may tarixində edilmiş dəyişikliklərdən sonra məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumlar:

- ❖ dövlət hesabına kommunal, yemək, maddi-məişət, tibbi-sanitariya və digər təminatlarla təmin edilirlər;
- ❖ mühafizəsiz, lakin nəzarət altında saxlanılırlar;
- ❖ müəyyən edilmiş nümunədə şəxsiyyəti təsdiq edən sənəd daşıyırlar;
- ❖ yuxudan durmaq vaxtından yatmaq vaxtınadək müəssisədə sərbəst hərəkət edə bilərlər;
- ❖ gündə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışa bilərlər;
- ❖ məişətdə istifadə edilən ümumi paltar geyinə, pul və qiymətli şeylər gəzdirə, puldan qeyri-məhdud istifadə edə bilərlər;
- ❖ məhdudiyyət qoyulmadan qohumları ilə və başqa şəxslərlə yazışa və görüşə bilər, bağlama, sovqat və ya banderol ala bilərlər.

Məntəqə tipli cəzaçəkmə müəssisəsinə yaxın ərazidə işləyən, yaxud ali, orta ixtisas, peşə təhsili müəssisələrində təhsil alan

məhkumlar müdiriyyətin icazəsi ilə və müəssisədən çıxma və qayıtma vaxtı müəyyən edilməklə, sutkada on iki saatdan artıq olmayan müddətdə Azərbaycan Respublikasının ərazisi hüdudlarında nəzarətsiz hərəkət edə bilərlər.

**Tərbiyə müəssisələri** yetkinlik yaşına çatmayan məhkumların cəza çəkməsi üçün nəzərdə tutulmuşdur. Bu müəssisələr öz növbəsində iki növə bölünür:

- ❖ **ümumi rejimli tərbiyə müəssisələri.** Ümumi rejimli tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayan qızlar, habelə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar cəza çəkirlər;
- ❖ **möhkəm rejimli tərbiyə müəssisələri.** Möhkəm rejimli tərbiyə müəssisələrində əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar cəza çəkirlər. Tərbiyə müəssisəsində cəzanın icrası şərtləri 17-ci mövzuda daha geniş şərh edilmişdir.

**Həbsxanalar** cəzaçəkmə yeri kimi, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların, xüsusilə ağır cinayətlər törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərin, cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum edilərək, cəza müddətinin bir hissəsini bu müəssisədə çəkməli olan şəxslərin, habelə cəzanın icrası qaydalarını qərəzli şəkildə pozduqlarına görə məhkəmənin qərarına əsasən müxtəlif rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş məhkumların saxlanması üçün müəyyən olunmuşdur. Həbsxanada cəzanın icrası şərtləri bu dərsliyin 16-cı mövzusunda daha geniş şərh edilmişdir.

**Müalicə müəssisələri** stasionar şəraitdə müalicəyə ehtiyacı olan məhkumlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsidir. Bu müəssisələr somatik və digər xəstələr üçün müalicə müəssisə-

sinə və ixtisaslaşdırılmış müalicə müəssisəsinə bölünür. İxtisaslaşdırılmış müalicə müəssisəsində vərəm xəstəliyinə yoluxmuş məhkumlar, digər müalicə müəssisəsində isə başqa xəstəliklərə yoluxmuş məhkumlar saxlanılırlar.

## Mövzu 16. Həbsxanalarda azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qayda və şərtləri

**Həbsxanalar** – cinayətkarların daha təhlükəli kareqoriyalarının saxlanılması üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsidir. Azərbaycan Respublikası CM-in 56.1.4 və 56.1.5-ci maddələrinə və Azərbaycan Respublikası CİM-in 120-ci maddəsinə əsasən belə şəxslərə aşağıdakılar aid edilir:

- ❖ xüsusilə ağır cinayətlər törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər;
- ❖ cəza müddətini tam və ya onun bir hissəsini çəkməklə cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslər;
- ❖ ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər;
- ❖ CİM-in 70.4.3-cü maddəsinə əsasən ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrindən cəzanın icrası qaydasını qərəzli, habelə dəfələrlə pozmuş və buna görə də məhkəmənin qərarına əsasən üç ilədək müddətə həbsxanaya keçirilmiş şəxslər.

Qeyd edilən kateqoriyalarından başqa, Azərbaycan Respublikası CİM-in 69-cu maddəsilə nəzərdə tutulmuş qaydada həbsxanada təsərrüfat və məişət xidməti işinin həyata keçirilməsi üçün saxlanmağa razılıq vermiş şəxslər də bu müəssisədə cəza çəkə bilərlər. Nəhayət, həbsxanalarda, qeyd edilənlərdən başqa, cəzanı cəzaçəkmə müəssisələrində və ya tərbiyə müəssisələrində çəkməklə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, lakin başqa şəxslər tərəfindən edilmiş cinayət işləri üzrə istintaq hərəkətlərinin icrası ilə əlaqədar olaraq,

müvəqqəti həbsxanaya keçirilmiş şəxslər də cəza çəkə bilərlər.

Təsərrüfat və məişət xidməti işi üçün həbsxanada saxlanılmış şəxslər istisna olmaqla, həbsxanalarda saxlanılan digər məhkumlar kameralarda, yəni daim bağlı saxlanılan otaqlarda saxlanılır, onlar üçün ümumi və ciddi saxlanma şəraiti müəyyən edilir.

**Ümumi saxlanma şəraitində** ilk dəfə həbsxanaya cəza çəkməyə göndərilmiş şəxslər və ciddi saxlanma şəraitindən keçirilmiş şəxslər saxlanılırlar. Onlar:

- ❖ ərzaq məhsulları və ən zəruri predmetlər əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli dörd görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində altı bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- ❖ hər gün bir saat gəzinti hüququna malikdirlər.

Həbsxanalarda ümumi saxlanma şəraitində saxlanılan məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri predmetlər əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində altı bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Qanunvericiliklə həbsxanalarda ciddi saxlanma şəraiti də tətbiq edilir. Həbsxanalarda **ciddi saxlanma şəraitində** əvvəllər həbsxanada cəza çəkmiş şəxslər, cəzaçəkmə müəssisələrində törədilmiş cinayətlərə görə məhkum olunmuş və ya müəyyən edilmiş

qaydada tənbeh tədbiri olaraq ciddi saxlanma şəraitinə keçirilmiş şəxslər saxlanılırlar.

Məhkum qadınlar, həmçinin birinci və ikinci qrup əlilliyi olan məhkumlar ciddi saxlanma şəraitində saxlanılmasına qadağa qoyulmuşdur.

Ciddi şəraitdə saxlanma müddəti məhdud olmaqla, iki aydan altı ayadək müəyyən olunmuşdur.

Həbsxanalarda ciddi saxlanma şəraitində məhkumlar:

- ❖ ərzaq məhsulları və ən zəruri predmetlər əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ altı ayda bir bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- ❖ hər gün bir saat gəzinti hüququna malikdirlər.

Azərbaycan Respublikasının CM-də nəzərdə tutulmuş əsas cəza növlərindən biri də ömürlük azadlıqdan məhrum etmədir. Bu cəza növü ən sərt dövlət məcburiyyət tədbiri olmaqla, Azərbaycan Respublikası CM-in 57.1-ci maddəsinə əsasən, yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzanın cəzaların sisteminə daxil edilməsi 10 fevral 1998-ci il tarixdə Azərbaycan Respublikasında ölüm cəzasının ləğvi ilə əlaqədardır. Bundan başqa, bu cəza növünün cəzaların sisteminə daxil ediməsi müasir mərhələdə dövlətimizin cinayət siyasətinin inkişafında müəyyən tendensiyaları əks etdirir və zorakı, zorakı-tamah və tamah xarakterli ağır və xüsusilə ağır cinayətlərin artması ilə şərtlənir.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzanın müstəqil cəza növü kimi nəzərdə tutulması, həm də onun cəmiyyətdən təcrid etmə ilə əlaqədar olan digər cəza növlərinə xas olmayan

əlamətlərinin bir sıra qeyri-adiliyi ilə izah olunur. Belə ki:

❖ **birincisi,** o, cəza müddətinin konkret həddi ilə məhdudlaşdırılmır;

❖ **ikincisi,** bu cəza növünün təyini və icrası zamanı məhkumun islah edilməsi məqsədinə nail olmaq bir vəzifə kimi qarşıya qoyulmur;

❖ **üçüncüsü,** burada yalnız cinayətlərin ümumi və xüsusi xəbərdarlığı əsas məqsədlər kimi çıxış edir.

Azərbaycan Respublikası CİM-in 122.1-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər həbsxanalarda ayrılıqda və qapısı daim bağlı olan kameralarda saxlanılırlar. Bu hal onların əməyinin təşkilinə, onların ümumi orta təhsilə, peçə təhsili nə və peşə hazırlığına cəlb olunmasına manelər yaradır. Bu kateqoriya məhkumların bütün gün ərzində kamera şəraitində saxlanılmasını nəzərə alaraq, qanuverici, onlar üçün də gün ərzində bir saatlıq gəzinti hüququ müəyyən etmişdir. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər üçün müəyyən edilmiş məhdudiyyətlərin bir qismi də onların görüşlərinin, bağlama, sovqat və ya banderol almalarının, telefon danışıqlarının sayının müəyyən qədər məhdudlaşdırılmasında ifadə olunur. Belə ki, Azərbaycan Respublikası CİM-in 122.1-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş məhkumlar:

❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;

❖ il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;

❖ il ərzində dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;

❖ həftədə bir dəfə telefon danışığı hüququna malikdirlər;

- ❖ hər gün bir saat gəzinti hüququna malikdirlər.

Qanunverici ömürlük azadlıqdan məhrum edilmiş məhkumların da saxlanılması şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutmuşdur. Lakin burada digər məhkumlara münasibətdə bir qədər fərqli qayda müəyyən edilmişdir. Belə ki, əgər müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş məhkumların saxlanılma şəraitinin yaxşılaşdırılması üçün cəza müddətinin ən azı 1/4, 1/3, 1/2 hissəsinin çəkilməsi tələb olunursa, bu kateqoriya məhkumların saxlanılması şəraiti təyin edilmiş cəzadan konkret müddət keçdikdən sonra yaxşılaşdırıla bilər. Belə ki, Azərbaycan Respublikası CİM-in 122.2-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraitinin yaxşılaşdırılmasına yol verilir. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli iki görüş və uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- ❖ il ərzində dörd dəfə telefonla danışmaq hüququna malikdirlər.

Qeyd etmək lazımdır ki, yaxşılaşdırılmış saxlanılma şəraiti ləğv edldikdə, həmin həvəsləndirmə tədbiri müvafiq qərarın qəbul olunduğu vaxtdan üç il keçdikdən sonra yenidən tətbiq edilə bilər.

Həbsxanalarda saxlanılan şəxslərin hüquqi vəziyyətinin təhlili göstərir ki, digər məhkumlarla müqayisədə onlar üçün daha çox məhdudiyyətlər və məhrumiyyətlər mövcuddur. Azərbaycan Respublikasında bu kateqoriyadan olan məhkumların hərəkət məhdu-

diyyətlərinin aradan qaldırılması, beynəlxalq standartlarda nəzərdə tutulan hüquq və imtiyazların təqdim edilməsi, yəni gün ərzində onların kameradan kənarda faydalı, səmərəli fəaliyyətə (əməyə, idmanla məşğuliyyətə və s.) cəlb edilməsi, habelə belə məhkumların açıq havada daha çox olması məqsədilə yeni müasir cəzaçəkmə müəssisəsi inşa edilir. Yeni müəssisənin fəaliyyətə başlaması və bununla bağlı məhkumların hüquq və azadlıqları dairəsinin genişləndirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının CİM-nə dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

## Mövzu 17. Tərbiyə müəssisələrində azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qaydası və şərtləri

Azərbaycan Respublikasında cəzaçəkmə müəssisələrinin bir növü yetkinlik yaşına catmayan məhkumların saxlanılması üçün nəzərdə tutulmuş tərbiyə müəssisələridir. Azadlıqdan məhrum etmə yerləri sistemində tərbiyə müəssisələri xüsusi yer tutur. Çünki bu müəssisələrdə cəzanın icrası və çəkilməsi şərtlərini müəyyən edən əsas amil yetkinlik yaşına çatmayan cinayətkarlardır. Bu amil bir tərəfdən, yaşlı cinayətkarlarla müqayisədə yetkinlik yaşına çatmayan məhkumlar üçün daha güzəştli saxlanılma şəraitinin müəyyən olunmasını tələb edir, digər tərəfdən isə, məhkumların faydalı bir üzv kimi cəmiyyətə qaytarılması üçün geniş tərbiyəvi-pedaqoji imkanlar açır.

Azərbaycan Respublikası CM-in 85.5 və 123.1-ci maddələrinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan məhkumlar **ümumi** və **möhkəm rejimli tərbiyə müəssisələrində** cəza çəkirlər. Ümumi rejimli tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayan qızlar, habelə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar, möhkəm rejimli tərbiyə müəssisələrində isə, əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar cəza çəkirlər.

Yetkinlik yaşına çatmayan məhkumlar, onlara dair davranış qaydaları xüsusi əhəmiyyət kəsb etdiyindən BMT çərçivəsində keçirilən konqreslərdə dəfələrlə müzakirə predmeti olmuşdur. Misal üçün, BMT-nin 1985-ci il 6 sentyabr tarixində Milanda keçirilən VII konqresində bu məsələ geniş müzakirə olunmuş və “Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata

keçirilməsinə dair minimal standart qaydalar" (Pekin Qaydaları) qəbul edilmişdir. "Pekin Qaydaları" BMT Baş Məclisinin 29 noyabr 1985-ci il tarixli 40/33 saylı qətnaməsi ilə təsdiq edilmişdir. Azərbaycan Respublikası da bu beynəlxalq sənədi nəzərə alaraq, Cəzaların İcrası Məcəlləsində onun müddəalarını təsbit etmişdir. Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayan məhkumların cəzalarının icrası şərtləri digər kateqoriyalı məhkumların cəzalarının icrası şərtlərinə oxşasa da, müəyyən fərqlər mövcuddur.

Ümumi rejimli tərbiyə müəssisələrində cəza çəkən yetkinlik yaşına çatmayan məhkumlar:

- ❖ adi yaşayış binalarında saxlanılırlar;
- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda əlli manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli qırx səkkiz görüş və uzun müddətli səkkiz görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində qırx səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsilə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı dörddə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- ❖ hər il məzuniyyət vaxtı cəzaçəkmə müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara valideynlərinin və ya himayəçilərinin müşayiəti ilə qısa müddətli səfər etməyə icazə verilə bilər.

Möhkəm rejimli tərbiyə müəssisələrində cəza çəkən yetkinlik

yaşına çatmayan məhkumlar:

- ❖ adi yaşayış binalarında saxlanılırlar;
- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli iyirmi dörd görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- ❖ il ərzində iyirmi dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsilə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ il ərzində qısa müddətli on iki görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər.

Beləliklə, Azərbaycan Respublikasının CİM-nə uyğun olaraq, yetkinlik yaşına çatmayan məhkumların digər məhkumlar kimi cəza çəkmə müddətində hüquq və azadlıqlarına təminat verilir. Qanunvericiliyə əsasən yetkinlik yaşına çatmayan məhkumlara digər məhkumlardan fərqli olaraq daha yaxşı saxlanma şəraiti yaradılır və bu şəxslər əlavə imtiyazlara malikdirlər. İlkin olaraq nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası CM-in 90-cı maddəsinə əsasən yetkinlik yaşına çatmayan məhkumlar cəzadan daha tez şərti olaraq vaxtından əvvəl azad oluna bilərlər. Bu məhkumlara cəzadan şərti olaraq vaxtından əvvəl azad olunma:

- ❖ böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə bir hissəsini çəkdikdən sonra;
- ❖ ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin

ən azı yarısını çəkdikdən sonra;

- xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsini çəkdikdən sonra tətbiq edilə bilər.

Bundan əlavə, Azərbaycan Respublikasının CİM-nə uyğun olaraq yetkinlik yaşına çatmayan məhkumlar digər məhkumlardan fərqli olaraq:

- cəzanın icrası qaydasını pozmağa görə kamera tipli otağa və həbsxanaya keçirilmirlər;
- təhsili davam etdirmək şərti ilə intizam təcridxanasına cəmi yeddi gün müddətinə keçirilə bilərlər və bir təqvim ili ərzində intizam təcridxanasında ümumən otuz gündən çox saxlanıla bilməzlər;
- intizam təcridxanasına keçirildikdə, onlar gündə iki saat gəzinti hüququna malikdirlər;
- on səkkiz yaşına çatdıqda, məhkəmənin qərarı ilə iyirmi yaşınadək tərbiyə müəssisəsində saxlanıla bilərlər;
- yaxşılaşdırılmış saxlanılma şəraitinə, ümumi rejimli tərbiyə müəssisəsində cəza müddətinin dörddə birini, möhkəm rejimli tərbiyə müəssisəsində isə cəza müddətinin üçdə bir hissəsini çəkdikdən sonra keçirilə bilərlər;
- yaxşılaşdırılmış maddi-məişət şəraiti və yeməyin xüsusi normaları ilə təmin olunurlar;
- əmək qanunvericiliyinə uyğun, daha az müddətə işə cəlb edilirlər;
- müxtəlif əsaslarla cəza çəkməkdən azad olunmaq, cəzalarının daha yüngül cəza növü ilə əvəz edilməsi üçün həm özləri, həmçinin müdafiəçilərinin və ya qanuni nümayəndələrinin, habelə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar vasitəsilə məh-

kəməyə müraciət edə bilərlər;

- tərbiyə müəssisələrində aldıqları əmək haqqının, bütün tutulmalı məbləğlərdən asılı olmayaraq, ən azı altmış faizinin şəxsi hesablarına keçirilməsi hüququna malikdirlər;
- ümumi rejimli tərbiyə müəssisələrində hər il məzuniyyət vaxtı tərbiyə müəssisəsi müdiriyyətinin qərarı ilə tərbiyə müəssisəsinin hüdudlarından kənara valideynlərinin və ya himayəçilərinin müşayiəti ilə qısa müddətli səfərə gedə bilərlər.

Tərbiyə müəssisələrində məhkumların islah edilməsi və müstəqil həyata hazırlanması məqsədilə onlarda qanuna itaətin həvəsləndirilməsinə, əməyə və təhsilə vicdanlı münasibətin formalaşmasına, onların mədəni səviyyəsinin artırılmasına yönəldilmiş vahid tədris-tərbiyə prosesi həyata keçirilir. Məhkumların ümumi orta təhsili tərbiyə müəssisələrinin ümumtəhsil məktəblərində, peşə təhsili və ya peşə hazırlığı isə tərbiyə müəssisələrinin peşə məktəblərində və ya tərbiyə müəssisələrinin istehsalat sahələrində həyata keçirilir. Tərbiyə müəssisələrində psixoloji-tibbi-pedaqoji komissiyanın rəyində müəyyən edilmiş şərtlərə əməl etməklə sağlamlıq imkanları məhdud məhkumların xüsusi təhsili qanunvericiliklə müəyyən edilmiş qaydada təşkil edilir.

Tərbiyə müəssisələrində cəza çəkən məhkumlara digər kateqoriyalı məhkumlardan fərqli olaraq nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştiraka görə tərbiyə müəssisəsi nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə icazə vermək növündə həvəsləndirmə tədbiri tətbiq edilə bilər. Belə həvəsləndirmə tədbirlərinin icra mexanizmi Azərbaycan Respublikası CİM-in 124-1-ci maddəsində və cəzaçəkmə müəssisələrinin

Daxili İntizam Qaydalarında təsbit edilmişdir.

Tərbiyə müəssisələrində saxlanılan məhkumların islah edilməsi və tərbiyəsi prosesinə, onların müxtəlif problemlərinin həllinə ictimaiyyətin daha fəal cəlb edilməsinə qanunvericilik tərəfindən xüsusi diqqət yetirilir. Bu məqsədlə tərbiyə müəssisəsində Himayəçilik Şurası və Valideynlər Komitəsi kimi ictimai əsaslarla fəaliyyət göstərən ictimai qurumların təşkili nəzərdə tutulmuşdur.

Himayəçilik Şurası tərbiyə müəssisəsinin nəzdində müəssisənin müdiriyyətinə tədris-tərbiyə prosesinin təşkilində, onun maddi-texniki bazasının möhkəmləndirilməsində, məhkumların sosial müdafiəsinə dair məsələlərin həllində, cəza çəkməkdən azad olunanlara əmək və məişət şəraitinin yaradılmasında kömək göstərilməsi məqsədi ilə dövlət müəssisə, idarə və ya təşkilatlarının, ictimai birliklərin, digər müəssisələrin nümayəndələrinin və fiziki şəxslərin iştirakı ilə yaradılır.

Valideynlər Komitəsi məhkumlara göstərilən tərbiyəvi təsirin səmərəliliyini artırmaq və tərbiyə müəssisəsinin müdiriyyətinə islah işində kömək etmək məqsədi ilə həmin müəssisələrdə məhkumların valideynlərindən və ya digər yaxın qohumlarından ibarət yaradılır. Himayəçilik Şurasının və Valideynlər Komitəsinin yaradılması, onların təşkili və fəaliyyət qaydası müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-ci il 15 yanvar tarixli 16 nömrəli Qərarı və Ədliyyə Nazirliyinin 2002-ci il 9 aprel tarixli 7-T nömrəli əmri ilə təsdiq edilmiş normativ hüquqi aktlarla müəyyən edilmişdir.

Cəzanın icrası qaydalarını pozan yetkinlik yaşına çatmayan məhkumlara təhsili davam etdirmək şərti ilə yeddi günədək müddətə intizam təcridxanasına keçirmə növündə tənbeh tədbiri daxil olmaqla Azərbaycan Respublikası CİM-in 107.1.1-ci və 107.1.2-ci maddələrində nəzərdə tutulmuş xəbərdarlıq və töhmət

növündə tənbeh tədbirləri tətbiq edilə bilər.

Azərbaycan Respublikası CİM-in 126-cı maddəsi yetkinlik yaşına çatmayan məhkumlara tətbiq edilən tənbeh tədbirlərindən ən sərtinin – intizam təcridxanasında saxlanılmanın şərtlərini konkretləşdirir. Bu maddədə intizam təcridxanasına keçirilmiş yetkinlik yaşına çatmayan məhkumlar üçün aşağıdakı qadağalar müəyyən edilmişdir:

- uzun müddətli görüş almaq;
- bağlama, sovqat və ya banderol almaq;
- telefon danışıqlarından istifadə etmək;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək;
- kinofilmlərə və ya televiziya verilişlərinə baxmaq;
- stolüstü oyunlardan istifadə etmək.

İntizam təcridxanasına keçirilmə yetkinlik yaşına çatmayan məhkumların hərəkətlərini kifayət qədər məhdudlaşdırır. Onlar, bütün gün ərzində (təhsil üçün ayrılmış vaxt istisna olmaqla) kameralarda olduqları üçün gün ərzində iki saat gəzinti hüququna malikdirlər.

Nəhayət, qanun, yetkinlik yaşına çatmayan məhkumların intizam təcridxanasına keçirilməsi qaydası və şərtlərini müəyyən etməklə yanaşı, bu tənbeh tədbirinin birdəfəlik və bir il ərzindəki maksimal müddətlərini müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 125-ci və 126.3-cü maddələrinə əsasən, yetkinlik yaşına çatmayan məhkumlar yeddi günədək müddətə intizam təcridxanasına keçirilə bilərlər, bir təqvim ili ərzində intizam təcridxanasında saxlanma müddəti isə otuz gündən çox ola bilməz. İntizam təcridxanalarına keçirilmiş məhkumlara uzun müddətli görüş, telefon danışıqları, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək, bağlama, sovqat və ya banderol almaq, kinofilmlərə və televiziya verilişlərinə baxmaq, stolüstü oyunlardan istifadə et-

mək qadağan edilir. Onlar hər gün iki saat gəzinti hüququna malikdirlər. İntizam təcridxanasında saxlanılan məhkumlara intizam təcridxanasına keçirilməkdən başqa digər tənbeh tədbirləri tətbiq edilə bilər.

Azərbaycan Respublikasının CİM-nə əsasən on səkkiz yaşına çatmış məhkumlar bir qayda olaraq məhkəmənin qərarına əsasən tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilirlər. Zəruri hallarda, bir qayda olaraq özünü müsbət xarakterizə etmiş məhkumlar iyirmi yaşınadək məhkəmənin qərarına əsasən tərbiyə müəssisələrində saxlanıla bilərlər. Belə məhkumlara yetkinlik yaşına çatmayan məhkumlar üçün müəyyən edilmiş cəzanın icrası şərtləri, yemək normaları və maddi-məişət təminatı aid edilir. Həmin məhkumların əmək şəraiti əmək qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

## Mövzu 18. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin məsuliyyəti

Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslər cəzanın çəkilməsi dövründə törətdikləri yeni cinayət əməllərinə və digər hüquqpozmalara görə qanunla nəzərdə tutulmuş məsuliyyət tədbirlərinə məruz qalır, **cinayət, intizam** və **maddi** məsuliyyət daşıyırlar. Məhkumların cinayət məsuliyyəti onlar tərəfindən cəza çəkmə dövründə törədilmiş yeni cinayətlərə görə baş verir və bir qayda olaraq, onlar üçün əlavə məhrumiyyətlərlə şərtlənir. Onlar cinayət törətməkdə təqsirli hesab edildikdə, məhkəmə, cəza təyin edərkən cəza çəkən şəxsin məhkum statusunu nəzərə alır, habelə hökmlərin məcmusuna görə yekun cəza təyin edir.

Əgər məhkum cəzaçəkmə dövründə cəzanın icrası qaydalarını pozarsa, onun barəsində intizam məsuliyyətinə cəlb etmə növündə məsuliyyət tədbiri görülür. Bu zaman məhkuma Azərbaycan Respublikası CİM-in 107-ci maddəsində nəzərdə tutulmuş tənbeh tədbirləri tətbiq edilir.

Nəhayət, cəzaçəkmə dövründə cəza çəkən şəxslərin məsuliyyətinin üçüncü növü maddi məsuliyyətdir. Məhkumların (həmçinin də digər şəxslərin) maddi məsuliyyəti maddi ziyanın hansı şəraitdə vurulmasından asılıdır. Belə ki, Azərbaycan Respublikası CİM-in 94-cü maddəsində birbaşa olaraq göstərilir ki, əgər maddi ziyan, əmək vəzifələrinin yerinə yetirilməsi zamanı vurularsa – əmək qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, digər hallarda isə mülki qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət baş verir. Həm dövlətə, həm də mülkiyyət formasından asılı olmayaraq digər şəxslərə (hüquqi və fiziki şəxslərə) vurulmuş maddi ziyan da ödənilməlidir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 191-ci maddəsinə əsasən, əmək vəzifələrinin icrası

prosesində qəsdən və ya ehtiyatsızlıqdan vurulmuş maddi ziyanın tutulması üçün aşağıdakı şərtlər tələb olunur:

**a)** ziyanın həqiqətən vurulduğu aşkar olduqda, başqa sözlə, ziyanın real olması;

**b)** təqsirkarın əməli, yəni hərəkəti və ya hərəkətsizliyi qanuna zidd olduqda;

**c)** təqsirkarın qanuna zidd əməli ilə baş vermiş nəticə arasında səbəbli əlaqə olduqda.

Burada götürülməmiş qazanc nəzərdə tutulmur.

Məhkumlar əmək vəzifələrinin icrası prosesində vurduqları maddi ziyana görə, bir qayda olaraq, Azərbaycan Respublikası ƏM-in 198-ci maddəsinə əsasən bir aylıq orta əmək haqqı məbləğinədək qismən maddi məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikası ƏM-in 199-200-ci maddələri işçinin vurduğu ziyana görə tam həcmdə maddi məsuliyyət daşıdığı halları müəyyən edir. Bu hallar aşağıdakılardır:

**1)** saxlanmaq və başqa məqsədlər üçün işçiyə verilmiş əmlakın və digər sərvətlərin salamatlığını təmin etməyə görə əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq işçinin öz üzərinə tam maddi məsuliyyət götürməsi haqqında işəgötürənlə yazılı müqavilə bağlandıqda;

**2)** işçi əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik hüquq müəyyənedici sənədlər əsasında işəgötürənə, yaxud onun nümayəndəsinə hesabat vermək şərti ilə qəbul etdikdə;

**3)** inzibati hüquqpozmalar haqqında, yaxud cinayət, habelə vergi qanunvericiliyi ilə cəza verilməsi nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizliyində ictimai təhlükəli əməllərin əlaməti olduqda;

**4)** əmlakı və digər maddi sərvətləri qəsdən korladıqda, məhv etdikdə, habelə işəgötürənə digər üsulla qəsdən ziyan vurduqda;

**5)** alkoqol, toksik (zəhərli) və ya narkotik maddələrdən istifadə təsiri ilə bağlı, o cümlədən sərxoş vəziyyətdə ziyan vurduqda;

**6)** işəgötürənin kommersiya sirrini yaydıqda;

**7)** işəgötürənin şəxsiyyətini ləkələyən, şərəf və ləyaqətini alçaldan, habelə həqiqətə uyğun olmayan böhtan və təhqir xarakterli iftiralar, yalan məlumatlar yaymaqla onun sahibkarlıq fəaliyyətinə ciddi xələl gətirmiş mənəvi ziyan vurduqda.

Əgər maddi ziyan xidməti vəzifələrin icrası vaxtından kənar vaxtda vurularsa, məhkumun maddi məsuliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1097.1-ci maddəsi üzrə müəyyən edilir. Belə ki, həmin maddəyə əsasən "mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və ya işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərər vuran tərəfindən tam həcmdə ödənilməlidir..."

## Mövzu 19. Hərbi qulluqçulara tətbiq edilən cəzaların icrası

Azərbaycan Respublikasının cinayət qanunvericiliyi hüququn ümumi prinsipləri əsasında tətbiq edilən subyektlərdən asılı olaraq, cəzaları differensiasiya edir. Belə subyektlərdən biri də hərbi qulluqçulardır və onlara cəzaların tətbiq edilməsi bir sıra spesifikliyə malikdir. Qeyd edilən spesifiklik dövlət və cəmiyyət strukturunda hərbi qulluqçuların yerinə yetirdiyi sosial rolla bağlıdır.

Cinayət qanunvericiliyinə müvafiq olaraq, törətdikləri cinayətlərə görə hərbi qulluqçulara islah işləri növündə cəza istisna olunmaqla, Cinayət Məcəlləsinin 42-ci maddəsində sadalanan bütün cəza növləri tətbiq edilə bilər. Hərbi qulluqçulara islah işləri cəzası əvəzinə Azərbaycan Respublikası CM-in 50-ci maddəsinə əsasən, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza təyin edilir.

Cəzaların İcrası Məcəlləsinin qəbulu ilə məhkum hərbi qulluqçular tərəfindən cəzaların çəkilməsinin hüquqi tənzimi mühüm dəyişikliklərə məruz qalmışdır. **Birincisi,** qanunverici hərbi qulluqçulara tətbiq edilən cəzaların icrası və çəkilməsi qaydası və şərtlərinin tənzimlənməsinə yanaşmanı dəyişdirmişdir. **İkincisi,** qanunverici, Azərbaycan Respublikası CİM-in Ümumi hissəsinin normalarının qüvvəsi ilə yanaşı, həm də hərbi qulluqçular barəsində cəzaların icrasının və çəkilməsinin xüsusi tənzimini müəyyən etmişdir. Bu, iki cəza növünə – hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzalara aiddir.

**Hərbi xidmət üzrə məhdudlaşdırma** cinayət qanunvericiliyi üçün yeni cəza növüdür. Bu cəza, Azərbaycan Respublikası CM-in 50.1-ci maddəsinə əsasən, "hərbi xidmət əleyhinə cinayət

törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə başqa cinayət törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara Azərbaycan Respublikası CM-in Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş islah işləri əvəzinə iki aydan iki ilədək müddətə tətbiq edilir".

Hərbi xidmət üzrə məhdudulaşdırma növündə cəzanın mahiyyəti, yəni onun yaratdığı məhdudiyyətlər aşağıdakılardan ibarətdir:

**– birincisi,** bu cəza növünə məhkum olunmuş şəxs cəzanı çəkdiyi müddətdə tutduğu vəzifədə və ya rütbəsində yüksələ bilməz;

– **ikincisi,** təyin edilmiş cəza müddəti növbəti rütbənin verilməsi üçün xidmət illərinə daxil edilmir;

– **üçüncüsü,** məhkum hərbi qulluqçunun aylıq pul təminatından təyin edilmiş cəza müddətində beş faizdən iyirmi faizədək dövlət nəfinə tutulmalar aparılır.

Azərbaycan Respublikası CİM-in 132.1-ci maddəsinə əsasən, hərbi hissənin komandiri (rəisi) məhkəmədən hərbi məhdudlaşdırma ilə bağlı hökmün surətini və cəzanın icrası barədə göstərişi aldıqdan sonra üç gündən gec olmayan müddətə yazılı əmr verir. Əmrdə artıq yuxarıda qeyd olunan müvafiq məsələlər öz əksini tapmalıdır. Hərbi hissənin komandiri (rəisi) hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın icrası ilə əlaqədar gördüyü tədbirlər, yəni hökmün surətini və cəzanın icrası barədə arayışı alması, hökmün icraya yönəldilməsi barədə hökmü çıxarmış məhkəməyə dərhal məlumat verməlidir.

Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzaya məhkum olunmuş hərbi qulluqçuların aylıq pul təminatından tutulmalar məhkəmə hökmü ilə müəyyən edilmiş məbləğdə, məhkumun və-

zifə maaşından, hərbi rütbə üzrə maaşından, digər əlavə ödəmələrdən aparılır. Sonunculara misal olaraq, ilin yekunlarına görə birdəfəlik pul mükafatını, gərgin xidmətə görə rüblük mükafatı, xidmət illərinə görə aylıq faiz əlavələrini və s. aid etmək olar.

Əgər məhkuma ərzaq payı əvəzinə onun dəyəri məbləğində pul müavinəti verilirsə, bu mənbədən tutulmalar aparıla bilməz. Bundan başqa, hərbi qulluqçunun əşya, nəqliyyat, sanatoriya-kurort və digər təminatları ilə əlaqədar müavinətlərindən də tutulmalar aparılmır. Məhkum hərbi qulluqçuların qazanclarından tutulmalar, habelə onların digər gəlirlərinə yönəldilə bilməz. Misal üçün, 25 dekabr 1991-ci il tarixli **“Hərbi qulluqçuların statusu haqqında”** Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə əsasən, “hərbi qulluqçuların elmi, texniki, bədii və başqa yaradıcılıq azadlığına təminat verilir, bir şərtlə ki, bu, onların hərbi vəzifələrinin icrasına mane olmasın”. Bu mənbələrdən, eləcə də şəxsi təsərrüfatdan əldə olunan gəlirlərə tutulmalar yönəldilə bilməz. Məhkum hərbi qulluqçuların qazanclarından tutulmuş məbləğlər dövlət nəfinə keçirilir. Hərbi hissə komandiri (rəisi) hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzaya məhkum olunmuş hərbi qulluqçularla tərbiyə işi aparır. Belə hərbi qulluqçularla tərbiyə işi törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti, davranışı, həmçinin hərbi xidmətə münasibəti nəzərə alınmaqla həyata keçirilir.

Əgər məhkum törədilmiş cinayətin xüsusiyyəti və digər hallar nəzərə alınmaqla tabeliyində olan şəxslərə rəhbərlik etməklə əlaqədar vəzifədə saxlanıla bilməzsə, o, müvafiq komandirin (rəisin) əmrinə və ya təqdimatına əsasən həmin hərbi hissədə, yaxud digər hərbi hissədə başqa vəzifəyə keçirilir. Bu halda hökmü çıxarmış məhkəməyə dərhal məlumat verilir.

Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzaya məhkum

olunmuş şəxs hökmlə müəyyən edilmiş cəza müddətinin qurtarmasına qədər qanunvericilikdə nəzərdə tutulan əsaslarla hərbi xidmətdən tərxis oluna bilər. Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzaya məhkum olunmuş şəxsin hərbi xidmətdən tərxis olunması ilə əlaqədar hərbi hissənin komandiri (rəisi) cəzanın çəkilməmiş hissəsinin digər cəza növü ilə əvəz olunması üçün məhkəməyə təqdimat verir. Məhkum öz növbəsində cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi barədə məhkəməyə ərizə ilə müraciət edə bilər.

Hərbi xidmət üzrə məhdudlaşdırmanın məhkəmə tərəfindən müəyyən olunmuş müddətinin qurtarmasına azı üç gün qalmış hərbi hissə komandiri (rəisi) cəzanın icrasının hansı tarixdən dayandırılması barədə əmr verir. Əmr hərbi qulluqçunun nəzərinə çatdırlir.

Cinayət törətmiş hərbi qulluqçulara təyin edilən digər cəza növü artıq qeyd olunduğu kimi **intizam xarakterli hərbi hissədə saxlamadır.** Əgər əvvəllər bu cəzanın icrası və çəkilməsi qaydası və şərtləri 1992-ci il 23 iyul tarixli ‘‘Azərbaycan Respublikasının İntizam batalyonu haqqında’’ Əsasnamə ilə nizama salınırdısa, hazırda bu sahədə yaranan münasibətlər respublikamızın qanunvericilik aktı olan Cəzaların İcrası Məcəlləsi ilə tənzimlənir. Eyni zamanda, Azərbaycan Respublikası CİM-in 15.10-cu maddəsinə əsasən intizam xarakterli hərbi hissədə saxlama cəzasının icrası və çəkilməsi qaydalarının həyata keçirilməsi mexanizmini təyin etmək məqsədi ilə Azərbaycan Respublikası Müdafiə Nazirinin əmrləri ilə “İntizam xarakterli hərbi hissə haqqında” Əsasnamə və Daxili İntizam Qaydaları təsdiq edilmişdir.

Azərbaycan Respublikası CİM-in 6-cı maddəsinin tələbindən irəli gələrək, məhkumun intizam xarakterli hərbi hissəyə göndəril-

məsi və orada saxlanılması üçün əsas, məhkəmənin qanuni qüvvəyə minmiş hökmüdür. Məhkum hərbi qulluqçular hökm qanuni qüvvəyə minənədək və intizam xarakterli hərbi hissəyə göndərilənədək, 23 sentyabr 1994-cü il tarixli Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarnizon və Qarovul xidməti Nizamnaməsinin müəyyən etdiyi qaydada hauptvaxtda saxlanılırlar.

İntizam xarakterli hərbi hissədə saxlama növündə cəzanın icrası müvafiq hərbi hissənin komandiri tərəfindən həyata keçirilir. Məhkum hərbi qulluqçuların saxlanıldığı intizam xarakterli hərbi hissələr xüsusi ştatla saxlanılır. Hərbi hissənin ştatı və təşkilati strukturu, cəzanın icrasına nəzarəti həyata keçirən Müdafiə Nazirliyi tərəfindən müəyyən edilir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında hazırda fəaliyyət göstərən yeganə intizam xarakterli hərbi hissə 1992-ci ildə Müdafiə nazirinin əmri ilə təşkil edilmişdir. Nazirlik zabit kadrların seçilməsi və yerləşdirilməsi, hərbi hissənin daimi işlə təmin edilməsi vəzifələrini həyata keçirir və cəza çəkən məhkumların əməyinin təşkilinə, hərbi hazırlığına və tərbiyəsinə nəzarət edir. Qanunvericiliyə əsasən intizam xarakterli hərbi hissədə saxlanılan məhkumlara ümumi təhsil və peşə hazırlığı kimi islah edilmə vasitəsi istisna olmaqla, Azərbaycan Respublikası CİM-in müddəalarına uyğun digər islah edilmə vasitələri tətbiq edilir və əlavə olaraq onlarla döyüş hazırlığı təlimi keçirilir.

İntizam xarakterli hərbi hissənin hüdudlarında məhkumların mühafizəsi, onlar üzərində nəzarəti təmin etmək vəzifələrini, onların hüquqlarının həyata keçirilməsini, intizam xarakterli hərbi hissədə xidmət keçən hərbi qulluqçuların və məhkumların təhlükəsizliyini təmin edən cəzanın icrası və çəkilməsi qaydaları (rejimi) müəyyən edilir. Məhkum olunmuş hərbi qulluqçular intizam

xarakterli hərbi hissədə müəyyən edilmiş rejimin tələblərinə riayət etməlidirlər. İntizam xarakterli hərbi hissədə cəzanın icrası müddətində bütün məhkumlar hərbi rütbədən, əvvəlki xidmətin xüsusiyyətindən asılı olmayaraq hərbi qulluqçular üçün müəyyən edilmiş geyim formasını daşıyırlar.

Hökm qanuni qüvvəyə mindikdən sonra məhkum təyin olunmuş cəzanı çəkmək üçün intizam xarakterli hərbi hissəyə göndərilir. İntizam xarakterli hərbi hissədə məhkumlar:

- ❖ ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda doqquz manatadək miqdarda pul xərcləyə bilərlər;
- ❖ ayda iki qısa müddətli görüş və il ərzində dörd uzun müddətli görüş almaq hüququna malikdirlər;
- ❖ ayda bir bağlama, sovqat və ya banderol və görüşlər zamanı əlavə olaraq sovqat almaq hüququna malikdirlər;
- ❖ məhdudiyyətsiz sayda məktub, teleqram almaq və göndərmək hüququna malikdirlər;
- ❖ pul baratları almaq hüququna malikdirlər;
- ❖ ayda iki dəfə telefon danışığı hüququna malikdirlər;
- ❖ CİM-in 89.1-ci maddəsində nəzərdə tutulmuş qaydada hərbi hissənin hüdudlarından kənara qısa müddətli səfər etmək imkanına malikdirlər.

İntizam xarakterli hərbi hissədə məhkumlar üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə uyğun olaraq zəruri maddi-məişət şəraiti yaradılır. Məhkumlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş normalar üzrə ərzaq, paltar və digər ləvazimatla təmin olunurlar. Məhkumlara verilən pul təminatı hər ay onların şəxsi hesablarına keçirilir. Məhkumlara saxlamağa, nağdsız hesabla əldə etməyə və ya bağlamada, sovqatda, banderolda almağa icazə verilən ərzaq məhsullarının və ən zəruri malların siyahısı, habelə

məhkumlara saxlanılması qadağan edilən əşyaların siyahısı intizam xarakterli hərbi hissənin Daxili İntizam Qaydaları ilə müəyyən edilir.

Məhkumların tibbi təminatı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə uyğun həyata keçirilir. Stasionar şəraitdə müalicəyə ehtiyacı olan məhkumlar mühafizə altında hospitala göndərilir və orada xüsusi təchiz olunmuş otaqlarda saxlanılırlar.

Məhkumlara qohumları və başqa şəxslərlə qısa müddətli görüşlər intizam xarakterli hərbi hissənin komandiri tərəfindən müəyyən edilmiş günlərdə və saatlarda işdən və təlimdən sonrakı asudə vaxtda ayda iki dəfə dörd saatadək müddətə verilir. Görüşlər xüsusi təchiz olunmuş otaqda hərbi hissənin nümayəndəsinin iştirakı ilə verilir. Məhkumlara yaxın qohumları ilə uzun müddətli görüşlər ildə dörd dəfə üç günədək müddətə birgə yaşamaq hüququ ilə intizam xarakterli hərbi hissənin xüsusi təchiz olunmuş otaqlarında və ya hərbi hissə komandirinin razılığına əsasən, hərbi hissədən kənarda verilə bilər. Məhkumun xahişi ilə uzun müddətli və ya qısa müddətli görüş telefon danışığı ilə əvəz edilə bilər. Uzun müddətli görüş zamanı məhkumlar işdən və təlimdən azad edilirlər.

İntizam xarakterli hərbi hissədə saxlanılan məhkumlar Azərbaycan Respublikası CM-in 84.1-ci maddəsində nəzərdə tutulmuş qaydada ayda iki dəfə telefonla danışmaq hüququna malikdirlər. Hüquqi yardım almaq üçün məhkumların özlərinin, yaxın qohumlarının və ya onların qanuni nümayəndələrinin ərizəsinə əsasən məhkumlara vəkillərlə, həmçinin belə yardımı göstərmək hüququna malik olan digər şəxslərlə görüş verilir. Vəkillə görüşlər Azərbaycan Respublikası CİM-in müvafiq maddələrində nəzərdə tutulmuş görüşlərin sayına daxil edilmir. Belə görüşlər tərəflərin arzu-

su ilə təklikdə keçirilir.

Azərbaycan Respublikası CİM-in tələblərinə əsasən məhkumların bağlama, sovqat və ya banderolu intizam xarakterli hərbi hissənin nümayəndəsinin iştirakı ilə açır və içərisində olan malları götürür. Bağlama, sovqat və ya banderollarda məhkuma qadağan olunan mallar aşkar edildikdə onlar götürülür, məhkumun şəxsi əşyalarının siyahısına qeyd edilir və cəzanın icrası müddətinin sonuna qədər başqa şəxsi əşyalarla birgə saxlanılır və ya intizam xarakterli hərbi hissənin komandirinin əsaslandırılmış qərarına əsasən məhv edilir və bu barədə müvafiq akt tərtib olunur.

Məhkumun adına göndərilmiş pullar onun şəxsi hesabına köçürülür və o, həmin hesabdan hər ay onlara icazə verilmiş məbləğdə ərzaq məhsulları və zəruri mallar əldə edə bilər.

İntizam xarakterli hərbi hissədə cəza çəkən məhkumlara daxil olmuş məktubu hərbi hissənin nümayəndəsi təqdim edir. Bu zaman məktub hərbi hissənin nümayəndəsinin iştirakı ilə açılır. Əgər məktubda qadağan olunmuş əşyalar aşkar edildikdə, onlar götürülür. İntizam xarakterli hərbi hissədə cəza çəkən məhkumlara daxil olmuş məktub və teleqramlar senzuradan keçirilmir.

İntizam xarakterli hərbi hissədə saxlanılan məhkumlara Azərbaycan Respublikası CİM-in 89.1-ci maddəsində nəzərdə tutulmuş qaydada və hallarda, yəni onların yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi ilə əlaqədar, məhkumlara və ya onların ailəsinə təbii fəlakətlə və digər fövqəladə hadisə nəticəsində əhəmiyyətli maddi zərər vurulduqda hərbi hissənin hüdudlarından kənara (yalnız ölkə daxilində) qısa müddətli səfərə getməyə icazə verilə bilər. Bu zaman gedib-gəlmək üçün sərf olunan vaxt, iki gündən çox olmamaq şərti ilə, nəzərə alınmır. Məhkumun qısa müddətli səfər ilə əlaqədar intizam xarakterli hərbi hissədən kənarda olması vaxtı cəzanın icrası müddətinə hesab-

lanır. Hərbi qulluqçular üçün nəzərdə tutulan məzuniyyətlər intizam xarakterli hərbi hissədə saxlanılan məhkumlara şamil edilmir.

İntizam xarakterli hərbi hissədə məhkumlar hərbi hissənin obyektlərində və ya Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş digər obyektlərdə əməyə cəlb oluna bilərlər. Məhkumların əməyi müvafiq qanunvericilik ilə müəyyən olunmuş qaydalara riayət edilməklə təşkil olunur. Məhkumlar tərəfindən yerinə yetirilən işlərə qüvvədə olan qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş norma və qiymətlər şamil edilir. Məhkumlara əmək haqqı verilmir. Məhkumların əməyinə görə işəgötürən tərəfindən köçürülmüş məbləğin yarısı intizam xarakterli hərbi hissənin abadlaşdırılması, onun müstəqil istehsalat bazasının yaradılması və ya inkişaf etdirilməsi, məhkumların maddi-məişət ehtiyaclarının ödənilməsi və maddi mükafatlandırma fondunun təşkili üçün həmin hərbi hissənin hesabına, digər hissəsi isə dövlət nəfinə keçirilir.

Məhkumlar intizam xarakterli hərbi hissənin ərazisinin abadlaşdırılması, məhkumların mədəni-məişət şəraitinin yaxşılaşdırılması və onların ərzaqla təmin olunması üçün əlavə işlərə növbə ilə cəlb oluna bilərlər.

Məhkumların döyüş hazırlığı təlimi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən hazırlanmış xüsusi proqram əsasında təşkil edilir və intizam xarakterli hərbi hissənin komandiri tərəfindən həyata keçirilir. Məhkumların döyüş hazırlığı təliminin təşkili üçün zəruri maddi-texniki baza yaradılır.

Məhkumlarla tərbiyə işini intizam xarakterli hərbi hissənin komandiri təşkil edir və həyata keçirir. Məhkumların əvvəllər hərbi xidmət keçdikləri hərbi hissələrin komandirləri intizam xarakterli hərbi hissənin komandiri ilə daim əlaqə saxlamalı, tabelərin-

də olmuş hərbi qulluqçuların davranışı ilə maraqlanmalı və onların islah edilməsinə köməklik göstərməlidirlər. Məhkumlarla tərbiyə işinin aparılmasında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi intizam xarakterli hərbi hissənin komandirinə kömək edir.

Məhkumların islah edilməsi işində intizam xarakterli hərbi hissənin komandirinə kömək etmək məqsədi ilə nümunəvi davranışı, əməyə və hərbi xidmətə vicdanlı münasibəti ilə fərqlənən şəxslərdən məhkumların ictimai şurası yaradılır. İctimai şuranın üzvləri məhkumların ümumi yığıncaqlarında seçilir və ictimai şuranın tərkibi hərbi hissənin komandiri tərəfindən təsdiq olunur. Həmin şuranın fəaliyyətinə nəzarət hərbi hissənin komandiri tərəfindən həyata keçirilir. İctimai şura hərbi hissə komandirinə tərbiyə tədbirlərinin və məhkumların asudə vaxtının səmərəli keçməsinə köməklik edir, məhkumlarla fərdi izahat işi aparır.

İntizam xarakterli hərbi hissədə cəza çəkən şəxslərə tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri cəzaçəkmə müəssisələrində saxlanan şəxslərə tətbiq edilən tədbirlərdən fərqlənir. Belə ki, Azərbaycan Respublikası CİM-in 148-ci maddəsinə əsasən, məhkumlara nümunəvi davranışa, əməyə və hərbi xidmətə vicdanla yaşamağa, ictimai şuranın işində fəal iştiraka görə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq edilir:

- ❖ təşəkkür elan etmək;
- ❖ hədiyyə və ya dörd manatadək miqdarda pulla mükafatlandırmaq;
- ❖ qısa müddətli və ya uzun müddətli əlavə görüş vermək;
- ❖ verilmiş tənbehi vaxtından əvvəl götürmək.

İntizam xarakterli hərbi hissədə cəzanın icrası qaydalarının pozulmasına görə məhkumlara aşağıda göstərilən tənbeh tədbirləri tətbiq edilə bilər:

- ❖ məzəmmət;
- ❖ töhmət;
- ❖ şiddətli töhmət;
- ❖ on günədək müddətə hauptvaxtda saxlanmaq.

Qeyd edilən həvəsləndirmə və tənbeh tədbirləri 23 sentyabr 1994-cü il tarixli Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq tətbiq edilir.

İntizam xarakterli hərbi hissədə saxlama növündə cəza çəkən məhkumlar hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliklərə düçar olduqda, məhkumlar və onların qanuni nümayəndəsi intizam xarakterli hərbi hissədən şərti olaraq vaxtından əvvəl azad edilməsi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edə bilərlər. Məhkumun intizam xarakterli hərbi hissədə cəza çəkdiyi vaxt müddətli həqiqi hərbi xidmət müddətinə hesablanmır. İntizam xarakterli hərbi hissədə saxlama növündə cəzadan azad edilən vaxt həqiqi hərbi xidmətdə olmanın qanunla müəyyən olunmuş son yaş həddinə çatmış şəxslər həqiqi hərbi xidmətdən tərxis edilirlər.

## Mövzu 20. Cəza çəkməkdən azad etmə, cəza çəkməkdən azad edilmiş şəxslərə yardım göstərilməsi və onların sosial adaptasiyası

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyində ayrı-ayrı cəza növlərinin icrası və çəkilməsi qaydası, bu fəaliyyyəti həyata keçirən müəssisə və orqanlar, məhkumların islah edilməsinin əsas vasitələri və s. barədə müddəalar öz əksini tapmaqla yanaşı, cəzadan azad etmənin əsasları və qaydası da dəqiq tənzimlənmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikası CİM-in 167-ci maddəsinə əsasən məhkumlar cəza çəkməkdən aşağıdakı **əsaslarla** azad edilirlər:

- cəza müddəti qurtardıqda;
- hökmün ləğv edilməsi ilə əlaqədar işin icraatına xitam verildikdə;
- cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə;
- cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə;
- amnistiya və ya əfvetmə aktına əsasən;
- xəstəliyə və qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslara görə.

Bu əsasları ardıcıllıqla və ətraflı şəkildə nəzərdən keçirək.

**1. Cəza müddətinin qurtarması ilə cəzadan azad etmə** – cəza çəkməkdən azad etmənin ən geniş yayılmış növüdür. Cəzanın şərti məhkum etmə ilə və ya onun çəkilmiş müddət həddində azaldılması ilə əvəz olunması ilə hökmün dəyişdirilməsi nəticəsində azad etmə cəza müddətinin çəkilməsi üzrə azad etmənin xüsusi halıdır. Əgər çəkilmiş müddət təyin edilmiş müddətdən və ya hökmün dəyişdirilməsindən sonra təyin edilmiş müddətdən

artıq olarsa, onda şəxs dəymiş ziyanın qismən ödənilməsini tələb etmək hüququ əldə edir. Ümumi müddəaya görə təyin edilmiş cəza müddəti qurtardıqdan sonra məhkum cəzadan azad edilməlidir. Bu əsasla məhkumun azad olunması üçün cəzaçəkmə müəssisəsinə hər hansı bir sənədin daxil olması və ya məhkumun islah olunması kimi nəticənin əldə edilməsi tələb olunmur.

Qanunvericilikdə müddətli cəzaların bitməsinin son anı müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 168.1-ci maddəsinə uygun olaraq müddətli cəzaların, yəni müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə, həmçinin hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların müddəti cəza çəkmənin sonuncu günü bitir. Qanunun tələbinə görə, məhkumlar cəza müddətinin axırıncı gününün birinci yarısında azad edilirlər. Əgər cəza istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü qurtarırsa, məhkum həmin günlərdən əvvəlki gün və günün birinci yarısı azad edilir. Cəza müddəti aylarla hesablanırsa, bu müddət axırıncı ayın müvafiq günündə, əgər bu ayda müvafiq gün yoxdursa, həmin ayın axırıncı günü qurtarır. Misal üçün, əgər cəza altı ay müddətinə təyin edilmişsə və hökm avqust ayının 31-də qüvvəyə minmişsə, bu halda məhkum, fevral ayında 31 gün olmadığı üçün bu ayın axırıncı günü, fevralın 28-i və ya 29-u cəza çəkməkdən azad edilməlidir.

**2.** Cəzadan azad etmənin növbəti əsası, **hökmün ləğv edilməsi ilə əlaqədar işin icraatına xitam verilməklə** cəzadan azad etmədir. Cəzadan azad etmənin bu əsası hüquq ədəbiyyatında **bəraət alma nəticəsində cəza çəkməkdən azad etmə** kimi də qeyd olunur. Təcrübədə elə hallara rast gəlinir ki, şəxs bu və ya digər

səbəbdən cinayət məsuliyyətinə cəlb olunur və məhkum edilir. Lakin sonradan müəyyən olunan yeni hallar əsasında işə yenidən baxılıb, şəxs barəsində bəraət hökmü çıxarıla bilər. Bu halda onun məhkumluqdan əvvəlki hüquqi statusu da bərpa edilməlidir.

**3.** Qanunla nəzərdə tutulmuş bir sıra hallarda məhkumun cəzadan **şərti olaraq vaxtından əvvəl azad edilməsinə** yol verilir. Şübhəsiz, bunun üçün xüsusi şərtlər irəli sürülür. Hüquq nəzəriyyəsində məhkumun şərti olaraq cəzadan vaxtından əvvəl azad edilməsi üçün maddi və formal əsasların mövcud olması tələb olunur. Qanunvericinin tələbinə görə belə şərtlərə aiddir:

**a)** cəzanın məqsədinə nail olunması, başqa sözlə, islah prosesinin başa çatması (maddi əsas);

**b)** meydana çıxmış yeni hallara əsasən şəxsin ictimai təhlükəli olmaması (maddi əsas);

**c)** təyin edilmiş cəza müddətinin qanunla müəyyən edilmiş hissəsinin faktiki olaraq çəkilməsi (formal əsas).

Beləliklə, yuxarıda qeyd edilən tələblər mövcud olduqda, şəxs cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə təqdim oluna bilər.

Azərbaycan Respublikası CPM-in 513.1-ci maddəsinə əsasən cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə məhkumun ərizəsi, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatəti əsasında cinayət qanununun müddəalarına müvafiq olaraq cəzaları icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla, cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həll olunur. Deməli, məhkumun cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad edilməsi və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi üçün ilk növbədə məhkəməyə qa-

nunla müəyyən edilmiş qaydada ərizə və ya vəsatət təqdim edilməlidir.

Belə ki, islah işləri, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi haqqında məsələ məhkəmə tərəfindən, məhkumun ərizəsi, habelə onun vəkilinin və ya qanuni nümayəndəsinin əsaslandırılmış vəsatəti əsasında, habelə məhkumun cəzanı cəkdiyi müəssisənin və ya cəzanı icra edən orqanın mülahizəsi nəzərə alunmaqla həll edilir. Məhkum ərizəni yalnız cəzanı icra edən müəssisənin müdiriyyəti vasitəsi llə, onun vəkili və ya qanuni nümayəndəsi isə müstəqil surətdə göndərə bilər. Əgər məhkum tərəfindən ərizə verilmişsə, o, on gün ərzində məhkəməyə göndərilməlidir.

Qanun cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə üçün konkret müddətlər müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası CM-in 76.3-cü maddəsinə əsasən, "cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, məhkum:

- böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı yarısını;
- ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı ücdə iki hissəsini;
- xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı dörddə üc hissəsini həqiqətən cəkdikdən sonra, habelə əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs, əgər şərti olaraq vaxtından əvvəl azad etmə Cinayət Məcəlləsinin 76.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə ləğv edilmişdirsə, təyin edilmiş cəza muddətinin ən azı dörddə üc hissəsini həqiqətən cəkdikdən

sonra tətbiq edilə bilər".

Azadlıqdan məhrum etmə cəzasının məhkum tərəfindən həqiqətən çəkilmiş müddəti altı aydan az ola bilməz.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün qanunvericilikdə xüsüsi tələblər müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikası CİM-in 171.1-ci maddəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs Azərbaycan Respublikasının CM-i ilə müəyyən olunmuş müddət keçdikdən sonra (Azərbaycan Respublikası CM-in 57.3-cü maddəsinə əsasən həmin müddət iyirmi beş il təşkli edir) cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə haqqında məhkəməyə ərizə ilə müraciət edə bilər. Bu zaman məhkəmə tərəfindən ömürlük azadlıqdan məhkum edilmiş şəxsin cəza çəkdiyi müddətdə qəsdən yeni cinayət törətmədiyi, habelə məhkumun son beş il ərzində cəzanın çəkilməsi qaydalarına əməl etməsi hallarını da nəzərə almalıdır.

Məhkəmə tərəfindən şərti olaraq vaxtından əvvəl azad etmə təmin edilmədikdə, həmin məsələyə yenidən altı aydan, ömürlük azadlıqdan məhrum edilmiş məhkumlarla barəsində isə, bir ildən sonra baxıla bilər.

**4. Cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə.** Azərbaycan Respublikası CM-in 77.1-ci maddəsində qeyd olunur ki, "böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin cəzasını çəkdiyi dövrdə davranışını nəzərə alaraq, məhkəmə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər. Bu halda şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər". Məhkəməyə müsbət xarakterizə olunan məhkumlar barəsində cəzanın çəkilməmiş his-

səsinin daha yüngül cəza ilə əvəz edilməsi barədə təqdimatı cəzanı icra edən müəssisə və ya orqanın müdiriyyəti də göndərmək hüququna malikdir. Bu təqdimatda məhkumu xarakterizə edən məlumatlar olmalıdır. Cəzanı icra edən müəssisə və ya orqanın müdiriyyəti tərəfindən cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi barədə təqdimat göndərilməsi məhkumun və ya vəkilin (qanuni nümayəndənin) məhkəməyə şərti olaraq vaxtından əvvəl azad etmə barədə müraciət etmək hüququna mane olmur.

**5.** Məhkumların cəza çəkməkdən azad edilməsinin və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsinin əsaslarından biri də **amnistiya aktlarıdır**. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinin 6-cı bəndinə əsasən, amnistiya aktının verilməsi Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətləri dairəsinə aid edilmişdir. Amnistiya, bir qayda olaraq, qərar şəklində və dövlətin həyatında əlamətdar gün və hadisələrlə əlaqədar qəbul olunur. Amnistiya aktında həmin aktın hansı kateqoriya məhkumlara tətbiq edilməsi göstərilir. Hər bir amnistiya aktında onun şamil edilmədiyi məhkumlar kateqoriyasının siyahısı göstərilir.

Konkret məhkuma amnistiya tətbiq edilməsinin mümkünlüyünün öyrənilməsi üçün cəzaçəkmə müəssisələrində komissiya yaradılır. Bu komissiya məhkumun şəxsi işini öyrənir, tələb olunan sənədləri toplayır və yalnız bundan sonra amnistiyanın tətbiqi barədə qərar layihəsi hazırlayır. Bundan sonra həmin qərar razılaşdılrmaq üçün prokurorluğa təqdim olunur. Müvafiq qərar razılaşdırıldıqdan və cəzaçəkmə müəssisəsinə daxil olduqdan sonra məhkum cəzadan azad edilir. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum olunmuş məhkumlara amnistiya aktını prokurorluq orqanları ilə yanaşı aidiyyəti məhkəmələr də tətbiq

edir. Bu zaman amnistiya məhkuma cəzanı icra edən müəssusə və ya orqanın təqdimatı əsasında məhkəmə tərəfindən tətbiq olunur.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında amnistiya aktları mütəmadi olaraq qəbul edilir. Belə ki, 1995-2021-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 12 amnistiya aktı qəbul olunmuş, həmin humanist aktlar təxminən 135 minədək məhkum və təqsirləndirilən şəxsə tətbiq edilmişdir. Belə ki, yalnız "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikasının Milli Məclisinin 05 noyabr 2021-ci il tarixli Qərarı 17 mindən çox məhkuma və təqsirləndirilən şəxsə tətbiq edilmiş, onlardan 8 mindən artıq məhkum cəzanı çəkməkdən azad edilmişdir.

Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmənin və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsinin əsaslarından biri **əfvetmə aktıdır.** Məhkumların əfv edilməsi ilə bağlı məsələlər respublikamızın Cinayət və Cəzaların İcrası məcəllələri ilə yanaşı, həm də Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Əfvetmə haqqında Əsasnamə" ilə tənzimlənir. Əsasnamədə əfvetməyə dair ümumi müddəalar, əfvetmə barədə müraciət, bu müraciətlərin qəbulu, onlara baxılması və digər aidiyyəti məsələlər öz əksini tapmışdır. Əsasnamənin 37-ci bəndinə əsasən, əgər məhkum əfv edilməsi barədə müraciəti təmin edilmədikdə, təkrar müraciətə bir qayda olaraq, bir il keçdikdən sonra baxıla bilər. Lakin zəruri hallarda təkrar müraciətə daha tez müddətdə də baxıla bilər.

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumu əfv etməyə öz təşəbbüsü ilə də təqdim edə bilər. Burada əsas qismində məhkumun xüsusi xidmətləri, misal üçün, təhlükəli cinayətin qarşısını alma, müəssisə əməkdaşının, digər məhkumun həyatını xilas et-

mə, təbii fəlakət, yanğın, daşqın, zəlzələ zamanı xüsusi fədakarlıq göstərmə və digər hallar çıxış edə bilər. Azərbaycan Respublikasında əfvetmə institutundan mütəmadi istifədə edilməsi ənənəsini dövlətimizin ümummilli lideri Heydər Əliyev qoymuş və bu ənənə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Belə ki, 1995-2022-ci ilərdə Azərbaycan Respublikasında 9 minədək məhkumu əhatə edən 68 əfv fərman və sərəncamı imzalanmışdır. Bu məhkumların böyük hissəsi cəzanı çəkməkdən azad edilmişdir.

Nəhayət, cəza çəkməkdən vaxtından əvvəl azad etmənin əsaslarından biri də **xəstəliyə görə cəza çəkməkdən azad etmədir**. Cəzanın çəkidiyi müddətdə məhkum ağır və ya həyat üçün təhlükəli, o cümlədən psixi xəstəliyə düçar ola bilər. Əgər bu xəstəliklər cəzanın çəkilməsinə mane olarsa və ya məhkumun özünü idarəetməsinə ciddi problemlər yaradırsa, bu zaman Cinayət Məcəlləsinin 78-ci maddəsinə uyğun olaraq məhkumun cəzadan azad olunması məsələsinə baxıla bilər. Təcrübədə bir qayda olaraq, qeyd edilən xəstəliklərə müxtəlif xassəli şişlər, psixi pozğunluqlar, endokrin, sinir sistemi və hissiyyat üzvlərinin xəstəlikləri, habelə qan dövranının, tənəffüs sisteminin, həzm sistemi üzvlərinin xəstəlikləri və digərlərinə aid edilir. Lakin məhkumun həqiqətən ağır xəstəliyə düçar olması təsdiq olunmalı, yəni onun tibbi şəhadətləndirilməsi keçirilməlidir. Cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düşar olmuş məhkumların tibbi şəhadətləndirilməsi qaydaları Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli qərarı ilə təsdiq edilmişdir. Məhkumun cəza çəkməsinə mane olan xəstəliklər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş "Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklərin Siyahısı" ilə müəyyən olunmuşdur. Məhkumların həmin Siyahıda göstərilən xəstə-

liklərə düçar olmasını təsdiq etmək üçün onların tibbi şəhadətləndirilməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin Xüsusi Həkim Ekspert Komissiyası tərəfindən Penitensiar Xidmətin müalicə müəssisələrində həyata keçirilir. Məhkumlar penitensiar müəssisələrin tibb xidmətinin təqriri əsasında müəssisə müdiriyyətinin komissiyaya təqdimatı və ya məhkəmədən daxil olmuş müvafiq qərar əsasında komissiya tərəfindən şəhadətləndirilirlər. Məhkumların müvafiq komissiya tərəfindən şəhadətləndirilməsi xəstəliyin ağırlıq dərəcəsindən asılı olaraq mümkün qədər qısa müddət ərzində, psixi xəstəliyi olan məhkumlarla isə altı ayadək müddətə başa çatdırılır. Komissiya şəhadətləndirilməyə təqdim edilmiş xəstə məhkumlarda müəyyən edilmiş yekun kliniki diaqnozun cəzanın çəkilməsinə mane olması və Siyahıda göstərilən xəstəliklərə uyğunluğu barədə rəy verir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin elmi-tədqiqat və müalicə müəssisələrinin həkim-mütəxəssisləri şəhadətləndirmə üçün təqdim edilmiş xəstə məhkumlarda yekun kliniki diaqnozun müəyyən olunmasına cəlb oluna bilərlər. Şahadətləndirmə barədə komissiyanın rəyi Tibb Baş İdarəsi tərəfindən məhkəməyə və məhkumun cəza çəkdiyi müəssisənin müdiriyyətinə, bu barədə məlumat isə Penitensiar Xidmətin baş idarəsinə göndərilir. Məhkum, onun müdafiəçisi və ya qanuni nümayəndəsi komissiyanın rəyindən inzibati və məhkəmə qaydasında şikayət verə bilər. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumun təyin edilmiş cəzasını çəkməsinə mane olan psixi və ya sair ağır xəstəliyə düçar olması haqqında komissiyanın rəyini aldıqdan sonra üç gündən gec olmayaraq onun cəzadan azad edilməsi barədə təqdimatla məhkəməyə müraciət edir. Təqdimata komissiyanın rəyi və digər zəruri sənədlər əlavə edilir.

Cəza çəkdiyi müddət ərzində özünə qəsdən xəsarət yetirməsi

nəticəsində xəstəliyin əmələ gəlməsi müəyyən edilərsə (özünə xəsarət yetirərkən məhkumun ağır və kəskin psixi pozulma vəziyyətində olması həkim-mütəxəssislər tərəfindən təsdiq edilən hallar istisna olmaqla) məhkum şəhadətləndirilmək üçün komissiyaya təqdim edilmir. Məhkumun xəstəliyə görə cəza çəkməkdən azad edilməsi barədə təqdimat məhkəmə tərəfindən rədd edildikdə və sonradan xəstəliyin gedişatında və vəziyyətində ağırlaşma müşahidə olunduqda, məhkəmənin rədd qərarının çıxarılması vaxtından asılı olmayaraq yuxarıda göstərilən prosedurlara riayət olunmaqla həmin şəxsin təkrarən tibbi şəhadətləndirilməsi həyata keçirilir.

Cəza çəkmə yeri məhkumun iradəsindən asılı olmadığı üçün onlar azad olunarkən yaşayış yerinə getmək üçün gediş haqqı ilə təmin olunurlar. Bir qayda olaraq bu yaşayış yeri onun həbs edilənədək yaşadığı yerdir. Lakin azad olunan şəxs digər yaşayış yerini də seçə bilər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 5 aprel 2001-ci il tarixli 76 nömrəli qərarı ilə təsdiq edilmiş “Cəza çəkməkdən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası”nın 4-cü bəndinə əsasən, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərə Naxçıvan Muxtar Respublikasına getmək üçün təyyarə biletinin haqqı, digər bölgələrdəki yaşayış yerinə getmək üçün isə marşrut avtobuslarında müəyyən edilmiş gediş haqqı ödənilir. Onların arzusu ilə başqa nəqliyyat xidmətindən istifadə edilərsə, gediş haqları arasındakı fərq özləri tərəfindən ödənilməlidir.

Məhkumlar təyinat məntəqəsinə getmək üçün yolda olduqları vaxt ərzində ərzaq məhsulları ilə təmin olunurlar. Ərzaq məhsullarının verilməsi müəyyən səbəblərə görə mümkün olmazsa, azad edilənlərə yolda olduqları hər sutkaya pul kompensasiyası ödəni-

lir. Bundan başqa, azad edilmiş şəxslərin zəruri mövsümi geyimi, ayaqqabısı olmadıqda və bunları əldə etmək üçün imkan olmadıqda, azad edilənlər dövlət hesabına geyim və ayaqqabı ilə təmin olunurlar. Azad edilən şəxslərə birdəfəlik pul müavinəti də verilə bilər.

Cəza çəkməkdən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən həyata keçirilir.

Cəza çəkməkdən azad etmə Azərbaycan Respublikasının vətəndaşı kimi məhkumların hüquq və azadlıqlarının məhdudlaşdırılmasını müəyyən edən normaların qüvvədən düşməsinə əsas yaradır. Azərbaycan Respublikası CİM-in 174-cü maddəsinə əsasən istisnalar, yalnız məhkumluğun məzmununu təşkil edən məhdudiyyətlər üçün müəyyən edilmişdir. Başqa sözlə, əgər cəza çəkməkdən azad edilmiş şəxsin məhkumluğu hələ saxlanırsa, onun üçün qanunla müəyyən edilmiş bəzi məhdudiyyətlər məhkumluq götürülənədək və ya ödənilənədək yenə də öz qüvvəsini saxlayır. Misal üçün, onlar hüquq-mühafizə orqanlarında xidmətə qəbul edilə bilməzlər; “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanununun 7-ci maddəsinin IV hissəsinin 3-cü bəndinə əsasən onların xidməti və ya mülki silah əldə etməsi qadağandır və s. Məhkumluğun məzmununu təşkil edən məhdudiyyətlər qəti müəyyən edilmiş sosial-siyasi dəyərlərin dairəsini təmin etmək üçün (misal üçün, ölkənin konstitusiya quruluşunu, mənəviyyatı, digər şəxslərin sağlamlığını, hüquq və qanuni mənafelərini müdafiə etmək, dövlətin müdafiəsini və təhlükəsizliyini təmin etmək üçün) müəyyən edilə bilər. Hüquq və azadlıqların məhdudiyyətlərinin bu əsasları Azərbaycan Respublikasının Konstitusiyasının, BMT-nin və Avropa

Şurasının bir sıra beynəlxalq aktlarının müddəalarına əsaslanır.

Qeyd olunduğu kimi, islah olunma dərəcələrindən asılı olaraq, qanunvericilikdə nəzərdə tutulmuş əsaslar mövcud olduqda, məhkumlar, cəzadan azad edilməlidirlər. Cəza çəkməkdən azad edilmiş şəxslərin islah olunması prosesini davam etdirmək üçün onlara azadlıqda zəruri şərait yaradılmalıdır. Bu proses məhkumların **sosial adaptasiyası** adlanır. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasını obyektiv cəhətdən çətinləşdirən bir sıra amillər mövcuddur. Hər şeydən öncə həmin şəxslərin müəyyən müddət ərzində azadlıqdan məhrum etmə şəraitində yaşamasıdır. Belə bir şərait özünün xarakterinə görə adi həyat şəraiti ilə ziddiyyət təşkil edir. Bir tərəfdən, azadlıqdan məhrum etmə yerlərində mövcud olan şərait məhkumlara müsbət təsir göstərməlidir. Çünki bütün tənbeh-tərbiyə prosesi cinayətkar fəaliyyət əleyhinə şərait yaradılmasına kömək edir və göstərir ki, törədilən hər bir cinayət əməli həm cəmiyyət üçün, həm də cinayətkarın özü üçün bir sıra əlverişsiz nəticələrə səbəb olur. Belə nəticələrdən biri ailə ilə, qohumlarla, tanışlarla, əmək kollektivləri ilə və digər faydalı sosial əlaqələrin kəsilməsidir. Belə mənfi nəticəni zəiflətmək üçün qanunvericilik təminat xarakterli bir sıra tədbirlər nəzərdə tutur: məhkumların yazışmasında məhdudiyyət yoxdur, onlar azad insanlarla görüşürlər, bağlama, sovqat və banderol alırlar, telefon danışıqlarından istifadə edirlər. Lakin bu tədbirlər, şübhəsiz ki, daimi ünsiyyəti tamamilə əvəz edə bilməz.

Sosial adaptasiyanı çətinləşdirən ikinci mənfi nəticə məhkumun müəyyən müddət ərzində özü kimi şəxslərin, başqa sözlə, cinayətkarların cəmləşdiyi ərazidə yaşamasıdır. Təbii ki, belə vəziyyət məhkuma, xüsusilə də ilk dəfə azadlıqdan məhrum edilmiş məhkuma mənfi təsir göstərir.

Sosial adaptasiyanı çətinləşdirən növbəti problem, məhkum-

ların çox vaxt müstəqil qərar qəbul etmək iqtidarında olmaması ilə bağlıdır. Belə ki, məhkumarın cəzaçəkmə müəssisəsindəki həyat fəaliyyətini müdiriyyət müəyyən edir, məhkumlar öz büdcələrini planlaşdırmır, özlərini mənzillə, paltarla, ərzaq məhsulları ilə təmin etmirlər və s.

Beləliklə, sosial adaptasiya azadlıqdan məhrum etmə cəzasının icrası ilə əlaqədar cəzaçəkmə müəssisəslərinin müdiriyyəti tərəfindən məhkumla keçirilən islah işinin nəticələrini möhkəmlətmək, bu cəzanın məhkumlara göstərdiyi mənfi təsiri aradan qaldırmaq zərurətindən irəli gəlir. Azadlıqdan məhrum edilmiş şəxsin məhkəmə hökmünə uyğun olaraq cəmiyyətdən təcrid edilməsi, cəzaçəkmə müəssisəsi kimi qapalı ərazidə yerləşdirilməsi bu şəxsin mövcud əlaqələrinin kəsilməsinə, cəmiyyətdə gedən proseslərdə iştirakdan kənarlaşdırılmasına gətirib çıxarır. O, öz arzusundan asılı olmayaraq müxtəlif xarakterə, yaşa, sosial pozğunluq dərəcəsinə malik olan şəxslərlə bir yerdə yaşamağa məcbur olur. Ən xırda detallarına qədər qanunla tənzimlənən, cəzaçəkmə müəssisəsinin müdiriyyətinin daimi nəzarəti altında keçən belə həyat tərzi müstəqil qərar qəbul etmə, qayğı və digər faydalı sosial vərdişlərin zəifləməsi, şəxsi məsuliyyət hissinin kütləşməsi və s. kimi belə neqativ proseslərlə nəticələnir. Bütün bunlar məhkumun psixologiyasına, psixikasına və nəhayət, şəxsiyyətinə mənfi təsir göstərir. Məhkumun, xüsusilə də ilk dəfə azadlıqdan məhrum edilmiş şəxsin cəzaçəkmə müəssisəsindəki mühitə uyğunlaşması prosesi müəyyən çətinliklər doğursa da, məhkumun sonradan azad həyat şəraitinə yenidən uyğunlaşması istər onun özü üçün, istərsə də cəmiyyət üçün daha böyük problemlər yaradır. Məhz bu problemin həllini hüquq elmi sosial adaptasiyanın həyata keçirilməsində, onun düzgün və vaxtında təşkilində görür.

Hüquq ədəbiyyatında **sosial adaptasiya** – **cəza çəkmiş şəxs-**

**lərin sosial mühitə uyğunlaşması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, azad olunmuşlar tərəfindən törədilə biləcək yeni hüquq pozuntularının, xüsusilə cinayətlərin və bu şəxslərə təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemi** kimi ifadə olunur. Eyni zamanda sosial adaptasiya, azadlıga çıxmış şəxsin yeni mühitə alışması, burada səciyyəvi olan qaydaların, normaların, sosial mövqelərin və digər məsələlərin mənimsənilməsi, azad insanlar cəmiyyətində qanunaitaətli tərzdə, normal yaşamaga imkan verən vərdişlər əldə etməsidir.

Məhkumların azad edildikdən sonra cəmiyyətə daha asan uyğunlaşmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasında 31 may 2007-ci il tarixli "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanun qəbul edilmişdir. Bu Qanunda sosial adaptasiyanın anlayışı, prinsipləri, müvafiq tədbirlər və onların məzmunu, sosial adaptasiya tədbirlərini həyata keçirən müəssisə və orqanlar, habelə digər məsələlər öz əksini tapmışdır. Eyni zamanda, Azərbaycan Respublikası CİM-in 175-ci maddəsinə 06 noyabr 2007-ci il tarixli qanunla dəyişikliklər edilərək, həmin maddə yeni redaksiyada verilmişdir. Qeyd olunan qanuna və Azərbaycan Respublikası CM-in müvafiq maddəsinə uyğun olaraq cəza çəkməkdən azad edilməyə hazırlıq məqsədilə cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumlarla hazırlıq işləri aparır, onlara hüquq və vəzifələrini izah edir, sosial adaptasiya ilə baglı qanunvericilik haqqında məlumat verir. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti cəza müddətinin sonuna üç ay qalmış məhkumların siyahısını Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir. Bu Nazirliyin nümayəndələri cəzaçəkmə müəssisəsinin

müdiriyyəti ilə birlikdə azad olunacaq məhkumlar arasında sosial adaptasiyaya ehtiyacı olan şəxsləri müəyyən edir və onların razılığı əsasında qeydiyyata alır. Bu şəxslərə hüquq və vəzifələri, sosial adaptasiya tədbirlərinin məzmunu və həyata keçirilməsi qaydası izah edilir. Cəza müddəti qurtarmaqla cəza çəkməkdən azad edilmə istisna olmaqla, digər əsaslarla (əfv, amnistiya və s.) azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslər barədə cəzaçəkmə müəssisəsinin müdiriyyəti dərhal Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini məlumatlandırır, onların sosial adaptasiya mərkəzlərinə göndərməsi ilə baglı birgə tədbirlər görülür. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası qanunculuq, humanizm, sosial ədalət, ünvanlılıq və könünlülük prinsiplərinə əsaslanmaqla həyata keçirilir. Cəza çəkməkdən azad edilmiş səxslərin sosial adaptasiyası Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yaradılan sosial adaptasiya mərkəzlərində həyata keçirilir. Sosial adaptasiya hüququndan Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər, habelə digər dövlətlərin penitensiar müəssisələrində cəza çəkməkdən azad edildikdən sonra üç ay müddətində Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşları istifadə edə bilərlər. Qanunvericiliyə əsasən sosial adaptasiya müddəti bir ildir, müstəsna hallarda bu müddət daha bir llədək uzadıla bilər.

Sosial adaptasiya tədbirlərinə aşagıdakılar aiddir:

- ❖ cəza çəkməkdən azad edilmiş şəxslərin qeydiyyata alınması, onlarla hazırlıq işlərinin aparılması;
- ❖ daimi yaşayış sahəsi olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi;
- ❖ cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlıgı işi-

nin təşkili, onların işlə təmin edilməsi, tibbi və sosial yardım göstərilməsi;

- ❖ peşə-ixtisas təhsili almağa şərait yaradılması;
- ❖ şəxsiyyəti təsdiq edən və digər zəruri sənədlərlə təmin edilmə;
- ❖ birdəfəlik pul müavinətinin verilməsi;
- ❖ hüquqi, psixoloji və informasiya yardımı göstərilməsi və s.

Qeyd olunan vəzifələri aidiyyəti üzrə müvafiq vəzifələr daşıyan dövlət təşkilatları, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Səhiyyə, Daxili İşlər və digər nazirlikləri həyata keçirirlər. Bu dövlət orqanları arasnda koordinator rolunu Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir. Sosial adaptasiya tədbirlərində dövlət orqanları ilə yanaşı qeyri-hökumət təşkilatları da iştirak edə bilərlər.

## Mövzu 21. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslərə nəzarət

Əvvəlki mövzularda göstərildiyi kimi hərbi qulluqçular istisna olmaqla, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarət, o cümlədən bu məhkumlara probasiya nəzarətinin həyata keçirilməsi Azərbaycan Respublikası CİM-in 15-ci və 15-1-ci maddələrinə əsasən məhkumun yaşadığı yer üzrə probasiya qurumunun icra məmuruna həvalə edilmişdir.

Cinayət qanununa əsasən məhkəmə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edərkən məhkumun real cəza çəkmədən islah olunmasının mümkünlüyü qənaətinə gələrsə, həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər. Şərti məhkum etməni nəzərdə tutan Azərbaycan Respublikası CM-in 70-ci maddəsinə əsasən bu institutun tətbiqi əsasları kimi törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, məhkumun şəxsiyyəti, cəzanı ağırlaşdıran və yüngülləşdirən hallar çıxış edir. Qanunvericiliyə əsasən məhkumun öz davranışı ilə islah olunmasını sübut etməsi üçün ona altı aydan beş ilədək müddətə sınaq müddəti müəyyən edilir. Məhkəmə şərti məhkum edilmiş şəxsin üzərinə Azərbaycan Respublikası CM-in 70.5-ci maddəsində nəzərdə tutulan və onun islah olunmasına kömək edən aşağıdakı vəzifələri qoya bilər:

- davranışı üzərində nəzarəti həyata keçirən orqanlara məlumat vermədən daimi yaşayış yerini, təhsil yerini, iş yerini dəyişməmək;

- ➢ müəyyən yerlərə getməmək;
- ➢ alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;
- ➢ ailəsinə maddi yardım göstərmək;
- ➢ elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək.

Eyni zamanda məhkəmə məhkumun üzərinə onun islah olunmasına kömək edən digər vəzifələr də qoya bilər.

Azərbaycan Respublikası CM-in 76-cı maddəsinə uyğun olaraq məhkəmə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edərkən, məhkumun üzərinə cəzanın çəkilməmiş müddəti ərzində onun tərəfindən icra edilməli olan şərti məhkum etmə zamanı nəzərdə tutulan və yuxarıda sadalanan vəzifələri qoya bilər.

Azərbaycan Respublikasının CM-i hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması institutunu nəzərdə tutmuşdur. Həmin Məcəllənin 79-cu maddəsinə əsasən şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər istisna olmaqla, məhkəmə məhkum edilmiş hamilə qadınlar və ya on dörd yaşına qədər uşağı olan qadınlar, habelə on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər tərəfindən uşaq on dörd yaşına çatanadək cəzanın çəkilməsini təxirə sala bilər.

Yuxarıda qeyd olunan hər üç kateqoriyalı məhkumlara nəzarətin həyata keçirilməsi, müvafiq insitutların tətbiqi ilə bağlı qanunvericiliklə məhkum üzərinə qoyulmuş vəzifələrin icrası, onların pozulması təqdirində məsuliyyət və digər məsələlər Azərbaycan Respublikası CM-in 70-71, 76 və 79-cu, Azərbaycan Respublikası CİM-in 172-173, 178-182-ci, "İcra məmurları haqqında" Qanunun 1, 7-8-ci maddələri, habelə onlara uyğun hazır-

lanmış və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 24 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətin həyata keçirilməsi Qaydaları" ilə tənzimlənmişdir. Cinayət Məcəlləsinin sadalanan institutları tətbiq edilmiş şəxslər üzərində nəzarətin həyata keçirilməsində məqsəd məhkəmə tərəfindən məhkumun üzərinə qoyulmuş vəzifələrin müvafiq müddətlər ərzində yerinə yetirilməsini və islah olunmalarını müəyyən etməkdir.

Şərti məhkum etmənin təyin edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilməsi və ya cəzanın çəkilməsinin təxirə salınması barədə məhkəmə hökmlərinin (qərarlarının) icraya qəbul edilməsi məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) surəti və onun icrası barədə hakimin göstərişi əsasında həyata keçirilir. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış şəxslərin cəza müddəti müvafiq məhkəmə hökmü və ya məhkəmənin digər yekun (qərarının) qüvvəyə mindiyi gündən başlayır.

İcra məmuru göstərilən məhkumlar barədə məhkəmə hökmünün (qərarının) surətini və göstərişi aldıqda, həmin məhkəməyə bu barədə dərhal məlumat verir, nəzarətin təmin edilməsi ilə bağlı tədbirlərə başlayır. Belə məhkumlara məhkəmə hökmü ilə əlavə cəzalar təyin edildikdə, onların icrası Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış məhkumlar məhkəmənin hökmünun (qərarının) tələblərinə riayət etməli, üzərlərinə qoyulmuş vəzifələri, icra məmurunun qanuni tələbərini ye-

rinə yetirməli və onun çağırışı ilə gəlməlidirlər. Bu məhkumlar qeydiyyata götürülməsi ilə əlaqədar üzrsüz səbəbdən icra məmuruna müraciət etmədikdə, onların yerinin müəyyən edilməsi üçün tədbirlər həyata keçirilir. Həmin tədbirlər nəticə vermədikdə, icra məmurunun qərarı ilə axtarış elan edilir və qərarın surəti icra olunması üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərilir.

İcra məmuru məhkumları qeydiyyata götürdükdən sonra onlarla söhbət aparır, hüquqlarını, qanunla və məhkəmənin hökmü (qərarı) ilə onların üzərinə qoyulmuş vəzifələrini izah edir, yol verilə biləcək pozuntulara görə qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri nəzərlərinə çatdırır və bu barədə protokol tərtib edir. Həmin protokol icra məmuru və məhkum tərəfindən imzalanır. Əgər məhkum protokolu imzalamaqdan imtina edərsə, bu barədə protokolda müvafiq qeyd aparılır. İcra məmuru cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış şəxsi qeydiyyata aldıqdan sonra üç gün ərzində onun azad edildiyi cəzaçəkmə müəssisəsinə məlumat göndərir.

Məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi, dəyişdirilməsi, çıxarılması və bu vasitələrlə bağlı digər məsələlər Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli qərarı ilə təsdiq edilmiş "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları" ilə tənzimlənir.

Məhkumlar üzərində probasiya nəzarətini həyata keçirən icra məmuru aşağıdakı əsas vəzifələri yerinə yetirir:

- ❖ məhkumlara şəxsi iş açır;
- ❖ onların qeydiyyatını aparır;

❖ məhkumlara qanunla və məhkəmənin hökmü (qərarı) ilə onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinin qayda və şərtlərini izah edir;

❖ onlar barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərir;

❖ "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq hərbi vəzifəlilərə və ya çağırışçılara şərti məhkum etmənin təyin edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilməsi və ya onların cəzasının çəkilməsinin təxirə salınması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) surətini aldıqdan yeddi gün müddətində həmin hökm (qərar) barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat verir;

❖ məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron nəzarət vasitələrini tətbiq edir və bu şəxslər tərəfindən həmin vasitələrdən istifadə qaydalarına riayət edilməsinə nəzarət edir;

❖ məhkumların Azərbaycan Respublikasının CİM-i ilə müəyyən edilmiş qaydalara və şərtlərə riayət etməsinə nəzarət edir;

❖ üzərinə Azərbaycan Respublikasının CM-də nəzərdə tutulmuş vəzifələr qoyulmaqla şərti məhkum edilmiş, yaxud da cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasını təmin edir;

❖ məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirir;

❖ olduqları yer müəyyən edilməyən məhkumların axtarışını təşkil edir;

❖ məhkumlar üzərində probasiya nəzarətinin həyata keçirilməsindən irəli gələn digər vəzifələri yerinə yetirir.

İcra məmuru şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə nəzarəti həyata keçirərkən:

❖ üzərinə məlumat vermədən təhsil və iş yerini dəyişməməklə bağlı vəzifə qoyulmuş şəxsin təhsil aldığı müəssisənin müdiriyyətini və işəgötürəni məhkəmənin hökmü (qərarı) barədə məlumatlandırır, onlardan şəxsin təhsil və iş yerini dəyişməsi ilə bağlı icra məmurunu dərhal məlumatlandırmağı xahiş edir;

❖ üzərinə alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçməklə bağlı vəzifə qoyulmuş şəxsin müalicəsinin həyata keçirildiyi müvafiq tibb müəssisəsinin müdiriyyətini məhkəmənin hökmü (qərarı) barədə məlumatlandırır, həmin məhkumun müalicəyə cəlb olunmasını təşkil edir, bu şəxsin müalicəsinin başa çatması, müalicədən yayınması və ya imtina etməsi ilə əlaqədar ona dərhal məlumat verməyi xahiş edir;

❖ üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməklə bağlı vəzifələr qoyulmuş şəxsin hərəkətləri barədə məlumat almaq məqsədilə Probasiya xidmətinin Elektron Monitorinq İdarəsi ilə əlaqə saxlayır;

❖ üzərinə ailəsinə maddi yardım göstərmək vəzifəsi qoyulmuş şəxsin ailə üzvləri ilə ayda iki dəfədən az olmayaraq əlaqə saxlayır və ya həmin ailələrə başçəkmə həyata keçirir;

❖ üzərinə məlumat vermədən daimi yaşayış yerini dəyişməmək, müəyyən yerlərə getməmək vəzifələri qoyulmuş şəxsi ayda iki dəfədən az olmayaraq onun yaşayış yerinə başçəkmə, habelə

telefon əlaqəsi saxlanılmaqla yoxlayır.

Şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərin üzərinə məhkəmə tərəfindən onun islah olunmasına kömək edən digər vəzifələr qoyulduqda, icra məmuru həmin vəzifələrin xüsusiyyətlərindən asılı olaraq müvafiq tədbirlər həyata keçirir.

İcra məmuru cəzasının çəkilməsi təxirə salınmış şəxslərə nəzarəti həyata keçirərkən:

❖ uşağı tərbiyə etməkdən boyun qaçırma və ya uşaqdan imtina etmə hallarını müəyyən etmək məqsədilə ayda bir dəfədən az olmayaraq şəxsin yaşayış yerinə başçəkmə həyata keçirir və nəticələrini başçəkmələrlə bağlı cədvəldə qeydlər edir;

❖ şəxs uşağı tərbiyə etməkdən boyun qaçırdıqda və ya uşaqdan imtina etdikdə, onun qohumları və habelə məhkuma müsbət təsir göstərə bilən şəxslərlə profilaktik söhbətlər aparır;

❖ şəxs işə girdikdə iş yeri üzrə işəgötürənə onun barəsində məlumat göndərir.

Məhkumla keçirilmiş tədbirlərin və söhbətlərin nəticələri barədə protokol tərtib olunur, icra məmuru və məhkum tərəfindən imzalanır. Məhkum protokolu imzalamaqdan imtina etdikdə bu barədə protokolda müvafiq qeyd aparılır. Protokol məhkumun şəxsi işinə əlavə olunur.

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra məmurlarının qanuni tələbləri Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər üçün məcburidir və bu tələbləri yerinə yetirməyən, habelə icra məmuruna həvalə olunmuş vəzifələrin icrasına mane olan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Şərti məhkum edilmiş, şərti olaraq vaxtından əvvəl azad olunmuş və ya barələrində cəzanın çəkilməsi təxirə salınmış şəxs-

lər məhkəmə tərəfindən üzərlərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən boyun qaçırdıqda, yaxud ictimai qaydaları pozduğuna görə barələrində inzibati tənbeh tətbiq olunduqda qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər. Qeyd olunan məhkumlara münasibətdə məsuliyyətə cəlb olunma halları qanunvericiliklə fərqli tənzimlənmişdir.

Belə ki, **şərti məhkum edilmiş şəxs** məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən boyun qaçırdıqda və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, icra məmuru, yaxud hərbi hissənin komandiri sınaq müddətinin uzadılması barədə məhkəməyə təqdimat verir. Eyni zamanda, məhkumun üzərinə onun islah olunmasına kömək edən yeni vəzifələrin qoyulması barədə məhkəməyə təqdimat verilə bilər. Cinayət Məcəlləsinə əsasən sınaq müddəti bir ildən çox olmayaraq uzadıla bilər.

Şərti məhkum edilmiş şəxs sınaq müddətində məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda, o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etmədikdə, icra məmuru, yaxud hərbi hissənin komandiri şərti məhkum etmənin ləğv edilməsi və məhkumun hökmlə təyin olunmuş cəzasının icra olunması barədə məhkəməyə təqdimat verir. Şərti məhkum edilmiş şəxs tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində dəfələrlə yerinə yetirilməməsi sınaq müddəti ərzində vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.

On gündən artıq müddətdə olduğu yer üzrsüz səbəbdən müəyyən edilməyən və ya elektron nəzarət vasitəsini gəzdirmək-

dən imtina edən, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməyən, elektron nəzarət vasitəsini zədələyən və ya digər üsulla yararsız vəziyyətə salan şərti məhkum edilmiş şəxs ona həvalə edilmiş vəzifələri yerinə yetirməkdən qərəzli boyun qaçırmış hesab edilir.

**Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs** məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi, yaxud qərəzli olaraq boyun qaçırdıqda, o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etmədikdə və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, icra məmuru, yaxud hərbi hissənin komandiri şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunması haqqında məhkəməyə təqdimat verir. Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində dəfələrlə yerinə yetirilməməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir. On gündən artıq müddətdə olduğu yer müəyyən edilməyən və ya elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edən, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət göstərməyən, elektron nəzarət vasitəsini zədələyən və ya digər üsulla yararsız vəziyyətə salan şəxs ona həvalə edilmiş vəzifələri yerinə yetirməkdən qərəzli boyun qaçırmış hesab edilir.

**Cəzasının çəkilməsi təxirə salınmış** məhkum hökmdə müəyyən olunmuş dövrdə uşağı tərbiyə etməkdən boyun qaçırdıqda və ya uşaqdan imtina etdikdə icra məmuru həmin şəxsi probasiya qurumuna çağırır və ya onun yaşayış yerinə baş çəkir. İcra məmuru məhkumla profilaktik söhbət aparılmasından sonra ona

imza etdirilməklə rəsmi xəbərdarlıq edir. Məhkum imza etməkdən imtina etdikdə, bu barədə protokol tərtib edilir. Məhkum xəbərdarlıqdan sonra uşaqdan imtina etdiyi və ya uşağı tərbiyə etməkdən boyun qaçırmaqda davam etdiyi halda icra məmuru məhkumun yaşayış yeri üzrə məhkəməyə cəzanın çəkilməsinin təxirə salınmasının ləğvi və məhkumun hökmlə (qərarla) müəyyən olunmuş cəzanın icrası yerinə göndərilməsi haqqında təqdimat verir. Təqdimata cəzanın çəkilməsinin təxirə salınması haqqında qərarın surəti əlavə olunur.

Məhkəmə uşaq on dörd yaşına çatdıqda və ya uşaq vəfat etdikdə məhkumun davranışı, uşağın tərbiyəsinə münasibəti nəzərə alınmaqla onun cəzadan azad edilməsi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi barədə qərar qəbul edir. Məsələyə baxılarkən icra məmurunun mülahizəsi nəzərə alınır.

Cinayət qanunvericiliyi şərti məhkum etmənin ləğv edilməsini nəzərdə tutmuşdur. Azərbaycan Respublikası CM-in 71.1-ci maddəsinə əsasən məhkəmə sınaq müddətinin azı yarısı keçdikdən sonra şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut etdiyi halda, icra məmurunun təqdimatı əsasında şərti məhkum etmənin ləğv edilməsi barədə qərar qəbul edə bilər. Təqdimata məhkum üzərində nəzarətin həyata keçirilməsi ilə əlaqədar sənədlər də əlavə edilir.

Məhkəmə şərti məhkum etmənin ləğv edilməsi qənaətinə gəldikdə, məhkumu tamamilə və ya qismən əlavə cəzadan da azad edə bilər. Eyni zamanda, şərti məhkum etmə ləğv edildikdə məhkumun əlavə cəzası olmadığı və ya o, əlavə cəzadan tamamilə azad edildiyi hallarda məhkəmə, həmçinin şəxsin məhkumluğunun götürülməsi barədə qərar qəbul edir.

Yuxarıda göstərilən məhkumların olduğu yer müəyyən edil-

mədikdə, icra məmuru on günədək müddətdə cəza çəkən şəxsin axtarılması ilə əlaqədar ilkin tədbirləri həyata keçirir. Qeyd olunan müddətdə məhkumun olduğu yer müəyyən edilmədikdə, icra məmuru onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul edir, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş qaydada aidiyyəti prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərarı, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə axtarış işinin açılması və məhkumun tutulması üçün aidiyyəti polis orqanına göndərilir.

Şərti məhkum edilmiş, şərti olaraq vaxtından əvvəl azad olunmuş və ya cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarətin dayandırılması və onların qeydiyyatdan çıxarılması qanunvericilikdə nəzərdə tutulmuş aşağıdakı əsaslarla həyata keçirilir:

- ❖ şərti məhkum edilmiş şəxs barəsində təyin edilmiş sınaq müddəti və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxsin cəzasının çəkilməmiş hissəsi başa çatdıqda;
- ❖ cəzasının çəkilməsi təxirə salınmış şəxs cəzadan azad edildikdə, cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə və ya cəzaçəkmə müəssisəsinə göndərildikdə;
- ❖ şərti məhkum etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməsinin təxirə salınması ləğv edildikdə və məhkum ona məhkəmənin hökmü (qərarı) ilə təyin olunmuş cəzanı (cəzanın çəkilməmiş hissəsini) çəkməyə göndərildikdə;
- ❖ məhkum barəsində amnistiya aktı tətbiq edildikdə;
- ❖ məhkum əfv edildikdə;
- ❖ məhkəmənin hökmü (qərarı) ləğv edildikdə;

❖ məhkum yeni cinayət törətdiyinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edildikdə;

❖ məhkum bəraət aldıqda;

❖ məhkum öldükdə və ya məhkəmə tərəfindən ölmüş elan edildikdə.

## Mövzu 22. Xüsusi müsadirənin və hüquqi şəxslər barədə tətbiq edilən digər cinayət-hüquqi tədbirlərin icrası

Azərbaycan Respublikasında cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi ilə əlaqədar 07 mart 2012-ci il tarixli Qanunla ölkənin Cinayət Məcəlləsinə dəyişikliklər edilmişdir. Bu dəyişikliklərlə fiziki və hüquqi şəxslərə tətbiq edilən xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir, habelə hüquqi şəxslər barəsində tətbiq olunan digər cinayət-hüquqi tədbirlərin növləri müəyyən olunmuşdur.

Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir məhkəmənin qərarı ilə Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsində göstərilən əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasıdır. Xüsusi müsadirə aşağıdakı əmlak barədə tətbiq edilə bilər:

- fiziki və ya hüquqi şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla);
- fiziki və ya hüquqi şəxsin cinayət yolu ilə əldə etdiyi pul vəsaitləri və ya digər əmlak, habelə həmin pul vəsaitləri və ya digər əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan pul vəsaitləri və ya digər əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla);
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi;
- terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak.

Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin tətbiq edil-

məsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, onun icrası barədə göstərişi və əmlakın siyahısının surətini məhkumun və ya hüquqi şəxsin və ya müsadirə olunan əmlakının yerləşdiyi yerin icra məmuruna göndərir və bu barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verir. Məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilməli əmlakın kimə mənsub olması haqqında mübahisə olarsa, bu mübahisə mülki məhkəmə icraatı qaydasında həll edilir.

İcra məmuru xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası ilə bağlı məhkəmənin yekun qərarının surətini, onun icrası barədə göstərişi aldıqdan sonra dərhal əmlak siyahısında göstərilən əmlakın mövcudluğunu yoxlayır. Müsadirə edilən əmlak plomblanır və ya möhürlənir, bu barədə tərtib edilmiş müvafiq siyahıda qeydlər edilir. Müsadirə edilən əmlakın saxlanılması üçün icra məmuru tərəfindən zəriri tədbirlər həyata keçirilməlidir. Xüsusi müsadirə edilməli əmlak hüquqi və ya fiziki şəxslərdə, yaxud dövlət qurumunda olarsa, onlar bu barədə məhkəməyə və ya Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə xəbər verməlidir.

Hüquqi və fiziki şəxslər, həmçinin dövlət qurumları onlara saxlanılmaq üçün verilən müsadirə edilən əmlakın qorunub saxlanılmasını təmin etməlidirlər. Müsadirə edilən əmlakın gizlədilməsinə, israf edilməsinə, özgəninkiləşdirilməsinə və ya dəyişdirilməsinə görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin müsadirə edilmiş əmlakı, bu əmlak barəsində irəli sürülən bütün tələblər qanunla müəyyən edilmiş qaydada təmin edildikdən sonra, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verilir. Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə veril-

məsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası" ilə tənzimlənir.

Xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlakın qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. Əmlakın qiymətləndirilməsinin keçirilməsi ilə bağlı xərclər, o cümlədən ekspertin əməyi (dəyəri 5000 manatdan yüksək olan əmlakın qiymətinin 1 faizindən çox olmamaqla) cinayət törətmiş şəxsin hesabına, bu mümkün olmadıqda isə xüsusi müsadirə edilmiş digər əmlakların satışından əldə edilən vəsaitlər hesabına ödənilir. Hüquqi və fiziki şəxslər, həmçinin dövlət qurumları əmlakın qiymətləndirilməsi üçün şərait yaratmalıdırlar. Qiymətləndirmənin nəticələrinə dair hesabatda həmin əmlakı eyniləşdirməyə imkan verən məlumatlar (dövlət qeydiyyatı barədə məlumatlar, identifikasiya kodu, nömrəsi, modeli, istehsal tarixi və s.) göstərilməlidir.

İcra məmuru xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlakın qiymətləndirilməsinin nəticələrinə dair hesabatı və müvafiq sənədləri Maliyyə Nazirliyinə təqdim edir. Maliyyə Nazirliyi tərəfindən həmin əmlakın aidiyyəti üzrə təhvil götürülməsi barədə məktub aidiyyəti təşkilatlara göndərilir.

Xüsusi müsadirə edilməli əmlakın təhvil verilməsi tarixi icra məmuru tərəfindən Maliyyə Nazirliyinin yerli maliyyə orqanının və əmlakı təhvil alan aidiyyəti təşkilatın nümayəndələri ilə razılaşdırılır.

Maliyyə Nazirliyi xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlak barədə məlumatları icmallaşdırır və onların əsasında həmin əmlakın uçotunun aparılmasını təşkil edir. Xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlakın uçotunun

aparılması Maliyyə Nazirliyinin müəyyən etdiyi qaydaya əsasən həyata keçirilir. Xüsusi müsadirə edilmiş dövlət mülkiyyətinə keçən əmlak Maliyyə Nazirliyi tərəfindən sözügedən Qaydaya uyğun olaraq müvafiq dövlər orqanlarına təhvil verilir.

Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xüsusi müsadirə edilməklə dövlət mülkiyyətinə keçirilmiş əmlakın, habelə həmin əmlakın satışından əldə edilmiş pul vəsaitinin bir hissəsinin cinayət işləri üzrə ibtidai istintaq aparmış hüquq mühafizə orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 469 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

Xüsusi müsadirə cinayət-hüquqi tədbiri icra edildikdən sonra barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, icra məmuru yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir.

Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlər Azərbaycan Respublikasının CM-də konkret olaraq göstərilmiş maddələrdə nəzərdə tutulmuş əməllərin törədilməsinə görə tətbiq edilir. Qeyd etmək lazımdır ki, hüquqi şəxsə cinayət-hüquqi tədbirlər həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün aşağıda göstərilən fiziki şəxslər tərəfindən törədilən cinayətlərə görə tətbiq edilir:

- hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə

malik olan vəzifəli şəxs;

➢ hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

➢ yuxarıda göstərilən vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.

Hüquqi şəxslərə xüsusi müsadirədən əlavə aşagıda göstərilən cinayət-hüquqi tədbirlər tətbiq edilə bilər:

❖ **cərimə;**

❖ **müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;**

❖ **hüquqi şəxsi ləğv etmə.**

Hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbiri yalnız əsas, cərimə həm əsas, həm də əlavə, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və xüsusi müsadirə yalnız əlavə cinayət-hüquqi tədbir kimi tətbiq olunur.

Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbir qismində cərimə Azərbaycan Respublikasının CM-i ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən və dövlət nəfinə keçirilən məcburi pul tutulmasından ibarətdir.

Azərbaycan Respublikası CM-in 99-6.3-cü maddəsinə əsasən hüquqi şəxslərə cərimə növündə cinayət-hüquqi tədbiri aşağıdakı hədlərdə təyin edilir:

➲ **böyük ictimai təhlükə törətməyən cinayətlərə görə** - əlli min manatdan yetmiş beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən iki mislinədək miqdarda;

➲ **az ağır cinayətlərə görə** - yetmiş beş min manatdan yüz min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda;

- **ağır cinayətlərə görə** - yüz min manatdan yüz iyirmi beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən dörd mislinədək miqdarda;
- **xüsusilə ağır cinayətlərə görə** - yüz iyirmi beş min manatdan yüz əlli min manatadək miqdarda, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda.

Ümumiyyətlə, hüquqi şəxsə cərimə Azərbaycan Respublikası CM-in 99-6.3, 99-6.4 və 99-8.3-cü maddələrində göstərilən hallar və hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmaqla əlli min manatdan iki yüz min manatadək miqdarda və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən beş mislinədək miqdarda müəyyən olunur.

Hüquqi şəxslər barəsində tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirinin icrası Azərbaycan Respublikası CM-in 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla və fiziki şəxslərə təyin edilmiş cərimə cəzasının icra qaydasına, yəni Cəzaların İcrası Məcəlləsinin 22-27-ci maddələrinn tələblərinə uyğun olaraq həyata keçirilir.

İlkin qeyd olunmalıdır ki, hüquqi şəxslər barədə cərimə tədbiri hüquqi şəxsin yerləşdiyi və ya onun əmlakının olduğu yerin probasiya üzrə icra məmuru tərəfindən icra edilir. Qanunvericiliyə uyğun olaraq cərimənin ödənilmə müddəti bir aydır. Bu müddətdə cərimə ödənilmədikdə, onun məcburi tutulması ilə bağlı hüquqi şəxsə və ya onun nümayəndəsinə xəbərdarlıq edilir. Eyni zamanda, cərimənin ödənilməsinin altı ayadək təxirə salınması, yaxud hissə-hissə ödənilməsi ilə bağlı məhkəməyə müraciət edilmə imkanları hüquqi şəxsin nəzərinə çatdırılır. Bundan sonra cərimə ödənilmədikdə, onun məcburi tutulması ilə bağlı tədbirlər görülür,

yəni probasiya üzrə icra məmurunun təqdimatı ilə məhkəmənin qərarına əsasən cərimə hüquqi şəxsin əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir. Hüquqi şəxs cərimə növündə cinayət-hüquqi tədbirinin icrasından boyun qaçırdıqda, yaxud cərimənin tutulması üçün müvafiq əmlakı olmadıqda, məhkəmə həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı şəkildə iştirak etmiş fiziki şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı qərar qəbul edə bilər.

Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının surəti icra edilməsi üçün dərhal hüquqi şəxsin olduğu yerin probasiya üzrə icra məmuruna göndərilir. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, probasiya üzrə icra məmuru məhkəmə qərarının surətini üç gün müddətində lisenziya (icazə) verən orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən üç gün müddətində lisenziyanı (icazəni) ləğv edir və bu barədə probasiya üzrə icra məmuruna məlumat verir. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, probasiya üzrə icra məmuru üç gün müddətində məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin on gün ərzində daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına – yəni qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələrinə, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial

və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə, kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinə, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinə göndərir. Həmin orqanlar tərəfindən müvafiq dəyişiklik dövlət qeydiyyatına alındıqdan sonra bu barədə iki gün müddətində probasiya üzrə icra məmuruna məlumat verməlidirlər.

Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi xarakterli tədbirlərdən biri də **hüquqi şəxsi ləğv etmədir.** Azərbaycan Respublikası CM-in 99-8.1-ci maddəsinə əsasən **hüquqi şəxsi ləğv etmə** - hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilən cinayətlə əlaqədar onun mövcudluğuna və fəaliyyətinə, hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsindən ibarət müstəsna cinayət-hüquqi tədbirdir.

Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə Azərbaycan Respublikası CM-in 99-5.3-cü maddəsində göstərilən hallar nəzərə alınmaqla hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququnun saxlanılması qeyri-mümkün hesab edildikdə aşağıdakı müddətlərə təyin edilir:

➲ **böyük ictimai təhlükə törətməyən cinayətlərə görə** - bir ildən iki ilədək müddətə;

➲ **az ağır cinayətlərə görə** - iki ildən üç ilədək müddətə;

➲ **ağır cinayətlərə görə** - üç ildən dörd ilədək müddətə;

➲ **xüsusilə ağır cinayətlərə görə** - dörd ildən beş ilədək müddətə.

Hüquqi şəxsi ləğv etmə haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə, ləğvediciyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur. Həmin qərar qanuni qüvvəyə mindikdən dərhal sonra onun surəti icra edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına, yəni qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələrinə, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə, kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinə, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinə göndərir, habelə cinayət-hüquqi tədbirin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir. Hüquqi şəxsin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir. Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra yuxarıda göstərilən orqanlar üç gün müddətində bu barədə yekun qərarı çıxarmış məhkəməyə və cinayət-hüquqi tədbirin icrasına nəzarəti həyata keçirən icra məmuruna məlumat verməlidirlər.

## Mövzu 23. Cinayət törətməkdə təqsirləndirilən şəxslərin həbs yerlərində saxlanılması

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə əsasən cinayət işi üzrə icraatda olan şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qarşısının almaq, havelə məhkəmə hökmünün icrasını təmin etmək məqsədilə qeyd olunan şəxslərin barəsində prosessual məcburiyyət tədbiri seçilir. Prosessual məcburiyyət tədbirləri qətimkan tədbirlərinin tətbiq edilməsi vasitəsiilə də həyata keçirilir. Qətimkan tədbirlərinin tətbiqinin hüquqi əsasları Azərbaycan Respublikası CPM-in 155-ci maddəsində təsbit olunmuşdur. Onlar cinayətin istintaqı prosesində təqsirləndirilən şəxsin aşağıdakı qeyri-qanuni hərəkətlərinin qarşısının alınmasını təmin edir:

- cinayət prosesini həyata keçirən orqandan gizlənmək;
- cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla, ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;
- cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəb olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq;
- məhkəmə hökmünün icra edilməsinə maneçilik törətmək.

Qətimkan tədbirlərindən biri və ən sərti – **həbsdir.** Həbs, qətimkan tədbiri kimi yalnız məhkəmənin qərarı ilə tətbiq edilir, şəxsin qanunvericiliklə nəzərdə tutulmuş müddətə cəmiyyətdən

təcrid olunması ilə müşayiət edilməklə müvəqqəti xarakter daşıyır. Hüquq ədəbiyyatında və beynəlxalq aktlarda həbs azadlıqdan məhrum etmənin bir növü kimi qəbul olunur.

Beləliklə, **həbs – qətimkan tədbiri qismində Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla həbsdə saxlanma yerlərində saxlanılmasıdır.**

Anlayışdan göründüyu kimi, həbs qətimkan tədbiri kimi həbsdə saxlanma yerlərində həyata keçirilir, yəni həbs edilmiş şəxslər onlar üçün qanunvericiliklə müəyyən edilmiş yerlərdə, yəni həbs yerlərində saxlanılırlar.

Azərbaycan Respublikası CPM-in 223.1-ci maddəsinə əsasən şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusudur. Həbs üçün əsas isə, bu növdə qətimkan tədbirinin seçilməsi barədə məhkəmənin qərarıdır.

Həbs yerlərində həbs edilmiş şəxslərin saxlanılma qaydası hökmləri qanuni qüvvəyə minməmiş həbsdə saxlanılan məhkumlara, şübhəli və ya təqsirləndirilən şəxs qismində istintaq təcridxanalarına keçirilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məkum olunmuş şəxslərə və ekstradisiya qaydasında mənsub olduqları ölkəyə verilməsi üçün həbs edilmiş şəxslərə də aid edilir.

Həbsdə saxlanılmanın məzmunu iki formada realizə olunur:

**1.** cinayətin törədilməsində təqsirləndirilən şəxsin tutulması;

**2.** həbs növündə qətimkan tədbirinin seçilməsi.

Cinayət törətməkdə şübhəli bilinən şəxsə törədilmiş ictimai təhlükəli əməllə bağlı ittiham elan edildikdən sonra o, təqsirləndirilən şəxs hesab edilir. Bundan sonra təqsirləndirilən şəxs barədə

məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərsə, o, istintaq təcridxanasına keçirilir.

Həbsdə saxlanma qaydası 22 may 2012-ci ildə qəbul edilmiş "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu Qanuna əsasən həbs yerləri üç növə bölünür:

- ❖ müvəqqəti saxlama yerləri;
- ❖ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtları;
- ❖ istintaq təcridxanaları.

Səfərə çıxmış gəmidə cinayət törətməkdə şübhəli olduğuna görə dəniz gəmisinin kapitanı və ya onu əvəz edən şəxs tərəfindən Azərbaycan Respublikasının CPM-nə uyğun olaraq tutulmuş şəxs bunun üçün xüsusi ayrılmış yerlərdə (ayrıca otaqda, kayutada və təcrid edilməni təmin edən yerlərdə) saxlanıla bilər.

Həbs yerlərinin birinci növü daxili işlər orqanlarının **müvəqqəti saxlama yerləridir**. Daxili işlər orqanları əksər cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq apardıqları üçün burada cinayət törətməkdə şübhəli bilinən və təqsirləndirilən şəxslərin qısa müddətə saxlanılması üçün yerli polis idarə və şöbələrinin nəzdində müvəqqəti saxlanma təcridxanaları təşkil edilir. Bu yerlərdə tutulmuş və ya həbs edilmiş şəxslər Azərbaycan Respublikasının CPM-i və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətlərdə saxlanılırlar.

Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, cəzadan şərti olaraq

vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının ləğvi məsələsinin həlli üçün tutulmuş şəxs ən geci yeddi gün ərzində, digər hallarda isə tutulma anından ən geci 48 saat keçənədək (bu müddətdə həbs qətimkan tədbirinin seçilməsi və ya tutulma müddətinin uzadılması barədə qərar qəbul olunmazsa) müvəqqəti saxlama yerində saxlanıla bilər. Məhkəmə qərarına əsasən həbs edilmiş şəxs müvəqqəti saxlama yerində 24 saatdan artıq saxlanıla bilməz və bu müddət bitənədək o, istintaq təcridxanasına keçirilməlidir (şəxsin nəqliyyat vasitələri ilə istintaq təcridxanasına aparılması müddəti göstərilən müddətə daxil deyildir).

Həbs yerlərinin ikinci növü **hauptvaxtlardır.** Hauptvaxtlar hərbi qulluqçular üçün müvəqqəti saxlama yerlərinin funksiyalarını həyata keçirir.

Nəhayət, üçüncü əsas həbs yeri – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin nəzdində fəaliyyət göstərən **istintaq təcridxanalarıdır.** Həbs edilmiş şəxslər istintaq təcridxanalarında Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş müddətlərdə saxlanılırlar.

Həbs edilmiş şəxs müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunduqda o, istintaq təcridxanası müdiriyyətinin hökmün surətini və onun icrası barədə məhkəmənin göstərişini aldığı gündən ən geci 10 gün keçənədək istintaq təcridxanasında saxlanıla bilər.

Yuxarıda qeyd olunan həbs yerləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq nazirlik və komitə tərəfindən yaradılır, yenidən təşkil edilir və ya ləğv edilir. Həbs yerlərinin fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilir.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının

təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu həbs edilmiş şəxslərin zəruri hallarda bir saxlama yerindən digərinə keçirilməsi qaydası və şərtlərini də tənzimləyir. Belə ki, Qanunun 8.1-ci maddəsinə əsasən "istintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması və ya həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti olduqda və onun hər gün gətirilib aparılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəməyədək icraat zamanı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun, məhkəmə icraatı zamanı məhkəmənin əsaslandırılmış qərarı ilə 1 ayda 10 gündən artıq olmayan müddətə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilə bilər. Eyni zamanda, həbs edilmiş şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər.

Həbs edilmiş şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər". Şərh edilən Qanunun 9-cu maddəsinə əsasən "müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslər digər cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb olunması, onların işlərinə apellyasiya, kassasiya, əlavə kassasiya və ya hökmlərin icrası qaydasında baxılması, yaxud digər şəxslər tərəfindən törədilmiş cinayət işləri üzrə istintaq hərəkətlərinin həyata keçirilməsi və ya digər şəxslər tərəfindən törədilmiş cinayət işlərinə məhkəmədə baxılması ilə əlaqədar Azərbaycan Respublikası CİM-in 69–1-ci maddəsi ilə müəyyən edilmiş qaydada və müddətdə cəzaçəkmə müəssisəsindən istintaq təcridxanalarına keçirilə bilərlər".

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu

həbs yerlərinin müdiriyyətinin aşağıda göstərilən vəzifələrini müəyyən etmişdir:

➢ həbs yerinə gətirilmiş tutulmuş və ya həbs edilmiş şəxsi qəbul etmək və dərhal aşağıdakı məlumatları qeydə almaq:

- adı, atasının adı, soyadı, anadan olduğu tarix və yer, yaşadığı ünvan;
- şəxsin tutulmasının və ya həbs edilməsinin əsası və onun tutulması və ya həbs edilməsi barədə qərarı qəbul etmiş orqan;
- həbs yerinə gətirilmənin tarixi və vaxtı;
- tutulmuş və ya həbs edilmiş şəxsə məxsus olan və saxlanılmaq üçün anbara təhvil verilən əşyaların siyahısı;
- tutulmuş və ya həbs edilmiş şəxsin üzərində müşahidə olunan hər hansı bədən xəsarətləri və onun həbs yerinə daxil olanadək məruz qaldığı hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayəti;
- həkim sirrinə aid tələblər nəzərə alınmaqla, tutulmuş və ya həbs edilmiş şəxsin özünün və ya digər şəxslərin saxlanılması şəraitinə təsir göstərə biləcək psixi və fiziki qüsurları barədə məlumatlar.

➢ tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən dərhal sonra ona tutulduğu və ya həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanının yaradılması (həbs yerinin müdiriyyəti tutulmuş və ya həbs edilmiş şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna olmaqla, belə məlumatları öz təşəbbüsü ilə verə bilməz);

➢ əgər tutulmuş və ya həbs edilmiş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi

yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata bu barədə dərhal məlumat vermək və bu cür məlumatın verildiyini qeydə almaq;

- tutulmuş və ya həbs edilmiş şəxsin həbs yerinə gətirildikdən sonra təxirə salınmadan tibbi müayinədən keçirilməsini təmin etmək;
- tutulmuş və ya həbs edilmiş şəxsləri hüquq və vəzifələri, Daxili İntizam Qaydaları, həbs yerində saxlanılma rejimi, təklif, ərizə və şikayətlərin verilməsi qaydası ilə tanış etmək və onlara bu barədə izahat vermək;
- tutulmuş şəxslərin həbs yerlərində müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşlərini təmin etmək;
- həbs edilmiş şəxslərin müdafiəçisi, qanuni nümayəndəsi, yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşlərini təmin etmək;
- tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerində şəxsi təhlükəsizliyini təmin etmək;
- tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətlərini həmin sənədlərin daxil olduğu gün, sənədlər gecə vaxtı daxil olmuşdursa, səhər saat 12-dək onlara vermək;
- tutulmuş və ya həbs edilmiş şəxslərin təklif, şikayət və ərizələrini qeydiyyata almaq;
- tutulmuş və ya həbs edilmiş şəxslərin məktub, teleqram, təklif, ərizə və şikayətlərinin qanunla müəyyən edilmiş qaydada göndərilməsini təmin etmək;
- tutulmuş və ya həbs edilmiş şəxslərin cinayət prosesini həyata keçirən orqana vaxtında çatdırılmasını təmin etmək;

➢ eyni cinayət işi və ya əlaqəli bir neçə cinayət işi üzrə barəsində cinayət təqibi həyata keçirilən tutulmuş və ya həbs edilmiş şəxslərin ayrılıqda saxlanılması, tutulmuş və ya həbs edilmiş şəxsin digər tutulmuş və ya həbs edilmiş şəxslərlə ünsiyyətinin qarşısının alınması, habelə tutulmuş və ya həbs edilmiş şəxslərin qanunla müəyyən edilmiş saxlanılma rejiminə zidd olmayan digər məsələlər barədə cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişlərini yerinə yetirmək;

➢ tutulmuş və ya həbs edilmiş şəxslərin istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsi barədə protokol tərtib etmək;

➢ cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişinə əsasən, tutulmuş və ya həbs edilmiş şəxslərin iştirakı ilə həbs yerində istintaq hərəkətlərinin, yaxud digər prosessual hərəkətlərin aparılmasına şərait yaratmaq;

➢ tutulmuş və ya həbs edilmiş şəxsləri məhkəmənin qərarına əsasən digər həbs yerinə köçürmək;

➢ həbs edilmiş şəxsin telefonla danışmaq hüququnun təmin edilməsinə şərait yaratmaq;

➢ həbs edilmiş şəxsin həbsdə saxlanılma müddətinin başa çatmasına yeddi gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora bu barədə məlumat vermək;

➢ həbs edilmiş şəxsin notariusun xidmətlərindən istifadə etməsinə şərait yaratmaq;

➢ Azərbaycan Respublikasının CPM-i və müvafiq qanunla müəyyən edilmiş hallarda tutulmuş və ya həbs edilmiş şəxsi dərhal həbsdən azad etmək.

Həbs yerinin müdiriyyəti tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən sonra keçirilmiş tibbi müayinənin nəticələrinin onun sağlamlığı barədə qeydə alınmış məlumatlara əlavə

olunmasını təmin etməlidir. Tutulmuş və ya həbs edilmiş şəxsin prosessual hərəkətlərdə iştirak etməsi ilə əlaqədar onun barəsində aşağıdakı məlumatlar qeydə alınır:

- prosessual hərəkəti həyata keçirən orqan;
- prosessual hərəkətin yeri və vaxtı;
- prosessual hərəkətin keçirilməsindən əvvəl və sonra müşahidə olunan bədən xəsarətləri və prosessual hərəkət zamanı yol verilən hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayət.

Həbs edilmiş şəxslər həbs yerlərinə gətirildikdə onların üzərində axtarış aparılır, əşyalarına baxış keçirilir, fotoşəkilləri çəkilir, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatı aparılır. Eyni zamanda, hər bir həbs olunmuş şəxsə şəxsi iş açılır və orada həbs yerlərində saxlanma, habelə aparılan istintaqla bağlı materiallar, məhkəmə qərarları, həbs edilənin qəbul zamanı üzərində olan sənədləri və digər sənədlər saxlanılır.

Həbs edilmiş şəxslərin həbs yerlərində qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə və onların təcrid edilməsinə yönəlmiş qaydaları təmin edən rejim müəyyən edilir. Həbs yerlərində rejimi təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli 63 nömrəli Qərarı ilə həbs yerlərinin, yəni İstintaq təcridxanalarının və Müvəqqəti saxlanma yerlərinin Daxili İntizam Qaydaları təsdiq edilmişdir. Həbs yerlərində rejim həbs yerlərinin rəisləri və işçiləri tərəfindən təmin edilir. Onlar xidməti vəzifələrini yerinə yetirmədikdə, Azərbaycan Respublikasının qanunverici-

liyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Daxili İntizam Qaydaları həbs yerlərində müvafiq qanunun tələblərinin həyata keçirilməsi ilə bağlı aşagıdakı mexanizmləri müəyyən edir:

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin qəbul edilməsi, onların qeydiyyatının və şəxsi axtarışının aparılması, əşyalarının yoxlanılması, tibbi müayinədən keçirilməsi və kameralarda yerləşdirilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin daktiloskopik və genom qeydiyyatının aparılması;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin bağlama, sovqat və banderol qəbul etməsi və ya verməsi, habelə bağlamalara, sovqatlara və banderollara həbs yerinin işçiləri tərəfindən baxış keçirilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxsin həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat verməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin ərzaq məhsulları və ən zəruri malları əldə etməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin yazışması, həbs edilmiş şəxslərin şəxsi hesabları vasitəsilə pul baratları alması və ya göndərməsi;

➲ həbs edilmiş şəxsin telefon danışıqlarından istifadə etməsi;

➲ həbs edilmiş şəxslərin könüllülük əsasında həbs yerlərinin ərazisində əməyə cəlb olunması;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin hər gün gəzintiyə çıxarılması;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin idmanla məşğul olması, stolüstü oyunlar oynaması və televiziya verilişlərinə baxması;

➲ tutulmuş şəxsin müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşlərinin təmin edilməsi;

➲ həbs edilmiş şəxsin müdafiəçisi, qanuni nümayəndəsi, yaxın qohumları və əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşlərinin təmin edilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin istintaq hərəkətlərinin aparılmasında və ya məhkəmə iclaslarında iştirakının təmin edilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərinin rəisləri tərəfindən qəbul edilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən dini ayinlərin yerinə yetirilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin maddi-məişət təminatı;

➲ tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən təkliflərin, şikayətlərin və ərizələrin göndərilməsi;

➲ tutulmuş və ya həbs edilmiş şəxsin məcburi qidalandırılması;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin tibbi-sanitariya təminatı;

➲ tutulmuş və ya həbs edilmiş şəxslərin mülki hüquq münasibətlərində iştirakı;

➲ həbs edilmiş şəxslərin ailə hüquq münasibətlərində iştirakı və notariusun xidmətlərindən istifadəsi;

➲ həbs yerlərində vəfat edən tutulmuş və ya həbs edilmiş şəxslərin meyitinin verilməsi;

➲ həbs yerində rejimin təmin edilməsi ilə əlaqədar olan digər məsələlər.

Qarşıda duran vəzifələrin yerinə yetirilməsi məqsədilə həbs yerlərində əməliyyat-axtarış tədbirləri də həyata keçirilir. Bu təd-

birləri həbs yerlərinin müdiriyyəti "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirir. Bu yerlərdə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə qanunla müəyyən edilmiş qaydada prokurorluq orqanları nəzarət edirlər.

Həbs yerlərində şəxslər bir qayda olaraq ümumi kameralarda (daim bağlı saxlanılan otaqlarda) saxlanılırlar. Onlar təcrid edilmə tələblərinə uyğun olaraq bir-birindən ayrılıqda və aşağıdakı kimi yerləşdirilirlər:

- qadınlar kişilərdən;
- yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatanlardan;
- ilk dəfə cinayət törətmiş şəxslər əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxslərdən;
- Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş hallar istisna olmaqla, tutulmuş və ya həbs edilmiş şübhəli və ya təqsirləndirilən şəxslər, barəsində qanuni qüvvəyə minmiş hökm olan məhkumlardan;
- cinayət prosesini həyata keçirən orqanın göstərişi ilə eyni cinayət işi, yaxud əlaqəli bir neçə cinayət işi üzrə barəsində cinayət təqibi həyata keçirilən tutulmuş və ya həbs edilmiş şəxslər bir-birindən;
- tutulmuş və ya həbs edilmiş məhkəmə və hüquq mühafizə orqanlarının işçiləri və ya həmin orqanların sabiq işçiləri digər tutulmuş və ya həbs edilmiş şəxslərdən;
- tutulmuş və ya həbs edilmiş şəxslər onların həyat və ya sağlamlığına təhlükə törədən digər tutulmuş və ya həbs edilmiş şəxslərdən (həbs yerinin müdiriyyətinin və ya cinayət prosesini həyata keçirən orqanın qərarı ilə);
- ağır yoluxucu xəstəliyə düçar olmuş və ya xüsusi tibbi nəzarətə ehtiyacı olan tutulmuş və ya həbs edilmiş şəxslər tib-

bi rəy əsasında sağlam şəxslərdən, zərurət olduqda isə həm də bir-birindən;

- ❖ özü və ətrafdakılar üçün təhlükə törədə biləcək kəskin psixi vəziyyətdə olan tutulmuş və ya həbs edilmiş şəxslər onlar üçün nəzərdə tutulan xüsusi kameralarda təcrid edilməklə digər şəxslərdən.

Həbs yerlərində saxlanılan şəxslərin hüquq və vəzifələri vardır. Bu, Azərbaycan Respublikasının CPM-i və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş və onlar həmin yerlərdə rejimin təmin olunmasına yönəlmişdir. Həbsdə saxlanma yerlərində saxlanılan şəxslərin əsas hüquqları aşağıdakılardır:

❖ həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq;

❖ şəxsi təhlükəsizliyi təmin edilməklə saxlanılmaq;

❖ həbs yerinə qəbul edildikdən dərhal sonra və həbsdə saxlama zamanı öz hüquq və vəzifələri, Daxili İntizam Qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası ilə yazılı şəkildə və onlara aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq;

❖ işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq;

❖ həbsdə saxlama zamanı onlara aidiyyəti olan bütün prosessual hərəkətlər barədə məlumatlandırılmaq;

❖ müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşmək;

❖ həbs yerində saxlanıldığı müddət ərzində pulsuz yeməklə, maddi-məişət və tibbi-sanitariya xidmətləri ilə təmin olunmaq;

❖ ədəbiyyatdan, o cümlədən xüsusi ədəbiyyatdan istifadə etmək, həbs yerinin kitabxanasından istifadə üçün ədəbiyyat, qəzet və jurnal götürmək və ya öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən yazı ləvazimatı, ədəbiyyat, qəzet və ya jurnal əldə etmək;

❖ dini ayinləri yerinə yetirmək, dini ləvazimatdan və ədəbiyyatdan istifadə etmək;

❖ bağlama, sovqat və banderol almaq;

❖ mülki hüquq münasibətlərində iştirak etmək, notariusun xidmətlərindən istifadə etmək;

❖ etik davranışa uyğun rəftar olunmaq;

❖ həbs yerinin müdiriyyəti tərəfindən qəbul edilmək;

❖ hüquqa zidd məqsədlər üçün istifadə edilə bilən və ya dövlət sirrini və qanunla qorunan digər sirləri özündə əks etdirən sənədlər və yazılar istisna olmaqla, cinayət işi ilə tanış olmaq, öz hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsi ilə bağlı olan sənədləri, yaxud əqli fəaliyyətinin nəticəsi olan yazıları və ya onların surətlərini, o cümlədən təklif, ərizə və şikayətlərinə verilən cavabların surətlərini özündə saxlamaq;

❖ həbsdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı təklif, ərizə və şikayətlərlə müraciət etmək;

❖ Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulmuş təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması halları istisna olmaqla, prosessual hərəkətlərin aparılmasına cəlb edilməsinin qadağan olunduğu müddətdə – gecə vaxtı səkkiz saat yatmaq;

❖ hər gün iki saatdan az olmayaraq gündəlik açıq havada gəzintidən istifadə etmək;

❖ idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq;

❖ siyahısı və sayı Daxili İntizam Qaydaları ilə müəyyən edil-

miş şəxsi əşyalardan istifadə etmək;

❖ öz paltar və ayaqqabısından istifadə etmək, münasib paltarı olmadıqda, iqlimə uyğun paltarla təmin olunmaq;

❖ öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən ərzaq məhsulları və ən zəruri mallar əldə etmək;

❖ "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

❖ həbs yerinin müdiriyyəti tərəfindən barəsində çıxarılmış qərardan şikayət etmək.

Həbsdə saxlama yerlərində saxlanılan şəxslərin vəzifələri aşağıdakılardır:

❖ "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və Daxili İntizam Qaydaları ilə müəyyən edilmiş qaydalara riayət etmək;

❖ həbs yerinin müdiriyyətinin qanuni tələblərinə əməl etmək;

❖ sanitariya-gigiyena qaydalarına əməl etmək;

❖ yanğın təhlükəsizliyi qaydalarına əməl etmək;

❖ həbs yerinin əmlakına qayğı ilə yanaşmaq;

❖ saxlandığı kameranı növbəlik qaydasında təmizləmək (süpürmək və yumaq);

❖ həbs yerinin işçiləri ilə, habelə digər tutulmuş və ya həbs edilmiş şəxslərlə nəzakətlə davranmaq;

❖ həbs yerinin işçilərinin xidməti vəzifələrinin icrasına mane olmamaq;

❖ özünün və ya digər şəxslərin həyat və sağlamlığı üçün təhlükə törədən hərəkətlərə yol verməmək.

Tutulmuş və ya həbs edilmiş şəxsin həyatına və sağlamlığına qarşı digər tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən təhlükə

yaranarsa, həbs yerinin müdiriyyəti belə təhlükəyə məruz qalan şəxslərin təhlükəsizliyini təmin etmək üçün dərhal lazımi tədbirlər görməlidir. Belə şəxsin həyatına və sağlamlığına qarşı həbs yerinin işçiləri və ya ibtidai araşdırmanı həyata keçirən şəxslər tərəfindən təhlükə yaranarsa, həbs yerinin müdiriyyəti təhlükəyə məruz qalan şəxslərin təhlükəsizliyini təmin etmək üçün dərhal tədbirlər görməli və müvafiq prokuroru məlumatlandırmalıdır.

Tutulmuş və ya həbs edilmiş şəxslər məhdudiyyətsiz sayda məktub, teleqram ala və ya göndərə bilərlər. Onlar tərəfindən qanunda tutulmuş təklif, ərizə və şikayətlərdən başqa, digər məktub və teleqramların göndərilməsi onların öz vəsaiti hesabına həyata keçirilir. Bu şəxslərin məktub və teleqramlarının poçt göndərişləri həbs yerinin müdiriyyəti vasitəsilə həyata keçirilir.

Qadağan olunmuş əşyaların ötürülməsinin qarşısını almaq məqsədi ilə tutulmuş və ya həbs edilmiş şəxslərin adına gələn və onlar tərəfindən göndərilən məktublar həbs yerinin müdiriyyəti tərəfindən açıla bilər. Bu halda həmin məktubların oxunmasına yol verilmir.

Tutulmuş və ya həbs edilmiş şəxslərin müdafiəçi və ya qanuni əsaslarla hüquqi yardım göstərən digər şəxslərlə yazışmaları istisna olmaqla, onların aldıqları və göndərdikləri digər yazışmalar hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədi ilə cinayət prosesini həyata keçirən orqanın və ya həbs yerində rejimi təmin etmək zərurəti yarandıqda, həbs yerinin müdiriyyətinin əsaslandırılmış qərarı ilə məhdudlaşdırıla və ya senzuradan keçirilə bilər. Hüququn belə məhdudlaşdırılmasına dair qərardan qanunla müəyyən edilmiş qaydada məhkəməyə, həbs yerinin müdiriyyətinin qərarından isə habelə yuxarı vəzifəli şəxsə şikayət edilə bilər.

Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərində və cəza-

çəkmə müəssisələrində saxlanılan şəxslərlə yalnız cinayət prosesini həyata keçirən orqanın razılığı ilə yazışa bilərlər. Bu şəxslərin adına gəlmiş məktubların verilməsi, habelə onların məktublarının ünvan sahiblərinə göndərilməsi məktubun gəldiyi, yaxud tutulmuş və ya həbs edilmiş şəxs tərəfindən verildiyi gündən ən geci bir gün keçənədək həbs yerinin müdiriyyəti tərəfindən həyata keçirilir. Teleqramlar onlara həbs yerinin müdiriyyəti tərəfindən dərhal verilir. Həbs yerini tərk edən tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan məktublar həbs yerinin müdiriyyəti tərəfindən ən geci bir gün müddətində həmin şəxslərin yaşadığı yerə göndərilir.

Tutulmuş və ya həbs edilmiş şəxslərin müstəntiqə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, məhkəməyə, həbs yerinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), BMT-nin insan hüquqlarının və azadlıqlarının müdafiəsi ilə məşğul olan qurumlarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə və ya İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinə ünvanladıqları təkliflər, ərizələr və şikayətlər təxirə salınmadan aidiyyəti üzrə göndərilir. Bu təkliflər, ərizələr və şikayətlər, habelə onlara verilən cavablar senzuradan keçirilmir.

Müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, məhkəmə və ya həbs yerinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlar tərəfindən təkliflərə, ərizələrə və şikayətlərə verilən cavablar tutulmuş və ya həbs edilmiş şəxslərə imza etdirməklə elan olunur. Cavabların əsli onların şəxsi işlərinə, surətləri isə cinayət işinə əlavə edilir. Tutulmuş və ya həbs edilmiş şəxslərin xahişi ilə cavabların surəti həm də onlara verilir.

Tutulmuş və ya həbs edilmiş şəxslər təklif, ərizə və ya şikayət

göndərdiklərinə görə hər hansı şəkildə təqib edilə bilməzlər. Belə təqiblərə yol vermiş şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Müdafiəçidən imtina etməyən tutulmuş və ya həbs edilmiş şəxsin müdafiəçinin iştirakı olmadan verdiyi etirafedici ifadələrə məhkəmə baxışı zamanı sübut kimi istinad edilə bilməz. Bu ifadələrin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada müdafiə tərəfinin vəsatəti əsasında sübut qismində qəbul edilməsinə yol verilir. Tutulmuş və ya həbs edilmiş şəxsin müdafiəçidən imtina etməsi protokolda göstərilir. Təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə müdafiəçidən imtinanı yalnız o halda qəbul edir ki, tutulmuş və ya həbs edilmiş şəxs bu barədə ərizəni öz təşəbbüsü ilə könüllü və müdafiəçinin və ya müdafiəçi qismində təyin olunacaq vəkilin iştirakı ilə vermiş olsun. Müdafiəçidən imtina edən tutulmuş və ya həbs edilmiş şəxs müdafiəçi ilə təmin olunmaq istəyini bildirdiyi halda bu hüquqdan istifadə edə bilər.

Həbs edilmiş şəxs yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslər ilə ayda dörd dəfə dörd saatadək müddətə ləyaqətli şəraitdə və nəzarət altında görüşmək hüququna malikdir. Bu şəxslər görüşlər zamanı Daxili İntizam Qaydaları ilə müəyyən olumuş proseduru pozduqda görüşlər vaxtından əvvəl dayandırılır və həmin hal protokollaşdırılır.

Tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün

qanuni maraq doğuran digər şəxslərə bu barədə məlumat vermək üçün bir dəfə telefonla zəng etmək hüququna malikdir. Eyni zamanda, həbs edilmiş şəxslər həftədə iki dəfə 15 dəqiqəyədək müddətdə telefonla danışmaq hüququna malikdirlər. Şəhərlərarası və mobil telefon danışıqlarının haqqı həbs edilmiş şəxsin, onun yaxın qohumlarının və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərin vəsaiti hesabına ödənilir.

Tutulmuş şəxsin telefonla zəng etmək, həbs edilmiş şəxsin müdafiəçi istisna olmaqla, digər şəxslərlə görüşmək, telefonla zəng etmək və telefon danışıqlarından istifadə etmək hüququ hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədi ilə cinayət prosesini həyata keçirən orqanın və ya həbs yerində rejimi təmin etmək zərurəti yarandıqda həbs yerinin müdiriyyətinin əsaslandırılmış qərarı ilə müəyyən müddətə məhdudlaşdırıla bilər. Belə qərar qəbul edildikdə tutulmuş və ya həbs edilmiş şəxs həmin hüquqlardan yalnız müvafiq qərarı qəbul etmiş orqanın yazılı razılığı olduqda istifadə edir. Bu maddədə nəzərdə tutulan hüquqların məhdudlaşdırılmasına dair qərardan qanunla müəyyən edilmiş qaydada məhkəməyə, həbs yerinin müdiriyyətinin qərarından isə, yuxarı vəzifəli şəxsə şikayət edilə bilər.

Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərində sanitariya-gigiyena və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğun olaraq zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar. Qeyd olunan şəxslərin yemək və maddi-məişət təminatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 fevral 2013-cü il tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Tutulmuş və ya həbs edilmiş şəxslərə fərdi çarpayı və yataq ləvazimatı verilir. Tutulmuş və ya həbs edilmiş şəxslər üçün həbs yerlərində yaşayış sahəsinin norması dörd kvadrat metrdən az ola

bilməz. Həbs edilmiş şəxslərin münasib paltarı olmadıqda, onlar iqlimə uyğun paltarla təmin olunurlar. Belə paltar insan ləyaqətinə uyğun olmalı, habelə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə verilən paltardan fərqlənməlidir.

Tutulmuş və ya həbs edilmiş şəxslər gündə üç dəfə keyfiyyət baxımından müasir gigiyena tələblərinə, qida normalarına cavab verən və orqanizmin normal fəaliyyətini təmin edən pulsuz yeməklə təmin edilirlər. Həmin yeməklər hazırlanarkən tutulmuş və ya həbs edilmiş şəxslərin yaşı, sağlamlıq vəziyyəti və dini ənənələri nəzərə alınmalıdır. Tutulmuş və ya həbs edilmiş şəxslər, öz vəsaiti hesabına Daxili İntizam Qaydaları müəyyən edilmiş qaydada şəxsi istifadə məqsədi ilə gigiyena tələblərinə cavab verən ərzaq məhsullarını və ən zəruri malları saxlandıqları yerin ticarət şəbəkəsindən əldə edə bilərlər. Tutulmuş və ya həbs edilmiş şəxslərin özlərində saxlamasına icazə verilən, habelə saxlanması qadağan olunan əşyaların və malların siyahısı Daxili İntizam Qaydaları ilə müəyyən edilmişdir.

Qanunvericilyə əsasən həbs yerlərində hamilə və uşaqlı qadınlar da saxlanıla bilərlər. Həbs edilmiş qadına üç yaşınadək uşağını öz yanında saxlamağa icazə verilir. Hamilə və uğaqlı qadınlar üçün yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır, onlar xüsusi tibbi yardım və yuxarıda göstərilmiş qərara uyğun olaraq xüsusi yemək normaları ilə təmin edilirlər. Onlar üçün müəyyən edilmiş açıq havada gündəlik gəzinti dörd saatdan az olmamalıdır. Bu şəxslərin barəsində tənbeh tədbiri kimi cərimə təcridxanasında yerləşdirmə tətbiq oluna bilməz. Yanında uşağı olan həbs edilmiş qadınlar həbs yerinin rejimini müntəzəm olaraq qəsdən pozduqda, yaxud uşağa qayğı göstərmədikdə həbs yerinin müdiriyyəti məhkəmə qarşısında onun uşağının qanunla müəyyən edilmiş qaydada qohumlarına verilməsi, bu mümkün olmadıqda

isə, uşaq müəssisələrinə göndərilməsi barədə vəsatət qaldıra bilər.

Yetkinlik yaşına çatmayan oğlanlar və qızlar həbs yerlərində bir-birindən ayrı saxlanmaqla, yaxşılaşdırılmış maddi-məişət şəraiti və xüsusi yemək normaları ilə təmin edilirlər. Qanunvericiliyə uyğun olaraq istintaq təcridxanalarında yetkinlik yaşına çatmayanlara üç saatdan az olmayan müddətdə gündəlik gəzinti verilir. Onlara asudə vaxtlarında Daxili İntizam Qaydalarına riayət etməklə televiziya verilişlərinə baxmaq, orta təhsilini davam etdirmək və idmanla məşğul olmaq məqsədilə şərait yaradılır.

Təcrübədə həbs edilmiş şəxsin istintaq təcridxanasında yeməkdən imtina etməsi hallarına rast gəlinir. Onlar baş verdikdə həbs yerinin rəisi və ya onu əvəz edən şəxs bunun səbəbini aydınlaşdırmalı, bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana yazılı məlumat verməlidir. Yeməkdən imtina etmənin səbəbləri əsaslı olduqda, həbs yerinin müdiriyyəti həbs edilmiş şəxs tərəfindən irəli sürülən qanuni tələblərin təmin edilməsi üçün təcili tədbirlər görür. İrəli sürülmüş tələblərin dərhal təmin edilməsi mümkün olmadıqda, həbs edilmiş şəxsə müvafiq izahat verilir və həmin tələblərin təmin edilməsi üçün tədbirlər görülür. Yeməkdən imtina edən həbs edilmiş şəxs, həbs yerinin rəisinin və ya onu əvəz edən şəxsin əsaslandırılmış qərarı ilə digər həbs edilmiş şəxslərdən ayrı saxlanılır, onun üzərində həkim nəzarəti təyin edilir. Yeməkdən imtina edən həbs edilmiş şəxsin həbs yerində saxlanılma rejimindən irəli gələn öhdəliklərdən azad edilməsi həkimin tibbi rəyi əsasında həyata keçirilir. Yeməkdən imtina edən həbs edilmiş şəxsə Daxili İntizam Qaydaları ilə nəzərdə tutulan vaxtda müəyyən edilmiş normalar üzrə bu barədə müvafiq qeydiyyat aparılmaqla səhər, günorta və şam yeməyi verilir və ona yeməyi qəbul etmək təklif olunur. Bu təklif rədd edildikdə, yeməkdən imtina yeməklərin gətirilməsi haqqında qeydiyyatın

aparıldığı vərəqədə qeyd olunur. Yeməkdən imtina edən həbs edilmiş şəxsin həyatı üçün təhlükə yarandıqda və o, özü haqqında real qərar qəbul etmək qabiliyyətini itirdikdə həkimin yazılı rəyinə əsasən və onun iştirakı ilə yeməkdən imtina edən həbs edilmiş şəxsin səhhətinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər, o cümlədən həmin şəxsin ləyaqətini alçaltmamaq şərti ilə məcburi qaydada qidalandırılması həyata keçirilir. Həbs edilmiş şəxsin yemək qəbulundan imtina etməsi onun digər həbs yerlərinə göndərilməsinə, istintaq hərəkətlərində və məhkəmə iclaslarında iştirakına mane olmur. Yemək qəbulundan imtina edən tutulmuş və ya həbs edilmiş şəxsin digər həbs yerlərinə göndərilməsi tibb işçisinin müşayiəti ilə həyata keçirilir.

Həbs edilmiş şəxslər istintaq təcridxanalarında haqqı ödənilən əməyə könüllü olaraq cəlb edilə bilərlər. Bu zaman onların əmək fəaliyyəti Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir. Bu kateqoriyalı şəxslərin istintaq təcridxanalarında cəlb olunması qadağan edilən işlərin və vəzifələrin siyahısı Daxili İntizam Qaydaları ilə müəyyən olunmuşdur.

Həbs yerlərində tibbi xidmət, habelə müalicə-profilaktika və epidemiya işi səhiyyə haqqında qanunvericiliyə uyğun həyata keçirilir. Eyni zamanda, belə fəaliyyət Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 18 aprel tarixli 67 nömrəli Qərarı ilə təsdiq olunmuş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları" ilə də tənzimlənir.

Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərinə qəbul edildikdən dərhal sonra onların hər hansı müşahidə olunan bədən xəsarətləri və həbs yerinə daxil olanadək məruz qaldığı hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayətləri həbs yerinin müdiriyyəti tərəfindən qeydiyyata alınır.

Həbs edilmiş şəxslər həbs yerlərinə qəbul edildiyi andan 24 saat ərzində həbs yerinin tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilirlər. Müayinənin nəticələrinə dair müvafiq qeydiyyat aparılır. İşgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar ilə əlaqədar şikayətlər, habelə tibbi müayinə zamanı müəyyən edilən işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar nəticəsində yetirildiyi güman edilən bədən xəsarətləri barədə yazılı məlumat-lar müvafiq araşdırma aparılması üçün dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir.

Tutulmuş və ya həbs edilmiş şəxs xəstələndikdə və ya bədən xəsarəti aldıqda tibb işçiləri tərəfindən dərhal onun tibbi müayinəsi həyata keçirilir. Tibbi müayinənin nəticələri qeydə alınır və tutulmuş və ya həbs edilmiş şəxsə, eləcə də müraciət olduqda həmin şəxsin vəkilinə təqdim edilir. Tutulmuş və ya həbs edilmiş şəxsin, yaxud onun müdafiəçisinin vəsatəti ilə, cinayət prosesini həyata keçirən orqanın qərarı əsasında tibbi müayinə həmin şəxsin özünün seçdiyi digər tibb müəssisələrinin mütəxəssisləri tərəfindən də həyata keçirilə bilər. Bu halda tibbi müayinənin xərcləri tutulmuş və ya həbs edilmiş şəxsin öz vəsaiti hesabına ödənilir.

Tutulmuş və ya həbs edilmiş şəxsin tibbi müayinəsi zamanı aşağıdakılara xüsusi diqqət yetirilir:

- həkim sirrinin qorunmasına;
- fiziki və psixi xəstəliklərin müəyyən edilməsi və onların müalicəsi üçün zəruri olan tədbirlərin görülməsinə;
- zorakılığa məruz qalmağa işarə edən əlamətlərin təfərrüatı ilə qeydiyyata alınması və həbs yerinin müdiriyyətinin nəzərinə çatdırılmasına;
- narkotik vasitələrdən, psixotrop maddələrdən, dərman preparatlarından və ya alkoqoldan sui-istifadə ilə əlaqədar abstinensiya əlamətlərinin müalicəsinə;

- həbsdə saxlanma ilə əlaqədar yaranmış hər hansı psixi və ya digər stress hallarının müəyyən edilməsinə;
- yoluxucu xəstəliyə tutulması ehtimal olunduqda şəxsin tibbi rəy əsasında xəstəlik müddətində digər şəxslərdən təcrid edilməsi və müvafiq müalicə almasına;
- şəxsin yalnız İİV-ə (insanın immunçatışmazlığı virusu) yoluxması səbəbinə görə təcrid olunmamasının təmin edilməsinə;
- həbs edilmiş şəxsin azad edildikdən sonra cəmiyyətə reinteqrasiyası üçün maneə törədə bilən fiziki və psixi pozuntuların qeydə alınmasına;
- həbs edilmiş şəxsin əməyə və fiziki məşqlərə yararlı olmasının müəyyən edilməsinə;
- şəxsin razılığı ilə, onun azad edilməsindən sonra zəruri tibbi və ya psixiatriya müalicəsinin davam etdirilməsi ilə əlaqədar müvafiq səhiyyə müəssisələrinə məlumat verilməsinə.

Tutulmuş və ya həbs edilmiş şəxs həbs yerindən azad edilməzdən əvvəl tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilir.

Tutulmuş və ya həbs edilmiş şəxs ağır xəstəliyə tutulduqda və ya öldükdə həbs yerinin müdiriyyəti bu barədə dərhal həmin şəxsin yaxın qohumlarına məlumat verir. Tutulmuş və ya həbs edilmiş şəxsin meyiti məhkəmə-tibb ekspertizası keçirildikdən və Azərbaycan Respublikasının CPM-i ilə müəyyən edilmiş digər prosessual hərəkətlər aparıldıqdan sonra onun qohumlarına verilir. Tutulmuş və ya həbs edilmiş şəxsin öldüyü vaxtdan yeddi gün müddətində meyitin verilməsi barədə müraciət daxil olmazsa, o, dövlət vəsaiti hesabına dəfn olunur. Həmin müddətdə meyitin daha uzun müddət saxlanması barədə müraciət daxil olarsa, meyit müraciət edən şəxsin vəsaiti hesabına otuz günədək müddətdə səhiyyə orqanlarının meyitxanasında saxlanılır.

Həbs edilmiş şəxslər həbs yerinin kitabxanasında olan ədə-

biyyatdan istifadə edə və ya həbs yerinin müdiriyyəti vasitəsilə ticarət mağazasından öz vəsaiti hesabına yazı ləvazimatı, ədəbiyyat, qəzet və jurnal əldə edə, habelə öz vəsaiti hesabına qəzet və jurnallara abunə yazıla bilərlər. Onlara müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan, habelə pornoqrafiya xarakterli nəşrlər əldə etmək, saxlamaq və ya onları yaymaq, habelə belə nəşrlərə abunə yazılmaq qadağandır.

Həbs edilmiş şəxs həftədə bir dəfə, tutulmuş şəxs isə məhdudiyyət olmadan bağlama, sovqat və banderol ala bilər. Azərbaycan Respublikasında bir bağlama və ya banderolun yuxarı çəkisi mövcud poçt göndərişləri qaydaları ilə müəyyən edilmiş, onların maksimal çəkisi müvafiq olaraq 31,5 və 2 kiloqram təşkil edir. Bir sovqatın çəkisi bir bağlama üçün müəyyən olunmuş çəkidən artıq olmamalıdır. Yetkinlik yaşına çatmayanlar, ağır xəstəlikdən əziyyət çəkənlər (bu barədə tibbi rəy olduqda), I və ya II qrup əlillər, hamilə qadınlar, habelə yanında 3 yaşınadək uşağı olan qadınlar say məhdudiyyəti olmadan bağlama, sovqat və banderol ala bilərlər.

Qadağan edilmiş əşyaların, yaxud tutulmuş və ya həbs edilmiş şəxslərin özlərində saxlamasına icazə verilməyən əşyaların keçirilməsinin qarşısını almaq məqsədi ilə bağlama, sovqat və banderollara həbs yerinin işçiləri tərəfindən baxış keçirilir. Tutulmuş və ya həbs edilmiş şəxslərin adına göndərilən bağlama, sovqat və banderollarda qadağan olunmuş əşyalar (odlu və ya soyuq silah, spirtli işkilərin bütün növləri, mobil telefonlar, narkotik vasitələr, psixotrop maddələr, güclü təsir edən dərman vasitələri və s.) aşkar edildikdə, həmin əşyalar müvafiq protokol tərtib edilməklə götürülür və cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq araşdırma aparılır.

Bağlama, sovqat və banderollarda tutulmuş və ya həbs edilmiş şəxslərin özlərində saxlamasına icazə verilməyən əşyalar aşkar edildikdə həmin əşyalar müvafiq akt tərtib edilməklə götürülür, tutulmuş və ya həbs edilmiş şəxs azad olunanadək saxlanılmaq üçün anbara təhvil verilir və ya bağlama, sovqat və banderolu göndərmiş şəxsin hesabına geri qaytarılır, yaxud həbs yerinin müdiriyyətinin əsaslandırılmış qərarına əsasən məhv edilir. Bu barədə tutulmuş və ya həbs edilmiş şəxsə məlumat verilir. Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərinin müdiriyyətinin razılığı ilə yaxın qohumlarına bağlama və ya banderol göndərə bilərlər. Həbs edilmiş şəxslərə daxil olan pul baratları onların şəxsi hesabına köçürülür. Həbs edilmiş şəxslər istintaq təcridxanasının müdiriyyətinin razılığı ilə şəxsi hesabından öz yaxın qohumlarına pul baratları göndərə bilərlər.

Həbs edilmiş şəxslərin həbs yerlərindəki, o cümlədən istintaq təcridxanasında davranışları müdiriyyət tərəfindən qiymətləndirilir. Bu zaman davranışdan asılı olaraq onlara həvəsləndirmə və ya tənbeh tədbirləri tətbiq edilə bilər. İstintaq təcridxanasında nümunəvi davranışına görə həbs edilmiş şəxslərə təşəkkür elan edilə və yaxud verilmiş tənbeh tədbiri vaxtından əvvəl götürülə bilər. Həbs yerlərinin, o cümlədən istintaq təcridxanalarının Daxili İntizam Qaydalarını pozan həbs edilmiş şəxslər barəsində xəbərdarlıq, töhmət və yeddi günədək müddətə cərimə təcridxanasında yerləşdirmə növündə tənbeh tədbirləri tətbiq edilə bilər. Həvəsləndirmə və tənbeh tədbirləri həbs yerinin rəisinin və ya onu əvəz edən şəxsin əsaslandırılmış qərarı ilə tətbiq edilir.

Tənbeh tədbiri verilməzdən əvvəl həbs edilmiş şəxsdən izahat alınır. Həbs edilmiş şəxs izahat verməkdən imtina etdikdə, bu barədə imtinanın səbəbləri göstərilməklə akt tərtib edilir. Tənbeh tədbiri həbs yerlərində müəyyən edilmiş qaydaların pozulması

halları və həbs edilmiş şəxsin davranışı nəzərə alınmaqla, pozuntunun aşkar edildiyi gündən ən geci beş gün keçənədək, pozuntu ilə əlaqədar yoxlama aparıldıqda isə, yoxlama başa çatdıqda, lakin pozuntu törədildiyi gündən ən geci bir ay keçənədək tətbiq edilir. Bir pozuntuya görə yalnız bir tənbeh tədbiri tətbiq oluna bilər. Daxili İntizam Qaydalarının pozulmasında təqsirləndirilən həbs edilmiş şəxsin hansı əməlinin pozuntu hesab olunduğu barədə dərhal məlumat almaq, özünün müdafiəsi üçün kifayət qədər vaxta və şəraitə malik olmaq, şəxsən və ya zəruri hesab etdiyi hallarda müdafiəçi vasitəsilə müdafiə olunmaq, tərcüməçinin köməyindən pulsuz istifadə etmək, şahidlərin izahatının alınmasını tələb etmək və onların izahatının alınmasında iştirak etmək kimi hüquqları vardır.

Tənbeh tədbiri barədə qərarın surəti həbs edilmiş şəxsə dərhal təqdim edilir və şikayət etmək hüququ ona izah olunur. Bu barədə müvafiq qeydiyyat aparılır. Həbs edilmiş şəxslər tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət verə bilərlər. Bir qayda olaraq şikayətin verilməsi tənbeh tədbirinin tətbiqini dayandırmır. Eyni zamanda, tənbeh tədbirindən şikayət verildiyi hallarda, barəsində şikayət olunan tənbeh tədbirinin tətbiqinin dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.

Həbs edilmiş şəxsə tətbiq edilə bilən ən sərt tənbeh tədbiri cərimə təcridxanasında yerləşdirmədir. Məhz buna görə bu tədbirin tətbiq edilməsi ilə bağlı konkret hallar qanunla müəyyən olunmuşdur. Qanunvericilyə əsasən cərimə təcridxanasında yerləşdirmə müstəsna tədbir kimi tətbiq edilə bilər. Belə ki, həbs edilmiş şəxs aşağıdakı hallarda cərimə təcridxanasına yerləşdirilə bilər:

- ⇨ bir il ərzində azı iki dəfə tənbeh tədbiri tətbiq edilmiş şəxs yenidən Daxili İntizam Qaydalarını pozduqda;
- ⇨ həbs yerinin işçilərinin qanuni tələblərinə tabe olmadıqda, onları və ya xidməti vəzifələrini yerinə yetirən digər şəxsləri, habelə digər həbs edilmiş şəxsləri hədələdikdə;
- ⇨ xırda xuliqanlıq əməli törədildikdə.

Cərimə təcridxanasında yerləşdirilən həbs edilmiş şəxs fərdi çarpayı (yataq yeri) və yataq ləvazimatı ilə təmin edilir. Cərimə təcridxanasında olduğu müddət ərzində həbs edilmiş şəxslərin ərzaq məhsulları əldə etməsi, bağlama, sovqat və banderol alması, stolüstü oyunlar oynaması, televiziya verilişlərinə baxması qadağandır. Bu şəxslərin ünvanına gəlmiş bağlama, sovqat və banderollar cərimə təcridxanasından azad edildikdən sonra onlara təqdim edilir. Cərimə təcridxanasında olduğu müddət ərzində həbs edilmiş şəxslərin görüşləri və ya yazışmaları yalnız o halda qadağan edilir ki, onların cərimə təcridxanasında yerləşdirilməsinə əsas verən hüquq pozuntusu bilavasitə görüşlərlə və ya yazışmalarla bağlı olsun. Cərimə təcridxanasında yerləşdirilən şəxslər hər gün ən azı bir saat gəzinti hüququna malikdirlər. Həbs edilmiş şəxslər cərimə təcridxanasında yerləşdirildikdən dərhal sonra və cərimə təcridxanasında olduğu müddət ərzində hər gün ən azı bir dəfə tibb işçisi tərəfindən yoxlanılmalı və zəruri tibbi yardımla təmin olunmalıdırlar. Barəsində cərimə təcridxanasında yerləşdirmə növündə tənbeh tədbiri tətbiq edilmiş şəxs səhhəti ilə əlaqədar cərimə təcridxanasında saxlanılmasının qeyri-mümkün olması barədə tibbi rəy olduqda, cərimə təcridxanasından azad edilir. Cərimə təcridxanasından azad olunma haqqında müvafiq qeydiyyat aparılır.

Cərimə təcridxanasında yerləşdirmə növündə tənbeh tədbiri yetkinlik yaşına çatmayan şəxslərə, hamilə və ya yanında üç yaşı-

nadək uşağı olan qadınlara tətbiq edilə bilməz.

Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerində saxlanılan zaman dövlət əmlakına vurduqları ziyana görə qanunla müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar. Tutulmuş və ya həbs edilmiş şəxslərin dövlət əmlakına vurduqları maddi ziyanın məbləği yoxlama materialları əsasında həbs yerinin rəisinin və ya onu əvəz edən şəxsin qərarı ilə müəyyən edilir. Maddi ziyanı ödəmək barədə qərar tutulmuş və ya həbs edilmiş şəxsə imza etdirməklə elan olunur. Tutulmuş və ya həbs edilmiş şəxs həmin qərardan yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət verə bilər. Həbs edilmiş şəxs vurulan ziyanı könüllü ödəməlidir. Lakin o maddi ziyanı könüllü olaraq ödəməkdən imtina etdikdə, həmin ziyanın əvəzi ondan məhkəmə qaydasında tutulur. Tutulmuş və ya həbs edilmiş şəxsin xahişi ilə maddi ziyan razılıqları olduqda onun qohumları və ya digər şəxslər tərəfindən ödənilə bilər. Hökmü qanuni qüvvəyə minmiş və cəzaçəkmə müəssisəsinə göndəriləndək ödənilməyən maddi ziyan cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən məhkumun şəxsi hesabından tutulur.

Dəymiş maddi ziyana görə düzgün tutulmayan məbləğ geri qaytarılır ya həbs edilmiş şəxsin şəxsi hesabına köçürülür. Həbs edilmiş şəxsə həbs yerinin işçiləri tərəfindən vurulan maddi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tutulur.

Həbs edilmiş şəxslər həbsdə saxlama yerlərinin işçı heyətinin qanuni tələblərinə tabe olmadıqda, onlara fiziki müqavimət göstərdikdə və ya digər zorakılıq hərəkətləri etdikdə, ətrafdakı insanlara və ya özlərinə ziyan yetirməsinin qarşını almaq məqsədilə onlara fiziki qüvvə, xüsusi vasitələr, xidməti itlər və müstəsna hallarda odlu silah tətbiq edilə bilər.

Fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah tətbiq edilərkən

aşağıdakı şərtlərə riayət edilməlidir:

❖ insana qarşı fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquq pozuntusunun ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir;

❖ qrup halında və ya odlu silah işlətməklə basqın edildiyi, o cümlədən silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, xüsusi vasitələr və ya odlu silah qadınlara, azyaşlılara, yanında azyaşlı uşaqlar olanlara, əlilliyi, yaxud digər fiziki və ya psixi qüsurları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı və ya kənar şəxslərin zərər çəkə biləcəyi yerlərdə tətbiq edilməməlidir;

❖ xüsusi vasitələr və ya odlu silah yalnız real təhlükənin qarşısı alınarkən tətbiq edilə bilər;

❖ fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır;

❖ hüquq pozuntusunun xarakterindən və təhlükəlilik dərəcəsindən, eləcə də göstərilən müqavimətin gücündən asılı olaraq, vurulan zərərin minimal olmasına cəhd edilməlidir;

❖ odlu silah tətbiq edilməzdən əvvəl şifahi xəbərdarlıq edilməli və ya xəbərdarlıq atəşi açılmalıdır (qəfildən, yəni gözlənilməz hücum baş verərsə, yaxud hücum üçün odlu silahdan, mexaniki nəqliyyat vasitəsindən və ya təhlükə yaradan yırtıcı, vəhşi və ya başqa heyvandan istifadə olunarsa, xəbərdarlıq etmədən odlu silah tətbiq edilə bilər);

❖ bədən xəsarəti alan şəxslərə ilkin tibbi yardımın göstərilməsi təmin edilməlidir.

Fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi haqqında müvafiq qeydiyyat aparılır. Həbs yerinin əməkdaşları

tərəfindən fiziki qüvvə və ya xüsusi vasitə tətbiq edildiyi hər bir halda həbs yerinin müdiriyyəti bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanına, yəni aidiyyəti üzrə Ədliyyə, Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyinə, odlu silahın tətbiq edilməsi barədə isə, əlavə olaraq habelə prokurorluq orqanlarına yazılı məlumat verməli və hadisə yerinin dəyişilməmiş saxlanılmasına çalışmalıdır.

Həbs yerinin əməkdaşları tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiq edildiyi hər bir halda müvafiq icra hakimiyyəti orqanı tərəfindən xidməti yoxlama aparılmalı və fiziki qüvvənin, xüsusi vasitənin və ya odlu silahın tətbiqinin qanunauyğun olub-olmaması barədə müvafiq rəy hazırlanmalıdır.

Həbs yerinin əməkdaşlarının öz səlahiyyətlərini, zəruri müdafiə və son zərurət hədlərini, habelə cinayət törətmiş şəxsin tutulması üçün zəruri olan tədbirlərin həddini aşaraq fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah tətbiq etməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Tutulmuş və ya həbs edilmiş şəxslərə xüsusi vasitələr aşağıda göstərilən hallarda tətbiq olunur.

1. **<u>Rezin dəyənəklər:</u>**

❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;

❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;

❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri,

qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**2. <u>Əl qandalları</u>:**

❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**3. <u>Yayındırıcı təsir göstərən işıq-səs vasitələri</u>:**

❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;

❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;

❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**4. <u>Maneədağıdan vasitələr</u>:**

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün.

**5. <u>Suvuranlar və zirehli maşınlar</u>:**

❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün.

**6. <u>Xidməti itlər:</u>**

❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;

❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;

❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**7. <u>Gözyaşardıcı qaz</u>:**

❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;

❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;

❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçiləri-

nin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;

❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**8. <u>Odlu silah.</u>** Həbs yerlərində odlu silahın müstəsna tədbir kimi zəruri müdafiə və ya son zərurət vəziyyətində real təhlükənin qarşısı alınarkən aşağıdakı hallarda tətbiq edilməsinə yol verilir:

❖ həbs yerinin işçilərini, tutulmuş və ya həbs edilmiş şəxsləri və ya digər şəxsləri onların həyatına və sağlamlığına təhlükə yaradan basqından müdafiə etmək üçün;

❖ həyatına və sağlamlığına təhlükə yarandıqda və bu təhlükənin başqa vasitələrlə aradan qaldırılması mümkün olmadıqda, girov saxlanılan şəxsləri azad etmək üçün;

❖ həbs yerinin binalarına, qurğularına və ya nəqliyyat vasitələrinə edilən silahlı hücumları dəf etmək üçün;

❖ silahlı müqavimət göstərən, silahın təhvil verilməsi haqqında qanuni tələbi yerinə yetirməkdən imtina edərək həbs yerinin işçilərinin, tutulmuş və ya həbs edilmiş şəxslərin və ya digər şəxslərin həyatına və sağlamlığına təhlükə yaradan silahlı şəxsin tutulub saxlanılması üçün;

❖ tutulmuş və ya həbs edilmiş şəxsin həbs yerindən və ya müşayiət zamanı qaçmasının qarşısının başqa vasitələrlə alınması mümkün olmadıqda, bu qaçışın qarşısının alınması üçün;

❖ həbs yerinin işçilərinin, tutulmuş və ya həbs edilmiş şəxslərin və ya digər şəxslərin həyat və sağlamlığı üçün təhlükə törə-

dən heyvanların zərərsizləşdirilməsi üçün;

❖ tutulmuş, həbs edilmiş və ya digər şəxslər tərəfindən odlu silahın ələ keçirilməsinin qarşısını almaq üçün;

❖ odlu silah tətbiq etmək niyyəti haqqında xəbərdarlıq edilməsi, həyəcan siqnalı verilməsi və ya kömək çağırılması üçün.

Həbs yerinin işçilərinin, tutulmuş və ya həbs edilmiş şəxslərin və digər şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradan kütləvi iğtişaşlar, habelə təbii fəlakət və ya digər fövqəladə hadisə baş verdikdə, müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən həbs yerində 30 günədək müddətə xüsusi saxlanılma şəraiti tətbiq edilə bilər. Həbs yerində xüsusi saxlanılma şəraitinin tətbiq edildiyi müddətdə, tutulmuş və ya həbs edilmiş şəxslərin iştirakı ilə aparılan tədbirlər məhdudlaşdırılır və ya dayandırılır, tutulmuş və ya həbs edilmiş şəxslərin mühafizəsi, onların üzərində nəzarət, habelə buraxılış rejimi gücləndirilir, bağlamaların, sovqatların və banderolların qəbul edilməsi dayandırılır, həbs yerinin normal fəaliyyətinin təmin edilməsi məqsədi ilə digər tədbirlər həyata keçirilir.

Tutulmuş və ya həbs edilmiş şəxslərin və ya digər şəxslərin həyatı və sağlamlığı üçün real təhlükə yarandıqda, həbs yerinin rəisi müstəqil olaraq "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 47.2-ci maddəsində nəzərdə tutulmuş tədbirləri tətbiq edə bilər. Bu halda o, tabeliyində olduğu müvafiq icra hakimiyyəti orqanına bu barədə dərhal məlumat verir.

Həbs yerində xüsusi saxlanılma şəraitinin tətbiq edilməsi barədə prokurorluq orqanlarına yazılı məlumat verilir. Həbs yerində xüsusi saxlanılma şəraiti onun tətbiq edilməsi barədə qərarı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edilir.

Müstəsna hallarda, məhkumlar və ya digər şəxslər tərəfindən həbsdə saxlanılma yerlərinin işçı heyətinin və ya başqa şəxslərin

həyatı üçün bilavasitə təhlükə yaradan basqınlar, yaxud qəsdən digər təhlükəli hərəkətlər edildikdə, habelə mühafizə altından qaçma hallarında göstərilən hərəkətlərin qarşısını digər tədbirlərlə almaq mümkün olmadıqda, qadınlar və yetkinlik yaşına çatmayan şəxslər istisna olmaqla, sonuncu tədbir kimi odlu silahın tətbiqinə yol verilir. Odlu silah tətbiq edilməsi barədə dərhal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və prokurorluq orqanlarına məlumat verilir.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tənzimlədiyi əsas məsələlərdən biri də tutulmuş və ya həbs edilmiş şəxslərin həbsdən azad edilməsinin əsasları və qaydasıdır. Belə ki, Qanunun 48.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının CPM-nə uyğun olaraq, tutulmuş və ya həbs edilmiş şəxsin azad edilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qəbul etdiyi qərar həbs yerinin müdiriyyəti tərəfindən dərhal icra edilir. Həbs yerinin rəisi aşağıdakı hallarda cinayət prosesini həyata keçirən orqanın qərarı olmadan müvafiq protokol tərtib etməklə, tutulmuş və ya həbs edilmiş şəxsi dərhal azad edir:

❖ həbs qətimkan tədbirinin məhkəmə qərarında müəyyən edilmiş müddəti başa çatdıqda və bu müddət uzadılmadıqda;

❖ tutma və ya həbsdə saxlamanın Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulan son müddəti başa çatdıqda;

❖ cinayət prosesini həyata keçirən orqandan şəxsin həbsdən azad edilməsi üçün məhkəmənin təyin etdiyi girovun verilməsi barədə məlumat daxil olduqda.

Həbs edilmiş şəxsin həbsdə saxlanması müddətinin başa çatmasına 7 gün qalmış həbs yerinin rəisi bu barədə cinayət prosesini həyata keçirən orqana məlumat verir. Tutulmuş və ya həbs edilmiş şəxs azad edildikdə onun anbara təhvil verdiyi əşyalar və pul vəsa-

itləri qaytarılır. Bu zaman tutulmuş və ya həbs edilmiş şəxs əmlakın ona qaytarıldığını imzası ilə təsdiq edir. Həbs yerinin rəisinin və ya onu əvəz edən şəxsin qanunda göstərilən hallarda tutulmuş və ya həbs edilmiş şəxsi dərhal azad etməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Həbs yerlərinə idarədaxili nəzarət qanunvericiliklə müəyyən edilmiş qaydada Ədliyyə, Daxli İşlər, Müdafiə nazirlikləri, Dövlət Təhlükəsizlik Xidməti, idarədənkənar nəzarət isə məhkəmə və prokurorluq orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) və Milli Preventiv Qrup üzvlərinin istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən həbs yerlərinə daxil olmaq, orada saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdikləri tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, həbs yerlərinin müdiriyyəti tərəfindən təxirə salınmadan qəbul edilmək, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) isə, həmçinin həbs yerlərinin müdiriyyətinə müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ vardır.

Müvafiq qanunvericiliklə həbs yerlərinin fəaliyyətinə ictimai nəzarətin də həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə nəzarət qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

## Mövzu 24. Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin statusu

Cəzaların qarşısında duran məqsədlərə nail olunması – məhkumların islah edilməsi, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısının alınması cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin səmərəliliyindən də asılıdır. Bu baxımdan cəzaları icra edən müəssisə və orqanların işçi heyəti ilə əlaqədar bir sıra tələblər irəli sürülməklə yanaşı, onların hüquqi statusu da dəqiq müəyyən edilməlidir. Cəzaları icra edən müəssisə və orqanların işçi heyəti dedikdə, bu müəssisə və orqanlarda çalışan bütün işçilər başa düşülür. Onların fəaliyyəti və bu orqanlarda qulluq keçmənin əsasları Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərafdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "İcra haqqında","İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilir.

Ədliyyə orqanlarında, o cümlədən cəzanı icra edən müəssisə və orqanlarda qulluq dövlət qulluğunun xüsusi növü hesab edilir. Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinə cəza-icra sisteminin xüsusi rütbəli işçi heyəti və digər işçiləri aiddir. Qanunvericiliyə əsasən cəza-icra sisteminin işçi heyətinə (hərbi qulluqçular istisna olmaqla) işə qəbul üçün yaş, təhsil, cins, sağlamlıq vəziyyəti və fiziki inkişaf, ümumi mədəniyyət və dünyagörüşü, hüquqi mədəniyyət, təşkilati, pedaqoji və digər sosial faydalı bacarıqlar, mənəvi və emosonial-iradəvi keyfiyyətlər və digər tələblər qoyulur. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanuna uyğun olaraq irqindən, milliyətindən, dinin-

dən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşlarının ədliyyə orqanlarında qulluq etmək hüquqları vardır. Bu qanunla ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müəyyən məhdudiyyətlər də qoyulmuşdur. Belə ki, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, barəsində cinayət işinin icraatina bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə ədliyyə orqanlarında işləməyə qadir olmayan, habelə məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara, yaxud qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər ədliyyə orqanlarına qulluğa qəbul edilmirlər.

Ədliyyə orqanlarına qulluğa qəbul üçün müraciət etmiş və sənədləri qəbul edilmiş namizədlər aşkarlıq şəraitində şəffaflıq təmin edilməklə müsabiqə və ya müsahibədən keçirlər. Böyük (baş ədliyyə müşaviri, ədliyyə polkovniki və tibb xidməti polkovniki istisna olmaqla) və orta xüsusi rütbələr nəzərdə tutulan vəzifələrə şəxslər, bir qayda olaraq, müsabiqə əsasında qəbul edilirlər. Müsabiqə ixtisas imtahanından və söhbətdən ibarətdir. Hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış şəxslər ədliyyə orqanlarına inzibati vəzifəyə qulluğa müsabiqəsiz qəbul edililə bilərlər. Ali hüquq təhsili tələb olunmayan böyük və orta xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə, həmçinin sıravi və kiçik rəis

heyəti vəzifələrinə şəxslər müsahibə əsasında qəbul edilirlər. Müsabiqənin və müsahibənin keçirilməsi qaydaları Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir.

İlk dəfə ədliyyə orqanlarına qəbul edilən şəxslər, o cümlədən probasiya üzrə icra məmurları üçün bir qayda olaraq altı aylıq stajorluq müddəti müəyyən edilir. Stajorluq müddəti bitdikdən sonra stajor barəsində müsbət rəy olduğu halda, onun üç aylıq sınaq müddəti ilə vəzifəyə təyin edilməsi məsələsi həll olunur. Sınaq müddəti başa çatdıqdan sonra attestasiyadan müvəffəqiyyətlə keçmiş işçi müvafiq vəzifəyə təyin olunmaqla ədliyyə orqanlarında daimi qulluğa qəbul edilir. Ədliyyə orqanlarına qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində stajorluq və sınaq müddətləri müəyyən edilmir.

Ədliyyə orqanlarında işə ilk dəfə qəbul olunmuş ədliyyə işçisi işə başlamamışdan əvvəl Azərbaycan Respublikasının dövlət bayrağı önündə ədliyyə orqanlarında qulluq keçərkən Azərbaycan Respublikasına sadiq olacağı, Azərbaycan Respublikasının Konstitusiyasına dönmədən əməl edəcəyi, dövlət sirrini və xidməti sirri qoruyacağı, hüquq və vəzifələrini qərəzsiz, vicdanla, qanuna tam uyğun həyata keçirəcəyi, ədliyyə işçisinin şərəf və ləyaqətini uca tutacağı barədə and içir.

Ədliyyə orqanlarına qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində stajorluq və sınaq müddətləri müəyyən edilmir.

Tutduqları vəzifəyə və ədliyyə orqanlarında stajına uyğun olaraq ədliyyə orqanlarının işçiləri üçün xüsusi rütbələr müəyyən

edilir. İlk orta və böyük xüsusi rütbə ədliyyə orqanlarına ilk dəfə daimi qulluğa qəbul edilənlərə Azərbaycan Respublikasının və Naxçıvan MR ədliyyə nazirləri, habelə onların səlahiyyət verdiyi digər rəhbər işçilər tərəfindən verilir. Xüsusi rütbələr fərdi qaydada, təhsili, olduqları xüsusi rütbədə qulluq müddəti və əmək stajı, tutduqları vəzifədə xüsusi rütbə hədləri, həmçinin yuxarıda sözügedən qanunda nəzərdə tutulan digər şərtlər nəzərə alınmaqla ardıcıl qaydada verilir.

Qanunvericiliklə ədliyyə orqanlarında qulluqla bir araya sığmayan fəaliyyət növləri müəyyən edilmişdir. Belə ki, ədliyyə orqanlarının işçisi heç bir seçkili və ya digər təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz. Eyni zamanda, ədliyyə orqanları işçisinə aşağıdakılar qadağandır:

- “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmalar törətməyə;
- qanunvericiliklə müəyyən edilmiş hallardan başqa, dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;
- işdən və ya pensiyaya çıxdıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;
- işlədiyi ədliyyə orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına xaricə getməyə;
- tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkət-

lərdə iştirak etməyə;

- dini təbliğ etmək üçün ədliyyə işçisinin statusundan istifadə etməyə və ədliyyə orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

Ədliyyə orqanlarında işçilərin tutduqları vəzifələrə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi, onların potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, peşə səriştəliliyinin artırılmasının stimullaşdırılması, ixtisaslarının və peşə hazırlıqlarının yüksəldilməsi və ya təkrar hazırlıq keçmələrinin zərurət dərəcələrinin müəyyənləşdirilməsi, habelə kadrların irəli çəkilməsi proqramının həyata keçirilməsi məqsədilə beş ildə bir dəfədən çox olmayaraq attestasiyası keçirilir. Attestasiya zamanı işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Ədliyyə orqanları işçilərinin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Qanunvericiliyə əsasən yalnız müvafiq vəzifələrdə ən azı bir il çalışan ədliyyə orqanları işçilərinin attestasiyası keçirilə bilər.

Qanunvericilik ədliyyə orqanları işçilərinin hüquqi və sosial müdafiəsini və maddi təminatını da nəzərə tutmuşdur. Ədliyyə orqanlarının işçisi “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanunda nəzərdə tutulmuş hallardan başqa, vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıla, ədliyyə orqanlarından xaric edilə bilməz və onun qulluq keçməsinə xitam verilə bilməz. Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, ədliyyə orqanları işçisinin qanuni fəaliyyətinə məhdudiyyət qoyulması, təsir və müdaxilə edilməsi yolverilməzdir.

Penitensiar xidmətin əməkdaşları və onların ailə üzvləri barədə məlumatların məxfiliyinin qorunması üçün Ədliyyə Nazirliyi-

nin qərarı ilə rabitə sorğu xidmətinə və ya digər məlumat-sorğu xidmətlərinə bu şəxslərin telefon nömrələri, yaşayış yeri barəsində və ya hər hansı digər məlumatların verilməsi müvəqqəti və ya daimi olaraq qadağan edilə bilər. Penitensiar xidmətin əməkdaşlarının xidmət keçməsi haqqında məlumatlar yalnız penitensiar orqanın rəhbərinin icazəsi ilə verilə bilər.

Ədliyyə işçilərinin əmək haqqı vəzifə maaşından, xüsusi rütbələrə, qulluq illərinə, elmi dərəcəyə görə əlavələrdən və qanunvericiliklə nəzərdə tutulan digər ödənişlərdən ibarətdir. Ədliyyə orqanları işçilərinin vəzifə maaşının məbləği Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Ədliyyə işçiləri üçün elmi dərəcəyə görə əlavələrin miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilir. Onlara ədliyyə orqanlarında qulluq stajına görə Azərbaycan Respublikası daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə ödənilən haqqın məbləğlərinə və hesablanması qaydasına uyğun olaraq əlavə haqq verilir.

Ədliyyə orqanlarının işçilərinə əməyin ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitlər hüdudunda qulluqda fərqləndiklərinə, xüsusi əhəmiyyətli işləri keyfiyyətlə yerinə yetirdiklərinə görə Ədliyyə Naziri və onun səlahiyyət verdiyi aidiyyəti rəhbər işçilər tərəfindən vəzifə maaşlarının 25 faizindən çox olmamaq şərtilə əlavələr təyin edilə bilər. Ədliyyə işçilərinin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu orqanlarda müəyyən olunmuş aylıq əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla) üç misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.

Ədliyyə orqanları işçilərinin həyatı və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan

Respublikasının Qanununa uyğun olaraq məcburi sığorta edilir, işçilər (pensiyaya çıxmış işçilər də daxil olmaqla) və onların ailə üzvləri pulsuz dövlət tibb xidməti ilə təmin olunurlar.

Ədliyyə işçilərinin müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə onlara iki aylıq əməkhaqqı həcmində birdəfəlik müavinət verilir. Hər il məzuniyyətə çıxarkən onlara iki aylıq əməkhaqqı həcmində müavinət ödənilir. Başqa yerə daimi işə keçirilmiş ədliyyə orqanı işçisinin və onun ailə üzvlərinin yeni qulluq keçmə yerinə köçməsi pulu və birdəfəlik kompensasiya dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2007-ci il tarixli qərarı ilə müəyyən edilmiş qaydada ödənilir.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası ədliyyə nazirliklərinin mərkəzi aparatında, penitensiar və tibb xidmətlərində, regional qurumlarında qulluq keçən xüsusi rütbəsi olan ədliyyə işçiləri, habelə icra məmurları xüsusi geyim forması ilə təmin olunurlar. Xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsviri Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 1999-cu il tarixli Sərancamı ilə təsdiq edilmişdir. Ədliyyə orqanları işçilərinə pulsuz geyim formalarının verilmə qaydaları, normaları və onlardan istifadə müddətləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 27 iyul 2000-ci tarixli qərarı ilə təsdiq edilmişdir. Ədliyyə işçilərinin ayrı-ayrı kateqoriyalarına xidməti vəzifələrini yerinə yetirərkən qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə tətbiq etmək hüququ verilir.

Xidməti vəzifələrinin nümunəvi icrasına, uzunmüddətli qüsursuz fəaliyyətinə və digər xidmətlərinə görə ədliyyə orqanları işçisinə qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə tədbirləri tətbiq oluna bilər. Eyni zamanda, “Ədliyyə orqanlarında qul-

luq keçmə haqqında” Qanunu ilə nəzərdə tutulmuş tələblərin pozulmasına, habelə “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl edilməməsi və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmalara yol verilməsi hallarında (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) ədliyyə işçisi barəsində intizam tənbehi tətbiq oluna bilər.

Ədliyyə orqanları işçisinin ədliyyə orqanlarında qulluqda olmasının yaş həddi 60 yaşdır. Qulluq keçən qadınlar öz arzuları ilə qeyd olunan yaş həddindən 5 il az olmaqla xidmət edə bilərlər. Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifələrə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Yaş həddinə çatmış ədliyyə orqanlarının digər işçilərinin qulluqda olma müddəti Ədliyyə Nazirliyinin aidiyyəti rəhbər vəzifəli şəxsi tərəfindən, hər dəfə bir ildən çox olmayaraq uzadıla bilər. 65 yaşına çatmış işçilərin ədliyyə orqanlarında qulluqda olma müddətinin uzadılmasına yol verilmir.

Yaş həddinə çatanadək ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrdə azı 35 il qulluq stajı olan ədliyyə işçiləri (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla) “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya hüququna malikdirlər və onların qulluq keçməsinə öz xahişləri ilə xitam verilə bilər.

Pensiyaya çıxması, struktur və ştat dəyişiklikləri, səhhəti və əlilliyinin müəyyən edilməsi ilə bağlı ədliyyə orqanlarında qulluq keçməsinə xitam verilmiş ədliyyə orqanlarının işçisinə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət verilir. Pensiyaya çıxması ilə əlaqədar verilmiş müavinətdən vergi tutulmur. Ədliyyə orqanlarında qulluq etmiş şəxslərin, ədliyyə işçilərinin və on-

ların ailə üzvlərinin pensiya təminatı “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Ədliyyə işçilərinə qoyulmuş tələblərdən əlavə, Penitensiar Xidmətə qulluğa qəbulun, qulluq keçmənin, yaş həddinin, verilən təminatların bir sira fərqli və əlavə xususiyyətləri vardır. Həmin xüsusiyyətlər “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanunla, yəni penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətləri fəslindəki müddəalar ilə tənzimlənir.

Penitensiar Xidmətin işçiləri qanunvericiliyə əsasən xüsusi rütbəsi olan əməkdaşlara, mülki işçilərə və hərbi qulluqçulara bölünür. Xüsusi rütbəsi olan əməkdaşlar sıravi heyətdən, kiçik, orta, böyük və ali rəis heyətindən, mülki işçilər isə, dövlət qulluqçularından və dövlət qulluqçuları olmayan işçilərdən ibarətdir. Hərbi qulluqçular cəzaçəkmə müəssisələrinin mühafizəsi və bu müəssisələrdə saxlanılan şəxslərin müşayiəti üçün təskil edilmiş Penitensiar Xidmətin xüsusi bölmələrində xidmət keçirlər.

Penitensiar Xidmətin sıravi və kiçik rəis heyəti vəzifələrində qulluğa ən azı tam orta və ya orta ixtisas təhsilli, orta və böyük rəis heyəti vəzifələrinə isə yalnız ali təhsilli şəxslər qəbul edilirlər.

Penitensiar Xidmətdə qulluğa qəbul edilən səxslərin fiziki hazırlığı və sağlamlıq vəziyyəti Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada yoxlanılır. Qulluğa qəbul edilməmişdən əvvəl namizədlər Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada ilkin hazırlıq kursları keçirlər. Bu kursları müvəffəqiyyətlə başa vurmuş şəxslərin ədliyyə orqanlarında qulluğa qəbulu ilə bağlı qərar qəbul edilir.

Penitensiar Xidmətin əməkdaşlarının təminat xərclərinə tutduğu vəzifəyə görə vəzifə maaşı, xüsusi rütbəyə və qulluq illərinə görə haqq, məharət dərəcəsinə görə verilən əlavə, ərzaq payı və

ya ərzaq payı əvəzinə verilən pul kompensasiyası, digər müavinət və ödənişlər daxildir. Bu işçilərinin vəzifə maaşları penitensiar müəssisələrin növündən, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş işlərin (vəzifələrin) xüsusiyyətindən və ağırlığından asılı olaraq artırılır.

Penitensiar Xidmətin əməkdaşları dövlət büdcəsi vəsaiti hesabına imtiyazlı ödəmə şərtilə ölkə daxilində sanatoriya-kurort müəssisələrinə yollayış ala bilərlər. Xidməti vəzifələrini icra edərkən həlak olan (vəfat edən) əməkdaşların dəfni dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir və bu zaman Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş qaydada onların şərəfinə ehtiram göstərililr.

Penitensiar xidmətin əməkdaşının qulluqda olmasının yaş həddi digər ədliyyə işçilərdən fərqli olmaqla, aşağıdakı kimi müəyyən edilmişdir:

- sıravi və kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara - 50 yaş (bu xüsusi rütbələrdə olan əməkdaşlar göstərilən yaş həddinə çatdıqda qulluq illərinə görə pensiya hüququ əldə etmirlərsə, onlar ədliyyə orqanlarında qulluğunu davam etdirirlər);
- orta və böyük rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara - 55 yaş;
- ədliyyə general-mayoru və ədliyyə general-leytenantı xüsusi rütbələrdə olan əməkdaşlara - 60 yaş, ədliyyə general-polkovniki xüsusi rütbədə olan əməkdaşlara - 65 yaş.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Müəyyən olunmuş yaş həddinə çatmış Penitensiar Xidmətin əməkdaşının qulluqda olma müddəti hər dəfə bir ildən çox olmayaraq müddətə Ədliyyə Naziri və ya həmin xidmətin rəhbəri tərəfindən 5 ildən çox olmamaq şərtilə uzadıla bilər.

Penitensiar Xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Penitensiar Xidmətin əməkdaşlarına pensiya təyin edildikdə, penitensiar müəssisələrdə mülki işçi qismində işlədikləri müddət qulluq illərinə hesablanır. Bilavasitə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində işləyən penitensiar xidmətin əməkdaşlarına pensiya təyin edilərkən işlədikləri illərin hesablanması üç iş günü dörd iş günü kimi, yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş müalicə müəssisələrində və cəzaçəkmə müəssisələrinin yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş şöbələrində işləyənlərə isə iki iş günü üç iş günü kimi hesablanır.

Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin gündəlik fəaliyyəti cinayət törətmiş şəxslərin saxlanıldığı bir mühitdə həyata keçirildiyi üçün onların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə bir sıra vasitələr müəyyən edilmişdir. Bu vasitələri iki qrupa bölmək olar:

1) **cinayət-hüquqi xarakterli tədbirlər.** Bura aiddir:

- bilavasitə işçi heyətin təhlükəsizliyinə zərər vurmağa yönəlmiş hərəkətlərə görə cinayət məsuliyyəti müəyyən edən normalar (Azərbaycan Respublikası CM-in 304, 316, 317-ci maddələri və s.);
- şəxsiyyətin həyatı, sağlamlığı və ləyaqəti əleyhinə cinayətlərə görə məsuliyyət müəyyən edən normalar (Azərbaycan Respublikası CM-in XVIII və XIX fəsilləri);
- hüquq-mühafizə və nəzarət orqanlarının vəzifəli şəxsləri barəsində zorakı hərəkətlərə görə məsuliyyət müəyyən

edən normalar (Azərbaycan Respublikası CM-in 315-ci maddəsi).

**2) cəza-icra xarakterli tədbirlər.** Bura aiddir:

- ❖ məhkumlara göstərilən tərbiyəvi təsir tədbirləri;
- ❖ texniki-nəzarət vasitələrinin tətbiqi;
- ❖ təhlükəsizlik tədbirləri;
- ❖ profilaktik tədbirlər;
- ❖ məhkumlara tətbiq edilən tənbeh tədbirləri;
- ❖ digər tədbirlər.

Azərbaycan Respublikasının CİM-i və "Həbs yerlərində saxlanılan çəxslərin hüquq və azadlıqlarının təmin olunması haqqında" Qanunda işçi heyətin təhlükəsizliyinin təmin edilməsi cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında baş verən hüquq pozuntularının vaxtında qarşısının alınması məqsədi ilə işçi heyətin təhlükəsizlik tədbirlərindən istifadə etməsi əsaslarını və qaydasını da dəqiq müəyyən etmişdir. Bu məsələlərlə bağlı məlumat dərsliyin müvafiq mövzularında verilmişdir.

Nəhayət, qanun cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin hüquqi statusunun, təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutmaqla yanaşı, eyni zamanda onların fəaliyyətinə nəzarət institutu da müəyyən etmişdir. Burada məqsəd işçi heyətinin öz fəaliyyətində qanunçuluğun tələblərinə dönmədən riayət olunmasını təmin etməkdir.

## Mövzu 25. Xarici ölkələrdə cəzaların icrasının və penitensiar sistemin xüsusiyyətləri

Bir çox xarici ölkələrdə cinayətkarlıqla mübarizə işində cəza-icra siyəsəti ayrıca yox, cinayət-hüquqi siyasətin tərkib hissəsi kimi həyata keçirilir. Bu siyəsətin əsas istiqamətlərindən biri kimi cinayətkarlıqla əlaqədar problemin həllinin cəzaların və digər cinayət-hüquqi tədbirlərin səmərəli icrası olunması ilə nəzəri cəlb edir. Dünya ölkərində tətbiq edilən cəzalar və onların icrası qaydaları bir-birinə kifayət oxşardır. Azadlıqdan məhrum etmə növündə cəzanın icrası qaydalarında bir sıra fərqlər vardır.

Son illərin təhlili göstərir ki, bütün dünyada, xüsusilə Avropada cinayətkarlıqla mübaizə sahəsində azadlıqdan məhrum etmənin yaratdığı mənfi iqtisadi və sosial nəticələr nəzərə alınmaqla, qeyd olunan cəzaya alternativlərin, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların daha geniş tətbiqi müşahidə edilir. Belə cəzalar arasında cərimə, ictimai işlər növündə cəzaların, habelə şərti məhkum etmənin tətbiqinə daha çox rast gəlinir.

Azadlıqdan məhrum etməyə gəldikdə, qeyd edilməlidir ki, bu cəza növü tarixən məhkumların bir qayda olaraq əlçatmaz, xüsusi təcrid edilmiş, güclü mühafizə ilə müşayiət edilən yerlərdə daşdan inşa edilmiş, öz zahiri görünüşünə görə qalaları, qəsrləri xatırladan və bu məqsədlər üçün nəzərdə tutulmuş xüsusi yerlərdə, sonradan həbsxana kimi tanınan binalarda saxlanması yolu ilə icra edilmişdir. Həbsxanalar hələ XVI əsrin sonlarından mövcud olmuş, onlar bu zaman məhkumların islah edilməsi məqsədi güdməsə də, cinayətlərin ümumi və xüsusi xəbərdarlığı funksiyalarını yerinə yetirmişdir. Həmin dövrlərdə həbsxanalar əsasən ölüm cəzasının, bədən cəzalarının və digər cəza növləri-

nin icrasını gözləyən cinayətkarların saxlanıldığı ibtidai həbs yeri qismində xidmət edirdi və bəzən burada ömürlük azadlıqdan məhrum edilmişlər də saxlanılırdı.

İngiltərədə və Şotlandiyada baş vermiş burjua inqilabarından sonra bu ölkələrdə cinayət qanunvericiliyinin islahatına və həmin dövrdən etibarən cəza növü kimi azadlıqdan məhrum etmənin daha geniş tətbiqinə başlanılmışdır. XVIII əsrin ikinci yarısından başlayaraq bir çox dövlətlərin cinayət qanunvericiliyində cəzanın təyin edilməsi və icrası sahəsində humanistləşmə ideyaları təşəkkül tapmışdır. Bu ideyaların müəllifləri olan ingilis alimlər – C.Hovard (1726-1790-cı illər) və Y.Bentam (1748-1832-ci illər) cəzaların icrası, xüsusilə penitensiar sahədə elmin əsasını qoymuşlar. Onlar XVIII-XIX əsrlərdə penitensiar sistemlərin (azadlıqdan məhrum etmə cəzasının icrasını həyata keçirən sistemin) klassik layihələrini işləyib hazırlamış və cəmiyyətə təqdim etmişlər. Bu layihələrdə saxlanma rejimindən əlavə, məhkumların islah edilməsinin vasitələri kimi əməyə, ümumi təhsilə, şəxsiyyətə mənəvi təsirə xüsusi yer verilirdi. Humanistliyi baxımından bu layihələr öz dövrünü xeyli qabaqlamışdı və buna görə də müəlliflərin sağlığında onları həyata keçirmək mümkün olmadı. Lakin onlar istər Böyük Britaniyada, istərsə də onun hüdudlarından kənarda penitensiar sistemlərin inkişafına əhəmiyyətli təsir göstərmiş, yeni elm sahəsinin – həbsxanaşünaslığın, penitensiar hüququn əsasını qoymuşdur.

XVIII-XIX əsrlərdə ABŞ da penitensiar sistemin inkişafına öz töhfəsini vermişdir. Belə ki, dünyanın bir sıra dövlətlərində cəzanın icrasının ABŞ-da təşkil edilmiş pensilvaniya və oburn sistemlərinin, gənclər saxlanması üçün təşkil olunmuş reformatoriyalarının təcrübəsindən geniş istifadə edilmişdir.

**Pensilvaniya həbsxana sistemi.** 1786-cı ildə ABŞ-ın Pen-

silvaniya ştatında (Filadelfiya şəhəri) azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslər üçün yeni növ həbsxana açılmış və bu həbsxana "penitensiar" müəssisə adlandırılmışdır. Penitensiar müəssisələrin yaradılması ideyası dini zəmində meydana gəlmişdir. Bu müəssisələrin yaradılmasının baniləri olan **"kvakerlər"** təriqəti (protestantlığın bir qoludur) tərəfindən cinayət törədilməsi günah kimi qiymətləndirilirdi. Onların fikrincə, cinayət törətmiş şəxslər azadlıqdan məhrum etmə cəzasının çəkilməsi dövründə öz günahını yumalı və tövbə etməli idilər. Tövbə etmək üçün xüsusi şərtlər – tam tənhalıq və susma, yəni danışmağın qadağan olunması idi. Bu müddəalardan irəli gələrək penitensiar müəssisələr həmin xüsusi şərtlərin həyata keçirilməsinə xüsusi olaraq uyğunlaşdırılmışdı. Belə ki:

- ❖ burada müdiriyyət və məhkumlar yarımsəslə (çox asta) danışmalı idi;
- ❖ müəssisənin binalarında addım səslərinin eşidilməməsi üçün tədbirlər görülürdü (döşəmələrə səs azaldan xüsusi materiallar, habelə rezin vurulurdu);
- ❖ cinayət törətmiş şəxslər birnəfərlik kameralarda saxlanılırdı;
- ❖ kollektiv əmək qadağan olunmuşdu;
- ❖ məhkumların gəzintisi müəssisənin həyətinin təcrid edilmiş sahələrində təkbətək təşkil olunurdu;
- ❖ xarici mühitlə əlaqələr tamamilə istisna edilirdi;
- ❖ hətta ən xırda pozuntulara görə ciddi tənbehlər, bədən cəzası, işgəncə tətbiq olunurdu.

Pensilvaniya sistemi məhkumlara güclü qorxuducu təsir göstərirdi və nəticədə belə sərt saxlanma onların psixikasını kəskin şəkildə pozurdu. Beləliklə, bir sıra hallarda cəzanın icrası prosesində məhkumların islahına deyil, onların ruhi xəstəliklərə

tutulmasına, yaxud da ölümünə nail olunurdu.

Azadlıqdan məhrum etmənin pensilvaniya sistemi gözlənilən dini nəticələrə nail olmasa da, yeni cinayətlərin qarşısının alınması vəzifəsini kifayət qədər müvəffəqiyyətlə yerinə yetirmişdir. Məhz bu cəhətdən pensilvaniya sistemi ABŞ-da (Pitsburq, Cerri-Hille), İngiltərədə (Pentonvil), Almaniyada (Moabit), Fransada (Mazas), bir qədər sonra isə Rusiyada (Sankt-Peterburq şəhərindəki “Krestı” adlanan müəssisə) müxtəlif həbsxanalar vasitəsi ilə geniş yayılmışdır.

**Oburn həbsxana sistemi.** 1820-ci ildə Nyu-York ştatının Oburn şəhərində yeni bir penitensiar müəssisə istifadəyə verimişdir. Burada cəza çəkmə, bir tərəfdən, müxtəlif tənbeh tədbirlərinin tətbiqi hədəsi altında susmaq yolu ilə məhkumların islah edilməsinə nail olmağa, digər tərəfdən isə, məhkumların kollektiv məhsuldar əməyinin islaha dəstək və iqtisadi mənfəətləri haqqında yeni ideyaların həyata keçirilməsinə əsaslanırdı. Bu iki əsasın birləşdirilməsi ona gətirib çıxartdı ki, Oburn həbsxana müəssisəsində gündüzlər məhkumların ucuz kollektiv əməyindən istifadə olunurdu, gecələr isə onlar birnəfərlik kameralara göndərilirdi. Azadlıqdan məhrum etmə cəzasının çəkilməsinin bu modeli “Oburn sistemi” adı almışdır. Oburn sistemi nəinki ABŞ-da, hətta Avropa ölkələrində, xüsusilə də Şotlandiyada və Belçikada geniş yayılmışdı. Bu sistemin fərqləndirici cəhətlərindən biri ondan ibarət idi ki, burada müdiriyyətin səlahiyyətləri həddən artıq və nəzarətsiz həyata keçırilirdi.

**Mütərəqqi sistem.** 1836-cı ildə İngiltərədə yeni həbsxana sistemi meydana gəlmiş və bu sistem “mütərəqqi sistem” adlandırılmışdır. O, digər sistemlərdən onunla fərqlənirdi ki, burada cəza müddəti bir neçə mərhələyə bölünürdü. Məhkum bir mərhələdən digərinə keçməklə (bu məhkumun davranışından asılı idi:

yaxşı davranış rejimi və saxlanma şəraitini yüngülləşdirirdi, pis davranış isə, onları sərtləşdirirdi), təcrid olunma şəraitində onun həyatını yüngülləşdirən müəyyən güzəştlər əldə edirdi.

İngiltərədə mütərəqqi sistem üzrə cəza çəkən məhkumlar üçün cəza müddəti üç mərhələyə bölünürdü:

**1. Sınaq mərhələsi** – pensilvaniya sistemi tipi üzrə təklikdə saxlanma;

**2. İslah müddəti** – ümumi saxlanma şəraitində məhkumların əməyə məcburi cəlb edilməsi;

**3. Şərti olaraq vaxtından əvvəl azad etmə**.

İngilis mütərəqqi sisteminin növlərindən biri də İrlandiya mütərəqqi sistemi idi. Bu sistemin müəllifi Böyük Britaniyalı alim kriminoloq V.Kroftondur. Əvvəlki sistemlə müqayisədə bu sistemin fərqləndirici cəhəti ondan ibarət idi ki, burada islah mərhələsi ilə şərti olaraq vaxtından əvvəl azad etmə mərhələsi arasında keçid mərhələ mövcud idi. Bu mərhələ məhkumun yarımazad şəraitdə saxlanmasını, işləməyə müşayiətsiz çıxarılmasını, məzuniyyət almasını və s. nəzərdə tuturdu.

XIX əsrin ikinci yarısında cəzanın icrasının təşkilinin dünya təcrübəsinə cinayət hüququnun sosioloji məktəbinin ideyaları təsir göstərməyə başladı. Artıq cəzanın çəkilməsinin mütərəqqi sistemlərindən istifadə etməklə azadlıqdan məhrum etmənin icrasının yeni üsul və formalarının axtarışına başlandı. ABŞ-da bu axtarışlar yeni növ islah (cəzaçəkmə) müəssisələrinin – gənclər üçün reformatoriyaların (“peformasiya” latın sözü olmaqla “dəyişmə”, “islah etmə” deməkdir) yaranması ilə nəticələndi. Bu müəssisələr özlərində həbsxanaların və tərbiyə müəssisələrinin atributlarını birləşdirirdi. Birinci reformatoriya 1876-cı ildə ABŞ-ın Elmir şəhərində (Nyu-York ştatı) açılmışdır. Azadlıqdan məhrum etmə növündə cəza çəkmək üçün reformatoriyalara yaşı

16-dan 30-dək olan şəxslər göndərilirdi. Burada məhkumlara təsir vasitəsi kimi əməkdən, ümumi orta və peşə təhsilindən, hərbi təlimdən geniş istifadə edilirdi. Bu sistemin mahiyyəti ondan ibarət idi ki, reformatoriyada cəza çəkən bütün məhkumlar üç dərəcəyə bölünürdü. Bu dərəcələrin hər birində olmaq müəyyən saxlanma şəraiti ilə əlaqədar idi, təkrar məhkum edilmiş şəxslər orta dərəcədə saxlanırdı. Əgər cəza çəkmə prosesində onların davranışı reformatoriyada qəbul olunmuş standartlara uyğun gəlirdisə, onlar yuxarı dərəcəyə keçirilirdi. Bu zaman onların saxlanma şəraiti yaxşılaşdırılır, hüquqların dairəsi genişləndirilir, məhdudiyyətlər əksinə azaldılırdı. Müəyyən edilmiş qaydaları pozuntu ilə müşayiət olunan davranışa görə məhkumlar orta dərəcədən aşağı dərəcəyə keçirilirdi, onlara məxsus hüquqi status sərtləşdirilməklə, hüquq və imtiyazların dairəsi məhdudlaşdırılmaya məruz qalırdı.

Qeyd etmək lazımdır ki, məhkəmə, cinayətkarı mühakimə edərkən ona yalnız cəza növünü təyin edirdi. Məhkumun reformatoriyada hansı müddətə saxlanılmasını isə (cinayət qanununda bu cinayət növü üçün müəyyən edilmiş müddətdən artıq olmamaq şərti ilə) öz mülahizəsinə görə müəssisə müdiriyyəti müəyyən etmək hüququna malik idi. Beləliklə, reformatoriyaların təşkili ilk növbədə direktorun kifayət qədər geniş səlahiyyətlərini nəzərdə tutur və onun hərəkətlərinə müdaxilələrə yol verilmirdi.

1900-cu ildə keçirilmiş penitensiar məsələlərə həsr olunmuş Beynəlxalq konfrans reformatoriyalar sisteminin Avropa ölkələrində tətbiqini mümkün saymasa da, bu sistemin əsas elementi (qeyri-müəyyən hökmlər) hazırda da ABŞ-da tətbiq edilməkdədir.

Mütərəqqi sistemin növlərindən birini də **Borstal həbsxana sistemini** hesab etmək olar. Borstal sistemi XIX əsrin sonların-

dan İngiltərədə geniş surətdə tətbiq edilməyə başlanmışdır. Onun banisi Reqql-Braysdır. Bu sistem öz adını Kent qraflığının Borstal şəhərində açılmış həbsxanadan – yetkinlik yaşına çatmayan məhkumlar üçün nəzərdə tutulmuş tərbiyə müəssisəsindən götürmüşdür. ABŞ reformatoriyalarının bir çox cəhətlərinə malik olsa da, Borstal həbsxana sistemində qeyri-müəyyən hökmlər yox idi. Belə ki, məhkumlar burada əməyə, ümumi təhsilə və peşəyə məcburi cəlb edilməklə, 6 aydan 2 ilədək müddətə ciddi rejim şəraitində saxlanılırdılar.

Borstal həbsxana sisteminə aid müəssisələrində 16-21 yaşlı cinayətkarlar barəsində azadlıqdan məhrum etmə cəzası icra edilirdi. Hazırda Borstal müəssisəsinə oxşar müəssisələr həm Böyük Britaniyada, həm də digər xarici ölkələrdə mövcuddur. Bu müəssisələrin üstünlüyü ondadır ki, burada bir tərəfdən C.Hovard və Y.Bentamın ideyaları təcrübədə sınaqdan çıxarılmaqla özünü doğrultmuş, digər tərəfdən isə, ABŞ-ın gənclər reformatoriyalarının müsbət təcrübəsindən istifadə edilmişdir.

Bütövlükdə, hazırda xarici ölkələrdə cəzaların icrasının təşkili və hüquqi tənzimlənməsi ümumən ölkəmizdə cəzaların icrasına oxşarlığı ilə nəzəri cəlb edir. İlkin olaraq qeyd olunmalıdır ki, əksər xarici ölkələrdə cəzaların icrası qanunvericiliyinin əsasını Azərbaycanda olduğu kimi qanunvericilik orqanı tərəfindən qəbul edilmiş müvafiq qanunlar, o cümlədən cəzaların icrası məcəllələri təşkil edir.

Lakin bununla yanaşı, xarici ölkələrin cəza-icra qanunvericiliyi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və penitensiar sisteminin işinin təşkili ilə müqayisədə fərqli cəhətlərə də malikdir. Qanunvericiliyin və penitensiar sistemin əsas fərqli cəhətlərinə ilk növbədə, xarici ölkələrdə azadlıqdan məhrum etmə cəzasının bir qayda olaraq həbsxanalarda, yəni məh-

kumların kameralarda saxlanılmaqla icra edilməsidir. Azadlıqdan məhrum etmə cəzasının müxtəlif növlərinə məhkum olunmuş şəxslərin böyük əksəriyyəti cəzalarını 1-2 nəfərlik kameralarda çəkirlər. Lakin kameralarda saxlanmaqla cəza çəkmək özü də müxtəlif kateqoriyalı məhkumlar üçün, habelə məhkumun cəza müddətindəki davranışından asılı olaraq fərqli təşkil olunur. Yəni, əksər xarici ölkələrdə məhkumların böyük qrupu yalnız gecə, yəni yatmaq vaxtı kameralara yerləşdirilir. Məhkumlar günün böyük hissəsini kameralardan kənarda keçirir və müxtəlif tədbirlərdə iştiraka cəlb olunurlar.

İkinci fərqli cəhət ondan ibarətdir ki, xarici ölkələrdə, xüsusilə ABŞ, Böyük Britaniya, İtaliya, Fransa və digər Avropa ölkələrində azadlıqdan məhrum edilmiş məhkumlar üçün beynəlxalq standartlara uyğun saxlanma şəraiti yaradılmışdır.

Üçüncü fərq, xarici ölkələrin penitensiar sisteminin kifayət qədər maliyyə vəsaiti ilə təmin edilməsidir. ABŞ-da və bir sıra Avropa ölkələrində bir məhkumun il ərzində saxlanma xərci, yəni məhkumun yeməyi, paltarı, kommunal xərclər, işçi heyətin əmək haqqı və digər məsələlərin həlli orta hesabla 20 min avrodan az olmayan vəsait tələb edir. Sözügedən məbləğ həmin ölkələrin cəzaçəkmə müəssisələri üçün müəyyən edilmiş saxlanma hədlərinin, yəni bir müəssisədə saxlanılan məhkumların sayının az, yəni 500 nəfərdən çox olmaması, işçi heyətinin sayının çoxluğu, onların əmək haqqlarının müvafiq ölkələrdə yaşayış səviyyəsinə uyğun olaraq yüksək olması ilə əlaqədardır.

Dördüncüsü, xarici ölkələrdə məhkumların islahı və sosial adaptasiyası üçün islah etmə vasitələri arasında ictimai faydalı əmək və təhsil yönümlü islah proqramlarına xüsusi önəm verilməsidir.

Beşincisi, penitensiar müəssisələrin fəaliyyətində ictimaiy-

yət daha geniş şəkildə iştirak edir.

Qeyd olunmalıdır ki, son illərdə Azərbaycan Respublikasında qabaqcıl təcrübəyə, məhbuslarla rəftara həsr olunmuş standartlara əsaslanmaqla, qeyd olunan fərqlərin aradan qaldırılması ilə bağlı tədbirlər görülmüşdür. Mütərəqqi, beynəlxalq standartların nəzərə alınması ilə müşayiət olunan cəza-icra qanunvericiliyinin qəbulu ilə yanaşı, həbs edilmiş şəxslərin, məhkumların saxlanılması şəraiti kifayət qədər yaxşılaşdırılmış, kamera tipli saxlamaya oxşar, yəni ayrı-ayrı otaqlarda az sayda, yəni 2-6 nəfər saxlanma tətbiq edilən yeni müasir, o cümlədən qarışıq rejimli cəzaçəkmə müəssisələri istifadəyə verilmiş və onların inşası prosesi davam edir. Dövlət büdcəsindən ayrılan məbləğin həcmi ilbəil artmaqdadır, cəzanın icrasında və çəkilməsində yeni üsullardan, qabaqcıl təcrübədən geniş istifadə edilir, işçi heyətinin xidmətə hazırlığı, sosial müdafiəsi nəzərəçarpacaq dərəcədə möhkəmləndirilmişdir.

Hal-hazırda xarici ölkələrdə cəzaların icrası sahəsində müəyyən problemlər də mövcuddur və onlar ümumən Azərbaycanla müqayisədə oxşarlıq təşkil edir. **Bu problemlər arasında əsasları aşağıdakılardır:**

**1.** Azadlıqdan məhrum etmə cəzasına alternativ cəzaların, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrasının səmərəliliyinin artırılması;

**2.** Azadlıqdan məhrum edilmiş və islah olunmağa meylli məhkumların cəzalarının icrasının daha səmərəli təşkili;

**3.** Cinayətlərin residivinə görə məhkum olunmuş, habelə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, lakin islah olunmağa meylli olmayan şəxslərin cəzalarının icrasının daha səmərəli təşkili üsullarının işlənib hazırlanması;

**4.** Azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olun-

muş şəxslərin sayının azaldılması;

**5.** Məhkumların hüquq və azadlıqlarının, qanuni mənafelərinin tamlıqla təmin edilməsi;

**6.** Penitensiar müəssisələrin işçi heyətinin sosial-hüquqi müdafiəsi, onların fəaliyyət nüfuzunun qaldırılması.

## Mövzu 26. Məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktlar

Cəzaların, xüsusilə azadlıqdan məhrum etmə cəzasının icrası sistemi, məhkumlarla davranışın əsasları uzun illər ərzində dünya dövlətlərində müxtəlifliyi ilə fərqlənmişdir. Belə fərqlər dövlətlərin iqtisadi, siyası, hüquqi inkişafı, xalqların adət-ənənələri, mentaliteti və digər amilərlə əlaqədar olmuşdur. Lakin sonradan dövlətlər arasında müxtəlif fəaliyyət sahələrində, o cümlədən cəzanın icrası, məhkumlarla davranış sahəsində yaranmış əlaqələr və məlumat mübadiləsi qarşılıqlı əməkdaşlığın əsasını qoymuşdur. Məhkumlarla davranışa dair beynəlxalq aktlar da cəzaların icrası və penitensiar sahədə dünya dövlətlərinin birgə əməkdaşlığının məhsulu kimi çıxış edir. Həmin əməkdaşlıq yüz əlli ildən artıq bir tarixə malikdir və öz inkişafında üç əsas mərhələ keçmişdir.

Birinci mərhələ 1846-1857-ci illəri əhatə edir. Bu dövrdə sivil beynəlxalq penitensiar hüququn və əməkdaşlığın əsası qoyulmuşdur. Qeyd olunan müddət ərzində müxtəlif ölkələrin maraqlı iştirakçılarının iştirakı ilə 1846, 1847 və 1857-ci illərdə (Frankfurt və Brüsel şəhərlərində) həbsxana problemlərinə həsr olunmuş ilk üç beynəlxalq konqres keçirilmişdir. Bu konqreslərdə milli və beynəlxalq penitensiar problemlərlə tanışlıq prosesi getmiş, qarşılıqlı əlaqələrin təşkili üzrə strukturlar yaradılmış, cəzaların icrası üzrə bir sıra problemlər nəzərdən keçirilmiş və onların həlli yolları araşdırılmışdır.

Penitensiar əməkdaşlığın inkişafının ikinci mərhələsi 1872-1950-ci illəri əhatə edir. Bu əməkdaşlıq müntəzəm olaraq dünyanın müxtəlif ölkələrində keçirilən 12 beynəlxalq konqres vasitəsilə davam etdirilmişdir (1872-ci ildə Londonda, 1878-ci ildə Stok-

holmda, 1885-ci ildə Romada, 1890-cı ildə Peterburqda, 1895-ci ildə Parisdə, 1900-cü ildə Brüsseldə, 1905-ci ildə Budapeştdə, 1910-cu ildə Vaşinqtonda, 1925-ci ildə Londonda, 1930-cu ildə Praqada, 1936-cı ildə Berlində, 1950-ci ildə Haaqada). Bu konqreslərdə penitensiar siyasətin və təcrübənin bir sıra problemləri, o cümlədən penitensiar müəssisələrin fəaliyyətində və məhkumların islah edilməsində ictimaiyyətin iştirakı, məhkumların ictimai-faydalı əməyə cəlb olunması, cəzanın çəkilməsi rejiminin təşkili, cəzaların icrasının mütərəqqi sistemi və digər məsələlər müzakirə obyekti olmuşdur. Konqreslərdə penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra aktlar da qəbul olunmuşdur. Penitensiar əməkdaşlığın ikinci mərhələsi, habelə iştirakçı dövlətlər tərəfindən razılaşmaya əsasən daimi fəaliyyət göstərən müvafiq əməkdaşlıq strukturunun yaradılması ilə diqqəti cəlb edir.

Penitensiar əməkdaşlığın üçüncü mərhələsi Birləşmiş Millətlər Təşkilatının yaranmasından sonrakı dövrə təsadüf edir. Bu mərhələdə BMT özünün Baş Məclisi vasitəsi ilə cəzaların icrası, o cümlədən penitensiar sahədə dövlətlər arasında əməkdaşlığın prinsiplərini müəyyənləşdirməyə, müxtəlif, o cümlədən məhkumlarla davranışa dair aktları qəbul etməyə başlanmışdır. Lakin bu sənədlər milli qanunvericilik kimi hüquqi qüvvəyə malik deyildir və onların icra edilməməsinə görə dövlətlərin məsuliyyətini nəzərdə tutan müvafiq sanksiyalar müəyyən olunmamışdır. Bu sənədlər yalnız mənəvi-siyasi qüvvəyə malik normalardan ibarətdir. Lakin qeyd edilənlərə baxmayaraq, beynəlxalq aktların tələbləri bir qayda olaraq, üzv dövlətlər tərəfindən hörmətlə qarşılanır, onlara riayət olunur. Belə yanaşma beynəlxalq təşkilatlar, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsi, İşgəncələrə qarşı Komitə tərəfindən tərtib edilmiş sənədlərdə (qərarlarda, hesabatlarda və digər) göstərilən qaydalara istinad edilməsi ilə bağlıdır.

Məhbuslarla rəftara dair sənədlər beynəlxalq penitensiar əməkdaşlıq sahəsində aşağıdakı əsas vəzifələri müəyyən etmişdir:

- ❖ cəzaların icrası problemləri üzrə dövlətlərin vahid mövqeyini əks etdirən beynəlxalq-hüquqi aktlar sisteminin hazırlanması;
- ❖ penitensiar, cəza-icra sisteminin işçi heyətinin, bu sahə üzrə alim və müəllimlərin hazırlanması və ixtisaslarının artırılması sisteminin yaradılması;
- ❖ cəza-icra, penitensiar sahədə qabaqcıl təcrübənin qarşılıqlı mübadiləsi;
- ❖ məhkumlarla davranışın qabaqcıl forma və üsullarının işlənib hazırlanması;
- ❖ cəzaların icrasının təşkili üzrə daha humanist sistemin işlənib hazırlanması.

BMT-nin himayəsi altında beynəlxalq penitensiar əməkdaşlıq beş ildə bir dəfə təşkil olunan cinayətkarlığın qarşısının alınması və hüquqpozucuları ilə davranışa həsr olunmuş konqreslər çərçivəsində həyata keçirilir. Ötən dövr ərzində, yəni 1955-2021-ci illərdə on dörd belə konqres keçirilmişdir. Birinci konqres 1955-ci ildə Cenevrədə (İsveçrə) təşkil olunmuşdur. Digər konqreslər 1960-cı ildə Londonda (Böyük Britaniya), 1965-ci ildə Stokholmda (İsveç), 1970-ci ildə Kiotoda (Yaponiya), 1975-ci ildə Cenevrədə (İsveçrə), 1980-ci ildə Karakasda (Venesuela), 1985-ci ildə Milanda (İtaliya), 1990-cı ildə Havanada (Kuba), 1995-ci ildə Qahirədə (Misir Ərəb Respublikası), 2000-ci ildə Vyanada (Avstriya), 2005-ci ildə Banqkokda (Tailand), 2010-cu ildə Salvadorda (Braziliya), 2015-ci ildə Dohada (Qətər) və sonuncu 14-cü konqres isə 2021-ci ildə yenidən Kioto şəhərində (Yaponiya) keçirilmişdir. Müstəqil Azərbaycan Respublikası son altı konqresdə nümayəndə heyəti ilə təmsil olunmuşdur. 1955-2021-ci illərdə ke-

çirilən konqreslərdə digər məsələlərlə yanaşı cəza-icra, penitensiar sahənin müxtəlif problemlərinə həsr olunmuş məsələlər müzakirə olunmuş və məhkumlarla davranışa dair, cəzaların icrası ilə bağlı beynəlxalq aktlar qəbul edilmişdir.

Cəzaların icrası, habelə penitensiar sahədə beynəlxalq əməkdaşlıq Avropa Şurası çərçivəsində də həyata keçirilir. Bu əməkdaşlıq nəticəsində göstərilən sahələrdə problemlərə həsr olunmuş çoxsaylı aktlar qəbul edilmişdir. Beynəlxalq penitensiar əməkdaşlıq sayəsində qəbul edilmiş, məhkumlarla davranışa həsr olunmuş aktlar müxtəlif əsaslara görə təsnifləşdirilir. İlkin olaraq tətbiq olunan subyektlərə görə bu aktlar ümumi tətbiq olunan, müxtəlf kateqoriyalı məhkumlara və işçi heyətinə görə fərqləndirilir. Bu aktlar, ixtisaslaşmaya (ümumi və xüsusi), icra məcburiliyinə, əhatə dairəsinə (universal və regional), müxtəlif cəza növlərinə məhkum olunmuş məhkumlara aidiyyətinə və digər əlamətlərə görə də fərqləndirilir. BMT və Avropa Şurası tərəfindən müxtəlif illərdə qəbul edilmiş, məhkumlarla davranışa həsr olunmuş aktlar arasında öz vacibliyi və əhəmiyyəti ilə nəzəri cəlb edən sənədlərin bir qrupu aşağıdakılardır:

❖ Hüquq-mühafizə orqanları əməkdaşlarının davranış məcəlləsi (BMT, 1979).

❖ İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə Konvensiya (BMT, 1984).

❖ Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalar (“Pekin qaydaları”, BMT, 1985).

❖ Hər hansı formada saxlamağa, yaxud həbsə məruz qalmış bütün şəxslərin müdafiəsi üzrə əsas prinsiplər məcmusu (BMT, 1988).

❖ Məhbuslarla davranışın əsas prinsipləri (BMT, 1990).

❖ Məhbuslarla minimal standart davranış qaydaları (Nelson Mandela qaydaları BMT, 2015).

❖ İşgəncələrin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə Avropa Konvensiyası (Avropa Şurası, 1987).

❖ Avropa Penitensiar Qaydaları (Avropa Şurası, 2006).

# AZƏRBAYCAN RESPUBLİKASININ
# CƏZA-İCRA HÜQUQU
# S X E M L Ə R D Ə

## Mövzu 1. Cəza-icra siyasəti, cəza-icra hüququnun anlayışı, predmeti, prinsipləri və metodu. Cəza-icra hüquq elmi

### Sxem №1.1. Cəza-icra siyasəti və cinayətkarlığa qarşı mübarizədə onun yeri



**Sxem №1.2.1. Cəza-icra siyasətinin subyektləri**



**Sxem №1.2.2. Cəza-icra siyasətinin subyektləri**



**Sxem №1.3. Cəza-icra hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi**



## Sxem №1.4. Cəza-icra hüququnun prinsipləri



**Sxem №1.5. Cəza-icra hüququ elminin predmeti**

**CƏZA-İCRA HÜQUQU ELMİNİN PREDMETİ:**

- cəzaların icrası sahəsində dövlət siyasəti;
- cəzaların icrası qanunvericiliyinin və cəzaları icra edən müəssisə və orqanların inkişaf tarixi;
- cəza-icra siyasətinin, cəza-icra hüququnun və qanun-vericiliyinin prinsipləri;
- qanunvericilik sistemi və onun mənbələri;
- cəza-icra hüququ normalarının məzmunu və quruluşu;
- cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli tədbirlərin icrası prosesində yaranan hüquq münasibətləri;
- məhkumların hüquqi vəziyyəti və onun xarakteristikası;
- cəzaları icra edən müəssisə və orqanların sistemi və onların işçi heyəti;
- xarici ölkələrin cəza-icra hüququ;
- məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktlar;
- cəzaların icrası sahəsində mövcud problemlər və onların həlli yolları və s.

## Mövzu 2. Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi, onun məqsəd və vəzifələri

### Sxem №2.1. Cəza-icra hüququnun mənbələri



**Sxem №2.2. Cəzaların icrası qanunvericiliyinin məqsədləri**



**Sxem №2.3. Cəzaların icrası qanunvericiliyinin vəzifələri**



**Sxem №2.4. Cəzaların İcrası Məcəlləsinin məkana və zamana görə qüvvəsi**



**Sxem №2.5.1. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin quruluşu**



## Sxem №2.5.2. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin quruluşu

**X Ü S U S İ  H İ S S Ə**
**(7 bölmə, 20 fəsil, 159 maddə)**

**II bölmə (4-7-1-ci fəsillər, 8-ci fəsil çıxarılmışdır)**
Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrası

**III bölmə (9-15-ci fəsillər)**
Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların icrası

**IV bölmə (16-17-ci fəsillər)**
Hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların icrası

**V bölmə (18-ci fəsil)**
Əlavə cəzaların icrası

**VI bölmə (19-20-ci fəsillər)**
Cəza çəkməkdən azad etmə. Cəza çəkməkdən azad edilmiş şəxslərə yardım göstərilməsi və onlara nəzarət edilməsi

**VII bölmə (21-ci fəsil)**
Şərti məhkum edilmiş şəxslər üzərində nəzarət

**VIII bölmə (22-23-cü fəsillər)**
Cinayət-hüquqi tədbirlərin icrası

**Sxem №2.6. Cəza-icra hüquq normalarının quruluşu**



**Sxem №2.7.1. Cəza-icra hüquq normalarının təsnifi**



**Sxem №2.7.2. Cəza-icra hüquq normalarının təsnifi**



**Sxem №2.7.3. Cəza-icra hüquq normalarının təsnifi**



## Sxem №2.7.4. Cəza-icra hüquq normalarının təsnifi



## Sxem №2.8.1. Cəza-icra hüquq münasibətlərinin quruluşu



**Sxem №2.8.2. Cəza-icra hüquq münasibətlərinin quruluşu**



**Sxem №2.8.3. Cəza-icra hüquq münasibətlərinin quruluşu**



## Mövzu 3. Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi

### Sxem №3.1. Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi

**1920-1970-ci illərdə Azərbaycan Respublikasında cəzaların icrasını tənzimləyən qanunvericilik*:**

- Azərbaycan SSR-in İslah-Əmək Məcəlləsi (20.05.1925-ci il);
- SSRİ DİN-in İslah-əmək düşərgələri və koloniyaları haqqında Əsasnamə (10.06.1954-cü il);
- SSRİ DİN-in İslah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə (08.12.1958-ci il);
- Azərbaycan SSR DİN-in İslah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə (29.07.1961-ci il);
- SSRİ XDİK, DİN-in müxtəlif illərdə qəbul etdiyi təlimatlar, əsasnamələr və digər aktlar.

* **Qeyd:** 1920-ci ilədək dövrdə ilkin olaraq Azərbaycanda cəzaların icrası cinayət əməllərinə görə məsuliyyəti nəzərdə tutan müxtəlif aktlara əsasən, sonradan isə dövlətimizin çar Rusiyasının tərkibində olduğu müddətdə mövcud qanunvericiliyə uyğun həyata keçirilmişdir.

**Sxem №3.2. Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi**

**1970-2000-ci illərdə (01.IX.2000-ci ilədək) Azərbaycan Respublikasında cəzaların icrasını tənzimləyən qanunvericilik:**

1. Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsi (23.12.1970-ci il);
2. Tərbiyə-əmək profilaktoriyası haqqında Əsasnamə (01.03.1983-cü il);
3. Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cəzalarının icrası qaydası və şərtləri haqqında Əsasnamə (01.02.1984-cü il);
4. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində İntizam Batalyonu haqqında Əsasnamə (23.07.1992-ci il);
5. SSRİ, Azərbaycan Respublikası DİN, Ədliyyə Nazirliyinin normativ hüquqi aktları.

## Sxem №3.3. Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi

**2000-ci il 1 sentyabr tarixdən sonra Azərbaycan Respublikasında cəzaların icrasını tənzimləyən qanunvericilik:**

1. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi (14.07.2000-ci il);
2. "İcra məmurları haqqında" Qanun (29.12.1999-cu il);
3. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun (26.05.2006-cı il);
4. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanun (31.05.2007-ci il);
5. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanun (22.05.2012-ci il);
6. Azərbaycan Respublikasının digər qanunları;
7. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları;
9. Azərbaycan Respublikasının Ədliyyə və Müdafiə nazirliklərinin normativ aktları (təlimatlar, əmrlər, sərəncamlar).

## Mövzu 4. Cəzaların icrası və çəkilməsi anlayışı, əsasları, məhkumların islah edilmə vasitələri

### Sxem №4.1. Cəzaların icrasının və cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsasları



**Sxem №4.2. Cəzaların icrası və çəkilməsi qaydasının anlayışı və hüquqi tənzimi**



**Sxem №4.3. Cəzaçəkmə müəssisələrində rejimin təmin edilməsi üsulları**



## Sxem №4.4. Rejimin funksiyaları



**Sxem №4.5. Məhkumların islah edilməsi və onun əsas vasitələri**

**Məhkumların islah edilməsi** – onlarda qanuna itaətin həvəsləndirilməsi, insana, əməyə, cəmiyyətə, birgəyaşayış qayda və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır.



**Sxem №4.6. İslah edilmə vasitələrinin tətbiqi zamanı nəzərə alınan hallar**



### Sxem №4.7. Cəzanın icrasının və islah təsirinin tətbiqinin differensiasiyası və fərdiləşdirilməsi

**Cəzanın icrasının və islah təsirinin tətbiqinin differensiasiyası və fərdiləşdirilməsi** – Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin prinsiplərindən biridir.



# Mövzu 5. Məhkumların xarakteristikası və onların hüquqi vəziyyəti (statusu)

## Sxem №5.1. Məhkumların sosial-demoqrafik xarakteristikası



**Sxem №5.2. Məhkumların cinayət-hüquqi xarakteristikası**



**Sxem №5.3. Azadlıqdan məhrum edilmiş şəxslərin cəza-icra xarakteristikası**



**Sxem №5.4. Məhkumların xüsusi hüquqi vəziyyətinin (statusunun) yaranma mexanizmi**




**1.** Misal üçün, seçki hüquqlarının məhdudlaşdırılması (Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi), rejim-hüquq məhdudiyyətləri (CİM-in 74-cü maddəsi) və s.

**2.** Misal üçün, məhkumların şəxsi təhlükəsizlik hüququ (Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsi, CİM-in 12-ci maddəsi və s.). Təkrarlanma zamanı subyekt (məhkum) dəqiqləşdirilir.

**3.** Misal üçün, azadlıqdan məhrum edilmişlərin ümumi təhsili (CİM-in 104-cü maddəsi). Burada yalnız subyekt (40 yaşına çatmamış məhkum) deyil, həm də məzmun (təhsil alma həvəsləndirilir) konkretləşdirilir.

**4.** Misal üçün, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzaya məhkum olunmuşun pul təminatından dövlət nəfinə tutulmanın aparılması (CİM-in 131.1-ci maddəsi). Əlavələr, ümumvətəndaş hüquqi statusda analoqu olmayan səciyyəvi elementlər hesabına baş verir.

## Sxem №5.5.1. Məhkumların hüquqi vəziyyəti (hüquqi statusu)

**Məhkumların hüquqi vəziyyəti (hüquqi statusu)** – cəzaların çəkilməsi dövründə onların müxtəlif hüquq sahələrinin normalarında təsbit edilən, subyektiv hüquqlarının, qanuni mənafelərinin və hüquqi vəzifələrinin məcmusu vasitəsi ilə ifadə olunan vəziyyətidir.

**MƏHKUMLARIN HÜQUQİ VƏZİYYƏTİ (HÜQUQİ STATUSU)**

<u>**subyektiv hüquqlar**</u> - məhkumların müəyyən davranışının və ya onlar tərəfindən sosial nemətlərdən istifadə edilməsinin qanunla təsbit edilən və dövlət tərəfindən təminat verilən, cəzanı icra edən müəssisə və orqanların vəzifəli şəxslərinin, yaranan hüquq münasibətlərinin digər subyektlərinin hüquqi vəzifələri ilə təmin edilən real imkanlarıdır.

## Sxem №5.5.2. Məhkumların hüquqi vəziyyəti (hüquqi statusu)

**MƏHKUMLARIN HÜQUQİ VƏZİYYƏTİ (HÜQUQİ STATUSU)**

↓

**hüquqi vəzifələr** - cəza çəkmə zamanı məhkumların qadağanedici və məcburedici hüquq normalarında müəyyən edilən, cəzanın məqsədlərinə nail olmanı, cəza çəkmə vaxtı hüquq qaydasının qorunub saxlanmasını, həm vəzifəli şəxsin özünün, həm də digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə əməl edilməsini təmin edən zəruri davranış tədbirləridir.

**Sxem №5.5.3. Məhkumların hüquqi vəziyyəti (hüquqi statusu)**

**MƏHKUMLARIN HÜQUQİ VƏZİYYƏTİ (HÜQUQİ STATUSU)**

**qanuni mənafelər** - cəzaçəkmə müəssisələrinin müdiriyyəti, cəzanı icra edən orqanların vəzifəli şəxsləri və məhkəmə tərəfindən cəza çəkmə vaxtı məhkumların davranışının qiymətləndirilməsi nəticəsində təmin edilən, onların bu və ya digər nemətləri (imtiyazları) əldə etməyə cəhdləri üzrə hərəkətləridir.

**Sxem № 5.6. Məhkumların ümumvətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına ümumi tələblər**

dövlətin konstitusiya əsaslarının, mənəviyyatın, sağlamlığın, digər şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsi, onların müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyən edilir

müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları ilə müəyyən edilə bilməz

**Məhkumların ümumvətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması:**

Azərbaycan Respublikasının aşağıdakı qanunvericilikləri ilə müəyyən edilə bilər:

- konstitusiya;
- cinayət;
- cinayət-prosessual;
- cəzaların icrası;
- digər qanunvericilik aktları ilə (inzibati, mülki, mənzil, əmək, ailə və s.).

## Sxem № 5.7.1. Məhkumların əsas hüquqları

**Məhkumların əsas hüquqları:**
**(CİM-in 10-cu maddəsi)**

- cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək;
- ictimai faydalı əməklə məşğul olmaq;
- bədən tərbiyəsi və idmanla məşğul olmaq;
- istirahət etmək;
- pensiya və sosial müavinət almaq;
- ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq;
- öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barədə məlumat almaq;
- hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə, bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək;
- cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək;
- dini ayinlərin icra edilməsində iştirak etmək;
- hüquqi yardım almaq;
- psixoloji yardım almaq;
- təhsil almaq və peşə hazırlığı keçmək;

**Sxem №5.7.2. Məhkumların əsas hüquqları**

**Məhkumların əsas hüquqları:**
**(CİM-in 10-cu maddəsi)**

- ❖ əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək;
- ❖ cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki qüsurlardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə, onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək.

**Qeyd:** Məhkumların hüquqlarının həyata keçirilməsi zamanı normativ hüquqi aktların, fiziki və hüquqi şəxslərin hüquqlarının pozulmasına yol verilmir.

## Sxem №5.8. Məhkumların əsas vəzifələri

**Məhkumların əsas vəzifələri:**
**(CİM-in 11-ci maddəsi)**

- ❖ Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən edilmiş vəzifələri yerinə yetirmək;
- ❖ cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına riayət etmək;
- ❖ Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin, habelə ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinə riayət etmək;
- ❖ cəzanı icra edən müəssisə və orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirmək;
- ❖ cəzanı icra edən müəssisə və orqanın işçi heyətinə və cəzaçəkmə müəssisəsinə baş çəkən şəxslərə, habelə digər məhkumlara qarşı nəzakətlə davranmaq;
- ❖ məcburi dövlət daktiloskopik və dövlət genom qeydiyyatlarından keçmək.

**Qeyd:** Məhkumlar üzərlərinə düşən vəzifələri, habelə cəzanı icra edən müəssisə və orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirmədikdə, qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

## Mövzu 6. Cəzaları və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar, onların qarşısında duran vəzifələr

### Sxem №6.1.1. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar



**Sxem №6.1.2. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar**

**CƏZALARI, HABELƏ CİNAYƏT-HÜQUQİ XARAKTERLİ TƏDBİRLƏRİ İCRA EDƏN MÜƏSSISƏ VƏ ORQANLARIN NÖVLƏRİ:**

- **i**ctimai işlər növündə cəza məhkumun yaşadığı, cərimə növündə cəza və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir isə hökmü çıxaran məhkəmənin, həmçinin məhkumun işlədiyi və ya onun əmlakının olduğu yerin icra məmuru tərəfindən icra edilir;
- Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəza əsas cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada Dövlət Miqrasiya Xidməti tərəfindən icra edilir;
- müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza məhkumun yaşayış yeri üzrə icra məmuru və ya cəzaçəkmə müəssisələrinin müdiriyyəti tərəfindən icra edilir;
- nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanı nəqliyyat vasitəsini idarəetmə hüququnu verən orqan icra edir;
- islah isləri növündə cəzanı icra məmuru icra edir.

**Sxem №6.1.3. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar**

**CƏZALARI, HABELƏ CİNAYƏT-HÜQUQİ XARAKTERLİ TƏDBİRLƏRİ İCRA EDƏN MÜƏSSISƏ VƏ ORQANLARIN NÖVLƏRİ**

- ❖ azadlığın məhdudlaşdırılması növündə cəzanı məhkumun yaşayış yeri üzrə icra məmuru icra edir;
- ❖ müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların icrasını müvafiq olaraq penitensiar müəssisələr (cəzaçəkmə müəssisələri) həyata keçirirlər;
- ❖ xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəza hökmü çıxaran məhkəmə tərəfindən icra edilir. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə barəsində hökmün tələbləri həmin rütbəni, fəxri adı və ya dövlət təltifini verən orqan tərəfindən həyata keçirilir;
- ❖ hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza hərbi qulluqçuların xidmət yeri üzrə hərbi hissə komandiri, intizam xarakterli hərbi hissədə saxlama növündə cəza isə bu məqsədlər üçün yaradılmış hərbi hissənin komandiri tərəfindən icra edilir;

**Sxem №6.1.4. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar**

**CƏZALARI, HABELƏ CİNAYƏT-HÜQUQİ XARAKTERLİ TƏDBİRLƏRİ İCRA EDƏN MÜƏSSISƏ VƏ ORQANLARIN NÖVLƏRİ**

- ❖ şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti icra məmurları həyata keçirir;
- ❖ hüquqi şəxslərə tətbiq edilən cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirlər hüquqi şəxsin, habelə onun əmlakının olduğu yerin icra məmuru tərəfindən icra edilir;
- ❖ hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirlər, müvafiq icazə və ya lisenziyanı vermiş, habelə hüquqi şəxsi ləğvetmə səlahiyyətinə malik icra hakimiyyəti orqanı (Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi)

**Sxem №6.1.5. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar**




**Qeyd:** İstintaq təcridxanaları CİM-in 69.1-ci maddəsinə əsasən təsərrüfat və məişət xidməti işi üçün istintaq təcridxanalarında saxlanmış şəxslər barəsində cəzaçəkmə müəssisələrinin vəzifələrini yerinə yetirirlər.

**Sxem №6.1.6. Cəzaları, habelə cinayət-hüquqi xarakterli tədbirləri icra edən müəssisə və orqanlar**



**Sxem №6.2.1. Cəzaçəkmə müəssisələrinin təyinatı və növləri**

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ:**

**ÜMUMİ REJİMLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ**

qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, həmçinin cəzaları müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilmiş şəxslər üçün

**CİDDI REJİMLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ**

xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, habelə cinayətlərin residivi zamanı, yəni əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər və cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş qadınlar üçün

**Sxem №6.2.2. Cəzaçəkmə müəssisələrinin təyinatı və növləri**

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ:**

**XÜSUSİ REJİMLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ**

cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş və ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz olunmuş kişilər üçün

**MƏNTƏQƏ TİPLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ**

ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş məhkumlar üçün

## Sxem №6.2.3. Cəzaçəkmə müəssisələrinin təyinatı və növləri

**TƏRBİYƏ MÜƏSSİSƏLƏRİ:**

**ÜMUMİ REJİMLİ:**

yetkinlik yaşına çatmayan qızlar, habelə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş oğlanlar üçün

**MÖHKƏM REJİMLİ:**

əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş oğlanlar üçün

## Sxem №6.3. Həbsxanalarda cəza çəkmə

**HƏBSXANALARDA:**

**Ümumi saxlanma şəraitində:**

həbsxanalarda xüsusilə ağır cinayətlər törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, cəza müddətini tam və ya onun bir hissəsini çəkməklə cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslər, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər, həmçinin ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrindən CİM-in 70.4.3-cü maddəsinə uyğun olaraq həbsxanaya keçirilmiş məhkumlar saxlanılırlar

**Ciddi saxlanma şəraitində:**

əvvəllər həbsxanada cəza çəkmiş şəxslər, cəzaçəkmə müəssisələrində törədilmiş cinayətlərə görə məhkum olunmuş və ya müəyyən edilmiş qaydada tənbeh tədbiri olaraq ümumi saxlanma şəraitindən ciddi saxlanma şəraitinə keçirilmiş şəxslər saxlanılırlar

**Sxem №6.4. Müalicə müəssisələrində və istintaq təcridxanalarında cəza çəkmə**



**Sxem №6.5. Cəzaçəkmə müəssisələrinin vəzifələri**



**Sxem №6.6. Probasiya Xidmətinin fəaliyyət istiqamətləri**

**Xidmətin fəaliyyət istiqamətlərinə aiddir:**

- ❖ cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil edir;
- ❖ cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;
- ❖ şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;

**Sxem №6.6.1. Probasiya Xidmətinin fəaliyyət istiqamətləri**

**Xidmətin fəaliyyət istiqamətlərinə aiddir:**

- cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;
- ictimai işlər növündə inzibati tənbehin icrasını təşkil edir;
- üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası işini təşkil edir;
- qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**Sxem №6.7.1. Probasiya Xidmətinin vəzifələri**

**Probasiya Xidmətinin vəzifələrinə aiddir:**

- ❖ cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil etmək üçün tədbirlər görmək;
- ❖ cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək üçün tədbirlər görmək;
- ➲ ictimai işlər növündə inzibati tənbehin icrasını təşkil etmək üçün tədbirlər görmək;

**Sxem №6.7.2. Probasiya Xidmətinin vəzifələri**

**Probasiya Xidmətinin vəzifələrinə aiddir:**

- Xidmətin qeydiyyatında olan məhkumların ölkədən getmək hüququnun məhdudlaşdırılması və məhdudiyyətlərin götürülməsi işini təşkil etmək;
- elektron nəzarət vasitələrinin tətbiqini təşkil etmək;
- üzərində probasiya nəzarəti həyata keçirilən məhkumların qanunvericiliklə müəyyən olunmuş üsul və vasitələrlə islahı işini təşkil etmək üçün tədbirlər görmək;
- qanunvericiliklə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla yetkinlik yaşına çatmayan məhkumların cəzalarının icrasını təşkil etmək üçün tədbirlər görmək;
- üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası üzrə fəaliyyəti təmin etmək üçün tədbirlər görmək;
- üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin sosial adaptasiyasında və reabilitasiyasında iştirak üçün tədbirlər görmək;
- üzərində probasiya nəzarəti həyata keçirilən məhkumların olduğu yer müəyyən edilmədikdə, onların axtarılması işini təşkil etmək və s.

**Sxem №6.8. Probasiya Xidmətinin hüquqları**

**Probasiya Xidmətinin hüquqlarına aiddir:**

- fəaliyyət istiqamətləri üzrə icra, icra məmurları haqqında, habelə cəzaların icrası, cinayət-prosessual və inzibati xətalar qanunvericiliyi və digər normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqların həyata keçirilməsini təmin etmək;
- Xidmətin qeydiyyatında olan məhkumların qanunsuz olaraq ölkə hüdudlarından kənara çıxmasının qarşısının alınması məqsədi ilə tədbirlər görmək;
- icra məmurları (probasiya üzrə) tərəfindən fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq edilməsi hallarını araşdırmaq;
- məhkumlara tətbiq edilmiş tənbeh tədbirlərindən verilən şikayətlərə baxmaq, tənbeh tədbirlərini ləğv etmək və ya qüvvədə saxlamaq;
- dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin sisteminə daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq və s.

**Sxem №6.9. Cəzanı icra edən müəssisə və orqanların cinayətkarlığa qarşı mübarizə aparan digər dövlət orqanları ilə qarşılıqlı əlaqəsi**



# Mövzu 7. Cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət

## Sxem №7.1. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarətin anlayışı və sosial hüquqi təyinatı

**Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət** – bu strukturların, onların vəzifəli şəxslərinin fəaliyyətinin qanunvericiliyin və digər normativ hüquqi aktların tələblərinə müvafiq olması üzərində müşahidə və yoxlama sistemi olub, bu tələblərin pozulmasının aşkar olunması, xəbərdar edilməsi və qarşısının alınması məqsədi daşıyır.

**NƏZARƏTİN SOSİAL-HÜQUQİ TƏYİNATI:**

- cəzaların icrası zamanı qanunçuluğa riayət edilməsi;
- cəzanın icrası prosesinin səmərəliliyinin artırılması;
- məhkumların hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin qorunması;
- qanunçuluğun pozulmasının səbəb və şəraitinin aşkar edilməsi və aradan qaldırılması;
- cəzanın çəkilməsi vəziyyəti barədə ictimaiyyətin məlumatlandırılması;
- işçi heyətin, məhkumların və digər vətəndaşların hüquq düşüncəsinin formalaşdırılması.

**Sxem №7.2. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarətin növləri**



**Sxem №7.3. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə dövlət nəzarəti**



**Sxem №7.4. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti**



**Sxem №7.5.1. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti**



**Sxem №7.6.1. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarət**



## Sxem №7.6.2. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarət

**İctimai nəzarətin formaları:**

- ❖ cəzaçəkmə müəssisələrində saxlanma şəraiti, maddi-məişət, tibbi-sanitariya təminatı, məhkumların əməyə cəlb olunması, onlarla həyata keçirilən tərbiyə işi, ümumi təhsil, peşə təhsili və peşə hazırlığı işinin təşkili ilə tanış olmaq;
- ❖ cəzaçəkmə müəssisələrində keçirilən kütləvi tədbirlərdə iştirak etmək, işçi heyəti və məhkumlarla görüşlər keçirmək;
- ❖ cəzaçəkmə müəssisələrində məhkumların qəbulunu keçirmək, onların hüquq və azadlıqlarının pozulmasına dair müraciətlərini qəbul etmək, onları müdiriyyət vasitəsilə aidiyyəti üzrə göndərmək;
- ❖ zəruri hallarda cəzaçəkmə müəssisələrinin nümayəndəsinə görmək imkanı verən, lakin eşitməyi istisna edən şəraitdə məhkumlarla təklikdə söhbət etmək;
- ❖ aidiyyəti normativ hüquqi aktlarla, habelə zəruri hallarda məhkumlar barəsində məhkəmə qərarları ilə tanış olmaq;
- ❖ cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin olunması ilə əlaqədar müdiriyyətə müraciət etmək;
- ❖ cəzaçəkmə müəssisələrinin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar, habelə müəyyən olunmuş pozuntu və nöqsanların aradan qaldırılması üçün Ədliyyə Nazirliyinə tövsiyə xarakterli təkliflər vermək.

**Sxem №7.7. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə məhkəmə nəzarəti**



**Sxem №7.8. Hökmün icrası mərhələsində cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə məhkəmə nəzarəti**

**HÖKMÜN İCRASI MƏRHƏLƏSİNDƏ MƏHKƏMƏ NƏZARƏTİ:**

- hökmün icrasının təxirə salınması ilə əlaqədar;
- xəstəliyə görə cəzadan azad etmə ilə bağlı;
- cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə zamanı;
- cəzanın çəkilməmiş hissəsinin digər cəza növü ilə əvəz edilməsi ilə bağlı;
- cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi zamanı;
- cəza çəkməkdən yayınmaqla (boyun qaçırmaqla) bağlı;
- məhkumlar üzərinə qoyulmuş xüsusi vəzifələrin icrasının təmini ilə əlaqədar.

**Sxem №7.9. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə beynəlxalq nəzarətin növləri**



**Sxem №7.10. Cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə beynəlxalq nəzarətin formaları**

**BEYNƏLXALQ NƏZARƏTİN FORMALARI:**

- insan hüquqlarına riayət olunması barədə (o cümlədən, cəzaların icrası zamanı) dövlətlərin dövri olaraq hesabatlar, məruzələr təqdim etməsi
- hüquqlarının pozulması, barələrində işgəncə tətbiq edilməsi və s. barədə Azərbaycan Respublikasının yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə fərdi şikayətləri
- hüquqların pozulması, işgəncə tətbiq edilməsi və s. barədə xarici dövlətlərin məlumatları
- BMT-nin İşgəncələrə qarşı Alt Komitəsi (SPT), Avropa Şurasının İşgəncələrə qarşı Komitəsi (CPT) tərəfindən, habelə Avropa Şurası ekspertləri tərəfindən cəzanı icra edən müəssisə və orqanlara baş çəkilməsi

# Mövzu 8. Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların və əlavə cəzaların icrası

## Sxem №8.1. Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların sistemi

**Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalar:**

**məhkumun əməyə cəlb edilməsi ilə əlaqədar olan cəzalar**

- ictimai işlər;
- islah işləri.

**məhkumun əməyə cəlb edilməsi ilə əlaqədar olmayan cəzalar**

- cərimə;
- müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;
- xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə;
- nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə;
- Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma;
- azadlığın məhdudlaşdırılması.

## Sxem №8.2. Cərimə növündə cəzanın icrası qaydası




**Qeyd:** Cərimə ödəməkdən qəsdən boyun qaçırma dedikdə, məhkumun cərimənin ödənilməsinə imkanı olsa da, ona olunmuş xəbərdarlığa baxmayaraq bunun biləkdən edilməməsi halları başa düşülür.

**Sxem №8.3. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası zamanı icra məmurunun vəzifələri**



## Sxem №8.4. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası zamanı işəgötürənin vəzifələri

**hökmün surətini aldığı gündən sonra:**

- ❖ üç gün ərzində məhkumu müəyyən vəzifə tutma hüququndan məhrum olduğu vəzifədən azad etmək və ya müəyyən fəaliyyətlə məşğul olmanı qadağan etmək, dərhal məhkumla əmək müqaviləsinə xitam verilməsi və ya bu müqavilənin dəyişdirilməsi barədə icra məmuruna məlumat vermək;
- ❖ hökmün tələblərinin icrası barədə icra məmuruna məlumat vermək.

icra məmurunun tələbi üzrə cəzanın icrası ilə bağlı sənədləri təqdim etmək

**Məhkumların işlədiyi yer üzrə işəgötürənin vəzifələri:**

müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə əlavə cəzaya məhkum olunmuş şəxslər əsas cəzanı çəkərkən, cəzanı icra edən müəssisə və ya orqan bu şəxsləri hökmdə qadağan edilmiş işlərə cəlb edə bilməz

cəzanı çəkməmiş məhkum işdən azad edildikdə onun əmək kitabçasında məhkumluğun əsasları, müddəti və s. barədə qeydlər etmək

## Sxem №8.5. İctimai işlər növündə cəzanın icrası qaydası

**İctimai işlər növündə cəzanın icrası qaydası:**

ictimai işlər növündə cəzanı məhkumun yaşadığı ərazinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi ictimai yerlərdə icra məmuru icra edir

ictimai işlər növündə cəzaya məhkum olunmuş şəxslər məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün icrası haqqında məhkəmənin hökmünün surətinin və müvafiq göstərişinin icra məmuru tərəfindən alındığı gündən sonra on beş gün müddətində cəzanın çəkilməsinə cəlb olunurlar

**İCRA MƏMURU:**

- ❖ məhkumların qeydiyyatını aparır, onlara cəzanın icrasının qayda və şərtlərini izah edir, davranışlarına nəzarət edir;
- ❖ məhkumların işləmiş olduğu vaxtın uçotunu aparır;
- ❖ ayda iki dəfədən az olmayaraq ictimai işlərin yerinə yetirilməli olduğu vaxtlarda onların görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir;
- ❖ elektron nəzarət vasitəsini təqdim etməklə, həmin vasitəni ictimai işlərin yerinə yetirildiyi vaxtların cədvəlinə uyğun üzərlərində daşımalı, istifadə etməli olduqlarını, işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, hər hansı müdaxilənin və ya elektron nəzarət vasitəsindən istifadədən imtina edilməsinin yolverilməzliyini, bu əməllərin hüquqi nəticələrini, habelə həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda dəyərinin ondan tutulacağını izah edir və bu barədə protokol tərtib edir;
- ❖ digər tədbirləri görür.

**Sxem №8.6. İctimai işlər növündə cəzanın çəkilməsi və icrası şərtləri**

**İctimai işlər növündə cəzanın çəkilməsi və icrası şərtləri**

**MƏHKUMLAR:**

- ictimai işləri yerinə yetirdikləri yerin müəssisədaxili intizam qaydalarına riayət etməlidirlər;
- əməyə vicdanla yanaşmalıdırlar;
- onlar üçün müəyyən olunmuş yerlərdə və hökmdə müəyyən olunmuş müddətdə işləməlidirlər;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməlidirlər;
- yaşayış yerini dəyişdikdə bu barədə icra məmuruna məlumat verməlidirlər.

**Sxem №8.7. İctimai işlər növündə cəza tətbiq olunmuş şəxslərin cəlb edildiyi işlərin siyahısı**

**İctimai işlər növündə cəza tətbiq olunmuş şəxslərin cəlb edildiyi işlər:***

- şəhər, rayon ərazisinin, küçə, park və meydanların, yolların abadlaşdırılması və təmizlənməsi (o cümlədən, yaşıllaşdırılması, qar və yağış sularının fəsadlarının aradan qaldırılması);
- məişət tullantılarının (əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyaların, maddələrin və materialların, tullantıların) yığılması (toplanılması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması;
- yaşayış ərazilərinin, xəstəxanaların, məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin, yataqxana və pansionatların, sosial xidmət müəssisələrinin, habelə sosial sahənin digər obyektlərinin tikintisi və təmiri;
- kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi;
- təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması və s.

**Qeyd:** İctimai işlər növündə cəza tətbiq olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2017-ci il tarixli 438 saylı Qərarı ilə müəyyən edilmişdir.

**Sxem №8.8. İctimai işlər növündə cəzanın çəkilməsindən qərəzli boyun qaçırma**

**İctimai işlər növündə cəzanın çəkilməsindən qərəzli boyun qaçırma:**

- üzrsüz səbəbdən ayda iki dəfədən çox ictimai işə çıxmamaq;
- cəzanı çəkməmək məqsədi ilə gizlənmək;
- ayda iki dəfədən çox cəzanın icrası yerlərində əmək intizamını pozmaq;
- elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etmək, onu zədələmək və ya digər üsulla yararsız vəziyyətə salmaq, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməmək.

## Sxem №8.9. İslah işləri növündə cəzanın icrası

**İslah işləri növündə cəzanın icrası:**

- islah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir
- islah işləri növündə cəzanın çəkilməsi hökm qanuni qüvvəyə mindiyi gündən icraya yönəldilir
- islah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər

**Sxem №8.10. İslah işləri növündə cəzanın çəkilməsinin şərtləri**



**Sxem №8.11. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslərə tətbiq edilən tənbeh hüquq məhdudiyyətləri**

**Məhkumlara tətbiq edilən tənbeh hüquq məhdudiyyətləri:**

məhkumun qazancından cəza müddəti ərzində 5%-dən 20%-dək dövlət nəfinə tutulmalar aparılır

məhkumun işlədiyi günlərin sayı məhkəmənin cəza üçün müəyyən etdiyi təqvim aylarına düşən iş günlərinin sayına uyğun olmalıdır

icra məmuru islah işləri növündə cəzaya məhkum olunmuş şəxs barəsində hökmün surətini və göstərişi aldıqdan sonra üç gün müddətində hökmün surətini və müəyyən edilmiş formada bildirişi işəgötürənə göndərir. Məhkum əvvəlki iş yerindən getdikdə və heç yerdə işləmədikdə, icra məmuru məhkuma üç ay ərzində işə girməyi təklif edir və zəruri olduqda ona işə düzəlməkdə kömək edir. Göstərilən müddətdə məhkum üzrlü səbəblər olmadan işə girmədikdə, onun barəsində qanunda (CİM-də) nəzərdə tutulmuş tədbirlər tətbiq edilir

**Sxem №8.12. İslah işləri növündə cəzanı icra edən icra məmurunun (probasiya üzrə) vəzifələri**

**İslah işləri növündə cəzanı icra edən icra məmuru:**

- islah işləri növündə cəzaya məhkum olunmuş şəxslərə zəruri hallarda işə düzəlməkdə köməklik göstərir;
- məhkumların qazancından tutulmaların düzgün aparılmasına və cəzanın icrası üçün CİM-də müəyyən edilmiş şərtlərə işəgötürən tərəfindən riayət olunmasına nəzarət edir;
- məhkumlarla tərbiyə işini aparır;
- məhkumlar barəsində CİM-də nəzərdə tutulmuş həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;
- məhkum olunmuş şəxslərin fərdi qeydiyyatını aparır;
- yeri məlum olmayan məhkumların müəyyən olunmuş qaydada axtarışını təşkil edir.

**Sxem №8.13. İslah işləri növündə cəzanın icrası yeri üzrə işəgötürənin vəzifələri**

**İslah işləri növündə cəzanın icrası yeri üzrə işəgötürən:**

- ❖ məhkəmə hökmünün məzmununu əmək kollektivinin nəzərinə çatdırır;
- ❖ iş yeri üzrə məhkumların davranışına nəzarət edir və onlarla tərbiyə işinin aparılmasında icra məmuruna kömək edir;
- ❖ məhkumların əmək intizamına riayət etməsinə nəzarət edir, onlara ixtisaslarının artırılmasında kömək edir;
- ❖ məhkum barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi və məhkumun cəza çəkməkdən boyun qaçırması, başqa işə keçməsi və ya işdən azad olması haqqında əvvəlcədən icra məmuruna məlumat verir;
- ❖ məhkumun qazancından dövlət nəfinə tutulmaları düzgün və vaxtında aparır və tutulmuş məbləğləri müəyyən edilmiş qaydada dövlət nəfinə keçirir;
- ❖ islah işləri növündə cəzanın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş şərtləri yerinə yetirir.

**Sxem №8.14. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxsin cəzaçəkmə müddətinə hesablanan müddət**

**Məhkumun işləmədiyi, lakin cəzaçəkmə müddətinə hesablanan müddətə aiddir:**

- ❖ məhkumun xəstəlik vaxtı (bu müddətin islah işlərinin çəkilməsi müddətinə hesablanmadığı hallar istisna olmaqla);
- ❖ xəstə ailə üzvünə qulluq göstərilməsi ilə əlaqədar təqdim olunmuş vaxt;
- ❖ növbəti və əlavə məzuniyyətdə olma vaxtı;
- ❖ hamiləliyə və doğuşa görə məzuniyyət vaxtı;
- ❖ şahid qismində məhkəmə araşdırmasında iştirak vaxtı;
- ❖ cinayət törətməklə əlaqədar məhkumun həbsdə olduğu vaxt (əgər burada törədilmiş cinayət əməlinə görə şəxsə islah işləri növündə cəza təyin edilibsə);
- ❖ azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi vaxtı (əgər bu cəza növü məhkumun azadlıqdan məhrum etmə yerlərindən azad edilməsinədək islah işləri növündə cəza ilə əvəz edilmişsə).

**Sxem №8.15. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxsin cəzaçəkmə müddətinə hesablanmayan müddət**

**Məhkumun cəzaçəkmə müddətinə hesablanmayan müddətə aiddir:**

- ❖ məhkumun işləmədiyi (əvvəlki sxemdə sadalanan hallar istisna olmaqla) və ona əmək haqqı verilmədiyi vaxt;
- ❖ əmək haqqı verilmədən məzuniyyətdə olma vaxtı;
- ❖ alkoqol, narkotik və toksik sərxoşluq nəticəsində yaranmış xəstəlik vaxtı;
- ❖ islah işlərinin icrası zamanı məhkuma inzibati tənbeh kimi verilmiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbs müddəti;
- ❖ məhkəmə qərarına əsasən cəzanın icrasının təxirə salındığı vaxt.

**Sxem №8.16. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxsin gəlirindən tutulmaların aparılmaması**

**Aşağıdakı mənbələrdən tutulmaların aparılmasına yol verilmir:**

- pensiyadan;
- sosial təminat və sosial sığorta qaydasında verilən müavinətlərdən;
- birdəfəlik verilən və əmək haqqı sistemində nəzərdə tutulmayan ödəmələrdən (o cümlədən istifadə edilməmiş məzuniyyətə görə verilən ödəmələrdən);
- ezamiyyətlərlə əlaqədar xərclər üçün əvəz kimi verilən məbləğdən;
- qanunvericiliklə nəzərdə tutulmuş başqa ödəmələrdən.

**Sxem №8.17. Azadlığın məhdudlaşdırılması növündə cəza çəkən şəxslərə müəyyən edilmiş ərazi hüdudlarından kənara çıxmağa icazə verildiyi hallar**

**Məhkumlara aşağıdakı müstəsna hallarda müəyyən edilmiş ərazi hüdudlarından kənara çıxmağa icra məmurunun qərarı ilə icazə verilir:**

- yaxın qohumların ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi (yeddi gün müddətinə qədər);
- təbii fəlakət və digər fövqəladə hadisə ilə bağlı şəxsin yaşayış yerində müəyyən müddət qalmasının mümkün olmaması;
- yaxın qohumların nikaha daxil olması (iki gün müddətinə qədər);
- şəxsə tibbi yardım göstərilməsi zərurətinin yaranması (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda);
- istirahət və bayram günlərində, həvəsləndirmə tədbiri qismində.

**Sxem №8.18. Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxslərin yaşayış yerini dəyişdirməyə icazə verildiyi hallar**

**Məhkumlara aşağıdakı hallarda yaşayış yerini dəyişdirməyə məhkəmənin qərarı ilə icazə verilir:**

məhkumun ailə vəziyyəti dəyişdikdə

məhkum digər yaşayış sahəsi üzərində mülkiyyət hüququ əldə etdikdə

şəxsin xəstəliyi ilə bağlı ona yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsində uzunmüddətli tibbi yardım göstərilməsi zərurəti yarandıqda (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda)

**Sxem №8.19. Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası üzrə icra məmurunun vəzifələri**

**Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası üzrə icra məmuru:**

- məhkumun qeydiyyatını aparır;
- məhkumun qanunvericiliklə müəyyən edilmiş cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməsinə nəzarət edir;
- məhkumla tərbiyə işini aparır;
- məhkum barəsində CİM-də nəzərdə tutulmuş həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;
- olduğu yer məlum olmayan məhkumun axtarışını təşkil edir;
- cəzanın icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

**Sxem №8.20. Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırması halları**

**Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığı hallara aiddir:**

- icra məmurunun cəzanın çəkilməsi üçün gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildirişini aldıqdan sonra 3 gün müddətində üzrlü səbəblər olmadan cəzanın icrasına nəzarət edən orqana gəlməməsi;
- üzrlü səbəb olmadan məhkəmə tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirməməsi;
- cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat vermək üçün icra məmurunun çağırışı ilə gəlməməsi;
- barəsində inzibati həbs növündə tənbeh tədbirinin tətbiq edilməsi.

**Sxem №8.21. Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin cəzanın icrası qaydalarını qərəzli pozması halları**

**Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin cəzanın icrası qaydalarını qərəzli pozması hallarına aiddir:**

➲ məhkumun müəyyən edilmiş ərazi hüdudlarını icazəsiz tərk etməsi;

➲ məhkumun elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etməsi, onu zədələməsi və ya digər üsulla yararsız vəziyyətə salması, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməməsi;

➲ məhkumun yaşayış yerini qanunvericilikdə nəzərdə tutulmuş icazə olmadan on gündən artıq müddətdə tərk etməsi.

**Sxem №8.22. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası qaydası**

**Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası qaydası**

- məhkumun yaşayış yeri üzrə icra məmuru tərəfindən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə hökmün və ya həmin cəza intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara əlavə olaraq təyin edildiyi təqdirdə, əsas cəza müddəti qurtardıqdan, yaxud məhkum şərti olaraq vaxtından əvvəl azad olunduqda və ya cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz edildikdə, habelə qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla məhkum əsas cəzadan azad olunduqda, müvafiq hökmün surətinin və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədin məhkuma həmin hüququ verən orqana göndərilməsi;
- işəgötürən tərəfindən məhkumla nəqliyyat vasitəsini idarəetmə ilə əlaqədar bağlanmış əmək müqaviləsinə qanunvericiliyə uyğun xitam verilməsi;
- qanunvericiliklə müəyyən edilmiş qaydada məhkumun hökmlə müəyyən olunmuş müddətə nəqliyyat vasitəsini idarəetmə hüququnu verən sənədlə bağlı aidiyyəti orqan tərəfindən qeydlər aparılması və həmin sənədin saxlanılması üçün tədbirlər görülməsi.

**Sxem №8.23. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrasına nəzarət**

**Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrasına nəzarəti həyata keçirən icra məmuru:**

- ❖ məhkumun qeydiyyatını aparır;
- ❖ məhkum əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi aidiyyəti üzrə məhkumun mənsub olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəliklərinə göndərməklə dərhal onlara məlumat verir;
- ❖ məhkumun məhkəmənin hökmündə göstərilən tələblərə riayət etməsinə nəzarət edir;
- ❖ hökmdə göstərilən tələblərin məhkumun işlədiyi yerin işəgötürəni tərəfindən yerinə yetirilməsini yoxlayır;
- ❖ məhkum məhkəmənin hökmü ilə qadağan edilmiş nəqliyyat vasitəsini idarəetmə ilə əlaqədar əmək fəaliyyətilə məşğul olduqda, icra məmuru işəgötürənə məlumat verərək məhkumun hökmlə qadağan edilmiş müvafiq əmək fəaliyyətinə üç gün müddətinə xitam verilməsini təklif edir və onu hökmün icra edilməməsinin məsuliyyətə səbəb olması barədə xəbərdar edir;
- ❖ cəza müddəti başa çatmış məhkumu qeydiyyatdan çıxarır.

## Sxem №8.24. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəzanın icrası qaydası

**Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəzanın icrası qaydası:**

- hökmün surətinin və təqdimatın məhkəmə tərəfindən xüsusi və ya hərbi rütbəni, fəxri adı və dövlət təltifini vermiş orqana göndərilməsi;
- müəyyən edilmiş qaydada müvafiq orqan tərəfindən məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsi haqqında müvafiq sənədlərə yazılı qeydlər edilməsi, habelə şəxsin xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifi ilə əlaqədar hüquq və güzəştlərdən məhrum edilməsinə dair tədbirlərin görülməsi;
- hökmün surətini və təqdimatı alan orqanın bir ay ərzində hökmü çıxaran məhkəməyə onun icra edilməsi haqqında məlumat verməsi.

**Qeyd:** Ehtiyatda olan hərbi qulluqçular barəsində hökmün surəti məhkumun hərbi qeydiyyat yeri üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə göndərilir.

**Sxem №8.25. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəzanın icrası qaydası**

**Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəzanın icrası qaydası**

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs əsas cəzasını çəkib qurtardığı və ya müəyyən olunmuş qaydada cəzadan azad olunduğu gün əsas cəzanı icra edən orqan və ya müəssisənin nümayəndəsinin müşayiəti ilə əlavə cəzanı icra edən orqana – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə təhvil verilir.

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəzaya məhkum olunmuş şəxslər 48 saat ərzində Azərbaycan Respublikasının ərazisindən çıxarılmalıdır.

Məhkum Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılarkən, Azərbaycan Respublikasının sərhəd nəzarət məntəqələrinədək Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən müşayiət olunur və dövlət sərhədinin buraxılış məntəqələrində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin əməkdaşlarına təhvil verilir.

**Sxem №8.26. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma xərclərinin ödənilməsi qaydası**



## Mövzu 9. Azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin təsnifi və onların cəzaçəkmə müəssisələrinə bölüşdürülməsi, cəzanın çəkilməsi yeri

### Sxem №9.1. Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifi anlayışı

**AZADLIQDAN MƏHRUM EDİLMİŞ ŞƏXSLƏRİN TƏSNİFİ**

↓

törətdikləri cinayətlərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən, cinsindən, yaşından və şəxsiyyətinin digər cəhətlərindən, həmçinin cəza - çəkmə dövründə davranışlarından asılı olaraq məhkumların nisbətən yekcins, yəni oxşar kateqo-riyalara bölgüsüdür

## Sxem №9.2. Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifi

**MƏHKUMLARIN TƏSNİFİ:**

**HÜQUQİ ƏSASLAR:**

1. CM-in 56-cı maddəsi;
2. CİM-in 72-ci maddəsi.

**TƏSNİFİN MEYARLARI**

yaş, cins, törədilmiş cinayətin ağırlıq dərəcəsi, təqsirin forması, təyin edilmiş cəzanın müddəti, məhkumluq, əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmə faktı, cinayətin xüsusi təhlükəli residivlə törədilməsi və digər meyarlar

cəzanın icrasının differensiasiyası və fərdiləşdirilməsi

**Bir-birindən ayrılıqda saxlanılır**

- kişilər və qadınlar;
- yetkinlik yaşına çatmayanlar və 18 yaşından yuxarı şəxslər;
- cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuşlar;
- ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşlar;
- ilk dəfə azadlıqdan məhrum edilmiş şəxslər və əvvəllər azadlıqdan məhrum etmə cəzası çəkmiş şəxslər;
- müxtəlif yoluxucu xəstəliklərə tutulmuş məhkumlar və sağlam məhkumlar;
- məhkəmə və hüquq-mühafizə orqanlarının sabiq işçiləri.

## Sxem №9.3. Azadlıqdan məhrum etmə cəzasının çəkilmə yeri

**ÜMUMİ QAYDA:**

müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzalarını bir qayda olaraq yaşayış yerinə yaxın ərazidə yerləşən cəzaçəkmə müəssisələrində çəkirlər

**İ S T İ S N A L A R:**

sağlamlıq vəziyyətinə görə, şəxsi təhlükəsizliyini təmin etmək məqsədi ilə və digər müstəsna hallara görə məhkumlar cəzalarını çəkmək üçün başqa ərazidə yerləşən cəzaçəkmə müəssisələrinə göndərilə bilərlər

cinayətlərin xüsusi təhlükəli residivinə görə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya və ya cəzalarının bir hissəsini həbsxanada çəkməyə məhkum olunanlar, həmçinin əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cəzalarını çəkmək üçün yaşadıqları yerdən asılı olmayaraq, müvafiq cəzaçəkmə məssisələrinə göndərilirlər

## Sxem №9.4. Məhkumların cəzaçəkmə müəssisələrinə qəbulu qaydası

**Məhkumların cəzaçəkmə müəssisələrinə qəbulu qaydası:**

- şəxsi işin olub-olmamasının yoxlanılması;
- şəxsi işin gəlmiş məhkuma məxsus olmasının müəyyən edilməsi;
- şəxsi işdə zəruri sənədlərin olub-olmamasının yoxlanılması.

- məhkumun özünün tam yoxlanılması;
- ona məxsus əşyalara baxış keçirilməsi.

- məhkumların cəzanın çəkilməsi qaydası və şərtləri ilə, hüquq və vəzifələri ilə tanış edilməsi;
- məhkumların cəzaçəkmə rejiminin pozulmasına görə məsuliyyət haqqında xəbərdar edilməsi;
- məhkumların şəxsiyyətinin öyrənilməsi.

bədən xəsarətlərinin aşkar edilməsi məqsədi ilə baxış

tibbi müayinə, tibbi göstəricilər üzrə tam sanitar təmizləmə tədbirləri

şəxsiyyət xüsusiyyətləri, əməyə və təhsilə cəlb olunma imkanları nəzərə alınmaqla, məhkumların dəstələr üzrə bölüşdürülməsi

karantin bölməsində iki həftəyədək müddətə tibbi müşahidə, habelə məhkumun müvafiq müəssisədə təhlükəsiz cəza çəkməsinin müəyyən edilməsi

## Mövzu 10. Cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təşkilati əsasları

### Sxem №10.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin strukturu



## Sxem №10.2. Penitensiar Xidmətin fəaliyyət istiqamətləri

**Penitensiar Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:**

- müəyyən müddətə və ömürlük azadlıqdan məhrum-etmə cəzalarının icrasını həyata keçirmək;
- müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumların islahı işini həyata keçirmək;
- həbs edilmiş şəxslərin və məhkumların mühafizəsini, onların müşayiətini həyata keçirmək;
- barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin saxlanılmasını təmin etmək;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;
- penitensiar müəssisələrdə cəza çəkən şəxslərin reabilitasiyasına və sosial adaptasiyasına köməklik göstərmək;
- Penitensiar xidmətdə səlahiyyətləri daxilində mülki müdafiə, yanğın təhlükəsizliyi və səfərbərlik işini təşkil etmək;
- hüquqi maarifləndirmə işində iştirak etmək;
- qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**Qeyd:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında Əsasnamə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının “31” oktyabr 2019-cu il tarixli “21-N” nömrəli qərarı ilə təsdiq edilmişdir.

## Sxem №10.3. Penitensiar Xidmətin vəzifələri

**Penitensiar Xidmətin vəzifələri:**

- barələrində məhkəmənin hökm və qərarları olan şəxslərin penitensiar müəssisələrdə saxlanılmasını təmin etmək;
- məhkumların qanunvericiliklə müəyyən edilmiş üsul və vasitələrlə islah edilməsi prosesini təşkil etmək;
- məhkumların və istintaq təcridxanalarında saxlanılan şəxslərin hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaq;
- penitensiar müəssisələrdə saxlanılan şəxslər tərəfindən hazırlanan və törədilə biləcək cinayətlərin və digər hüquqpozmaların qarşısını almaq üçün tədbirlər görmək;
- həbs edilmiş şəxslərin və məhkumların mühafizəsini və müşayiətini həyata keçirmək;
- Penitensiar Xidmətə daxil olan müəssisələrdə hüquq qaydasını və qanunçuluğu, penitensiar müəssisələrdə işçilərin, burada saxlanılan şəxslərin və müəssisələrin ərazisində olan digər şəxslərin təhlükəsizliyini təmin etmək;
- penitensiar müəssisələrdə saxlanma, cəzaların icrası və çəkilməsi qayda və şərtlərini təmin etmək və s.

## Sxem №10.4. Penitensiar Xidmətin hüquqları

**Penitensiar Xidmətin hüquqları aşağıdakılardır:**

- penitensiar müəssisələrin və Penitensiar Xidmətə daxil olan digər qurumların yaradılması, yenidən təşkili və ləğvi ilə əlaqədar təkliflər vermək;
- Penitensiar Xidmətin işinin təşkili ilə bağlı bir xidmətə daxil olan müəssisə və qurumlar üçün icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər vermək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki qüvvə, xidməti itlər, xüsusi vasitələr və odlu silah tətbiq etmək;
- fəaliyyəti ilə əlaqədar təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar, metodiki tövsiyələr, xülasələr, icmallar hazırlamaq, penitensiar sahədə tədbirlər aparmaq və təkliflər vermək;
- Penitensiar Xidmətə daxil olan müəssisə və qurumların fəaliyyətinin yoxlanılmasını həyata keçirmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və beynəlxalq təcrübəni öyrənmək;
- səlahiyyətləri daxilində penitensiar müəssisələrdə istehsalat, təsərrüfat və yardımçı təsərrüfat sahələri yaratmaq, istehsal edilən məhsulun satışını təşkil etmək və s.

## Sxem №10.5. Cəzaçəkmə müəssisələrinin nümunəvi strukturu




**Qeyd:** Cəzaçəkmə müəssisəsində fəaliyyət göstərən tibb-sanitariya bölməsi Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə tabedir.

**Sxem №10.6. Cəzaçəkmə müəssisələrinin müxtəlif xidmətləri tərəfindən həyata keçirilən vəzifələr**



**Sxem №10.7. Cəzaçəkmə müəssisələrində tərbiyə işini bilavasitə həyata keçirən böyük inspektorun (dəstə rəisinin) əsas vəzifələri**



## Mövzu 11. Cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası (cəzaçəkmə rejimi)

### Sxem №11.1. Cəzaçəkmə müəssisələrində rejimin anlayışı və onun əsas vəzifələri

**REJİM – cəzanın qanunla və ya digər normativ hüquqi aktlarla müəyyən edilmiş icrası və çəkilməsi qaydasıdır.**



**Sxem №11.2.1. Cəzaçəkmə rejiminin məzmunu**



**Sxem №11.2.2. Cəzaçəkmə rejiminin məzmunu**



**Sxem №11.2.3. Cəzaçəkmə rejiminin məzmunu**



**Sxem №11.2.4. Cəzaçəkmə rejiminin məzmunu**



## Sxem №11.3. Məhkumların müşayiətsiz gediş-gəlişi

**Məhkumların müşayiətsiz gediş-gəlişi:**

**gördükləri işin xarakterinə görə zəruri hallarda icazə verilə bilər**

təsərrüfat və ya məişət xidməti üçün cəzaçəkmə müəssisələrində müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən və müsbət xarakterizə olunan məhkumlara cəza müddətinin ən azı üçdə bir hissəsini çəkdikdən sonra

**icazə verilmir**

- cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslərə;
- ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə;
- ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz olunmuş şəxslərə;
- tibbi xarakterli məcburi tədbirlər keçməli olan şəxslərə;
- tənbehi olan məhkumlara;
- cəzanın icrası dövründə qəsdən törədilmiş cinayətlərə görə yenidən məhkum olunmuşlara;
- vərəm xəstəliyinə tutulmuş (vərəm çöpləri ifraz edənlər) və zöhrəvi xəstəliklərdən tam müalicə kursu keçməyən məhkumlara.

## Sxem №11.4. Cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlər

**Məhkumların cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərləri:**

**MÜSTƏSNA HALLARDA**

**MƏZUNİYYƏT VAXTI**

müstəsna şəxsi hallarla əlaqədar – **7 günədək**

yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyə tutulması

məhkumlara və ya onların ailəsinə təbii fəlakətlə və digər fövqəladə hadisə nəticəsində əhəmiyyətli maddi ziyan vurulması

cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan qadınlara övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün – **15 günədək**

- ilk dəfə böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş, ümumi rejimli CÇM-də və ümumi rejimli tərbiyə müəssisəsində cəza çəkən və yaxşılaşdırılmış saxlanılma şəraitinə keçirilmiş şəxslərə - **7 günədək;**
- məntəqə tipli CÇM-də cəza çəkən və CÇM-dən kənarda, yaxud CÇM-in istehsalat sahəsində əmək fəaliyyəti ilə məşğul olan məhkuma nümunəvi davranışına, əməyə və təhsilə vicdanlı münasibətinə, təlim-tərbiyə tədbirlərində fəal iştirakına görə - **tam məzuniyyət dövründə.**

**Sxem №11.5. Azadlıqdan məhrum etmə yerlərində rejimin təmin edilməsinin əsas vasitələr**



## Sxem №11.6. Texniki mühafizə və nəzarət vasitələri

**TEXNİKİ MÜHAFİZƏ VƏ NƏZARƏT VASİTƏLƏRİ:**

**N Ö V L Ə R İ**

- ❖ audiovizual;
- ❖ elektron;
- ❖ digər texniki vasitələr.

**TƏTBİQ OLUNMA MƏQSƏDİ**

- ➢ qaçışların və digər cinayətlərin xəbərdar edilməsi;
- ➢ müəyyən edilmiş cəza çəkmə qaydasının pozulmasının qarşısının alınması;
- ➢ məhkumların davranışı haqqında zəruri məlumatların alınması.

**T Ə Y İ N A T I**

- müşahidə;
- xəbərdarlıq edilmə;
- məhkumların və onlarda olan qadağan edilmiş əşyaların və maddələrin axtarışı və aşkar edilməsi;
- əlaqə saxlama;
- məhkumların hüquqazidd əməllər törətmə cəhdinə fəal müqavimət göstərmək.

**Sxem №11.7.1. Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiqi əsasları**

**FİZİKİ QÜVVƏNİN TƏTBİQİ ƏSASLARI:**

- ❖ qalmaqal salan, fiziki müqavimət göstərən məhkumların sakitləşdirilməsi üçün;
- ❖ müəssisədən qaçan məhkumların tutulması üçün;
- ❖ digər zorakılıq hərəkətləri edən məhkumların qanunsuz hərəkətlərinin qarşısının alınması üçün.

## Sxem №11.7.2. Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiqi əsasları

**XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ ƏSASLARI:**

**Xüsusi vasitələrə aiddir:**
rezin dəyənəklər, əl qandalları, göz yaşardıcı qazlar, sədləri dağıtma vasitələri, suatanlar, zirehli maşınlar və s.

- ❖ qalmaqal salan, müqavimət göstərən məhkumların sakitləşdirilməsi üçün;
- ❖ məhkumların və digər şəxslərin cəza-icra sistemi işçilərinə hücumlarını dəf etmək üçün;
- ❖ kütləvi iğtişaşların, qrup halında pozuntuların qarşısını almaq, habelə qərəzli surətdə tabe olmayan şəxsləri tutmaq üçün;
- ❖ girovların, tutulmuş binaların, qurğuların, otaqların və nəqliyyat vasitələrinin azad edilməsi üçün;
- ❖ məhkumların qaçması, özlərinə və ətrafdakılara zərər vurması ehtimal olunan hallarda onların mühafizəsi və müşayiəti üçün;
- ❖ müəssisədən və ya həbsdən qaçan məhkumların tutulması və qaytarılması üçün.

**Sxem №11.7.3. Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiqi əsasları**



## Sxem №11.7.4. Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiqi əsasları

**ODLU SİLAHIN TƏTBİQİ ƏSASLARI:**

- mühafizə altından qaçışın qarşısını almaq üçün;
- məhkumların və digər şəxslərin cəza-icra sistemi işçilərinə hücumlarını dəf etmək üçün;
- insan həyatı üçün təhlükə yaradan basqınları dəf etmək üçün;
- girovları, tutulmuş binaları, qurğuları, otaqları və nəqliyyat vasitələrini azad etmək üçün;
- mühafizə edilən obyektlərə, binalara, qurğulara, otaqlara və nəqliyyat vasitələrinə qrup halında və ya silahlı basqınları dəf etmək üçün;
- silahlı müqavimət göstərən, ağır cinayət törədərkən yaxalanan, qaçmağa və ya digər məhkumları azad etməyə cəhd göstərən şəxsləri saxlamaq üçün.

**Qeyd.** Qadınlar və yetkinlik yaşına çatmayan şəxslər cəzaçəkmə müəssisəsindən qaçdıqda, onlara qarşı odlu silah tətbiq edilməsinə yol verilmir.

**Sxem №11.8. Cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiqinə dair ümumi tələblər**

**TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİNİN TƏTBİQİNƏ DAİR ÜMUMİ TƏLƏBLƏR:**

- təhlükəsizlik tədbirləri tətbiq etmək hüququ Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin xüsusi rütbəyə malik olan işçi heyətinə (sıravi və rəis heyəti) məxsusdur;
- təhlükəsizlik tədbirləri cəzanı icra edən müəssisələrin ərazilərində və rejim tələblərinin müəyyən olunduğu onlara bitişik ərazilərdə tətbiq edilir;
- təhlükəsizlik tədbirləri tətbiq edilərkən işçi heyəti onların tətbiqi barədə xəbərdarlıq etməlidir ki, məhkumların və digər şəxslərin onların tələblərini yerinə yetirməsi üçün kifayət qədər vaxtı olsun;
- təhlükəsizlik tədbirlərinin tətbiqi prosesində işçi heyəti məhkumlara və digər şəxslərə daha az zərər vurulmasını təmin etməlidir;
- işçi heyəti təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində xəsarət alanlara tibbi yardım göstərilməsini təmin etməlidir;
- təhlükəsizlik tədbirlərinin, xüsusilə də odlu silahın tətbiq edilməsinin hər bir faktı barədə işçi heyəti özlərinin bilavasitə rəislərinə, o, isə dərhal müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməlidir.

## Sxem №11.9. Cəzaçəkmə müəssisələrində fövqəladə hallarda xüsusi saxlanma şəraiti



**Sxem №11.10. Xüsusi saxlanma şəraitində həyata keçirilən tədbirlər**



# Mövzu 12. Cəzaçəkmə müəssisələrində məhkumlarla tərbiyə işi, onların ümumi təhsili

### Sxem №12.1. Məhkumlarla tərbiyə işinin əsas istiqamətləri və formaları



**Sxem №12.2. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə tətbiq edilən həvəsləndirmə tədbirləri**

**Məhkumlara tətbiq edilən həvəsləndirmə tədbirlərinə aiddir:**

- təşəkkür elan etmək;
- hədiyyə ilə mükafatlandırmaq;
- dörd manatadək miqdarda pulla mükafatlandırmaq;
- əlavə sovqat, bağlama və ya banderol almağa icazə vermək;
- əlavə telefon danışığına icazə vermək;
- əlavə qısa müddətli və uzun müddətli görüşə icazə vermək;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün on beş manatadək miqdarda əlavə pul xərcləməyə icazə vermək;
- verilmiş tənbehi vaxtından əvvəl götürmək;
- saxlanılma şəraitini yaxşılaşdırmaq;
- xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan və cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkumları kamera tipli otaqlardan adi yaşayış binalarına keçirmək;
- xüsusi rejimli cəzaçəkmə müəssisəsində və həbsxanada kameralarda saxlanılan məhkumlara bir ay ərzində bir saatadək əlavə gəzintiyə icazə vermək;
- məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumlara istirahət və iş günü hesab edilməyən bayram günlərinin müəssisənin ərazisindən kənarda keçirilməsinə icazə vermək.

**Sxem №12.3. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərə tətbiq edilən tənbeh tədbirləri**

**Cəzanın icrası qaydalarını pozan məhkumlara tətbiq edilən tənbeh tədbirlərinə aiddir:**

❖ xəbərdarlıq;
❖ töhmət;
❖ CÇM-də və həbsxanalarda saxlanılan kişi məhkumları on beş günədək, qadın məhkumları isə on günədək müddətə cərimə təcridxanasına keçirmək;
❖ xüsusi rejimli CÇM-də saxlanılan məhkumları adi yaşayış binalarından kamera tipli otaqlara keçirmək;
❖ cəzanın icrası qaydaları qərəzli pozulduqda ümumi və ciddi rejimli CÇM-də saxlanılan kişi məhkumları bir aydan altı ay müddətinədək kamera tipli otaqlara, xüsusi rejimli CÇM-də saxlanılan məhkumları bir aydan altı ay müddətinədək birnəfərlik kameralara, həbsxanalarda saxlanılan məhkumları iki aydan altı ayadək müddətə ciddi saxlanma şəraitinə keçirmək;
❖ MTCÇM-də cəzanın icrası qaydalarını qərəzli pozan məhkumlara bir ay müddətində müəssisədən kənara çıxmağı və ya üç ay ərzində istirahət və bayram günlərini müəssisəsindən kənarda keçirməyi qadağan etmək;
❖ saxlanılma şəraiti yaxşılaşdırılmış məhkum barədə CİM-in 107.1-107.3, 107.5 və 125-ci maddələrində nəzərdə tutulmuş tənbeh tədbiri tətbiq edildikdə, yaxşılaşdırılmış saxlanılma şəraitini ləğv etmək.

## Sxem №12.4. Cəzanın icrası qaydalarının qərəzli pozulması

**Cəzanın icrası qaydalarının qərəzli pozulması:**

məhkuma tənbeh tədbirlərinin tətbiq edilməsi ilə eyni vaxtda cəzaçəkmə müəssisəsi müdiriyyətinin qərarı ilə müəyyən edilir

- ❖ alkoqol və ya digər güclü təsiredici maddələri qəbul etmək;
- ❖ narkotik vasitələri və ya psixotrop maddələri qəbul etmək;
- ❖ xırda xuliqanlıq;
- ❖ cəzaçəkmə müəssisəsinin işçi heyətini hədələmək, təhqir etmək və ya onların qanuni tələblərinə tabe olmamaq;
- ❖ xidməti borclarını yerinə yetirən digər dövlət nümayəndələrini hədələmək və ya təhqir etmək;
- ❖ qrup halında tabe olmamaq və ya belə qruplarda fəal iştirak etmək;
- ❖ il ərzində üç dəfədən çox tənbeh edilmək.

**Məntəqə tipli cəzaçəkmə müəssisələrində əlavə olaraq aşağıdakı hallar cəzanın icrası qaydalarının qərəzli pozulması hesab edilir:**

- ❖ məhkumun cəzaçəkmə müəssisəsini icazəsiz tərk etməsi;
- ❖ məhkumun üzrsüz səbəbdən ayda iki dəfədən çox cəzaçəkmə müəssisəsinə qayıtmaması.

**Sxem №12.5. Cəzaçəkmə müəssisələrində məhkumların özfəaliyyət təşkilatlarının əsas məqsədləri**

**Məhkumların özfəaliyyət təşkilatlarının əsas məqsədləri:**

- məhkumların islah edilməsinə, tərbiyəsinə, onların mənəvi və fiziki inkişafına köməklik göstərmək
- məhkumlarda müsbət vərdişləri inkişaf etdirmək və onların faydalı təşəbbüskarlığını həvəsləndirmək
- cəzaçəkmə müəssisələrində əməyin, məişət şəraitinin və asudə vaxtın səmərəli keçməsini təşkil etmək
- məhkumlar arasında intizamı möhkəmləndirmək və onların bir-birinə qarşılıqlı münasibətini formalaşdırmaq
- məhkumlara və onların ailələrinə yardım göstərmək

**Sxem №12.6. Cəzaçəkmə müəssisələrində məhkumların özfəaliyyət təşkilatlarının təşkil olunma qaydası**



**Sxem №12.7. Cəzaçəkmə müəssisələrində məhkumların özfəaliyyət təşkilatları**



# Mövzu 13. Cəzaçəkmə müəssisələrində məhkumların əməyi, peşə təhsili və peşə hazırlığı

## Sxem №13.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərin əməyə cəlb edilməsi

**Azadlıqdan məhrum edilmiş şəxslərin əməyə cəlb edilməsi:**

**ÜMUMİ QAYDA**

hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır

cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb etməlidir

**İSTİSNA HALLAR**

altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlara, birinci və ikinci qrup əlilliyi, on səkkiz yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlara, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlara könüllülük əsasında işləməyə icazə verilir

**Sxem №13.2. Azadlıqdan məhrum edilmiş şəxslərin haqqı ödənilməyən işlərə cəlb edilməsi**

**Məhkumların haqqı ödənilməyən işlərə cəlb edilməsi:**

**ÜMUMİ QAYDA**

məhkumlar mühafizə qurğuları istisna olmaqla, cəzaçəkmə müəssisəsinin və onların ərazisinin abadlaşdırılması, məhkumların mədəni-məişət şəraitinin yaxşılaşdırılması üçün köməkçi işlərə haqqı ödənilmədən cəlb edilə bilərlər

məhkumlar haqqı ödənilməyən işlərə, bir qayda olaraq, növbə ilə işdən azad vaxtlarda cəlb edilirlər. Belə işlərin müddəti ay ərzində 8 saatdan çox ola bilməz

**İSTİSNA HALLAR**

altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlar, birinci və ikinci qrup əlilliyi, on səkkiz yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan məhkumlar, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlar yalnız könüllülük əsasında işə cəlb edilə bilərlər

məhkumlar mühafizə qurğularının bərpasına yalnız təbii fəlakət, yaxud digər fövqəladə hallar nəticəsində bu qurğulara zərər dəydikdə və ya onlar dağıldıqda haqqı ödənilmədən cəlb edilə bilərlər

**Sxem №13.3. Azadlıqdan məhrum edilmiş məhkumların haqqı ödənilən əməyə cəlb edilməsi vaxtının ümumi əmək stajına daxil edilməsi**




**Qeyd:** CİM-in 95.6-cı maddəsinə əsasən, üzrsüz səbəbdən əməkdən imtina edilməsi və əmək fəaliyyətinin dayandırılması cəzanın icrası qaydalarının pozulması sayılır.

**Sxem №13.4. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin haqqı ödənilən əmək məzuniyyətləri**



## Sxem №13.5. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin qazancından tutulmalar

**ƏMƏK HAQQINDAN, PENSİYADAN VƏ DİGƏR GƏLİRLƏRDƏN TUTULMALAR:**

**Tutulmalar aşağıdakı ardıcıllıqla aparılır:**

- aliment öhdəliyi;
- gəlir vergisi;
- məcburi dövlət sosial sığorta haqqı;
- icra vərəqələrinə və digər icra sənədlərinə görə ödənişlər;
- digər məcburi ödənişlər.

bütün tutulmalı məbləğlərdən asılı olmayaraq hesablanmış əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı 50%-i şəxsi hesaba keçirilir

**bütün tutulmalı məbləğlərdən asılı olmayaraq hesablanmış əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı 60%-i aşağıdakı məhkumların şəxsi hesabına keçirilir:**

- 60 yaşından yuxarı kişilərin;
- 55 yaşından yuxarı qadınların;
- I və II qrup əlillərin;
- yetkinlik yaşına çatmayanların;
- cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan qadınların;
- hamilə qadınların.

Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərə, CÇM-dən kənarda yaşamağa icazə verilmiş məhkum qadınlara tutulmalı bütün məbləğlərdən asılı olmayaraq ümumi gəlirin ən azı 65%-i verilir

# Mövzu 14. Cəzaçəkmə müəssisələrində məhkumların maddi-məişət və tibbi-sanitariya təminatları

## Sxem №14.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin maddi-məişət təminatı

**MƏHKUMLARIN ƏSAS MADDİ-MƏİŞƏT TƏMİNATI:**

- minimal yaşayış sahəsi ilə təmin olunma (ümumi - 4m$^2$, müalicə müəssisəsində - 5m$^2$)
- fərdi yataq yeri və yataq ləvazimatı ilə təmini
- Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş normalara uyğun gündə üç dəfə isti yeməklə təmini
- kommunal-məişət xidməti
- onların cinsləri, mövsüm və iqlim nəzərə alınmaqla geyim, habelə ayaqqabı ilə təmini

**Sxem №14.2.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin maddi-məişət təminatı**

**MƏHKUMLARIN ƏLAVƏ MADDİ-MƏİŞƏT TƏMİNATI:**

- məhkumu əməyə cəlb edən müəssisənin hesabına həyata keçirilən müəyyən edilmiş normalardan əlavə yemək verilməsi
- bağlama, sovqat və banderolların alınması
- **məhkumun öz hesabına:**
  - ❖ ərzaq məhsulları və ən zəruri mallar alması, habelə geyim, o cümlədən idman geyimi alması;
  - ❖ əlavə tibbi məsləhət və müalicə alması

**Sxem №14.2.2. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin maddi-məişət təminatı**



**Sxem №14.3. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin tibbi-sanitariya təminatı**

**MƏHKUMLARIN TİBBİ-SANİTARİYA TƏMİNATI:**

**CƏZA-İCRA SİSTEMİNİN XÜSUSİ TİBB MÜƏSSİSƏLƏRİ**

**müalicə-profilaktika müəssisələri**

- xəstəxanalar (infeksion, somatik, psixiatrik və s. xəstələr üçün);
- tibb-sanitariya hissələri.

**xüsusi (ixtisaslaşdırılmış) müalicə müəssisələri**

- vərəmə düçar olmuş xəstələr üçün;
- alkoqolizm və narkomaniyadan müalicə keçən xəstələr üçün;
- insan immunçatışmazlığı virusu (İİV) ilə yoluxmuş xəstələr üçün.

**Qeyd:** Məhkumlara tibbi yardım göstərilməsi, sanitar nəzarətin təşkili və həyata keçirilməsi, ədliyyə orqanlarının müəssisələrindən istifadə edilməsi və bu məqsədlərlə onların işçi heyətinin cəlb edilməsi qaydası Azərbaycan Respublikasının səhiyyə sahəsindəki qanunvericiliyi ilə, Azərbaycan Respublikası Ədliyyə və Səhiyyə nazirliklərinin normativ hüquqi aktları ilə müəyyən edilmişdir.

**Sxem №14.4. Məhkumların tibbi-sanitariya təminatı üzrə tibb-sanitariya hissəsinin vəzifələri**

**TİBB-SANİTARİYA HİSSƏSİNİN VƏZİFƏLƏRİ:**

- yeni qəbul edilmiş məhkumlara baxış keçirmək, xəsarət, işgəncə halları müəyyən edildikdə onları qeydə almaq və təxirəsalınmadan aidiyyəti üzrə məlumat vermək;
- yeni qəbul edilmiş məhkumların ilkin müayinəsini, rentgen-flüoroqrafiya və laboratoriya müayinəsini həyata keçirmək;
- yoluxucu xəstəlikləri aşkar etmək;
- xəstə məhkumları ambulator və ya stasionar müalicəyə cəlb etmək;
- məhkumların əmək qabiliyyəti haqqında məsələni həll etmək;
- sanitariya-profilaktika nəzarətini, gigiyena və epidemiya əleyhinə tədbirləri həyata keçirmək və s.

## Mövzu 15. Müxtəlif növlü cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası və şərtləri

### Sxem №15.1.1. Cəzaçəkmə müəssisələrinin növləri



**Sxem №15.1.2. Cəzaçəkmə müəssisələrinin növləri**

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ**

**CİDDİ REJİMLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ:**

xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, habelə cinayətlərin residivi zamanı, yəni əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər və cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş qadınlar cəza çəkirlər

**Sxem №15.1.3. Cəzaçəkmə müəssisələrinin növləri**

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ**

**XÜSUSİ REJİMLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ:**

cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş və ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz olunmuş kişilər cəza çəkirlər

**Sxem №15.1.4. Cəzaçəkmə müəssisələrinin növləri**

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ**

↓

**MƏNTƏQƏ TİPLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ:**

↓

ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş məhkumlar cəza çəkirlər

## Sxem №15.2.1. Ümumi rejimli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri

**Ümumi rejimli cəzaçəkmə müəssisələrində:**

**ehtiyatsızlıqdan törədilmiş, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslər**

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda əlli manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli qırx səkkiz görüş və uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- il ərzində qırx səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- hər il məzuniyyət vaxtı cəzaçəkmə müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfər edə bilərlər.

## Sxem №15.2.2. Ümumi rejimli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri

**Ümumi rejimli cəzaçəkmə müəssisələrində:**

**ağır cinayətlərə görə ilk dəfə məhkum olunmuş şəxslər**

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iyirmi dörd görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- il ərzində iyirmi dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli on iki görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

## Sxem №15.3. Ciddi rejimli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri

**Ciddi rejimli cəzaçəkmə müəssisələrində məhkumlar:**

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli on iki görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- il ərzində on iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Sxem №15.4. Xüsusi rejimli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri**

**Xüsusi rejimli cəzaçəkmə müəssisələrində məhkumlar:**

- kamera tipli otaqlarda və ya adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda otuz beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- il ərzində səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.
- cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra kamera tipli otaqlardan adi yaşayış binalarına keçirilmək hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iki görüş və uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- il ərzində üç bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Sxem №15.5. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtləri**

**MƏNTƏQƏ TİPLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHKUMLAR:**

- dövlət hesabına kommunal, yemək, maddi-məişət, tibbi-sanitariya və digər təminatlarla təmin edilmə hüququna malikdirlər;
- mühafizəsiz, lakin nəzarət altında saxlanılırlar;
- müəyyən edilmiş nümunədə şəxsiyyəti təsdiq edən sənəd daşıyırlar;
- yuxudan durmaq vaxtından yatmaq vaxtınadək müəssisədə sərbəst gəzə bilərlər;
- məhdudiyyət qoyulmadan qohumları ilə və başqa şəxslərlə yazışa və görüşə bilər, bağlama, sovqat və ya banderol ala bilərlər;
- cəzacəkmə müəssəsində gündə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışa bilərlər;
- məişətdə istifadə edilən ümumi paltar geyinə, pul və qiymətli şeylər gəzdirə, puldan qeyri-məhdud istifadə edə bilərlər;
- cəzaçəkmə müəssisəsinə yaxın ərazidə işləyən, yaxud ali, orta ixtisas, peşə təhsili müəssisələrində təhsil alan məhkumlar müdiriyyətinin icazəsilə və müəssisədən çıxma və qayıtma vaxtı müəyyən edilməklə, sutkada on iki saatdan artıq olmayan müddətdə Azərbaycan Respublikasının ərazisi hüdudlarında nəzarətsiz hərəkət edə bilərlər.

## Mövzu 16. Həbsxanalarda azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qaydası və şərtləri

### Sxem №16.1. Həbsxanalarda cəza çəkən şəxslərin dairəsi

**HƏBSXANADA CƏZA ÇƏKƏN ŞƏXSLƏR:**

- xüsusilə ağır cinayətlər törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər;
- cəza müddətini tam və ya onun bir hissəsini çəkməklə cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslər;
- ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər;
- CİM-in 70.4.3-cü maddəsinə əsasən ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrindən cəzanın icrası qaydasını qərəzli, habelə dəfələrlə pozmuş və buna görə də məhkəmənin qərarına əsasən üç ilədək müddətə həbsxanaya keçirilmiş şəxslər;
- CİM-in 69-cu maddəsinə uyğun olaraq təsərrüfat və məişət xidməti işi üçün saxlanılan məhkumlar.

**Qeyd:** Həbsxanalarda təsərrüfat və məişət xidməti işi üçün saxlanılan məhkumlar ümumi rejimli cəzaçəkmə müəssisələri üçün qanunda nəzərdə tutulan şərtlərlə digər məhkumlardan təcrid olunmaqla saxlanılırlar. Bu məhkumlar bağlı bina və ya otaqlarda işlədikləri hallarda gündə iki saat müddətinə gəzinti hüququna malikdirlər.

## Sxem №16.2. Həbsxanalarda ümumi saxlanma şəraitində cəzanın icrası şərtləri

**ÜMUMİ SAXLANMA ŞƏRAİTİNDƏ MƏHKUMLAR:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli dörd görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- il ərzində altı bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- hər gün bir saat gəzinti hüququna malikdirlər.

**Bu kateqoriyalı məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, həbsxanada çəkilməsi müəyyən olunmuş cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- il ərzində altı bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Sxem №16.3. Həbsxanalarda ciddi saxlanma şəraitində cəzanın icrası şərtləri**

**CİDDİ SAXLANMA ŞƏRAİTİNDƏ MƏHKUMLAR:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- altı ayda bir bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- altı ayda bir qısa müddətli görüş almaq hüququna malikdirlər;
- hər gün bir saat gəzinti hüququna malikdirlər.

**Qeyd:** Ciddi saxlanma şəraitində olma müddəti həbsxana müdiriyyətinin qərarı ilə iki aydan altı ayadək müəyyən olunur.

## Sxem №16.4. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin saxlanması şərtləri

**ÖMÜRLÜK AZADLIQDAN MƏHRUM EDİLMİŞ MƏHKUMLAR:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- həftədə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışmaq hüququna malikdirlər;
- il ərzində dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- hər gün bir saat gəzinti hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iki görüş və uzun müddətli bir görüş almaq hüququna malikdirlər;
- il ərzində iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- il ərzində dörd dəfə telefonla danışmaq hüququna malikdirlər.

## Mövzu 17. Tərbiyə müəssisələrində azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qaydası və şərtləri

### Sxem №17.1. Ümumi rejimli tərbiyə müəssisələrində cəza çəkən şəxslər

**Tərbiyə müəssisələrində cəza çəkən məhkumların dairəsi:**

**Ümumi rejimli tərbiyə müəssisəsində**

- ❖ yetkinlik yaşına çatmayan qızlar;
- ❖ ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar.

**Möhkəm rejimli tərbiyə müəssisəsində**

- ❖ əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar.

## Sxem №17.2. Ümumi rejimli tərbiyə müəssisələrində cəzanın icrası şərtləri

**ÜMUMİ REJİMLİ TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHKUMLAR:**

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda əlli manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli qırx səkkiz görüş və uzun müddətli səkkiz görüş almaq hüququna malikdirlər;
- il ərzində qırx səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsilə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı dörddə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində uzun müddətli dörd görüş almaq hüququna malikdirlər;
- hər il məzuniyyət vaxtı cəzaçəkmə müəssisəsinin müdiriyyətinin qərarı ilə cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara valideynlərinin və ya himayəçilərinin müşayiəti ilə qısa müddətli səfər etməyə icazə verilə bilər.

**Sxem №17.3. Möhkəm rejimli tərbiyə müəssisələrində cəzanın icrası şərtləri**

**MÖHKƏM REJİMLİ TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHKUMLAR:**

- adi yaşayış binalarında saxlanılırlar;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda qırx manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iyirmi dörd görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər;
- il ərzində iyirmi dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər.

**Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsilə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli on iki görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər.

**Sxem №17.4. Tərbiyə müəssisələrində məhkumlara tətbiq edilən həvəsləndirmə tədbirləri**

**Tərbiyə müəssisələrində məhkumlara tətbiq edilən həvəsləndirmə tədbirləri:**

- təşəkkür elan etmək;
- hədiyyə ilə mükafatlandırmaq;
- dörd manatadək miqdarda pulla mükafatlandırmaq;
- əlavə sovqat, bağlama və ya banderol almağa icazə vermək;
- əlavə telefon danışığına icazə vermək;
- əlavə qısa müddətli və uzun müddətli görüşə icazə vermək;
- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün on beş manatadək miqdarda əlavə pul xərcləməyə icazə vermək;
- verilmiş tənbehi vaxtından əvvəl götürmək;
- saxlanılma şəraitini yaxşılaşdırmaq;
- tərbiyə müəssisəsi nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə tamaşa etmək.

**Sxem №17.5. Tərbiyə müəssisələrində məhkumlara tətbiq edilən tənbeh tədbirləri**



**Sxem №17.6. Tərbiyə müəssisələrində intizam təcrid-xanasına keçirilmiş məhkumlar üçün qadağanlar**



# Mövzu 18. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin məsuliyyəti

## Sxem №18.1. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin məsuliyyəti



**Sxem №18.2. Cəza çəkmə dövründə məhkumların vurduqları ziyana görə maddi məsuliyyətə cəlb edilməsi qaydaları**



## Sxem №18.3. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin maddi məsuliyyətinin növləri

**Məhkumların maddi məsuliyyətinin növləri:**

**məhkumların tam maddi məsuliyyəti**

- məhkum əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik hüquqmüəyyənedici sənədlər əsasında işəgötürənə, yaxud onun nümayəndəsinə hesabat vermək şərti ilə qəbul etdikdə;
- əmlakı və digər sərvətləri qəsdən korladıqda, məhv etdikdə, habelə müdiriyyətə digər üsulla qəsdən ziyan vurduqda;
- alkoqol, toksik (zəhərli) və ya narkotik maddələrdən istifadə etməklə sərxoş vəziyyətdə ziyan vurduqda;
- müdiriyyətin kommersiya sirrini yaydıqda;
- müdiriyyətin şəxsiyyətini ləkələyən, şərəf və ləyaqətini alçaldan, habelə həqiqətə uyğun olmayan böhtanlı və təhqirli iftiralar, yalan məlumatlar yaymaqla onun sahibkarlıq fəaliyyətinə ciddi xələl gətirmiş mənəvi ziyan vurduqda.

**məhkumların qismən maddi məsuliyyəti**

vurulmuş ziyana görə tam maddi məsuliyyət nəzərdə tutulmuş hallardan başqa digər bütün hallarda məhkum müdiriyyətə vurduğu ziyana görə bir aylıq orta əmək haqqı məbləğində maddi məsuliyyət daşıyır

**Sxem №18.4. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin maddi məsuliyyətinin əsasları**



# Mövzu 19. Hərbi qulluqçulara tətbiq edilən cəzaların icrası

## Sxem №19.1. Hərbi qulluqçulara tətbiq edilən cəzaların növləri



**Sxem №19.2. Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın məzmunu**



## Sxem №19.3. İntizam xarakterli hərbi hissədə saxlama növündə cəzanın icrası şərtləri

**İNTİZAM XARAKTERLİ HƏRBİ HİSSƏDƏ MƏHKUMLAR:**

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda doqquz manatadək miqdarda pul xərcləyə bilərlər;
- ayda iki qısa müddətli görüş və ildə dörd uzun müddətli görüş almaq hüququna malikdirlər;
- ayda bir bağlama, sovqat və ya banderol, habelə görüşlər zamanı əlavə olaraq sovqat almaq hüququna malikdirlər;
- məhdudiyyətsiz sayda məktub, teleqram almaq və göndərmək hüququna malikdirlər;
- pul baratları almaq hüququna malikdirlər;
- ayda iki dəfə telefon danışığı hüququna malikdirlər;
- CİM-in 89.1-ci maddəsində nəzərdə tutulmuş qaydada hərbi hissənin hüdudlarından kənara qısa müddətli səfər etmək imkanına malikdirlər.

**Qeyd.** Məhkumun xahişinə əsasən qısa və ya uzun müddətli görüş telefon danışığı ilə əvəz edilə bilər.

**Sxem №19.4. İntizam xarakterli hərbi hissədə məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri**

**HƏVƏSLƏNDİRMƏ TƏDBİRLƏRİ:**

Məhkumlara nümunəvi davranışa, əməyə və hərbi xidmətə vicdanlı yanaşmağa, ictimai şuranın işində fəal iştiraka görə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq edilir:

- təşəkkür elan etmək;
- hədiyyə və ya dörd manatadək miqdarda pulla mükafatlandırmaq;
- qısa müddətli və ya uzun müddətli əlavə görüş vermək;
- verilmiş tənbehi vaxtından əvvəl götürmək.

**TƏNBEH TƏDBİRLƏRİ:**

**Cəzanın icrası qaydalarını pozan məhkumlara aşağıdakı tənbeh tədbirləri tətbiq edilir:**

- məzəmmət;
- töhmət;
- şiddətli töhmət;
- on günədək müddətə hauptvaxtda saxlamaq.

## Mövzu 20. Cəza çəkməkdən azad etmə, cəza çəkməkdən azad edilmiş şəxslərə yardım göstərilməsi və onların sosial adaptasiyası

### Sxem №20.1. Cəza çəkməkdən azad etmənin növləri



## Sxem №20.2. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin əsasları



**Sxem №20.3. Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinin xüsusiyyətləri**



**Sxem №20.4. Sosial adaptasiyanın anlayışı**

**SOSİAL ADAPTASİYANIN ANLAYIŞI:**

**Sosial adaptasiya -** cəza çəkmiş şəxslərin sosial mühitə uyğunlaşması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, azad olunmuşlar tərəfindən törədilə biləçək yeni hüquq pozuntularının, xüsusilə cinayətlərin və bu şəxslərə təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemidir.

**Sxem №20.5. Sosial adaptasiyanın zəruriliyini şərtləndirən amillər**



**Sxem №20.6. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasını çətinləşdirən amillər**



**Sxem №20.7. Sosial adaptasiyanı həyata keçirən orqanlar**

**SOSİAL ADAPTASİYANI HƏYATA KEÇİRƏN DÖVLƏT ORQANLARI:**

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (əsas orqan)**

- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi;
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi.

### Sxem №20.8. Sosial adaptasiya tədbirləri

**SOSİAL ADAPTASİYA TƏDBİRLƏRİ:**

- cəza çəkməkdən azad edilmiş şəxslərin qeydiyyata alınması, onlarla hazırlıq işlərinin aparılması;
- daimi yaşayış sahəsi olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi;
- cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə təmin edilməsi, tibbi və sosial yardım göstərilməsi;
- ümumi təhsil, peşə təsili, texniki-peşə təhsili almağa şərait yaradılması;
- şəxsiyyəti təsdiq edən və digər zəruri sənədlərlə təmin edilmə;
- birdəfəlik pul müavinətinin verilməsi;
- hüquqi, psixoloji və informasiya yardımı göstərilməsi və s.

# Mövzu 21. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslərə nəzarət

## Sxem №21.1. Şərti məhkum edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən orqanlar

**Şərti məhkum edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən orqanlar:**

**məhkumun yaşayış yeri üzrə icra məmuru**

**hərbi hissə və ya müəssisələrin komandanlığı**

- ❖ məhkumların qeydiyyatını aparır;
- ❖ sınaq müddəti ərzində məhkumların davranışına nəzarət edir;
- ❖ məhkumun hərbi qulluğa çağırışı zamanı məhkəmə hökmlərinin surətini müvafiq hərbi komissarlığa göndərir;
- ❖ məhkumun yaşayış yeri dəyişdikdə nəzarət işini aidiyyəti üzrə əraziyə göndərir;
- ❖ məhkumlarla söhbətlər aparır, onların ərizə və şikayətlərini qəbul edir və cavab verir.

- ❖ məhkumları qeydiyyata götürür;
- ❖ sınaq müddətində məhkumun müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılması ilə əlaqədar, onun nəzarət işini daimi yaşayış üçün getdiyi yerin icra məmuruna göndərir.

## Sxem №21.2. Şərti məhkum edilmiş şəxslərin vəzifələri

**ŞƏRTİ MƏHKUM EDİLMİŞ ŞƏXSLƏRİN VƏZİFƏLƏRİ:**

- icra məmurunun çağırışı ilə gəlməlidirlər;
- məhkəmə tərəfindən üzərlərinə qoyulmuş vəzifələri yerinə yetirməlidirlər;
- məhkum üzərində nəzarəti həyata keçirən orqana məlumat vermədən daimi yaşayış yerini, təhsil yerini, iş yerini dəyişməməlidirlər;
- alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçməlidirlər;
- müəyyən yerlərə getməməlidirlər;
- ailələrinə maddi yardım göstərməlidirlər;
- elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsini yerinə yetirməlidirlər;
- digər vəzifələri yerinə yetirməlidirlər.

**Qeyd:** Üzrsüz səbəbdən gəlməyən məhkumlar icra məmurunun təqdimatı əsasında məhkəmənin qərarı ilə məcburi qaydada gətirilə bilərlər.

**Sxem №21.3.1. Şərti məhkum edilmiş şəxslərin məsuliyyəti**

**ŞƏRTİ MƏHKUM EDİLMİŞ ŞƏXSLƏRİN MƏSULİYYƏTİ:**

şərti məhkum edilmiş şəxs üzərinə qoyulmuş vəzifələrn yerinə yetirilməsindən boyun qaçır-dıqda, elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə və ya ictimai qaydaları pozduqda

icra məmuru və ya hərbi hissənin komandiri (rəisi) sınaq müddətinin uzadılması barədə məhkəməyə təqdimat verir

**Sxem №21.3.2. Şərti məhkum edilmiş şəxslərin məsuliyyəti**

**ŞƏRTİ MƏHKUM EDİLMİŞ ŞƏXSLƏRİN MƏSULİYYƏTİ:**

şərti məhkum edilmiş şəxs onun üzərinə qoyulmuş vəzifələri icra etmədikdə və ya digər əsaslar olduqda

icra məmuru məhkumun üzərinə onun islah olunmasına kömək edən yeni vəzifələrin qoyulması barədə məhkəməyə təqdimat verə bilər

## Sxem №21.3.3. Şərti məhkum edilmiş şəxslərin məsuliyyəti

**ŞƏRTİ MƏHKUM EDİLMİŞ ŞƏXSLƏRİN MƏSULİYYƏTİ:**

şərti məhkum edilmiş şəxs sınaq müddəti ərzində onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda

icra məmuru və ya hərbi hissənin komandiri (rəisi) şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra olunması barədə məhkəməyə təqdimat verir

**Qeyd:** **1.** Məhkum tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində dəfələrlə yerinə yetirilməməsi sınaq müddəti ərzində vəzifələrin mütəmadi yerinə yetirilməməsi sayılır.

**2.** Otuz gündən artıq müddətdə olduğu yer müəyyən edilməyən məhkum ona həvalə edilmiş vəzifələri yerinə yetirməkdən qərəzli boyun qaçırmış sayılır.

**Sxem №21.4. 1. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətini həyata keçirən icra məmurunun vəzifələri**

**Məhkumlar üzərində probasiya nəzarətini həyata keçirən icra məmurunun vəzifələrinə aiddir:**

- məhkumlara şəxsi iş açmaq;
- onların qeydiyyatını aparmaq;
- məhkumlara qanunla və məhkəmənin hökmü (qərarı) ilə onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinin qayda və şərtlərini izah etmək;
- onlar barəsində tərtib edilmiş uçot sənədlərini üç iş günü ərzində Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə göndərmək;
- "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq hərbi vəzifəlilərə və ya çağırışçılara şərti məhkum etmənin təyin edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilməsi və ya onların cəzasının çəkilməsinin təxirə salınması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) surətini aldıqdan yeddi gün müddətində həmin hökm (qərar) barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə məlumat vermək;

**Sxem №21.4. 2. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətini həyata keçirən icra məmurunun vəzifələri**

**Məhkumlar üzərində probasiya nəzarətini həyata keçirən icra məmurunun vəzifələrinə aiddir:**

- ❖ məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron nəzarət vasitələrini tətbiq etmək və bu şəxslər tərəfindən həmin vasitələrdən istifadə qaydalarına riayət edilməsinə nəzarət etmək;
- ❖ məhkumların Azərbaycan Respublikasının CİM-i ilə müəyyən edilmiş qaydalara və şərtlərə riayət etməsinə nəzarət edir;
- ❖ üzərinə Azərbaycan Respublikasının CM-də nəzərdə tutulmuş vəzifələr qoyulmaqla şərti məhkum edilmiş, yaxud da cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasını təmin edir;
- ❖ məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirir;
- ❖ olduqları yer müəyyən edilməyən məhkumların axtarışını təşkil edir;
- ❖ məhkumlar üzərində probasiya nəzarətinin həyata keçirilməsindən irəli gələn digər vəzifələri yerinə yetirir.

**Sxem №21.5.1. Şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə icra məmurunun nəzarəti**

**İcra məmuru nəzarəti həyata keçirərkən:**

- üzərinə məlumat vermədən təhsil və iş yerini dəyişməməklə bağlı vəzifə qoyulmuş şəxsin təhsil aldığı müəssisənin müdiriyyətini və işəgötürəni məhkəmənin hökmü (qərarı) barədə məlumatlandırır, onlardan şəxsin təhsil və iş yerini dəyişməsi ilə bağlı icra məmurunu dərhal məlumatlandırmağı xahiş edir;
- üzərinə alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçməklə bağlı vəzifə qoyulmuş şəxsin müalicəsinin həyata keçirildiyi müvafiq tibb müəssisəsinin müdiriyyətini məhkəmənin hökmü (qərarı) barədə məlumatlandırır, həmin məhkumun müalicəyə cəlb olunmasını təşkil edir, bu şəxsin müalicəsinin başa çatması, müalicədən yayınması və ya imtina etməsi ilə əlaqədar ona dərhal məlumat verməyi xahiş edir;

**Sxem №21.5.2. Şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə icra məmurunun nəzarəti**

**İcra məmuru nəzarəti həyata keçirərkən:**

- üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməklə bağlı vəzifələr qoyulmuş şəxsin hərəkətləri barədə məlumat almaq məqsədilə Probasiya xidmətinin Elektron Monitorinq İdarəsi ilə əlaqə saxlayır;
- üzərinə ailəsinə maddi yardım göstərmək vəzifəsi qoyulmuş şəxsin ailə üzvləri ilə ayda iki dəfədən az olmayaraq əlaqə saxlayır və ya həmin ailələrə başçəkmə həyata keçirir;
- üzərinə məlumat vermədən daimi yaşayış yerini dəyişməmək, müəyyən yerlərə getməmək vəzifələri qoyulmuş şəxsi ayda iki dəfədən az olmayaraq onun yaşayış yerinə başçəkmə, habelə telefon əlaqəsi saxlanılmaqla yoxlayır.

**Sxem №21.6. Cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti həyata keçirən icra məmurunun vəzifələri**

**İcra məmuru cəzasının çəkilməsi təxirə salınmış şəxslərə nəzarəti həyata keçirərkən:**

- uşağı tərbiyə etməkdən boyun qaçırma və ya uşaqdan imtina etmə hallarını müəyyən etmək məqsədilə ayda bir dəfədən az olmayaraq şəxsin yaşayış yerinə başçəkmə həyata keçirir və nəticələrini başçəkmələrlə bağlı mübafiq cədvəldə qeydlər edir;
- şəxs uşağı tərbiyə etməkdən boyun qaçırdıqda və ya uşaqdan imtina etdikdə, onun qohumları və habelə məhkuma müsbət təsir göstərə bilən şəxslərlə profilaktik söhbətlər aparır;
- şəxs işə girdikdə iş yeri üzrə işəgötürənə onun barəsində məlumat göndərir.

**Sxem №21.7. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarətin dayandırılması və onların qeydiyyatdan çıxarılması**

**Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarətin dayandırılması və onların qeydiyyatdan çıxarılması əsasları:**

- ❖ şərti məhkum edilmiş şəxs barəsində təyin edilmiş sınaq müddəti və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxsin cəzasının çəkilməmiş hissəsi başa çatdıqda;
- ❖ cəzasının çəkilməsi təxirə salınmış şəxs cəzadan azad edildikdə, cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə və ya cəzaçəkmə müəssisəsinə göndərildikdə;
- ❖ şərti məhkum etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməsinin təxirə salınması ləğv edildikdə və məhkum ona məhkəmənin hökmü (qərarı) ilə təyin olunmuş cəzanı (cəzanın çəkilməmiş hissəsini) çəkməyə göndərildikdə;
- ❖ məhkum barəsində amnistiya aktı tətbiq edildikdə;
- ❖ məhkum əfv edildikdə;
- ❖ məhkəmənin hökmü (qərarı) ləğv edildikdə;
- ❖ məhkum yeni cinayət törətdiyinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edildikdə;
- ❖ məhkum bəraət aldıqda;
- ❖ məhkum öldükdə və ya məhkəmə tərəfindən ölmüş elan edildikdə.

## Mövzu 22. Xüsusi müsadirənin və hüquqi şəxslər barədə tətbiq edilən digər cinayət-hüquqi tədbirlərin icrası

### Sxem №22.1. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası

**Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

↓

Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, qərarın icrası barədə göstərişi və əmlakın siyahısının surətini icra məmuruna göndərir və bu barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verir

↓

Xüsusi müsadirə növündə digər cinayət-hüquqi tədbirin icrasını həyata keçirən icra məmuru:

- ❖ əmlak siyahısında göstərilən əmlakın mövcudluğunu yoxlayır;
- ❖ müsadirə edilən əmlakı plomblayır və ya möhürləyir və bu barədə tərtib edilmiş müvafiq siyahıda qeydlər aparır;
- ❖ müsadirə edilən əmlakın saxlanılması üçün tədbirlər görür;
- ❖ xüsusi müsadirə icra edildikdən sonra barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən fiziki və ya hüquqi şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir;
- ❖ xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"na uyğun olaraq təmin edir.

**Sxem №22.2. Hüquqi şəxslər barədə cinayət-hüquqi tədbirləri icra edən orqanlar**

**Hüquqi şəxslər barədə cinayət-hüquqi tədbirlər:**

- ❖ hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbir hüquqi şəxsin olduğu yerin icra məmuru tərəfindən icra edilir;
- ❖ hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğv-etmə növündə cinayət-hüquqi tədbirlər müvafiq olaraq Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dini Qurumlarla İş uzrə Dövlət Komitəsi tərəfindən icra edilir.

**Sxem №22.3. Hüquqi şəxslərə təyin edilən cərimə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

**Cərimə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

↓

hüquqi şəxslərə təyin edilən cərimə növündə cinayət-hüquqi tədbirin icrası Azərbaycan Respublikası CİM-in 23-27-ci maddələrinə uyğun olaraq həyata keçirilir.

**Sxem №22.4. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

**Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

- ❖ hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, icra məmuru məhkəmə qərarının surətini 3 (üç) gün müddətində lisenziya (icazə) verən orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən 3 (üç) gün müddətində lisenziyanı (icazəni) ləğv edir və bu barədə icra məmuruna məlumat verir;
- ❖ hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, icra məmuru 3 (üç) gün müdətində məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin 10 (on) gün ərzində daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Müvafiq icra hakimiyyəti orqanı* tərəfindən müvafiq dəyişiklik dövlət qeydiyyatına alındıqdan sonra 2 (iki) gün müddətində icra məmuruna məlumat verilir.

**Qeyd:** Burada **“**müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

**Sxem №22.5. Hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

**Hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

Hüquqi şəxsi ləğv etmə haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə, ləğvediciyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur.

Həmin qərar qanuni qüvvəyə mindikdən dərhal sonra onun surəti icra edilməsi üçün müvafiq olaraq Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dini Qurumlarla İş uzrə Dövlət Komitəsinə, habelə cinayət-hüquqi tədbirin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir. Hüquqi şəxsin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra müvafiq dövlət orqanı üç gün müddətində bu barədə yekun qərarı çıxarmış məhkəməyə və icra məmuruna məlumat verir.

## Mövzu 23. Cinayət törətməkdə təqsirləndirilən şəxslərin həbs yerlərində saxlanılması

### Sxem №23.1. Təqsirləndirilən şəxslərin həbsdə saxlama yerləri



**Sxem №23.2. Həbs yerlərinin əsas vəzifələri**

**Həbs yerlərinin əsas vəzifələri:**

- təqsirləndirilən şəxslərin cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısının alınmasının təmin edilməsi
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin yenidən törədilməsinin qarşısının alınması
- təqsirləndirilən şəxslərin hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasının təmin edilməsi
- cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və məhkəmə baxışının gedişinə mane olmanın qarşısının alınması
- işçi heyətin və təqsirləndirilən şəxslərin təhlükəsizliyinin, həbsdə saxlanılma yerlərində ictimai asayişin təmin edilməsi

**Sxem №23.3.1. Həbs yerlərində həbs edilmiş şəxslərin ayrılıqda saxlanması**

**Həbs yerlərində ayrılıqda saxlanılırlar:**

- qadınlar kişilərdən;
- yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatanlardan;
- ilk dəfə cinayət törətmiş şəxslər əvvəllər azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxslərdən;
- Azərbaycan Respublikasının CİM-də nəzərdə tutulmuş hallar istisna olmaqla, tutulmuş və ya həbs edilmiş şübhəli və ya təqsirləndirilən şəxslər, barəsində qanuni qüvvəyə minmiş hökm olan məhkumlardan;
- cinayət prosesini həyata keçirən orqanın göstərişi ilə eyni cinayət işi, yaxud əlaqəli bir neçə cinayət işi üzrə barəsində cinayət təqibi həyata keçirilən tutulmuş və ya həbs edilmiş şəxslər bir-birindən;
- tutulmuş və ya həbs edilmiş məhkəmə və hüquq mühafizə orqanlarının işçiləri və ya həmin orqanların sabiq işçiləri digər tutulmuş və ya həbs edilmiş şəxslərdən;

**Sxem №23.3.2. Həbs yerlərində həbs edilmiş şəxslərin ayrılıqda saxlanması**

**Həbs yerlərində ayrılıqda saxlanılırlar:**

- tutulmuş və ya həbs edilmiş şəxslər onların həyat və ya sağlamlığına təhlükə törədən digər tutulmuş və ya həbs edilmiş şəxslərdən (həbs yerinin müdiriyyətinin və ya cinayət prosesini həyata keçirən orqanın qərarı ilə);
- ağır yoluxucu xəstəliyə düçar olmuş və ya xüsusi tibbi nəzarətə ehtiyacı olan tutulmuş və ya həbs edilmiş şəxslər tibbi rəy əsasında sağlam şəxslərdən, zərurət olduqda isə həm də bir-birindən;
- özü və ətrafdakılar üçün təhlükə törədə biləcək kəskin psixi vəziyyətdə olan tutulmuş və ya həbs edilmiş şəxslər onlar üçün nəzərdə tutulan xüsusi kameralarda təcrid edilməklə digər şəxslərdən.

**Sxem №23.4.1. Həbs yerlərində saxlanılan şəxslərin əsas hüquqları**

**Həbs yerlərində saxlanılan şəxslərin əsas HÜQUQLARI:**

- həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq;
- şəxsi təhlükəsizliyi təmin edilməklə saxlanılmaq;
- həbs yerinə qəbul edildikdən dərhal sonra və həbsdə saxlama zamanı öz hüquq və vəzifələri, Daxili İntizam Qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası ilə yazılı şəkildə onlara aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq;
- işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq;
- həbsdə saxlama zamanı onlara aidiyyəti olan bütün prosessual hərəkətlər barədə məlumatlandırılmaq;
- müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşmək;
- həbs yerində saxlanıldığı müddət ərzində pulsuz yeməklə, maddi-məişət və tibbi-sanitariya xidmətləri ilə təmin olunmaq;

## Sxem №23.4.2. Həbs yerlərində saxlanılan şəxslərin əsas hüquqları

**Həbs yerlərində saxlanılan şəxslərin əsas HÜQUQLARI:**

- ədəbiyyatdan, o cümlədən xüsusi ədəbiyyatdan istifadə etmək, həbs yerinin kitabxanasından istifadə üçün ədəbiyyat, qəzet və jurnal götürmək və ya öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən yazı ləvazimatı, ədəbiyyat, qəzet və ya jurnal əldə etmək;
- dini ayinləri yerinə yetirmək, dini ləvazimatdan və ədəbiyyatdan istifadə etmək;
- bağlama, sovqat və banderol almaq;
- mülki hüquq münasibətlərində iştirak etmək, notariusun xidmətlərindən istifadə etmək;
- etik davranışa uyğun rəftar olunmaq;
- həbs yerinin müdiriyyəti tərəfindən qəbul edilmək;
- hüquqa zidd məqsədlər üçün istifadə edilə bilən və ya dövlət sirrini və qanunla qorunan digər sirləri özündə əks etdirən sənədlər və yazılar istisna olmaqla, cinayət işi ilə tanış olmaq, öz hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsi ilə bağlı olan sənədləri, yaxud əqli fəaliyyətinin nəticəsi olan yazıları və ya onların surətlərini, o cümlədən təklif, ərizə və şikayətlərinə verilən cavabların surətlərini özündə saxlamaq;

**Sxem №23.4.3. Həbs yerlərində saxlanılan şəxslərin əsas hüquqları**

**Həbs yerlərində saxlanılan şəxslərin əsas HÜQUQLARI:**

- ❖ həbsdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı təklif, ərizə və şikayətlərlə müraciət etmək;
- ❖ Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulmuş təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması halları istisna olmaqla, prosessual hərəkətlərin aparılmasına cəlb edilməsinin qadağan olunduğu müddətdə - gecə vaxtı səkkiz saat yatmaq;
- ❖ hər gün iki saatdan az olmayaraq gündəlik gəzintiyə çıxarılmaq;
- ❖ idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq;
- ❖ siyahısı və sayı Daxili İntizam Qaydaları ilə müəyyən edilmiş şəxsi əşyalardan istifadə etmək;
- ❖ öz paltar və ayaqqabısından istifadə etmək, münasib paltarı olmadıqda iqlimə uyğun paltarla təmin olunmaq;
- ❖ öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən ərzaq məhsulları və ən zəruri mallar əldə etmək;
- ❖ qanunvericilikdə nəzərdə tutulmuş qaydada psixoloji yardım almaq;
- ❖ həbs yerinin müdiriyyəti tərəfindən barəsində çıxarılmış qərardan şikayət etmək.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəlikləri və ya konsulluqları ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla təxirə salınmadan əlaqəyə girmək hüququna malikdirlər.

**Sxem №23.5. Həbs yerlərində saxlanılan şəxslərin əsas vəzifələri**

**Həbs yerlərində saxlanılan şəxslərin əsas VƏZİFƏLƏRİ:**

- "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və Daxili İntizam Qaydaları ilə müəyyən edilmiş qaydalara riayət etmək;
- həbs yerinin müdiriyyətinin qanuni tələblərinə əməl etmək;
- sanitariya-gigiyena qaydalarına əməl etmək;
- yanğın təhlükəsizliyi qaydalarına əməl etmək;
- həbs yerinin əmlakına qayğı ilə yanaşmaq;
- saxlandığı kameranı növbəlik qaydasında təmizləmək (süpürmək və yumaq);
- həbs yerinin işçiləri ilə, habelə digər tutulmuş və ya həbs edilmiş şəxslərlə nəzakətlə davranmaq;
- həbs yerinin işçilərinin xidməti vəzifələrinin icrasına mane olmamaq;
- özünün və ya digər şəxslərin həyat və sağlamlığı üçün təhlükə törədən hərəkətlərə yol verməmək.

**Sxem №23.6.1. Həbs yerlərində fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah tətbiq edilmə şərtləri**

**Fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silahın tətbiqi zamanı riayət olunmalı şərtlər:**

- insana qarşı fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquq pozuntusunun ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir;
- qrup halında və ya odlu silah işlətməklə basqın edildiyi, o cümlədən silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, xüsusi vasitələr və ya odlu silah qadınlara, azyaşlılara, yanında azyaşlı uşaqlar olanlara, əlilliyi, yaxud digər fiziki və ya psixi qüsurları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı və ya kənar şəxslərin zərər çəkə biləcəyi yerlərdə tətbiq edilməməlidir;
- xüsusi vasitələr və ya odlu silah yalnız real təhlükənin qarşısı alınarkən tətbiq edilə bilər;

**Sxem №23.6.2. Həbs yerlərində fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silah tətbiq edilmə şərtləri**

**Fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silahın tətbiqi zamanı riayət olunmalı şərtlər:**

- fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır;
- hüquq pozuntusunun xarakterindən və təhlükəlilik dərəcəsindən, eləcə də göstərilən müqavimətin gücündən asılı olaraq, vurulan zərərin minimal olmasına cəhd edilməlidir;
- odlu silah tətbiq edilməzdən əvvəl şifahi xəbərdarlıq edilməli və ya xəbərdarlıq atəşi açılmalıdır (qəfil, yəni birdən-birə gözlənilməz hücum baş verərsə, yaxud hücum üçün odlu silahdan, mexaniki nəqliyyat vasitəsindən və ya təhlükə yaradan yırtıcı, vəhşi və ya başqa heyvandan istifadə olunarsa, xəbərdarlıq etmədən odlu silah tətbiq edilə bilər);
- bədən xəsarəti alan şəxslərə ilkin tibbi yardımın göstərilməsi təmin edilməlidir.

**Sxem №23.7. Həbs yerlərində rezin dəyənəyin tətbiq edildiyi hallar**

**REZİN DƏYƏNƏK TƏTBİQ EDİLİR:**

- həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;
- kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;
- həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;
- girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;
- tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;
- tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**Sxem №23.8. Həbs yerlərində əl qandallarının tətbiq edildiyi hallar**

**ƏL QANDALLARI TƏTBİQ EDİLİR:**

- həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;
- tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;
- tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**Sxem №23.9. Həbs yerlərində yayındırıcı təsir göstərən işıq-səs vasitələrinin tətbiq edildiyi hallar**

**Yayındırıcı təsir göstərən işıq-səs vasitələri tətbiq EDİLİR:**

- ❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;
- ❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;
- ❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;
- ❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;
- ❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**Sxem №23.10. Həbs yerlərində maneədağıdan vasitələrin tətbiq edildiyi hallar**

**Maneədağıdan vasitələr**
**TƏTBİQ EDİLİR:**

- girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün

**Sxem №23.11. Həbs yerlərində suvuranlar və zirehli maşınların tətbiq edildiyi hallar**

**Suvuranlar və zirehli maşınlar**
**TƏTBİQ EDİLİR:**

- ❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;
- ❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün.

**Sxem №23.12. Həbs yerlərində xidməti itlərdən istifadə edildiyi hallar**

**Xidməti itlərdən istifadə EDİLİR:**

- ❖ həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;
- ❖ kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;
- ❖ həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;
- ❖ girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;
- ❖ tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;
- ❖ tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**Sxem №23.13. Həbs yerlərində gözyaşardıcı qazların tətbiq edildiyi hallar**

**Gözyaşardıcı qazlar tətbiq EDİLİR:**

- həbs yerinin işçilərinə və ya digər şəxslərə tutulmuş və ya həbs edilmiş şəxslər tərəfindən edilən hücumları dəf etmək üçün;
- kütləvi iğtişaşların və ya həbs yerində saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını almaq üçün;
- həbs yerinin işçilərinin və ya həbs yerində rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən tutulmuş və ya həbs edilmiş şəxslərin qanunsuz hərəkətlərinin qarşısını almaq üçün;
- girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad etmək üçün;
- tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerindən qaçması cəhdinin qarşısını almaq üçün;
- tutulmuş və ya həbs edilmiş şəxsin özünə və ətrafdakılara zərər yetirmək cəhdinin qarşısını almaq üçün.

**Sxem №23.14.1. Həbs yerlərində odlu silahın tətbiq edildiyi hallar**

**Odlu silah tətbiq EDİLİR:**

- həbs yerinin işçilərini, tutulmuş və ya həbs edilmiş şəxsləri və ya digər şəxsləri onların həyatına və sağlamlığına təhlükə yaradan basqından müdafiə etmək üçün;
- həyatına və sağlamlığına təhlükə yarandıqda və bu təhlükənin başqa vasitələrlə aradan qaldırılması mümkün olmadıqda, girov saxlanılan şəxsləri azad etmək üçün;
- həbs yerinin binalarına, qurğularına və ya nəqliyyat vasitələrinə edilən silahlı hücumları dəf etmək üçün;
- silahlı müqavimət göstərən, silahın təhvil verilməsi haqqında qanuni tələbi yerinə yetirməkdən imtina edərək həbs yerinin işçilərinin, tutulmuş və ya həbs edilmiş şəxslərin və ya digər şəxslərin həyatına və sağlamlığına təhlükə yaradan silahlı şəxsin tutulub saxlanılması üçün;

**Sxem №23.14.2. Həbs yerlərində odlu silahın tətbiq edildiyi hallar**

**Odlu silah tətbiq EDİLİR:**

- ❖ tutulmuş və ya həbs edilmiş şəxsin həbs yerindən və ya müşayiət zamanı qaçmasının qarşısının başqa vasitələrlə alınması mümkün olmadıqda, bu qaçışın qarşısının alınması üçün;
- ❖ həbs yerinin işçilərinin, tutulmuş və ya həbs edilmiş şəxslərin və ya digər şəxslərin həyat və sağlamlığı üçün təhlükə törədən heyvanların zərərsizləşdirilməsi üçün;
- ❖ tutulmuş, həbs edilmiş və ya digər şəxslər tərəfindən odlu silahın ələ keçirilməsinin qarşısını almaq üçün;
- ❖ odlu silah tətbiq etmək niyyəti haqqında xəbərdarlıq edilməsi, həyəcan siqnalı verilməsi və ya kömək çağırılması üçün.

**Qeyd:** Həbs yerlərində odlu silah müstəsna tədbir kimi zəruri müdafiə və ya son zərurət vəziyyətində real təhlükənin qarşısı alınarkən tətbiq edilə bilər.

**Sxem №23.15. Cinayət prosesini həyata keçirən orqanın qərarı olmadan həbs yerlərindən azad etmənin əsasları**

**Həbs edilmiş şəxslər cinayət prosesini həyata keçirən orqanın qərarı olmadan azad edilirlər:**

- həbs qətimkan tədbirinin məhkəmə qərarında müəyyən edilmiş müddəti başa çatdıqda və bu müddət uzadılmadıqda;
- tutma və ya həbsdə saxlamanın Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulan son müddəti başa çatdıqda;
- cinayət prosesini həyata keçirən orqandan şəxsin həbsdən azad edilməsi üçün məhkəmənin təyin etdiyi girovun verilməsi barədə məlumat daxil olduqda.

# Mövzu 24. Cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin statusu

## Sxem №24.1. Cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin statusu (hüquqi vəziyyəti)

**İŞÇİ HEYƏTİN STATUSU (HÜQUQİ VƏZİYYƏTİ):**

**cəza-icra sisteminin xüsusi rütbəli işçi heyətinin statusu**

- Cəzaların İcrası Məcəlləsi;
- Cinayət-Prosessual Məcəllə;
- "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun;
- Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları;
- İstintaq təcridxanalarının Daxili İntizam Qaydaları və s.

**cəza-icra siste-minin, Peniten-siar xidmətin qulluqçu və digər işçilərinin statusu**

- "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun;
- Əmək Məcəlləsi;
- Cəzaların İcrası Məcəlləsi;
- Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları;
- İstintaq təcridxanalarının Daxili İntizam Qaydaları və s.

**icra məmurlarının statusu**

- Cəzaların İcrası Məcəlləsi;
- Əmək Məcəlləsi;
- "İcra məmurları haqqında" Qanun;
- "İcra haqqında" Qanun və s.

**Sxem №24.2. Cəza-icra sistemində işçi heyətinə dair tələblər**



**Sxem №24.3. Cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin təhlükəsizliyinin təmin olunması**

**İşçi heyətinin təhlükəsizliyinin təmin olunmasının əsas vasitələri:**

**cinayət-hüquqi xarakterli tədbirlər:**

- bilavasitə işçi heyətin təhlükəsizliyinə zərər vurmağa yönəlmiş hərəkətlərə görə cinayət məsuliyyəti müəyyən edən normalar;
- şəxsiyyətin həyatı, sağlamlığı və ləyaqəti əleyhinə cinayətlərə görə məsuliyyət müəyyən edən normalar;
- hüquq-mühafizə və nəzarət orqanlarının vəzifəli şəxsləri barəsində zorakı hərəkətlərə görə məsuliyyət müəyyən edən normalar.

**cəza-icra xarakterli tədbirlər:**

- məhkumlara göstərilən tərbiyəvi təsir tədbirləri;
- məhkumlara tətbiq edilən tənbeh tədbirləri;
- təhlükəsizlik tədbirləri;
- texniki-nəzarət vasitələrinin tətbiqi;
- profilaktik tədbirlər;
- digər tədbirlər.

# Mövzu 25. Xarici ölkələrdə cəzaların icrasının və penitensiar sistemin xüsusiyyətləri

## Sxem №25.1. Xarici ölkələrdə azadlıqdan məhrum etmə cəzasının icrasının xüsusiyyətləri



**Sxem №25.2. Xarici ölkələrdə cəzaların icrasının əsas problemləri**

**Xarici ölkələrdə cəzaların icrasının əsas problemləri:**

- azadlıqdan məhrum etmə cəzasına alternativ cəzaların, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrasının səmərəliliyinin artırılması;
- azadlıqdan məhrum edilmiş və islah olunmağa meylli məhkumların cəzalarının icrasının daha səmərəli təşkili;
- cinayətlərin residivinə görə məhkum olunmuş, habelə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, lakin islah olunmağa meylli olmayan şəxslərin cəzalarının icrasının daha səmərəli təşkili üsullarının işlənib hazırlanması;
- azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin sayının azaldılması;
- məhkumların hüquq və azadlıqlarının, qanuni mənafelərinin tamlıqla təmin edilməsi;
- penitensiar müəssisələrin işçi heyətinin sosial-hüquqi müdafiəsi, onların fəaliyyət nüfuzunun qaldırılması.

# Mövzu 26. Məhkumlarla rəftara həsr olunmuş beynəlxalq aktlar

## Sxem №26.1. Beynəlxalq penitensiar əməkdaşlıq sahəsində əsas vəzifələr



## Sxem №26.2. Beynəlxalq penitensiar əməkdaşlığın inkişaf tarixi

**Beynəlxalq penitensiar əməkdaşlığın inkişaf tarixi:**

**I mərhələ həbsxana konqresləri**

1. **1846 – Frankfurt**
2. **1847 – Brüssel**
3. **1857 – Frankfurt**

**II mərhələ həbsxana konqresləri**

1. **1872 – London**
2. **1878 – Stokholm**
3. **1885 – Roma**
4. **1890 – Peterburq**
5. **1895 – Paris**
6. **1900 – Brüssel**
7. **1905 – Budapeşt**
8. **1910 – Vaşinqton**
9. **1925 – London**
10. **1930 – Praqa**
11. **1936 – Berlin**
12. **1950 – Haaqa**

**III mərhələ həbsxana konqresləri**

1. **1955 – Cenevrə**
2. **1960 – London**
3. **1965 – Stokholm**
4. **1970 – Kioto**
5. **1975 – Cenevrə**
6. **1980 – Karakas**
7. **1985 – Milan**
8. **1990 – Havana**
9. **1995 – Qahirə**
10. **2000 – Vyana**
11. **2005 – Banqkok**
12. **2010 – Salvador**
13. **2015 – Doha**
14. **2021 – Kioto**

## Sxem №26.3. Məhkumlarla davranışa dair beynəlxalq aktlar

**Məhkumlarla davranışa dair beynəlxalq aktları:**

- Hüquq-mühafizə orqanları əməkdaşlarının davranış məcəlləsi (BMT, 1979);
- İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə Konvensiya (BMT, 1984);
- Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalar ("Pekin qaydaları", BMT, 1985);
- Hər hansı formada saxlamağa, yaxud həbsə məruz qalmış bütün şəxslərin müdafiəsi üzrə əsas prinsiplər məcmusu (BMT, 1988);
- Məhbuslarla davranışın əsas prinsipləri (BMT, 1990);
- Məhbuslarla minimal standart davranış qaydaları (Nelson Mandela qaydaları, BMT, 2015);
- İşgəncələrin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə Avropa Konvensiyası (Avropa Şurası, 1987);
- Avropa Penitensiar Qaydaları (Avropa Şurası, 2006) və s.

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏZA-İCRA HÜQUQU FƏNNİ ÜZRƏ TÖVSİYƏ EDİLƏN NORMATİV HÜQUQİ, BEYNƏLXALQ AKTLAR VƏ ƏDƏBİYYAT

## I. Normativ hüquqi aktlar və beynəlxalq aktlar


**1.** Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2022.

**2.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2022.

**3.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, 2022.

**4.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. Bakı, 2022.

**5.** Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 2022.

**6.** ‘‘İcra haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**7.** ‘‘İcra məmurları haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2021.

**8.** ‘‘Əməliyyat-axtarış fəaliyyəti haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**9.** ‘‘Prokurorluq haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**10.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, 2020.

**11.** ‘‘Vətəndaşların müraciətləri haqqında’’Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**12.** ‘‘Xidməti və mülki silah haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**13.** “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında’’ Azərbaycan Respublikasının Qanunu. Bakı, 2020.

**14.** “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Azərbaycan Respublikasının Qanunvercilik Toplusu, 2002, № 3, maddə 115.

**15.** “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı. Azərbaycan Respublikasının Qanunvercilik Toplusu, 2017, № 2, maddə 23.

**16.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə. Azərbaycan Respublikasının Qanunvercilik Toplusu, 2006, № 4, maddə 323.

**17.** Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı qanunvericilik və aidiyyəti sənədlər. Bakı, Ədliyyə Nazirlliyi, 2014.

**18.** Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikasının Qanunvercilik Toplusu, 2009, №2, maddə 90.

**19.** Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikasının Qanunvercilik Toplusu, 2019, № 6, maddə 1044.

**20.** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları toplusu. Bakı, 2020.

**21.** Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarları. www.constcourt.qov.az.

**22.** Azərbaycan Respublikası ədliyyə orqanlarının fəaliyyətini tənzimləyən əsas normativ hüquqi aktlar. Bakı, 2006.

**23.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında Əsasnamə. www.penitensiar.justise.gov.az.

**24.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti haqqında Əsasnamə. www.justise.gov.az.

**25.** Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları. Azərbaycan Respublikasının Normativ Aktlarının Bülleteni. 2011, №1, səh.3-114.

**26.** Avropa Penitensiar Qaydaları (mətn və şərhlər). Bakı, 2007.

## II. Dərsliklər, monoqrafiyalar, toplular və şərhlər

**1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. /F.Y.Səməndərovun redaktəsi ilə. Bakı, 2019.

**2.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin elmi-praktiki kommentariyası. Bakı, 2012.

**3.** Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi (Penitensiar xidmət əməkdaşları üçün əsas normativ və beynəlxalq aktlar toplusu). Bakı, 2012.

**4.** Cəza-icra hüququ. Şərhlər və sxemlər. Bakı, 2003.

**5.** Cəza-icra hüququ. Şərhlər və sxemlər. Bakı, 2004.

**6.** Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, 2007.

**7.** Azərbaycan Respublikasının Cəza-icra hüququ. Bakı, 2016.

**8.** F.Y.Səməndərov. Cinayət hüququ (Cinayət və cəza məsələləri). Bakı, 1994.

**9.** F.Y.Səməndərov. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Bakı, 2009.

**10.** F.Y.Səməndərov. Cinayət hüququ (Ümumi hissə). Dərslik, Bakı, 2019.

**11.** İ.B.Ağayev. Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə. Bakı, 2011.

**12.** İ.B.Ağayev. Azərbaycan Respublikasının cəza-icra hüququ. Xüsusi hissə. Bakı, 2011.

**13.** S.N.Rzayeva. Azərbaycan Respublikasının cinayət hüququnda amnistiya və əvfetmə məsələləri. Bakı, 2011.

**14.** C.Quliyev, M.Hümbətov, N.Mustafayev. Azərbaycan Respublikasının Cəza-icra hüququ (anlayışlar, qısa şərhlər və sxemlər). Bakı, 2012.

**15.** İ.M.Rəhimov. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014.

**16.** İ.M.Rəhimov. Cinayətkarlıq və cəza. Bakı, 2015.

**17.** İ.M.Rəhimov. Cəzanın əxlaqiliyi haqqında. Bakı, 2016.

**18.** İ.M.Rəhimov. Ölməz ölüm cəzası. Bakı, 2018.

**19.** İ.M.Rəhimov. Din və cəza. Bakı, 2021.

**20.** M.H.Hümbətov. Cəza və onun icrası. Bakı, 1999.

**21.** M.H.Hümbətov. Məhkumun məlumat kitabı. Bakı, 2003.

**22.** M.H.Hümbətov, N.İ.Mustafayev. Azərbaycan Respublikasında məhkumların hüquqi vəziyyəti. Bakı, 2010.

**23.** M.H.Hümbətov. Cinayət cəzaları, onların icrası və problemləri. Bakı, 2021.

**24.** N.İ.Mustafayev. Məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərləri. Bakı, 2010.

**25.** A.Ə.Cəfərov. Əlavə cəzalar: nəzəri və təcrübi problemləri. Bakı, 2009.

**26.** Standartları işləməyə necə məcbur etməli. Beynəlxalq həbsxana qaydalarının səmərəli tətbiqi üzrə dərslik. Bakı, 2003.

**27.** İnsan hüquqları, Beynəlxalq müqavilələr toplusu. BMT, Bakı, 1998.

# M Ü N D Ə R İ C A T

**Giriş** ........................................................................................ **3**

**Mövzu 1.** Cəza-icra siyasəti, cəza-icra hüququnun anlayışı, predmeti, prinsipləri və metodu. Cəza-icra hüquq elmi...... **7**

**Mövzu 2.** Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi, onun məqsəd və vəzifələri ...................... **20**

**Mövzu 3.** Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin inkişaf tarixi ........................................ **31**

**Mövzu 4.** Cəzaların icrası və çəkilməsi anlayışı və əsasları. Məhkumların islah edilmə vasitələri ................................ **36**

**Mövzu 5.** Məhkumların xarakteristikası və onların hüquqi vəziyyəti (statusu)............................................................ **41**

**Mövzu 6.** Cəzaları icra edən müəssisə və orqanlar, onların qarşısında duran vəzifələr ................................................ **50**

**Mövzu 7.** Cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarət ....................................................................... **65**

**Mövzu 8.** Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların və əlavə cəzaların icrası ...................... **80**

**Mövzu 9.** Azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslərin təsnifi və onların cəzaçəkmə müəssisələrinə bölüşdürülməsi, cəzanın çəkilməsi yeri . **130**

**Mövzu 10.** Cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təşkilati əsasları.................................................................... **139**

**Mövzu 11.** Cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası (cəzaçəkmə rejimi) ........................... **150**

**Mövzu 12.** Cəzaçəkmə müəssisələrində məhkumlarla tərbiyə işi, onların ümumi təhsili .................................................... **173**

**Mövzu 13.** Cəzaçəkmə müəssisələrində məhkumların əməyi, peşə təhsili və peşə hazırlığı........................................... **190**

**Mövzu 14.** Cəzaçəkmə müəssisələrində məhkumların maddi-məişət və tibbi-sanitariya təminatları.................. **200**

**Mövzu 15.** Müxtəlif növlü cəzaçəkmə müəssisələrində cəzanın icrası və çəkilməsi qaydası və şərtləri ............................ **211**
**Mövzu 16**. Həbsxanalarda azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qaydası və şərtləri .......... **219**
**Mövzu 17.** Tərbiyə müəssisələrində azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsinin qaydası və şərtləri .................................................................... **225**
**Mövzu 18.** Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin məsuliyyəti .................................................... **233**
**Mövzu 19.** Hərbi qulluqçulara tətbiq edilən cəzaların icrası............ **236**
**Mövzu 20.** Cəza çəkməkdən azad etmə, cəza çəkməkdən azad edilmiş şəxslərə yardım göstərilməsi və onların sosial adaptasiyası......................................................... **247**
**Mövzu 21**. Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslərə nəzarət ............................................... **263**
**Mövzu 22**. Xüsusi müsadirənin və hüquqi şəxslər barədə tətbiq edilən digər cinayət-hüquqi tədbirlərin icrası ................. **275**
**Mövzu 23.** Cinayət törətməkdə təqsirləndirilən şəxslərin həbs yerlərində saxlanılması ................................................. **284**
**Mövzu 24.** Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin statusu........................................................... **321**
**Mövzu 25.** Xarici ölkələrdə cəzaların icrası və penitensiar sistemin xüsusiyyətləri ................................................. **333**
**Mövzu 26.** Məhkumlarla rəftara həsr olunmuş beynəlxalq aktlar.... **343**
**Mövzular üzrə sxemlər**................................................................. **349**
**Tövsiyə olunan normativ hüquqi aktlar və ədəbiyyat**. ...............**570**

**Quliyev Cabir**
**Hümbətov Musa**
**Mustafayev Novruz**

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏZA-İCRA HÜQUQU

## DƏRS VƏSAİTİ

Formatı: 60x84 1/16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 36
Tirajı: 150